CAVANŞİR FEYZİYEV

# TÜRK DÜNYASI

5 KİTABDA

Beş kitabdan ibarət olan "**Türk dünyası**" – dünya türklüyünün bütövlük gerçəkliyini, eyni zamanda, onun diferensial və inteqral xüsusiyyətlərini real faktlar əsasında, dolğun və zəngin məlumat spektri ilə özündə əks etdirir.

*1-ci kitabda*: türk sivilizasiyasının tarixi təkamülü və təməl dəyərləri, türk dilləri ailəsi, ümumtürk tarixi və mədəniyyəti, siyasət və diplomatiyası, türklərin spesifik həyat tərzi, adət-ənənələri, universal-multikulturalist dünyagörüşü və onların müasir dünyadakı mövqeyi;

*2-ci kitabda*: türk etnocoğrafiyası, əski türk ulusları və boyları, müasir türk xalqları və toplumları, türk diasporu və onun təşkilatlanması problemləri, ümumtürk qurumları və onların inteqrasiya prosesindəki rolu;

*3-cü kitabda*: türklərin dövlətçilik tarixi və genealogiyası, qədim türk dövlətləri və imperiyaları, dövrümüzün müstəqil türk respublikaları və onların əlaqələri, başqa dövlətlərin tərkibindəki muxtar türk respublikaları və vilayətləri;

*4-cü kitabda:* türkşünaslığın aktual problemləri, türkçülük ideologiyası və onun nümayəndələri, türkçülüyü təhrif edən yanaşma və nəzəriyyələrin tənqidi analitikası, türklərin kimliyinə münasibət, müasir türk dünyasının inkişaf potensialları və perspektivləri haqqında konkret informasiyalar;

*5-ci kitabda:* türk dünyasının görkəmli şəxsiyyətləri və onların dövlətçilik, siyasət, elm, mədəniyyət, ədəbiyyat sahəsindəki xidmətləri sistemləşdirilərək təqdim olunur.

CAVANŞİR FEYZİYEV

1-Cİ KİTAB

# TÜRK SİVİLİZASİYASININ TƏMƏL DƏYƏRLƏRİ

BAKI
MÜTƏRCİM
2017

*Azərbaycan Milli Elmlər Akademiyasının*
*A.A. Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının*
*qərarı ilə çap olunur.*

Elmi redaktorları:

**Yaqub Mahmudov**
*AMEA-nın A.A.Bakıxanov ad. Tarix İnstitutunun direktoru,*
*AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor,*
*Dövlət Mükafatı Laureatı, Əməkdar elm xadimi*

**Fərman İsmayılov**
*fəlsəfə elmləri doktoru, professor*

Cavanşir Əyyub oğlu Feyziyev. TÜRK DÜNYASI: 5 kitabda. Birinci kitab: Türk sivilizasiyasının təməl dəyərləri. - Bakı: Mütərcim, 2017. - 280 səh.

ISBN: 978-9952-28-382-2

Müəllif hüquqları qorunur.
Müəllifin razılığı olmadan kitabın tam və ya hissələrlə
çoxaldılması qadağandır.

© Cavanşir Feyziyev, 2017

# İÇİNDƏKİLƏR

"TÜRK SİVİLİZASİYASI" ANLAYIŞI........ 10
"TÜRK" ETNONİMİ........ 17
"ULUS", "TÖRƏ", "DAMĞA", "KAĞANLIQ", "GƏNƏŞƏK" ANLAYIŞLARI........ 20
TÜRK ETNOCOĞRAFİYASININ HÜDUDLARI........ 26
HUN VARİSLİYİ........ 30
QƏDİM TÜRKLƏR: MƏDƏNİYYƏTİ VƏ HƏYAT TƏRZİ........ 34
TÜRKLƏRİN TARİXİ GEOPOLİTİKASI........ 39
TÜRK DİLLƏRİ AİLƏSİ........ 45
TÜRK ANTROPONİM, ETNONİM VƏ TOPONİMLƏRİ........ 52
TÜRKLƏR VƏ BÖYÜK İPƏK YOLU........ 58
TÜRK DİPLOMATİYASI........ 65
TÜRKLƏR VƏ İSLAM........ 75
TÜRKLƏR VƏ İMPERİALİZM........ 84
TÜRKLƏR VƏ MODERNLƏŞMƏ........ 95
TÜRK ƏDƏBİYYATI........ 108
TÜRK İNCƏSƏNƏTİ........ 118
TÜRK MUSİQİSİ........ 122
TÜRK XALÇAÇILIĞI........ 129
TÜRK MİNİATÜRÜ........ 143
TÜRK MEMARLIĞI........ 154
TÜRK ELMİ VƏ FƏLSƏFƏSİ........ 172
TÜRKLƏRİN ETNOPSİXOLOGİYASI........ 181
TÜRKLƏRİN ADƏT-ƏNƏNƏLƏRİ VƏ MİLLİ BAYRAMLARI........ 196
MULTİKULTURALİZM ARXETİPLƏRİ........ 213
TÜRK PARLAMENTARİZM ƏNƏNƏLƏRİ........ 223
TÜRKLƏR VƏ MÜASİR DÜNYA........ 233
QAYNAQLAR........ 239




*Planetin Şərq yarımkürəsində antik türklərin yerləşimi. E.ə. 500-cü illər*


Palaeo-siberian Peoples
oples
Tungusic Peoples
Turko - Mongolian Pastoralists
Yilou (Shoshen)
Wusun (Issedones)
Xianyun Nomads?
Mo - Tribes
Korean Peoples
Tai
Tochari (Yuezhi)
Liu - Sha
Ainu
Chiang
Ti
Chuan - Jung
Late Jomon Culture
Proto - Tibetan Peoples
Ti - Chiang
Zhou Dynasty
Shu
Ba
Man Tribes
Nepa
Kosala
Vajji
Kashi
Magadha
Vatsa
Chedi
Anga
Vanga
Odra
Vidarbha
Kalinga
Telinga
Min-Yue
Tien?
Proto-Thai Peoples
Yue Peoples
Taiwanese Peoples
Van Lang (Nam Viet)
Mon-Khmer Peoples
idian
ples
Anuradhapuran
Romans & Latins
ellenistic Nations
Iranian Nations
Malay Peoples
Malay Peoples
Papuans
Australian Peoples

# "TÜRK SİVİLİZASİYASI" ANLAYIŞI

Türk sivilizasiyası – dünyanın fundamental dəyərlərə malik ən seçkin sivilizasiyalarından biridir. Eramızdan əvvəlki minilliklərdə Avrasiyanın mərkəzində yaranmış bu sivilizasiya şərq və qərb, şimal və cənub istiqamətlərində daim genişlənmə və yeni keyfiyyətlər əldə etmə xüsusiyyətləri daşımışdır. Ümumtürk mədəniyyətinin özülündə təşəkkül tapan türk sivilizasiyası min illər ərzində bütün özək sivilizasiyalarla (Çin, yapon, hind, ərəb, İran, Avropa, slavyan) davamlı münasibətlərdə olaraq, Avrasiyanın transkontinental arxitektonikasını və multikulturalizm məkanını yaratma funksiyasını yüksək səviyyədə həyata keçirmiş, çoxirqli, çoxdilli, çoxmədəniyyətli və çoxdinli türk şəhərlərinin multikulturalist dünyagörüşünün təcəssümü olaraq inkişaf etmişdir. Məlumdur ki, tarix səhnəsindən getmiş bir çox qədim dünya sivilizasiyaları (Misir, Şumer, Mayya və s.) yeni sivilizasiyalara transformasiya olunmuşlar. Türk sivilizasiyası isə antik dövrlərdən müasir dövrümüzədək mövcudluğunu davam etdirən unikal sivilizasiyalar sırasındadır.

Lakin qeyd etməliyik ki, sivilizasiya problemləri ilə bağlı meydana çıxan bir sıra nəzəriyyə və konsepsiyalarda dünya sivilizasiyaları təsnif edilərkən türk sivilizasiyası hadisəsi müəyyən siyasi mövqeləri əks etdirən maraqlara görə bilərəkdən elmi diqqətdən kənarda saxlanılır. Bir çox hallarda isə bu sivilizasiyanın dünyanın siyasi-mədəni tarixindəki rolunu azaltmaq və ya heçə endirmək cəhdləri müşahidə olunur. Bəşər tarixinin yetişdirdiyi ən möhtəşəm sivilizasiyalardan biri olan türk sivilizasiyasının görməməzliyə vurulmasının aydın bir səbəbi var. Türk sivilizasiyasının tarixi, bu günü və gələcək pers-

pektivlərinin daha intensiv şəkildə elmi araşdırmalara cəlb edilməsi onun qlobal mədəni-humanitar məkan bütövlüyünü bu gün də qoruyub saxlaması faktını ortaya çıxarır və bu məkanın siyasi bütövlüyünün bərpa olunması onun yeni güc mərkəzinə çevrilmək ehtimalını artırır. Halbuki qloballaşma proseslərinin intensivləşdiyi müasir dövrdə ümumdünya sivilizasiyasının tərkib hissəsi kimi türk sivilizasiyasının da öyrənilməsi qloballaşma tendensiyalarını və onun perspektivlərini dəyərləndirmək baxımından böyük aktuallıq kəsb edir.



*"İrk Bitik" ("İlk kitab")*
*– erkən türk mifologiyasının qaynağı (X əsr)*

Türk sivilizasiyasının varlığını şərtləndirən ən mühüm amil onun dünya dil ailələrindən fərqli linqvistik sistemə – Altay dilləri qolunda türk dilləri ailəsinə mənsub superetnosun sivilizasiyası kimi təşəkkül tapmasıdır. Bütün böyük dil ailələrinə mənsub xalqlar (Hind-Avropa, Semit, Çin-Tibet və s.), əsasən, elə həmin dillərin etnomədəni sferasında öz sivilizasiya məkanını yaratmışlar. Bu qanunauyğunluq ümumtürk tarixinin sivilizasion inkişafı prosesində də eyni şərtlərlə baş vermişdir.

Türk sivilizasiyası tarixdə ayrı-ayrı təzahürlər şəklində deyil, sistem və proses şəklində mövcud olmuşdur (79). O, müxtəlif sivilizasiyaların Avrasiya boyunca nəsil dəyişmələrinin

generatoru funksiyasında bu dəyişmələrdən bəhrələnmiş, yeni doğulan sivilizasiyalara impuls vermişdir. Deməli, türk sivilizasiyası – təkcə özünüyaradan bir sistem deyil, həm də dünya sivilizasiya quruculuğunun başlıca determinantlarındandır.

Türk sivilizasiyasının varlığını bu və ya digər şəkildə inkar edənlərin fikrincə, türklərin yalnız mədəniyyəti təşəkkül tapmış, onlar sivilizasiya yaratmaq səviyyəsinə çata bilməmişlər. Bu, tamamilə yanlış mövqedir. Çünki mədəniyyət içərisində mədəniyyətlərin olması faktını təsdiq etmək ümumiyyətlə mümkün deyil. Müəyyən bir sivilizasiya sistemi daxilində onun inkişafının zəruri mərhələləri kimi ayrı-ayrı mədəniyyətlər formalaşır. Türk sivilizasiyası da öz içərisində tarixi inkişafın məntiqi ilə bir-biri ilə genetik bağlılıqda fərqli mədəniyyətlər yetişdirmişdir. Bu milli mədəniyyətlər (türk, Azərbaycan, qazax, qırğız, özbək, türkmən, uyğur, başqırd, tatar və s.) yüzillər ərzində özünəməxsus keyfiyyətlər əldə edərək, identikləşmişlər. Eyni zamanda, onlar türk sivilizasiyasının içərisində universal dəyərlərə malik mədəniyyətlər kimi şəbəkələnmişlər.

Dünyada mövcud olan mədəniyyət və sivilizasiyaların qarşılıqlı münasibətləri prosesində "türk sivilizasiyası" anlayışının özünə topladığı funksional keyfiyyətlər aşağıdakılardır:

1. Təbiətin mədəniyyət düşüncəsində arxetipikləşməsi: təbiət – türklər üçün hər yerdə Vətəndir.

2. Dilin inkişafı prosesində onun öz linqvistik "özəyini" və təkamül qanunlarını qoruması: qarşılıqlı sivilizasiya münasibətlərində türk dilinə nə qədər gəlmə sözlər daxil olsa da, bu kəmiyyət artımı onun struktur spesifikasını zədələmir, əksinə, bu, dilin keyfiyyət göstəricisinə çevrilir.

3. Mifik dünyagörüşü türk sivilizasiyasının təşəkkül prosesində onun "poetik arxitekturasını" yaradır: türk epos mədəniyyətinin arxetipləri bədii-estetik inkişafın sonrakı mərhələlərində də yeni ifadə formalarında təzahür edir.

4. Xalq yaratdığı sivilizasiyanın bütün dönəmlərində özünü dövlətinin ayrılmaz parçası kimi göstərir: türk tarixində də ulus

– dövlət sintezi türk siyasi-mədəni özünütəşkilinin sinergetik qanunauyğunluğu kimi çıxış edir.

5. Türk xalqlarının mədəni, sosial və siyasi mənada müasirləşməsi – onların öz köklərindən ayrılmasına gətirib çıxarmır: ənənə və novatorluq – türk sivilizasiyasının həyat prinsipi olaraq özünü doğruldur və daim qoşa addımlayır.

6. Türk sivilizasiyası həm öz daxilində, həm də başqa sivilizasiyalara münasibətdə daim harmoniyayaradıcı başlanğıca can atır. Mübadilə mədəniyyətindəki tolerantlıq bu sivilizasiyanın daxili tarazlığını və müvazinətini qoruyur.

7. Türklər geniş Avrasiya məkanında dövlət və imperiyalar yaratsalar da və bu siyasi quruluşlarda tarixən ayrı-ayrı milli mədəniyyətlər formalaşsa da, bu tarixi-etnik, siyasi-mədəni diferensiasiya türk sivilizasiyasının nüvəsini dağıtmamışdır. Türk sivilizasiyası – tarixin bütün zamanlarında türk milli mədəniyyətlərinin birləşdirici bazası olaraq qalmış və həmin "cərəyanlardan" gələn enerji ilə daim güclənmək, daha sarsılmaz təməllərə malik olmaq imkanları əldə etmişdir. Bu mənada türk dünyasının vəhdəti – türk sivilizasiyasının vəhdəti, bölünməzliyi deməkdir.



*Türk sivilizasiyasının yarandığı məkan – Altay çevrəsi*




*Altay türklərinə məxsus petroqliflər*

Türk sivilizasiyası bütün funksionallığı ilə Avrasiyanın zəngin təbiətini, etnosfer rəngarəngliyini, folklor arxetiplərini öz məğzində tarix boyu yaşada və onların vəhdətini mənəvi enerjiyə, hərbi-siyasi mütəşəkkillik qüdrətinə çevirə bildiyi üçün, sözün əsl mənasında passionar sivilizasiyadır.

Türklər həmişə dünya mədəniyyətində universallaşdırıcı prosesləri irəlilətmiş, mədəniyyətlərarası münasibətlərin çoxdillilik bünövrəsini yaratmışlar. Humanizm fəlsəfəsini, ilahiyyatın (teologiyanın) rasionallığını, ümumbəşəri dəyərlərin bütün insanlığa məxsus olması ideyasını, siyasi hakimiyyətin, ictimai qanunların ədalətliliyini, əxlaqi və cismani gözəlliyi, ailə dəyərlərini, ilahi məhəbbətin füsunkarlığını ən yüksək bədii sənətkarlıq və elmi məntiqlə aça bilən ümumtürk poeziyasının, elm və fəlsəfəsinin klassikləri dünya mədəniyyətinin inkişafında yeni bir İntibah erasına təkan vermişlər.

Türk-islam dövlətlərinin Yaxın və Orta Şərq siyasətini idarə etməsi bu regionda yaşayan xalqların və onların mədəniyyətlərinin məhz türk və islam sivilizasiyaları nüvəsində inteqrasiyasına meydan açmışdır. Türklərin siyasi dominantlığı İslamı din, sivilizasiya və siyasət olaraq öz tarixinin ən parlaq mərhələsinə çıxarmışdır (10). Çiçəkləndiyi dövrdə qarşılıqlı münasibətlərdə olduğu Hind, Çin, islam, Qərb və slavyan sivilizasiyaları çevrəsində türk sivilizasiyasının konsentrasiyayaradıcı funksiyası onun bəşəriyyətin tarixi inkişafını mütərəqqi bir istiqamətə yönəltmə təşəbbüslərində özünü bütün məqsədyönlülüyü ilə ifadə etmişdir. Tarixin yaddaşında qalan ən mühüm faktlardan biri də budur ki, türk imperiyalarının heç birində millətlərarası diskriminasiyaya yol verilməmiş, əksinə, digər millətlərin, din və sivilizasiyaların nümayəndələri dövlət işlərində irəli çəkilmiş, hətta ali hakimiyyətdə təmsil olunmuşlar.

Türk dünyasının təkcə ictimai-siyasi baxımdan deyil, həm də bədii-estetik mədəniyyət baxımından orqanikliyi, bütövlüyü və rəngarəngliyi digər sivilizasiya və onun yaradıcılarına xoşməramlı münasibətdə bütün gözəl cəhətləri ilə üzə çıxmışdır.

Türklər siyasi cəhətdən digər millətlərə, dinlərə qarşı diskriminasiyaya yol vermədikləri kimi, digər xalqların əxlaq və mənəviyyat qanunlarına, sənət texnologiyalarına, tarixi abidələrinə də ehtiramla yanaşmışlar. Məsələn, Mərkəzi Asiyadan Anadoluya qədər bütün türk məmləkətlərində antik sivilizasiyaların bütün izləri toxunulmaz qalmış, qorunub saxlanmışdır. Türklər özlərini dünyaya yüksək soya, nəcabətə malik insanlar olaraq təqdim etdikləri kimi, başqa cəmiyyət və mədəniyyətlərdən, onların yaradıcılıq üslublarından, qabaqcıl həyat təcrübələrindən də bəhrələnməyə çalışmışlar.

Müasir dünyada türk milli dövlətlərinin birliyi ideyasının kökündə də bu dövlətləri yaratmış türk xalqlarının etnogenetik təməli, ulu sivilizasiya qaynaqları, böyük dövlətçilik təcrübəsi və ənənəsi, bütün tarix boyu davam etmiş etnomədəni əlaqələri, tarixi diferensiasiya proseslərində itirmədikləri, qoruyub saxladıqları və daim inkişaf etdirdikləri ortaq dəyərləri dayanır. Bu elə bir möhkəm özüldür ki, tarixin ən mürəkkəb dövrlərində belə sarsılmamış, məqam düşdükcə bərkimiş, hazırda isə güclü energetik potensiyasını yenidən və daha məqsədyönlü şəkildə hərəkətə gətirmək qüdrətindədir.




*Türk və Hind-Avropa sivilizasiyalarının ilk kontakt coğrafiyası.*
*E.ə. IV-III minilliklər*

# "TÜRK" ETNONİMİ

Eramızdan əvvəl birinci minilliyin başlanğıcından əsasən hun antikliyi ilə dünya tarixində görünməyə başlayan və bizim eranın 542-ci ilinə aid Çin salnamələrində artıq qüdrətli dövlət-imperiyasını yaratmış böyük və rəqib superetnos kimi səciyyələndirilən, VII-VIII əsrlərdə isə yaratdıqları yazılı abidələrlə (Orhon-Yenisey, yaxud Ötükən Türk Kitabələri) soy tarixini sənədləşdirən türklər *("türk budun")* bu anlayışla bütün türksoyluların (oğuz, qıpçaq, qırğız, uyğur və s.) ittifaqını nəzərdə tutmuşlar.



*Türk petroqlifi. VI-VIII əsrlər*

Eramızdan əvvəlki III əsr Çin mənbələrində və daha sonrakı qaynaqlarda *"tu-u, tukyu, tukyuye, türküt, törük, türük"* və nəhayət, dəqiq adı ilə – *"türk"* adlandırılan TÜRK Avrasiyanın xüsusilə son 1500 illik tarixində arxaik dövlətçiliyi modern dövlətçiliyə qədər inkişaf etdirən, öz taleyini qədim dünyanın, demək olar ki, bütün xalqlarının taleyi ilə bağlayan bir ulus olmuşdur (309; 280; 95;121).

*"Türk"* etnoniminin etimologiyası üzrə müxtəlif versiyalar irəli sürülsə də, XIX əsrin görkəmli macar türkşünası Arminius Vamberi (530) və professor Faruq Sümər (80) onun *"törəmək"* (sözün kökü – *"törə", "töru")* məsdərindən əmələ gəldiyini həqiqətə daha yaxın hesab edir. IX əsrin böyük türk mütəfəkkiri və ensiklopedik dilçisi Mahmud Kaşğarlı "Divanü Lüğat-it-Türk" adlı klassik əsərində "Türk" adının türklərə Tanrı tərəfindən verildiyini" söyləmiş və bu sözün "gənclik, yetkinlik, qüdrət və qüvvət" mənaları üzərində dayanmışdır (15; 62). X əsrin uyğur mətnlərində də "türk" kəlməsinin "güc, qüvvət" anlamı daşıması qənaəti möhkəmləndirilir. XX əsrin əvvəllərində yaşamış alman arxeoloqu və türkoloqu Albert Von Le Coq da həmin qənaətin doğru olduğunu təsdiq edir (243).

Türk siyasi mədəniyyətinin təsiri altında yazılmış İran qaynaqlarında "türk" kəlməsinin "gözəl insan" mənası açılır. Tarixi faktdır ki, türk soybirləşmələrində "türk" həm də nəcabət bildirən söz kimi işlənmiş, türk aristokratiyasının yüksək çinli nümayəndələrinə, ordu sərkərdələrinə şamil edilmişdir. Məsələn, avrasiyaşünas Lev Qumilyovun şərhinə görə, Göy Türk (yaxud *Böyük Türk*) Kağanlığının (552-745) qurucu-sərkərdələrindən birinin "Qara Çurin Türk" adını daşıması təsadüfi deyil (104, s.118-119). Orhon-Yenisey abidələrində bu semantika xüsusilə qabardılır. "Türk" sözünün başqa dillərdən gəlmədiyi və başqa dillərdə heç bir məna bildirmədiyi də dəqiq məlumdur. Türklər özləri özlərinə bu adı vermişlər. Sonra dünya da onu qəbul etmişdir. VI-VIII əsrlərdən başlayaraq, "türk" sözü etnik, kulturoloji və siyasi anlamda türklərin özlərinin və digər xalqların qaynaqlarına (ən çox Çin və ərəb, daha sonra İran, Bizans, Roma, Suriya, Tibet, sanskrit və s.) möhkəm və silinməz şəkildə həkk olunmuşdur. *"Türk"* etnonimi ümumtürk etnostrukturlaşmasının bütün tarixi mərhələlərində bu prosesin aparıcı sivilizasion, mədəni, siyasi inkişafının avanqard funksionallığını daşımışdır.

*"Türk"* etnoniminin daha əsaslı şəkildə öyrənilməsinə kömək edə biləcək, lakin hələ yetərincə araşdırılmamış etibarlı

mənbələr var. Məsələn, “tarixin atası” Herodotun [e.ə.484-425] *“Tarqitas”* əsəri, bizim eranın I əsrində yaşamış antik Roma tarixçi və coğrafiyaşünasları Pomponius Melanın “Təsviri coğrafiya” və Qay Plinius Sekundun “Təbii tarix” əsərləri. Son iki müəllif *“Turcae”* və ya *“Tyrcae”* – cəm halda “türklər” adlandırdıqları etnobirləşmələrin Azak ərazisində – indiki Azov çevrəsində, Qara dənizin şimal bölgələrində yaşadığını bildirirlər.



*Antik türklər*

# "ULUS", "TÖRƏ", "DAMĞA", "KAĞANLIQ", "GƏNƏŞƏK" ANLAYIŞLARI

Türk mədəniyyətinin, ictimai-siyasi yaşam tərzinin tarixən təşəkkül tapmış və dayanıqlı xüsusiyyətlər əldə etmiş bir çox mühüm dəyərləri vardır ki, onların içərisində türk sivilizasiyasının özü qədər qədim *"ulus", "törə", "damğa", "kağanlıq", "gənəşək"* anlayışları önəmli yer tutur. Bu anlayışlar tarixin sonrakı proseslərində bəzi türk xalqlarında müəyyən dəyişikliklərə uğramış, bəzilərində isə eyni şəkildə qalmışdır.



*Antik türk silahları. I minilliyin əvvəlləri*

*"Ulus"* – ən qədim türk yazılı mətnlərində işlənmiş sözdür: o, prototürkcədə *"il" [el]* kökündən yaranmış, sonrakı semantik və leksikoloji inkişafında daha da zənginləşmiş, "el", "etnos", "xalq" və "ölkə", "dövlət", "toplumsal-siyasi quruluş" anlayışlarını sintez şəklində ifadə etmişdir. Türk dövlətçiliyi genezisinin araşdırılmasından doğan ilk mühüm qənaət də bu mühüm mental-kulturoloji fakta söykənir: sanki türklər bir *el, ulus* olaraq elə öz dövlətləri ilə bir yerdə tarix meydanına gəlir, tarixi zaman və məkanda öz yerlərini müəyyən etməyə çalışırlar. Bir etnos kimi onların tarixi – elə dövlətlərinin tarixi ilə başlayır. Türklərin dövlət həyatının bu kardinal səciyyəsinə macar tarixçisi Luis Ligeti də diqqəti cəlb edir: "Türk milləti yayımcıl bir əsgər-ulusdur. O, bu işin tam sahibi və ən mükəmməl örnəyidir. Onun təşkilatlanma gücünə, dövlətqurma qabiliyyətinə nə qədər heyran qalsaq, azdır" (68, s.34). *Ulusun (qövmün, xalqın, millətin) dövlət, dövlətin ulus kimi qavranılması* – türklərin sosial-siyasi düşüncə sisteminin mahiyyətindədir. *Ulus* – dövlətin ordusu, etnik bütövlüyü, qoruyan və qorunan sərhədidir. Dövlət panteonu – "əsgər-ulusdan" tikilir. Buna görə də hərbi qüvvət, ordu tarixdə mövcud olmuş türksoylu dövlətlərin "bel sümüyünü" təşkil edir. Yəqin bu səbəbdən, türklər hara getmişlərsə, dövlətlərini də, ya da "dövlət arxitekturasının yaddaş layihələrini" də özləri ilə aparmışlar. Türklərin tarix boyu Avrasiyada yaratdığı dövlətlərin arxetipik oxşarlığa – ulusal identifikasiyaya malik olması da məhz bununla izah oluna bilər.

Türk superetnosunun bir mühüm xüsusiyyəti də həlledici əhəmiyyət kəsb edir: türk superetnosu əzəldən yekcins olmamış, həm daxili etnik quruluşunu təkamül etdirməkdə, həm də yabançı ulusları öz etnik sisteminin ayrılmaz bir parçasına çevirməkdə açıq universallıq ölçülərindən çıxış etmişdir. Lakin hər zaman dövlətyaratmanın əsas məsuliyyətini türklər öz üzərinə götürmüşlər. Yaratdıqları dövlətlərdə *avanqard ulus* kimi məhz türklər etnosistemin sütunu və birləşdirici komponenti olmuşlar. Nə zaman ki, etnosistemin bu "qızıl qaydası" itirilmiş, *dövlət-ulusun*

dayaqları da dağılmışdır. Etnosistemin türk passionarlığı – onu hər zaman ulusyaradıcı, dövlətyaradıcı fəaliyyətlərin böyük meydanına çıxarmış, ona cahangirlik və fatehlik missiyası vermişdir.

*“Törə”* – qədim zamanlardan müasir dövrümüzə qədər əksər türk dillərində fonetik fərqliliklə işlənməkdə davam edən ana kəlmələrdəndir, “törəmək” felinin isimləşmiş formasıdır: türk ulusunun ictimai, siyasi, mənəvi, əxlaqi həyatının universal nizamını yaradan, özünütəşkil qaydalarını sistemləşdirən adət, ənənə və davranışların toplusudur, – sanki türk varlığının söykəndiyi, dayaqlandığı *etik konstitusiyasıdır.* Ayrı-ayrı türk soyları, ulusları məhz *“törəçilik”* zəminində, vahid dövlətçilik ideyası ətrafında birləşə bilirlər. *“Türk budun”* (türk xalqı) – artıq türk tayfa ittifaqlarının birləşməsi və vahid millət olaraq təşəkkül tapması, ulusal prosesi inkişaf etdirməsi və *“törə”* nizamında yeni quruluş alması deməkdir.

*“Damğa” [“tamğa”]* – türklərin genealoji soy kodudur. Hər bir türk soyunun öz nəsil damğası olmuşdur. Məsələn, oğuz, qınıq, kayı, bayandır, yıva, salğur, əfşar, bəydili, bükdüz, bayat, yazqır, eymür, qarabölük, alkabölük, iqdır, ürəgir, tutırqa və s. türk boyları uzun əsrlər boyu damğalarını hifz etmişlər. Soy böyüyüb inkişaf etdikcə, yeni boylara ayrıldıqca, ya öz damğasını olduğu kimi saxlamış, ya ona zəruri elementlər əlavə etmiş, ya da onu dəyişərək yenisini qəbul etmişdir.



*Qınıq boyunun damğası*



*Bayat boyunun damğası*



*Kayı boyunun damğası*

Damğalar türklərdə hələ yazının olmadığı zamanlarda meydana gəlmiş, antik zamanlardan müasir dövrümüzədək türk etnik qrupları tərəfindən bir simvol olaraq işlədilmişdir. Ayrıca olaraq bu damğaların bəziləri türklərin Orhon-Yenisey abidələrinin ilk özgür yazısı olan *runi* əlifbasının bəzi hərflərini meydana gətirmişdir. Qədim türklərin xalı, kilim, məzar daşı kimi maddi mədəniyyət nümunələrinə vurduqları damğalar bəzən hərf, bəzən simvol, bəzən ornament, bəzən də bir sirr olaraq bizə gəlib çatmışdır.



*Üzərində at, ay və günəş olan türk damğası*

Hal-hazırda elmi dövriyyədə Avrasiyanın bitdiyi yerdən – Berinq boğazından keçib Amerikaya köç edən ilk insanların türklər və ya asiyalılar olduqları barədə fərziyyə də mövcuddur. Bu fərziyyəni müdafiə edən elm adamları bunun ən önəmli sübutu kimi Amerika hindularının damğalarının əski türk damğaları ilə oxşarlığını və ya bəzi hallarda eyniliyini ortaya qoyurlar. Doğrudan da, qızıldərililərin adət-ənənələri və işlətdikləri damğalar əski türk etnosistemi və mədəniyyətinin izləri ilə önəmli dərəcədə çarpazlaşır və üst-üstə düşür.

Damğa simvolları türk xalqlarının mədəniyyətində çox önəmli olan nişanlar, əlamətlər toplusudur. Türklər üçün damğa simvolları həm bir seçkinlik, müstəqillik, həm də bir bəzək və sənət nümunəsi olmaqla arxetipik-mifoloji özəlliklərə də malikdir.



*Tac-Mahal üzərində Moğol imperiyasının damğası*

*“Kağan”* söz-kökündən yaranan *“Kağanlıq”* anlayışı – Göy Türk (yaxud *Böyük Türk*) Kağanlığının (552-745) mövcud olduğu zamanlardan türk siyasi mədəniyyətinin mühüm tərkib hissəsi olmuş, Orhon-Yenisey abidələrində *“kağanın qurduğu dövlət və ya imperiya”* mənasında işlədilmişdir. *“Kağanlıq”* – mahiyyətcə Avropa ənənəsində *“Krallıq” (“Kingdom”)* anlayışına (kralın qurduğu dövlət və ya imperiya) uyğun gəlir. Etimologiyasına görə, “böyük, başçı, rəhbər” mənasını daşıyan *“Kağan”* sözü sonrakı əsrlərdə fonetik transformasiyaya uğrayaraq, *“Xaqan”* şəklini almışdır. Hər iki forma bu günədək türk dillərində işlədilir. Türklər yüzilliklər ərzində öz imperiyalarına – *“Kağanlıq”* və ya *“Xaqanlıq”* demişlər.

*“Gənəşək”* – müasir Azərbaycan türkcəsində və bir sıra türk dillərində bu və ya digər formada işlədilən sözdür, *“gənəşmək”* – (yəni “məsləhətləşmək, çözümü daha geniş *[geneş]* arenaya çıxarmaq”) felindən yaranmışdır. Mühüm ictimai-siyasi məzmun daşıyan bu söz klassik türk dövlətçiliyinin dəyərlərini özündə ehtiva edir: Bilgə Kağanlar (Bilikli Başçılar) ali hakimiyyət sə-

viyyəsində *gənəşək* – məşvərət keçirdikdən sonra qərar qəbul edirdilər. Türk dövlətçiliyini inkişaf etdirmiş, imperiyanı genişləndirmiş türk hökmdarları – kağanlar öz iradələrini yalnız mütləqiyyətçilik əsasında həyata keçirən tiranlar deyildilər və idarəetmə işlərində bir qayda olaraq *gənəşəyə* üstünlük verirdilər.

Hərbi səfər və müharibələrlə dolu həyatında tarixi qərarlar verən, zəmanəsinin ən güclü hökmdarları ilə döyüş meydanlarında vuruşan, əcdadı Çingiz xandan sonra Avrasiyada ən böyük əraziləri fəth etmiş Əmir Teymurun (Teymur-Ləngin) müasir anlamda parlamenti və hərbi şuranı əvəz edən *Gənəşəyi* vardı. Dövlət və ordu rəhbərləri *Gənəşəkdə* toplaşıb müzakirə aparır, məsləhətləşir *("gənəşir")*, hökmdara son qərarı qəbul etmək üçün təlimat verirdilər. Qələbə yalnız ölçülüb-biçilmiş vəziyyətlərin təhlilindən ibarət olan təlimata qəti şəkildə əməl edilməsi sayəsində qazanılırdı. Türk cəmiyyətində *Gənəşəyin* sosial modeli kimi mülki problemləri araşdıran *Qurultaylar* da tarixi əhəmiyyət daşıyır. "Qurultay" sözü etimologiyasına görə "qurulmaq, quruluş almaq, qurulmuş bir məkanda taylaşmaq, bərabərləşmək, tərəf-müqabil olmaq" mənalarını ehtiva edir. Beləliklə, türk siyasi-ictimai və mədəni-sosial həyatının əsasında dayanan bu anlayışların mövcudluğu bəzi qərəzli araşdırmaçıların qədim türk dövlətçiliyinin mütləqiyyətçiliyə və tirançılığa əsaslanması haqqında irəli sürdükləri iddiaları tamamilə təkzib edir. Əlbəttə, tirançılığa əsaslanmaqla bu qədər azman dövlətləri idarə etmək, dövlətin sosial-iqtisadi bazasını yaratmaq mümkün olmazdı.

Beləliklə, *ulus – törə – damğa – kağanlıq – gənəşək* tarixən, türklərin ictimai-siyasi həyatında bir-biri ilə bağlı olan fəaliyyətlərin mahiyyətində əksini tapmış dəyərlərdir: *Ulus* – dövlətini qurur, *Törə* – yaşam qaydalarını müəyyən edir, *Damğa* – soyun etnosistemdəki yerini təyin edərək rəmzləşdirir, *Kağanlıq* – siyasi hakimiyyətin quruluşu kimi təsis olunur, *Gənəşək* – idarəetmənin əsasında dayanır.

# TÜRK ETNOCOĞRAFİYASININ HÜDUDLARI

Türklər e.ə. I minilliyin əvvəllərindən Mərkəzi Avrasiyanın qüdrətli etnosu kimi tarix səhnəsinə gəlmişlər: onların yaşadığı ilk yurd Avrasiyanın 145-150º en dairələri arasındakı arealı – indiki Monqolustanın şimal-şərq və şimal-qərb hüdudları, Altay dağlarının ətrafı, Yenisey və Selenqa çayları boyunca Abakan, Tuba və Ötükən əraziləridir. Əski türklər özləri ana yurdlarının sərhədlərini şimaldan Hindukuş dağları, şərqdən Kinqan dağları (müasir Çinin Koreyaya yaxın şimal hissəsi), qərbdən Xəzər dənizi, şimaldan Sibir ovalıqları arasında göstərmişlər. Ancaq bütün böyük xalqların tarixi həyatında olduğu kimi, türk superetnosunun da yaşadığı coğrafiya dəyişmələrə, dəfələrlə genişlənmə və daralmalara məruz qalmışdır.




*Prototürklərin genişlənmə arealı*

Türk superetnosunun Göy Türk imperiyasından Osmanlı imperiyasına qədər davam edən 1500 illik möhtəşəm siyasi tarixində (VI əsrin ortalarından XX əsrin əvvəllərinədək) qurduğu dövlətlərin və məskunlaşdığı məkanın ümumi ərazisi bütün Avrasiyanın təqribən üçdə birini təşkil etmişdir. Təkcə Göy Türk, Türk-Monqol, Osmanlı, Səfəvi və Moğol imperiyalarının ümumi ərazisi 64 milyon kv.km. olmuşdur (Müqayisə üçün deyək ki, bu gün Avrasiyanın ən böyük dövləti – türk xalqlarının da xeyli hissəsinin çox böyük arealda yaşadığı Rusiya Federasiyasının ərazisi 17 milyon kv.km.-dir). Müasir dövrümüzdə türk etnocoğrafiyasının hüdudları – müstəqil türk dövlətlərinin, muxtar türk respublikaları və vilayətlərinin, hazırda başqa dövlətlərdə kompakt halda yaşayan türk xalqlarının və toplumlarının ərazilərindən ibarətdir.

Türklərin, çevrəsi ilə daha intensiv hərəkət etdikləri bölgənin – Xəzər dənizinin həm şərq, həm də qərb hüdudlarında yaratdığı etnosiyasi coğrafiyanın xarakteri tarixən elə müəyyənləşmişdir ki, bu məkan lap əvvəldən türk birliyinə doğru təkamülü getdikcə daha çox optimallaşdırmışdır.

Avrasiya qurşağında yerləşən müstəqil türk dövlətləri dünya xəritəsində səpələnmiş halda deyil, bir yerdədir, onlar bir-birinə quru və ya dəniz üzərindən dövlət sərhədləri ilə bağlanırlar. Başqa dövlətlərin ərazisindəki türksoylu xalqlar da müəyyən siyasi statuslarla həmin sərhədlərin təmas qurşağında, kompakt halda yaşayırlar. Türksoylu xalqların daha geniş etnik coğrafiyası müstəqil türk dövlətlərinin siyasi coğrafiyasının sərhədlərini əhatələyir və bununla da toplum şəklində yaşayan soydaşlarımıza gələcəyin real siyasi perspektivində öz müstəqillik iradəsini reallaşdırmaq şansını saxlayır.

Ərazisinə görə dünyanın ən böyük doqquzuncu ölkəsi olan (təqribən, Şərqi Avropanın ümumi ərazisinə bərabər) Qazaxıstan Respublikası ilə Mərkəzi Asiyanın ilk türk dövləti başlayır. Qazaxıstan şimaldan və qərbdən Rusiya Federasiyası ilə, şərqdən

Çinlə, cənubdan Qırğızıstan, Özbəkistan və Türkmənistanla həmsərhəddir.

Qırğızıstan Respublikası iki türk dövləti ilə – şimaldan Qazaxıstan və qərbdən Özbəkistanla, cənub-qərbdən Tacikistan və cənub-şərqdən Çinlə həmsərhəddir.

Orta Asiyanın mərkəzində yerləşən Özbəkistan Respublikası şərqdən Qırğızıstan, şimal-şərqdən və şimal-qərbdən Qazaxıstan, cənub-qərbdən Türkmənistan, cənubdan Əfqanıstan, cənub-şərqdən Tacikistanla həmsərhəddir.

Türkmənistan Respublikası cənubdan Əfqanıstan və İranla, şimaldan Qazaxıstan və Özbəkistanla, Xəzər dənizi boyunca isə Azərbaycanla həmsərhəddir. Deməli, Qazaxıstan, Özbəkistan və Türkmənistanın həmsərhəd olduğu beş dövlətdən üçü türk respublikasıdır.

Azərbaycan Respublikası şimaldan Rusiya və Gürcüstan, qərbdən Türkiyə və Ermənistan, cənubdan İran, şərqdən isə Xəzər dənizi boyunca Türkmənistanla həmsərhəddir.

Türkiyə Respublikası şərqdən Azərbaycan, Ermənistan və Gürcüstanla, cənubdan İraq və Suriya ilə, qərbdən Yunanıstan və Bolqarıstanla, Qara dəniz boyunca Rusiya ilə həmsərhəddir.




*Müasir dövrdə türk etnocoğrafiyası*

Türkiyənin sərhədlərini Atlantik okeana çıxışı olan dörd dəniz – Qara dəniz, Aralıq dənizi, Egey dənizi və Mərmərə dənizi tamamlayır.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, müasir türk dövlətlərinin sərhədlərinin çevrəsində Çindən Bolqarıstana qədər milyonlarla kv.km. ərazidə digər türksoylu xalqlar da yaşayır. Bu coğrafi mənzərədə – türk dünyasının bütövlüyü öz təbii koordinatlarında aydın görünür və onun Avrasiyanın mərkəzi xəttini yaradan tarixi və müasir geostrateji mövqeyi bu gün də dünyanın diqqət mərkəzindədir.

# HUN VARİSLİYİ

Türk etnogenezisinin mühüm cəhəti bundan ibarətdir ki, onun təşəkkülündə bir çox əski etnoslar iştirak etmiş, xüsusilə əvvəl *hunnu,* sonralar isə daha çox *hun* adlandırılan etnos isə aralarındakı varislik münasibətlərində həlledici rol oynamışdır. Qədim türklərin eramızın V əsrinə qədər təqribən iki minillik etnik təkamülünü əks etdirən genealoji proses, əsasən, bu şəkildə inkişaf etmişdir: sak, yueçji, usun, kyan, jundi, di, çidi, tele, hor, syanbi, jujjan, dinlin, qyanqun, qırğız, qıpçaq, şərqi və qərbi sarmat, alan, uqor, yueban şaxələnmələri içərisində bir güclü budaq da ayrılır – hunlar – aşina – türklər.

Mərkəzi Asiyada ən qədim dövlətlərin əsasını qoymuş “türkdilli hunlar” haqqında ilk tarixi məlumatları antik Çin qaynaqları (etnos adı olaraq, *hu, hun, hunnu, hyunq-su, hsyung-nu, hyanyun, hunyuy* şəklində) vermişdir (309, s.26-30). Hunlar artıq bizim eranın ilk minilliyinin təqribən VI əsrində, əsasən, türk superetnosuna transformasiya olaraq, tarix səhnəsindən çəkilmişdilər. Bir xalq kimi mövcud olduqları zaman kəsiyi tarixdə qoyduqları zaman yaddaşından qısa olan hunlar ilk dəfə e.ə. 1764-cü ilə, daha sonra e.ə. 822 və 304-cü illərə aid Çin xronikalarında xatırlanır (106, s.27-28). Lakin iki eranın iki minilliyini qovuşduran yüzilliklərdə həm Asiya (Çin), həm də antik Avropa mənbələrində hunlar haqqında ən qüdrətli superetnos və ordu-imperiya kimi danışılır. Planetin şərq yarımkürəsinin ən böyük imperiyalarından birini quran (e.ə. III – b.e. V əsrlər) hun-türk tayfa ittifaqları Altaydan Çinə, Xəzər dənizi və Şimali Qafqazdan Azov dənizinə, Şərqi Avropaya qədər böyük bir ərazini tutmuşdular, onların qərb qolu 405-ci ildə Romaya daxil olmuş,

şərq qolu isə V əsrin sonu – VI əsrin əvvəllərində Hindistana doğru irəliləyərək Qupta imperiyasını çökdürmüşdü.

Etnotarixi reallıq bundan ibarətdir ki, hun-türklər Avrasiyada gücləndikcə, onların təsir dairəsi genişləndikcə, bu böyük ərazinin digər etnosları da onlara qaynayıb-qarışmışlar. Eramızdan əvvəl IV əsrdə hun-türklər 24 soydan ibarət olan qüdrətli hakimiyyət yaratmışdılar. Hələ e.ə. III minillikdən başlayaq, Şimali Çindən Asiyanın qərbinə doğru bütün istiqamətlərdə hun-türk superetnosunun möhkəmlənməsi və genişlənməsi prosesi gedirdi. Buna görə də uzun əsrlər boyu Mərkəzi Asiya ilə həmsərhəd çinlilər hun-türklərlə döyüşsələr və məğlub olsalar da, onlar öz əcdadları saydıqları Şimali Çin aborigenlərinin – "qaraçinlilərin" hun mənşəyini etiraf edirdilər. Hun-Çin çarpazlaşmasından törəmiş "proto-hun etnik substratı" (106, s.19) tədriclə digər etnosları da öz tərkibinə daxil edərək hete-




*E.ə. XII əsrdən b.e.-nın I əsrinədək hun-türklərin Avrasiya dominantlığı*

rogenləşmişdi. Lakin o, özünün etnik nüvəsini – hun-türk genotipini daim energetik gücündə saxlamış və Böyük Çölün sərt iqlim şəraitində yaşamağa vərdiş edərək, xalq-ordu kimi döyüş qabiliyyətini artırmışdır. Buna görə də onlar təkcə xalqlara deyil, həm də Böyük Çölə, onun sərtliyinə qalib gəlmiş ilk Asiya xalqı sayılırdılar.

Tarix yazısı olmayan hun dilinin sonradan öz mükəmməl yazılı abidələrini yaratmış türk dilinə transformasiyasına da şahid olmuşdur. Əgər hun və türk dillərinin protolinqvistik əsası bir olmasaydı, onların dilində belə bir “gözlənilməz çevriliş” ola bilməzdi. Məhz bu prosesin davamı olaraq, sonrakı yüzilliklərdə həmin kökdən türk dilləri budaqlanmış, dünyanın böyük bir “türk dilləri ailəsi” yaranmış, tarix səhnəsində genotip indentifikasiyasını saxlayan yeni türk dövlətləri və imperiyaları meydana gəlmişdir. Antik Asiya tarixinə dair klassik tədqiqatların müəllifi, görkəmli fransa asiyaşünası Rene Qrusse bu prosesin başlanğıcında “türk-monqol soylu hun tayfalarının” dil və mədəniyyətlərinin tədricən bir-birindən fərqlənərək, bütün Avrasiya boyunca çox rəngarəng və universal etnokulturoloji sistem yaratdığını qeyd edir (309, s.17-19). Ümumiyyətlə, elmdə hun və türk dillərinin eynimənşəli olması barədə müəyyən diskussiyalar aparılsa da, fikir ayrılığı, demək olar ki, yoxdur: buna aqnostik yanaşmanın özü artıq əsassız sayılır: Çünki, Lev Qumilyovun fikrincə, “türk dilləri ailəsinə daxil olan teles, yəni uyğur dili ilə hun dili arasında linqvistik yaxınlığın olmasına dair mənbələrin birbaşa dəlilləri vardır” (106, s.52-53). Türksoylu uyğurlar isə hun, türk, monqol və Çin dünyalarını daim bir-birinə yaxınlaşdıran etnik müstəvi funksiyasını sonrakı dövrlərdə də davam etdirmişlər. Eyni bir prosesin türk-tatar istiqaməti isə Asiyanın qərbinə – Avropanın şərqinə doğru yönəlmişdir.

Məşhur Amerika antropoloqu Karlton Stivens Kun mükəmməl araşdırmalar əsasında bu nəticəyə gəlmişdir ki, “hunların və türklərin dəmir dövründə Avropaya doğru yayılmasından sonra” buradakı irqi tərkib əsaslı şəkildə dəyişikliyə uğramış, onlar

özü də Avropa irqinin əlamətlərini götürərək, Asiyaya doğru "daşımışlar" (125, s.202-205, 248, 428, 572, 610, 625). Türk xalqları həm öz seçkin antropoloji özəlliyini hifz etdiyindən, həm də tarixən Avrasiyanın çox rəngarəng antropoloji xüsusiyyətlərini mənimsədiyindən onlar estetik cəhətdən də unikal fizionomik quruluşa, ən müxtəlif iqlim şəraitində yaşaya bilən dözümlü, çevik və sağlam həyat tərzinə malik olmuşlar. Göründüyü kimi, eramızın V əsrinə qədər türklərin kök-etnos kimi öz təkamül mərhələsini başa çatdıran genealoji ağacında hunlar başda olmaqla, antik Mərkəzi Asiyanın, demək olar ki, bütün əsas etnobirlikləri tərkiblənmişdir (106, s.301). Sonrakı tarixi proseslərdə (xüsusilə V-VII əsrlərdə) hun-türk superetnosunun daxili təkamülü türk başlanğıcını önə çıxarmış, beləliklə, türklər artıq VII-VIII əsrlərdə Mərkəzi Asiyanın dominant xalqına və hərbi-siyasi gücünə çevrilmişlər. Yəni tarixi baxımdan Avrasiyanın böyük hun ənənəsi möhtəşəm türk epoxası ilə əvəz olunmuşdur.



*Hun at fiqurunun başı. I – II əsrlər*



*Hun bilərziyi. V əsr*

# QƏDİM TÜRKLƏR: MƏDƏNİYYƏTİ VƏ HƏYAT TƏRZİ

Prototürk tarixi tunc dövründən – e.ə. 2500-1700-cü illər arasında mövcud olmuş "Afanasyev mədəniyyətindən" başlayıb, e.ə. XVII-IX əsrləri əhatə edən "Andronov mədəniyyəti" ilə davam etmişdir.

"Afanasyev mədəniyyəti" – e.ə. III-II minillikləri əhatə edən Cənubi Sibir – Mərkəzi Avrasiya arxeoloji mədəniyyətidir. "Andronov mədəniyyəti" isə e.ə. XVII –IX əsrləri əhatə edən Qərbi Sibir, Orta Asiya və Cənubi Ural mədəniyyətidir. Tarixi mənbələrdən məlumdur ki, Qədim türklər bu regionlarda dinamik bir həyat tərzi yaşamış, döyüşkən və köçəri mədəniyyətə sahib olmuş, e.ə. 1700-cü illərdən sonra kütləvi şəkildə Altay dağları (əski türkcə Altay – *"al, kırmızı, kızıl tağ"*) ilə Tanrı dağları (əski




*Qədim türklər e.ə. 450-ci illərdə*

türkcə – *“Tenqri tağ”*, hazırkı adı – *“Tyan-şan”*) arasındakı bölgələrə yayılmışlar.

Əski türklər Avrasiyanın şərqindən qərbinə doğru hərəkət etdikcə tarixdə ilk dəfə olaraq özlərinin antropoloji təkamülündə monqoloid və avropoid irqlərinin, daha sonrakı dövrlərdə isə Asiya və Avropa mədəniyyətlərinin xüsusiyyətlərini özgür bir sivilizasiya sistemində birləşdirmişlər. Etnogenezisində başlıca olaraq hunların və digər protoasiya soylarının daha çox komponentləşdiyi qədim türklər eramızdan əvvəl birinci minillik və bizim eranın birinci minilliyində Avrasiyanın polietnik və polilinqvistik sivilizasiya quruluşunu təşəkkül etdirmişlər. Coğrafi şəraitin çətinlikləri və sərt iqlim dəyişiklikləri səbəbi ilə Avrasiyanın Cənubi Sibir və Xəzər dənizi arasındakı geniş məkanında daim hərəkət edən və dözümlülük keyfiyyətləri qazanan qədim türklər orman (meşə) ovçuluğundan köçəri maldarlığa, buradan da müəyyən dayanıqlı təsərrüfat həyatına qədər “çöl sivilizasiyasının” bütün mərhələlərini yaşamışlar.

Bugünkü Şərqi Türküstan, Monqolustan və Altay bölgələri antik dövrdə və erkən orta əsrlərdə artıq ormançılıqdan (meşəçilikdən) çölçülüyə adlamış, daha sonra ilkin təsərrüfat və sosial yaşayış sistemlərini təşəkkül etdirmiş türklərin ana yurdu olmuşdur. Bu region – dəniz səviyyəsindən 1200 - 1400 metr dəyişkən yüksəklikdə yerləşən yaylalardır. Böyük çöküntülər və hündürlüklərdən ibarət olan bu ərazidə Altay dağlarının *Beluca* (“uca bel” söz birləşməsindən) yüksəkliyi 4509 metrdir. *Türk mədəniyyəti və dövlətçiliyinin çıxış nöqtəsi* sayılan *Ötükən bölgəsi* dəniz səviyyəsindən 4000 metr yüksəklikdə yerləşir. Cunqarya və Qobi çöllərində illik yağıntı 100 millimetr, Şərqi Türküstan, Monqolustan və Altay bölgələrində isə 200 millimetrdir. Davam edən şiddətli soyuqlarda temperatur mənfi 50 dərəcəyədək enir. Qışın çox hissəsi torpaq qarla örtülü olur. Digər fəsillərdə isə sıx meşəli dağ yamacları tamamilə yaşıllığa bürünür. Bu bölgələrdən Çinə və İrana doğru uzanan torpaqlar ucsuz-bucaqsız səhra və çöllərdən ibarətdir.

Əski türk yurdlarının coğrafi şəraiti bu ərazilərdə daha çox heyvandarlığın inkişafına imkan vermişdir. Buna görə də onların təsərrüfat həyatında yaylaq və qışlaq mühüm yer tutmuşdur. Qədim türklər at, qoyun, dəvə, sığın bəsləmiş, qoyun yunundan ip əyirərək xalı, kilim toxumuşlar. Qidalanmada, əsasən, süd məhsullarından istifadə etmişlər. At və qoyun ətini saxlama ehtiyacı "ilk konservləşdirmə" təcrübəsinin gəlişməsinə yol açmışdır.

Türklər yolçuluq və daşıma işlərində dəvə karvanlarından, arabalardan və ya xizəklərdən yararlanmışlar. Araba və xizəklər üzərində, eləcə də digər təsərrüfat alətləri (türklər bunlara "dilək" deyirdilər) üzərində oyma təsvirləri yapılarmış. Ticarətdə daha çox atlardan və dəvələrdən, yaylaq və qışlaq köçlərində isə heyvan qoşulan arabalardan istifadə edirmişlər. Çin qaynaqlarından bəlli olduğu kimi, türklərin bir yerdən digər yerə köç karvanı "yüzlərlə arabanın, başqa qoşquların düz bir cizgi şəklində irəliləməsi" mənzərəsini yaradırdı.

Çadırlar – min illər ərzində türk yaşamının ayrılmaz parçası olmuşdur. Təsadüfi deyil ki, türklər həm yaşadıqları torpağa, həm də bu çadırlara "yurt" ("yurd") deyirdilər. Köçün so-



*Yurd çadırı. 1017-ci il*

nunda, mənzil başına çatanda torpaq üzərində "keçə çadırlar" qurulurmuş, dövlət adamları üçün daha möhtəşəm, gen, yuvarlaq çadırlar qurulurdu. Qalın və soyuq buraxmayan keçədən, əyilgən ağaclardan tikilən çadırların təpəsində açılıb-örtülə bilən hava yolu – "buxarı" olurdu. Çadırların qapısı – "günəşin doğduğu yönə sayğı" əlaməti olaraq şərq tərəfə açılırdı. Sonrakı tarixi dövrlərdə oturaqlaşan türklərin yaşayış məskənləri kərpicdən və digər hörgü materiallarından tikilən evlər olmuşdur.

Türklər çöl həyatında və heyvandarlıqda atsız keçinməmiş, həm döyüş, həm qoşqu atlarının yetişdirilməsinin mükəmməl təcrübəsinə malik olmuşlar. E.ə. 127-ci il və eramızın 46-cı ilinə aid Çin qaynaqlarında göstərilir ki, zəngin hun və türk boylarında "sürülərdəki heyvanların sayı – adambaşına təqribən 20-yə çatırdı." Asiya hun-türklərinin sayı 1,5 milyon təxmin edildiyinə görə, onların 30 milyon heyvanı vardı ki, bunların da 4 milyonu at idi. Bolluq dönəmlərində onların atlarının sayı 12 milyona çatırdı. Müqayisə üçün deyək ki, hətta 1 milyon atı bəsləmək – əhalisi hun-türklərdən qat-qat çox olan Çin və Hindistanda mümkünsüz idi. Bütün Avropa otlaqları belə 1 milyon atı sax-



*Türk çadırının quruluşu*

lamağa bəs etməzdi. Buna görə də hunlar və onların varisləri olan əski türklər yüz minlərlə passionar süvari ordu yaratmaq və onu davamlı döyüşlərdə təchiz etmək imkanına sahib idilər.

Türklərin təsərrüfat həyatında ovçuluq və heyvandarlıqla yanaşı, əkinçilik də mühüm yer tutmuşdur. Çin qaynaqlarında onların darı və buğda yetişdirmələrindən, kənd və şəhərlərdə yaşayanların ipək böcəkçiliyi və dulusçuluqla məşğul olmalarından bəhs edilir. Bunu həmin ərazilərdə aparılan arxeoloji qazıntılar da təsdiq edir. Göy Türk hökmdarı Kapğan Kağanın Çinlə bağladığı anlaşmanın bir bəndi də "Göytürklərə əkinçilik alətləri və toxumluq verilməsi" ilə bağlı idi. Hunlar və Göytürklər zamanında əkinçiliyin inkişafını göstərən dəlillərdən biri də onların Altay bölgəsində istifadə etdikləri 10 kilometrlik suvarma kanallarıdır. Türklər hələ o dövrlərdə paxla, lobya, qarpız, yemiş, üzüm və s. əkib-becərə bilirdilər. Bu dönəmdə tarlaya "tağırlağ", əkinçiyə "tağırçı" deyilirdi. Onlar dəmir ucluqlu kotandan istifadə edirdilər.

Əski türklər qərbə doğru hərəkət etdikcə, təsərrüfat təcrübəsini də artırmış, ibtidai mədən sənayesi (dəmir, tunc, qızıl və s. emalı) və ən uzaq məsafələrə ticarət işlərinin təşkili ilə məşğul olmuş, Göy Türk zamanında bizanslılara dəmir satmışlar. Dövrünün zəngin hərbi praktikasına, nizami ordu yaratma səriştəsinə sahib olan türklər, təbii ki, döyüş silahlarının hazırlanmasında da üstünlüklərini nümayiş etdirmişlər. Türklərin müharibələrdə istifadə etdikləri – "geri çəkilmə taktikası", "çölə sürmə taktikası", "qurd basma taktikası", "Turan və ya Ay taktikası" (düşməni çevrələyərək tutma) onları qələbəyə çatdıran üsullardan olmuşdur.

Türklərin tarixi mədəniyyəti və ənənəvi həyat tərzi praktiki və estetik başlanğıcların vəhdətini özündə ehtiva edərək daimi inkişaf stixiyasında bir-birini motivləşdirmək gücünü həmişə qoruyub saxlamışdır (61; 80; 85).

# TÜRKLƏRİN TARİXİ GEOPOLİTİKASI

Universal etnosiyasi sistem kimi türk dünyasının tarixi geopolitikası üç epoxal fazadan ibarətdir:

I. Böyük Hun imperiyasının təşəkkülündən (eramızın IV əsri) Göy Türk imperiyasının sonunadək (VIII əsr) davam edən dövr;

II. İslam dövrü (IX əsr – XIX əsr);

III. XX əsrin əvvəllərindən müasir dövrümüzədək davam edən dövr.

Tarixəqədərki və erkən tarixi dövrlərdə insanların yeni-yeni ərazilərə köçərək məskunlaşması nəticəsində antropogen zonanın böyümə arealı Afrikadan Asiyaya, Asiyadan isə Avropaya doğru istiqamətləndiyindən, sivilizasiyanın varisliyi baxımından, Avropanı Asiyanın "davamı" hesab etmək olar. Ancaq bu "varisliyin" təkamülü antik Asiya dövlətləri (Əhəməni və Hun-türk imperiyaları) ilə antik Avropa dövlətləri (yunan şəhər-polisləri, Ellada, Makedoniya və Roma imperiyaları) arasındakı müharibələrlə müşayiət olunmuşdur. Asiya – Avropa hərbi-siyasi münasibətlərinin cənub istiqamətində farslar yunanlarla, şimal istiqamətində isə Hun-türklər və Şərqi avropalılar romalılarla toqquşmuşlar. Bu ziddiyyətlər sivilizasiya düşüncəsində dərin iz buraxmış və ilk dəfə olaraq, avropalılar asiyalıları geopolitik qarşıdurmanın başlıca obyekti kimi fərqləndirmişlər: "mədəni-tarixi konsepsiya ilk dəfə Avropanı Asiyaya qarşı qoyan Herodot (e.ə. V əsr) tərəfindən bəyan edilmişdir" (18). Daha sonra antik yunan filosofu, Şərq islam mədəniyyətinə də böyük təsir göstərən Aristotel (e.ə. IV əsr) "azad yunan ruhunu Asiyanın kölə psixologiyasına" qarşı qoymuş və ondan bu təlimi mənimsəyən

Makedoniyalı İsgəndər Avropadan Asiyaya doğru (Hindistanın sərhədlərinə qədər) işğalçılıq yürüşlərinə (e.ə. 334-326-cı illər) başlamışdır. Avropanın Asiyaya bu miqyasda hərbi yürüşünün cavabını təqribən 700 il sonra (b.e. 451-453-cü illər) hun-türklər vermişlər: Qərbi Hun-türk imperiyası Romanı, Şərqi Hun-türk imperiyası isə Çin və Hindistanı (b.e. V əsrin sonu – VI əsrin əvvəlləri) ələ keçirmişdir. Hun-türklər Avrasiyanın Sakit okeana doğru istiqamətində Çin imperiyasını, Atlantik okeana doğru istiqamətində isə Roma imperiyasını məğlub etmiş və deməli, bununla da, Avrasiyada mütləq hökmranlıq iddialarına son qoyaraq, bu intəhasız məkanın "içtorpağının" *("heartland")* məhz asiyalılara və onların mübariz superetnosuna – türklərə məxsus olduğunu gerçəkləşdirmişlər.

Türk geopolitikasının təqribən iki min il davam edən inkişaf dinamikasında diqqəti cəlb edən başlıca cəhət bundan ibarətdir ki, türklərin tarixi-geopolitik budaqlanması üzrə özünütəşkilinin nəticəsi olaraq təşəkkül tapan Şərqi Türküstan və Qərbi Türküstan türk etnosiyasi sisteminin iki mühüm qolu kimi formalaşmışdır: Şərqi Türküstan – Mərkəzi Asiya türk dövlətlərinin geopolitik zolağını, Qərbi Türküstan isə – getdikcə Avropaya doğru istiqamətlənən Qərbi Asiya türk dövlətlərinin geopolitik zolağını yaratmışdır.

İslam epoxasında daha da genişlənərək əsaslı diferensiasiyaya uğramış türk dövlətləri hər iki istiqamətdə özləri və qonşuları arasında nə qədər müxtəlif konfiqurasiya vəziyyətləri yaratsalar da, türk dünyasının bütövlüyü etnogenetik yaddaşın təməlində dayanmaqda davam etmişdir. Türk dixotomiyasının (budaqlanmasının) qərb istiqaməti – Avropa ölkələri ilə, şərq istiqaməti isə – cənub-şərqi Asiya dövlətləri ilə münasibətlərdə fəallıq nümayiş etdirmişlər. Klassik Asiya imperiyalarından heç birinin – nə Çinin, nə Hindistanın, nə İranın, nə Ərəbistanın edə bilmədiklərini məhz türklər etmişdir: onlar Asiya – Avropa münasibətlərində birincinin geopolitik üstünlüyünə əsaslanan siyasi düzəni ta yeni zamanlara qədər qoruyub saxlaya bilmişlər.

Avrasiya geopolitikasının bütün inkişaf trayektoriyası isə, heç şübhəsiz ki, Mərkəzi Asiya və Qafqaz da daxil olmaqla, kontinental türk geosiyasi sisteminin orqanikləşməsi və təşkilatlanması prosesi ilə sıx bağlıdır.

Avrasiya geopolitikasının dinamik inkişafına əsaslı təsir göstərən amillərdən biri də bundan ibarətdir ki, türklər imperiya quruculuğunda siyasi təşkilatlanmanın çox nizamlı və mütəşəkkil bir ənənəsinə sadiq qalmışlar: onlar etnosiyasi sistemin böyümə xarakterinə uyğun olaraq, idarəetmənin iyerarxik quruluşunu həm vertikal, həm də horizontal istiqamətdə dərinləşdirmişlər. Geopolitik məkan üzərində türklərin nüfuzu artdıqca, onlar bu məkanı nəzarətdə saxlaya biləcək siyasi hakimiyyəti "bölməkdən" qorxmamışlar: onların məntiqinə görə, "hissələr" birləşib bir "siyasi tamı" yaradır. Bu, əsl sinergetik qanunauyğunluq və ondan baş çıxarmaq bacarığı deməkdir. Belə bir qanunauyğunluğu əsas götürərək türklər hələ "Hun epoxasından" başlayaraq, hakimiyyətlərini "doğu" (şərq) və "batı" (qərb) cinahlarına bölərək, özlərinin səmərəli idarəetmə sistemini tətbiq etmişlər: Şərqi Hun-türk imperiyası və Qərbi Hun-türk imperiyası; Şərqi Göy Türk imperiyası və Qərbi Göy Türk imperiyası; Şərqi Türküstan və Qərbi Türküstan. Avrasiyanın "içtorpağını" *("heartland")* onun bütün ətraf regionları ilə çevrələyən, Asiyanın şərqindən Balkanlaradək uzanan bu azman geopolitik məkanı türklər özlərinin çox qədim və doğma sözləri ilə adlandırırdılar: *il (el)*.

Çinlilərin uzun müddət yaddaşlarından silinmir ki, "VII-IX əsrlərdə şimal-qərbdə onların çox güclü qonşuları – hunlar və uyğurlara qohum olan türklər" yaşamışlar (128, s.32). Hind-avropalıların İran qrupuna mənsub etnoslarının yaşadıqları məkan – İran, türklərin yaşadıqları məkansa – Turan adlandırıldığı zamandan Avrasiyanın cənuba doğru uzanan ərazisi özünəməxsus geopolitik təzad məzmunu alır. Türklər İran – Turan səddini də yarıb keçərək, artıq Avrasiyanın çoxmillətli və çoxsivilizasiyalı regionlarını ta Avstriya, Almaniya və İtaliyaya qə-




*Avrasiyanın "içtorpağında" ("heartland") əski türk elləri*

dər tuturlar. "I-XII əsrlərdə Avrasiyanın etnomədəni sisteminin dinamikası" (105, s.788) burada baş verən geopolitik proseslərin istiqamətini türklərin passionar dalğası ilə daimi olaraq Avropaya doğru yönəldir. Şərqi Avropaya doğru hərəkət edən türklər bir neçə yüz il müddətinə slavyan xalqlarını – velikorusları, belarusları, ukraynalıları da hərəkətə gətirərək, bu regionu daha fəal etnosiyasi proseslərə qoşurlar.

Avrasiya geopolitikasının ən qaynar zolağını – tarixi inkişaf yolları bir-birindən ayrılmaz olan Qafqaz və Mərkəzi Asiya təşkil edir. Qafqaz – Xəzər dənizinin qərb hövzəsindən Avropaya, Mərkəzi Asiya isə – onun şərq hövzəsindən Asiyaya doğru hərəkət trayektoriyalarını eyni zamanda çarpazlaşdıraraq, Avrasiyanın geopolitik koordinatlarının optimal sistemində iki mühüm regional seqment kimi dərk olunur.

Göründüyü kimi, coğrafi məkanın genişliyi və rəngarəngliyi, "landşaft polifoniyası" türk geopolitikasının xarakterini təyin edən başlıca amillərdir. Türk geopolitik regionunun ayrı-ayrı sə-

bəblərdən parçalandığı dövrlərdə belə ümumtürk vətəni bir fenomen kimi – gen yaddaşının dərinliklərində hifz edilmiş, özünün bütövlüyünü türk milli mənəviyyatında bütün tarixi əzəməti ilə göstərmişdir. Bütövlükdə Avrasiya, xüsusilə onun mərkəzi regionu – yalnız türk dünyası ilə geopolitik bütövlüyünü qazanmışdır. Asiya və Avropa – türklərin qovuşdurduğu və orqanikləşdirdiyi fərqli sivilizasiya "komponentləri" olaraq, özlərinin vahid sivilizasiya meqasistemindəki münasibətlərini qururlar. Əgər Avrasiya – Avropa (Qərbi və Şərqi Avropa), Yaxın və Orta Şərq, Qafqaz, Mərkəzi Asiya, Cənub-Şərqi Asiya siyasi regionlarından ibarətdirsə, onların da hamısının *ortaq geopolitik məkanını* məhz türk dövlətləri yaradır. Türk dövlətlərindən başqa heç bir siyasi sistem həmin regionların geopolitik koordinasiyasını yaratmaq reallığında, imkanında və funksiyasında deyil. Təbii-coğrafi amillərlə şərtlənən və heç kimin şərik ola bilməyəcəyi bu reallığı, imkanı və funksiyanı türk dövlətləri uzun tarixi-siyasi proseslərin nəticəsi olaraq əldə etmişlər. Avrasiyanın tarixi geopolitikası bilavasitə həmin proseslərin kardinal istiqamətindən – yəni Asiya ilə Avropa arasındakı münasibətlərin tarixi transformasiyası və burada türk dövlətlərinin rolundan həlledici dərəcədə asılı olmuşdur.

Təqribən 65 milyon insanın yaşadığı, 4 milyon kv. km.-dən çox ərazisi olan Mərkəzi Asiya regionunun əsas geopolitik hədəfi – hazırda regiondaxili və regionətrafı siyasi-iqtisadi münasibətlərin həmin bölgəyə mənsub dövlətlərin *uzlaşdır*ıl*mış maraqları* əsasında qurulması üzərində cəmlənmişdir. Ümumregional xüsusiyyətlərlə yanaşı, bu ölkələrin hər birinin tarixən, həm də bir-birinə münasibətdə formalaşmış sosiokulturoloji seçkinliyi, təsərrüfatçılıq və istehsal mədəniyyəti vardır. Etnosiyasi sistemin milli dövlətçilik sisteminə transformasiyası prosesində yaşanılan mümkün ziddiyyətlər bəzən etnik konfliktlərə də şərait yaradır. Lakin bütün bunlara baxmayaraq, Mərkəzi Asiyanın qədim tarixə malik gənc türk respublikalarının milli müstəqilliklərini qoruyub inkişaf etdirəcəyinə heç bir şübhə

yoxdur. Bu da şübhəsizdir ki, daha geniş planda regiondaxili və regionətrafı siyasi-iqtisadi münasibətlərin yüksək səviyyəyə çatdırılması – Qazaxıstandan Türkiyəyə qədər – bütövlükdə Avrasiyanın geopolitik təhlükəsizliyinin əsasını təşkil edir.




*Müasir türk dünyası*

# TÜRK DİLLƏRİ AİLƏSİ

Dünyanın əsas dil ailələri sırasında ***türk dilləri ailəsi*** özünəməxsus yer tutur. Onun coğrafiyası qərbi Çin və Sibirdən cənub-şərqi Avropayadək uzanan bir ərazini tutur. Ayrı-ayrı tarixi dövrlərdə onun yayılma arealı daha geniş olmuşdur. Türk dillərində bu gün ana dil olaraq 180 milyon, ikinci dil olaraq 250 milyon insan danışır. 40-a yaxın yazı dilinə malik olan türk dilləri Altay dilləri ailəsinə aid edilir (49).

E.ə. IV–III minilliklərdə Altay bölgəsində yaşayan müxtəlif və eynisoylu etnosların uzunmüddətli inteqrasiyası nəticəsində onların etnosiyasi konfederasiyası formalaşmış və Altay dilləri daxilində də müəyyən diferensiasiya baş vermişdir. E.ə. III minillikdən başlayaraq Altay metadil sisteminin təkamülü prosesində isə əski türk ***dili*** yaranmışdır. Əski türk dilinin təməli üzərində daha sonrakı diferensiasiya proseslərinin nəticəsi olaraq ***türk dilləri ailəsi*** təşəkkül tapmışdır (111). Linqvistik türkologiyada Altay dilləri ailəsinin qohumluğu elmi diskussiyalara səbəb olsa da, onun bir qolu kimi türk dilləri ailəsinin vahid genezisə malik olması heç bir mübahisə doğurmur. 65 il ərzində – 680-745-ci illər arasında Göy Türk imperiyasının ən yüksək inkişaf dövründə məhz türklərin öz orijinal əlifbaları (runi hərfləri) ilə tərtib edilmiş, əski türk dilinin ilk və ən böyük yazılı abidələri sayılan Orhon-Yenisey daş kitabələri türk dilləri ailəsinin bir kökdən yarandığını və yalnız davamlı münasibətlərdə olduqları xalqların dillərindən bəzi sözləri aldığını birmənalı şəkildə təsdiq edir. Bu abidələrin dili – əski türkcə ilə onun inkişaf etmiş forması olan müasir türk dilləri arasında köklü fərqlər özünü göstərmir. On üç əsr keçməsinə baxmayaraq, dəyişməyə az məruz qalması Orhon-Yenisey yazılı abidələrinin

əski türkcəsinin seçkin bir dil hadisəsi olaraq hələ erkən antik dövrlərdən etibarən sabitləşdiyini göstərir.

Türkoloqlar Orhon-Yenisey abidələrinin mükəmməl əlifbasına, təkmilləşmiş fonetik və qrammatik quruluşuna, leksik tərkibinin əhatəliliyinə əsaslanaraq bu qənaətə gəlirlər ki, türkdilli xalqlar Avrasiyada həm etnosiyasi, həm də etnolinqvistik proseslərin ahəngdarlığını yaratmaqla, hər iki tendensiyanı uğurla inkişaf etdirmiş, eyni zamanda, müxtəlif sistemli dillərlə təmasda olaola, dəfələrlə diferensiasiya və inteqrasiya mərhələlərini yaşamış və tarixi-linqvistik inkişafın dialektik qanunauyğunluğu şəklində genetik bağlılığa və güclü dixotomiya potensialına malik sistemli bir dil ailəsinin yaradıcısı olmuşlar: orta türk dövründə (X – XV əsr), yəni təqribən 500 il müddətinə müasir türksistemli dillər – iyirmi müstəqil türk dili və onların çoxlu ləhcələri (dialektləri) təşəkkül tapmışdır.




*VII – X əsrlərdə işlənmiş əski türk əlifbası (runi)*

Türk dillərinin dünya dilləri sırasında yerini müəyyənləşdirmək üçün öncə morfoloji və genealoji meyar əsasında onlara xas xüsusiyyətləri səciyyələndirmək lazımdır. Məlum olduğu kimi, dünya dilləri morfoloji əlamətlərə – kök və şəkilçinin spesifikasına, bir-birinə münasibətinə görə üç qrupda – aqqlütinativ (iltisaqi), flektiv və amorf dillər (bəzən polisinkretik dillər qrupu

da fərqləndirilir) qruplarında birləşdirilir. Türk dilləri bu meyara görə aqqlütinativ dillər qrupuna daxil edilir. Aqqlütinativ dillər – söz formaları aqqlütinasiya yolu ilə düzələn dillərdir. Bu dillər üçün şəkilçilərlə sözdüzəltmə və sözdəyişmə sistemli xarakter daşıyır, vahid təsriflənmə və hallanma xüsusiyyəti olmaqla şəkilçilərin eyni funksiyalılığı mövcuddur.

Genealoji prinsipə, yəni etnocoğrafi birgəlik şərtlərinə əsaslanan meyara görə, tarixən qəbilə, tayfa, soybirləşmələri şəklində meydana çıxan və uzun inkişaf yolu keçərək, davamlı diferensiasiya və inteqrasiya prosesləri nəticəsində sabitləşən, cilalanan, xüsusiləşib müstəqil regional dillər şəklində təzahür edən dilləri – bir variantda Ural-Altay, digər variantda Altay dilləri qrupu kimi səciyyələndirirlər. Hazırda Altay metadil sisteminə türk, monqol, tunquz, Koreya, yapon, aynu dilləri daxil edilir. Göstərilən dillərin türk dilləri ilə linqvogenetik bağlılığı hələlik tam şəkildə sübut edilməmişdir.

Türk dillərinin tarixi inkişaf mərhələləri həm dünya dilçiliyində, təbii ki, həm də türkdilli ölkələrdə geniş miqyasda öyrənilmiş (365), lakin bir çox məsələlər hələ də açıq qalmışdır. T.Stralenberq, R.Rask, M.Müller, V.Şott, M.Kastren, V. Kotviç, Y.Nemet, L.Ligeti, K.Menqes, J.Bentsinq, O.Pritsak, Q.Ramstedt, M.Rəsənen, B.Vladimirtsev, V.V.Radlov, S.Y.Malov, N.A.Baskakov, O.N.Tuna, A.B.Ercilasun, A.Akar, Ö.Kurtuluş, Ş.H.Akalın, Ö.Mehmet, F.Zeynalov, N.Cəfərov, N.Xudiyev, Y.Darbaa kimi tədqiqatçılar türk dillərinin ən qədim zamanlardan dövrümüzə qədərki inkişaf tarixini bu və ya digər istiqamətlərdə öyrənmişlər.

Türk dillərinin tarixi inkişafı aşağıdakı mərhələlərə bölünür:
Ən qədim türk (prototürk) dövrü (e.ə. IV minillik–b.e. V əsr);
Qədim türk dövrü (V – X əsrlər);
Orta türk dövrü (X – XV);
Yeni türk dövrü (XVI – XX əsrlər) (30).

Orta türk dövründə əsaslı diferensiasiyaya uğrayan türk dilləri yeni türk dövründə tam şəkildə müstəqilləşərək, spesifik ədə-




*Türk dilləri ailəsi*

bi dilə çevrilərək, türk dilləri ailəsi kimi orqanik bir dil sistemini əmələ gətirmişlər.

Müasir türk dilləri ailəsi – türk ədəbi, yazı dilləri və ləhcələri olaraq aşağıdakı qruplara bölünür[1]:

**I. Oğuz qrupu:**

1. Türkiyə türkcəsi – təxminən 92 milyon nəfər
   *(Türkiyə – 80 milyon, Balkanlar – 2,5 milyon, Kipr – 265000, Rusiya – 800 000, Almaniya – 4 milyon, digər Avropa ölkələri – 2 milyon, Türkməneli İraq – 2,5 milyon)*
2. Azərbaycan dili – təxminən 50 milyon nəfər
   *(Azərbaycan – 10 milyon, İran – 30 milyon; Türkiyə – 500 000; Rusiya – 2 milyon; Gürcüstan – 500 000 və s.)*
3. Türkmən dili – təxminən 9 milyon nəfər
   *( Türkmənistan – 6,1 milyon; İran – 2 milyon; Əfqanıstan – 900 000; Özbəkistan – 250 000)*

[1] Müvafiq dillərdə əvvəlcə o dildə danışanların ümumi sayı, daha sonra hansı ölkədə nə qədər sayda və kompakt yaşaması göstərilir.

4. Qaqauz dili – təxminən 250 000 nəfər
   *(Moldova – 170 000; Balkanlar – 30 000; Ukrayna – 20 000; Bolqarıstan – 10 000 )*
5. Xorasan türk ləhcəsi – təxminən 1 milyon 400 000 nəfər – İran.
6. Kaşqay türk ləhcəsi – təxminən 1,5 milyon nəfər – İran.
7. Aynallu türk ləhcəsi – təxminən 7 000 nəfər – İran.
8. Əfşar türk ləhcəsi – təxminən 300 000 nəfər – Əfqanıstan və İran.
9. Salar türk ləhcəsi – təxminən 140 000 nəfər – Çin.

Bütövlükdə Oğuz qrupuna daxil olan türk dillərində təxminən 150 milyon insan danışır.

**II. Qıpçaq qrupu:**

1. Qazax dili – təxminən 18 milyon nəfər
   *(Qazaxıstan – 15 milyon; Çin – 1 milyon; Özbəkistan – 800 000; Rusiya – 650 000; Monqolustan – 100 000).*
2. Tatar dili – təxminən 7,5 milyon nəfər
   *(Rusiya – 5 milyon 500 000; Özbəkistan – 470 000; Qazaxıstan – 330 000; Qırğızıstan – 70 000; Tacikistan – 80 000; Türkmənistan – 50 000; Ukrayna – 90 000; Azərbaycan – 30 000 və digər ölkələrdə).*
3. Qırğız dili – təxminən 5,4 milyon nəfər
   *(Qırğızıstan – 3,5 milyon; Özbəkistan – 200 000; Çin – 200 000 və digər ölkələrdə).*
4. Başqırd dili – təxminən 2,2 milyon nəfər
   *(Rusiya – 1,7 milyon; Özbəkistan – 35 000; Qazaxıstan – 20 000 və digər ölkələrdə).*
5. Krım-tatar dili – təxminən 500 000 nəfər
   *(Ukrayna – 200 000; Özbəkistan – 190 000; Qırğızıstan – 40 000 və digər ölkələrdə).*
6. Qaraqalpak dili – təxminən 400 000 nəfər – Özbəkistan.

7. Qumuq dili – təxminən 280 000 nəfər – Rusiya.
8. Qaraçay-Balkar dili – təxminən 250 000 – Rusiya.
9. Noqay dili – təxminən 70 000 nəfər – Rusiya.

(Karaim türkcəsi sıradan çıxmaq üzrədir)

**III. Uyğur qrupu:**

1. Özbək dili – təxminən 37 milyon nəfər
*(Özbəkistan – 31 milyon; Əfqanıstan – 2,5 milyon; Tacikistan – 2 milyon; Qırğızıstan – 750 000; Qazaxıstan – 400 000; Türkmənistan – 300 000 və digər ölkələrdə).*
2. Uyğur dili – təxminən 25 milyon nəfər
*(Çin – 20 milyon, Qazaxıstan – 2 milyon; Qırğızıstan – 1 milyon 500 000 və digər).*
3. Qərbi uyğur türk ləhcəsi – təxminən 15 000 – Çin.
4. Aynu türk ləhcəsi – təxminən 7 000 – Çin.

**IV. Sibir qrupu:**

Yakut dili ( təxminən 360 000 – Rusiya).
Tuva dili (təxminən 315 000 – Rusiya).
Hakas dili (təxminən 65 000 – Rusiya).
Altay dili (təxminən 50 000 – Rusiya).
Şor dili ( təxminən 10 000 – Rusiya).
Dolğan türk ləhcəsi ( təxminən 5 000 – Rusiya).
Çulım türk ləhcəsi ( təxminən 2 500 – Rusiya).
(Tofa türkcəsi sıradan çıxmaq üzrədir)

**V. Bulqar və ya Oğur qrupu:**

Bu qrupa aid tarixi dillər – əski xəzər, hun və bulqar (Tuna bulqarcası, İtil bulqarcası) dilləridir. Canlı danışıq dillərindən yalnız çuvaş dili qalmışdır. Çuvaş dilində təqribən 2 milyon insan danışır və onlar Rusiyada yaşayır.

**VI. Arğu qrupu:**

Müasir dövrümüzdə bu qrupun tək təmsilçisi olaraq xalaç dili qalmışdır. Xalaç dilində 42 min insan danışır və onlar əsasən İran və Əfqanıstan ərazisində yaşayırlar. (345).

Türk dilləri ailəsində ən çox danışılan dil – Türkiyə türkcəsi (90 milyon) və Azərbaycan dilidir (50 milyon). Daha sonra özbək, uyğur, qazax, türkmən, tatar dilləri gəlməkdədir. Türk dilləri ailəsində "Oğuz qrupu" dilləri – 65%, "Uyğur qrupu" dilləri – 18,89%, "Qıpçaq qrupu" dilləri – 14, 46%, "Bulqar və Oğur qrupu" dilləri – 1,06%, "Sibir qrupu" dilləri – 0,41%, "Arğu qrupu" dilləri 0,03% yer tutur. Beynəlxalq hüququn bütün parametrləri üzrə, Avrasiyanın ən böyük geopolitik məkanında onun "dil onurğasını" təşkil edən türk dilləri ailəsi içərisində bu sistemin universal bir dili kimi bütün türk xalqları tərəfindən anlaşılan Türkiyə türkcəsinin Birləşmiş Millətlər Təşkilatının beynəlxalq dilləri sırasında yer almasına tam haqqı vardır.




*Avrasiyada müasir türk dillərində danışan xalqların ümumi coğrafiyası*

# TÜRK ANTROPONİM, ETNONİM VƏ TOPONİMLƏRİ

Türklərin Avrasiya coğrafiyasındakı tarixi həyatının, tükənməz dil və təfəkkür potensialına malik olmasının, demək olar ki, bütün iz və təzahürləri geniş və real mənzərəsi ilə onların yaratdığı mədəniyyətin onomastik[2] qatında hifz olunmuşdur. Türk antroponim, etnonim və toponimlərini 4 qrupa bölmək olar:

1. Yarandığı ən qədim zamanlardan indiyədək dəyişmədən qalanlar;

2. Müəyyən fonetik, morfoloji, leksik forma və məzmun dəyişmələri ilə işlənənlər;

3. Müasir türk dillərində onların qrammatik xüsusiyyətlərinə uyğun şəkil alanlar;

4. Arxaikləşib canlı dillərdən çıxanlar.

Türk onomastikasının özəlliklərindən biri də budur ki, bəzən bir söz həm insan, həm də yer adı kimi ikifunksiyalı, hətta etnos anlamını da özündə birləşdirərək üçfunksiyalı olmuşdur: Altay, Türk, Göytürk, Bayat, Oğuz, Türkəş (Türkeş), Qara (Kara), Qızıl (Kızıl), Muğan, Saray və s.

Asiyanın şərqindən qərbinə, Avropanın cənub-şərqinədək genişlənən, indiki Rusiya, Çin, Monqolustan, Tibet, Hindistan, Pakistan, Əfqanıstan, İran, İraq, Suriya, Ərəbistan və s. ölkələrlə həmsərhəd regionları da əhatə edən ərazidə böyük dövlət və imperiyalar quran türk xalqları uzun əsrlər boyu bu intəhasız məkanda yaşadıqları üçün həmin regionların coğrafiyası türk toponimləri ilə zəngindir (330). Məsələn, təkcə "Təklə" toponimi

---

[2] Onomastika – dilçiliyin antroponim (insan adları), etnonim (etnos, xalq, millət adları), toponimləri (yer adları) və s.-i, onların tarixini və mənşəyini, transformasiya xüsusiyyətlərini öyrənən bir sahəsidir.

Çindən Balkanlaradək bir ərazidə yayılmışdır (10). Çinin, əsasən, Sincan (Çin dilində – Xinjuan) Uyğur Muxtar Vilayətini əhatə edən Təklə-Məkanın ərazisi 300 min kv.km.-dir. Uyğurlardan oğuzlara qədər bir çox türk soyları yaşadıqları məkanlara bu adı vermişlər. Orta Asiya respublikalarında, Azərbaycan, Türkiyə, İran və Ermənistanda (hazırda buradakı bütün türk mənşəli tarixi toponimləri dəyişib erməniləşdirmişlər) "Təklə" toponimi daha çox yayılmışdır (10). Onun belə geniş yayılmasının əsas səbəbi təklələlilərin uzun müddət Böyük İpək yolu üzərində nəzarət işini həyata keçirmələri ilə izah oluna bilər. Ümumən, Böyük İpək yolu yan-yanaşı türk ölkələrinin min kilometrlərlə ərazisindən keçdiyindən, türk etnocoğrafiyasının toponimik izləri bu yolun koordinatlarında öz əksini tapmışdır. Türk mənşəli toponimlər – yer adları Böyük İpək yolunun istiqamət və trayektoriyalarını müəyyən edən məntəqələrdir: Altay, Turfan, Üç Turfan, Tarim, Təklə-Məkan, Yarkənd, Qara şəhər (Yenki), Kuça, Aksu, Kızıl-su, Kaşğar, Türküstan və s.




*Bu coğrafiyada əsasən türk toponimləri yayılmışdır*

Uzun əsrlər Mərkəzi Asiya – birbaşa antik dövrün türk etnonimi olaraq "Türküstan" (daha sonra etnosiyasi dixotomiyanın nəticəsi kimi – Şərqi Türküstan və Qərbi Türküstan) adlandırılmışdır. Turan isə Türküstan da daxil olmaqla Monqolustandan Türkiyəyə qədər geniş geopolitik məkanın daha çox etnokulturoloji anlamda, bir az da romantik çalarda başa düşülən və qəbul edilən adıdır. SSRİ qurulanda "türk" adı olan, demək olar ki, bütün toponimləri dəyişirdilər. Siyasi məqsəd daşıyan göstəriş bundan ibarət idi ki, ərazi vahidlərinə "türk" komponenti olan yer adlarından savayı müvafiq sayıla biləcək hər cür ad qoyula bilərdi. Bu səbəbdən də türk dünyasının ərazisinə görə ən böyük və kompakt hissəsi olan "Türküstan" adı – "Orta Asiya" ilə əvəz olundu. Ruslaşdırma və sovetləşdirmə siyasəti Qafqaz və Mərkəzi Asiyanın ("Türküstan"ın) milli-siyasi quruluşunu toponimik xəritələrinə qədər elə dəyişdirib yadlaşdırmışdı ki, onun geopolitik özünəməxsusluğu tanınmaz olsun. Lakin tarixi həqiqəti danmaq mümkünsüzlüyü region toponimikasına artıq birtərəfli siyasi məqsədlərlə deyil, tarixi faktların məntiqi ilə yanaşmağı tələb edir.

Türk sivilizasiyası yüksək inkişaf mərhələsinə qədəm qoyduğu epoxadan – təqribən bizim eranın V əsrindən başlayaraq, türklərin doğma coğrafi məkanı da ("Qara Təpə", "Torpaq Qala" və s.), insanların antropoloji xüsusiyyətləri də türk dünyasına məxsus sosial-mədəni mühitlə sıx bağlı olmuşdur. Çünki türk sivilizasiyasının bu regiondakı antik tarixi daha qədimdir (e.ə. II-I minillik) və daha dərin, daha silinməz antroponimik, etnonimik və toponimik izlərini qoymuşdur. Bu izlər hər şeydən əvvəl, onların yaratdıqları tarixi abidələrdə öz əksini tapır. Əlbəttə, hind-avropalılara mənsub qədim xalqlar da müəyyən tarixi dövrlərdə həmin ərazilərdə yaşamışlar, ancaq elm birmənalı şəkildə sübut edir ki, Mərkəzi Asiya – türk sivilizasiyasının tarixi yurdudur (55). Məhz bu məkandan türk sivilizasiyası Avrasiyanın genişlənən hüdudlarına böyüyə-böyüyə inkişaf etmiş, min illər ərzində kontinentin dominant sivilizasiyası olmuşdur.

Türk antroponim, etnonim və toponimlərinin transformasiyasına tarix boyu təsir göstərən ən mühüm amil türk dövlət və imperiyalarının mövcud olduğu və genişləndiyi dövrlərdə onların da müxtəlifləşməsi, yeni forma və məzmun keyfiyyətləri alması, türk xalqlarının başqa dövlət və imperiyaların tərkibinə daxil olduğu dövrlərdə isə həmin onomastik vahidlərin müəyyən siyasi, ideoloji və dini səbəblər üzündən dəyişilməsi və yeni adlarla əvəz olunmasıdır (116). Məsələn, türklərin islamaqədərki tarixində türk antroponim, etnonim və toponimləri yalnız nadir istisnaları nəzərə almasaq, bütünlüklə türk mənşəlidir (*antroponimlər:* Tuman [Duman, Tumın], Muğan, İstəmi, Bumın, Bilgə Kağan, Kül-tegin, Tonyukuk, Bilgə Kutluq, Altun, Dolu, Arslan, Boluşad, Baqa-şad, İl Külüq-şad, Tarduş-şad, Taman, Çulu-xan, İtmiş-bek, Sıqın, Erentürk, İnel, Ertürk, İşbar-xan, Esentürk, İrbis-xan, Öztürk, Tunçtürk və s.; *etnonimlər:* hunlar, türkütlər, quzlar, qara quzlar, bulqarlar, karluklar, dulular, uyğurlar, azlar, doqquz oğuzlar, üç oğuzlar, otuz tatarlar, uturqurlar, özbəklər, bayanlar, kanqarlar, kanqlılar, kaşğarlar, kengereslər, oyratlar, sarmatlar, qıpçaqlar, qırğızlar, qazaxlar, buryatlar, basmalılar, tatablar, xəzərlər, xakaslar, çubanlar, çumilər, şorlar, yakutlar və s.; *toponimlər:* Ötükən, Orhon, Yenisey, Aktağ, Tenqri-tağ, Alaşan, Altın-kül, Anqara [Ankara], Astana, Baybalık, Baykal, Beşbalık, Bolçu-oğuz, Buğur, Buzqala, Temir-qapıq [Dəmir qapı], İtil, Qobi, Ceyhun, Curcan, İrtış, İspanaq, İssık-kul, Karakorum, Karakum, Kaşğar, Kuban, Kaşqalak, Kuran, Narın, Oka, Selenqa, Talas, Taşkənd, Terek, Tokmak, Tuva, Turfan, Ural, Ulaqan, Urumçi, Xatay, Çili, Çor, Çirçik, Şudun, Udık-baş, Yulduz, Aymın, Manqışlaq və s.).

Türklər islamı qəbul etdikdən sonra etnonim və toponimlər daha az səviyyədə, antroponimlər (insan adları) isə böyük əksəriyyətlə bu dini mədəniyyətin təsiri altında "müsəlmanlaşmışdır" (Məhəmməd, Əli, Həsən, Osman, Fatimə, Səkinə və s.). Lakin hətta türk-islam dövlətlərində də onomastik sistem öz

nüvəsini saxlamağa çalışır: Səlcuqlar, Atabəylər, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular və s.

Son yüz ildə biz Azərbaycan nümunəsində belə bir prosesin şahidi oluruq: XX əsrdə antroponimik sistemə rus və Avropa təsiri özünü göstərir (Ruslan, Hamlet, Ofelya, Tamella və s.). XX əsrin sonlarına yaxın, sanki həmin yüzilin əvvəllərindəki milli maarifçilik hərəkatının davamı olaraq (Turqut, Ərtoğrul, Oktay, Yaşar, Elxan, Sevil), yenidən milli adlar antroponimik sistemdə güclənməyə, klassik türk milli mədəniyyətinin adlar xəzinəsi tədriclə açılmağa başlayır (Altay, Beyrək, Oğuz, Günel, Tural, Alpər, Tuncər, Tuncay).

Yalnız müstəqillik əldə etdikdən sonra bütün türk respublikalarında təbii olaraq kökə qayıdışın dərin prosesləri baş verir, insan, yer və soy adları bərpa olunur və ya tamamilə yeniləşir. Digər türk ölkələrində olduğu kimi, Azərbaycanda da Rusiya imperiyası və Sovet İttifaqı dönəmində ərazi vahidləri, yer adları (“Göytəpə” – “Prişib”), və soyadlar (“-ov, -yev, -ski” sonluqları ilə) “ruslaşdırılmışdı”. Müstəqillik ictimai-siyasi həyatın bütün sahələrində olduğu kimi, onomastik vahidlərin də milliləşdirilməsinə yol açmış oldu. Məsələn, qədim Gəncə şəhərinə 1804-cü ildən 1918-ci elədək “Yelizavetpol” adı verilmiş, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Gəncə adı yenidən bərpa edilsə də, 1935-cü ildə dəyişdirilərək şəhər bir bolşevik funksionerinin – Kirovun adı ilə “Kirovabad” adlandırılmışdı. Azərbaycan milli azadlıq hərəkatının elə ilk dalğasında – 1989-cü ildə Gəncə adı yenidən bərpa edilmişdir. Vaxtilə Bakı şəhərinin əksər küçələrinə siyasi-ideoloji oriyentasiyalı rus adları qoyulmuşdu. Bunlar da tam şəkildə dəyişdirildi. Mərkəzi Asiya türk respublikaları da bu motivdə özlərinin onomastik siyasətlərini yenidən qurmaqdadırlar.

Türkiyədə bu proses daha əvvəl – XX əsrin otuzuncu illərindən Mustafa Kamal Atatürkün onomastik problemləri də əhatə edən Türkiyə türkcəsinin milli təməl üzərində yeniləşməsi islahatları ilə başlamış, 1970-ci illərə qədər davam etmişdir.

Türk sivilizasiyasının son yüz ildəki dinamik inkişafı (bu prosesin ən böyük hadisəsi – müstəqil türk respublikalarının yaranmasıdır) həm də onun universal onomastik siyasətinin həyata keçirilməsinə yol açır. Bunun üçün güclü təməl vardır. Belə ki, türk sivilizasiyasının şərqdən qərbə doğru tarixi hərəkəti onun daha çox yeniləşməsinə, modernləşməsinə səbəb olmuşdur. Ancaq bu proses o zaman əsl dəyər qazanmışdır ki, türk mədəniyyətinin köklərinə bağlılıq fasiləsiz olaraq möhkəmləndirilsin. Tarixi faktlar göstərir ki, türk uluslarının ən passionar, riskə qadir soyu – oğuz türkləridir, ancaq onlar həm də türk uluslarının yaxşı mənada ən mühafizəkar qoludur. Məhz Göy Türk təməli üzərində yüksələn oğuz türkləri Avropaya doğru hərəkət edərək, onun kandarında – qərbi Asiyada güclü dövlət və imperiyalar qurmuşlar. Təkcə oğuz türklərinin XVI əsrdən bəri – son 500 ildə yaratdığı toponimik coğrafiya onu göstərir ki, bu soy hara gedirsə, tarixini də kompleks halında özü ilə aparır. Çox qədim köklərə malik olan oğuz türklərinin boyları – Kayı, Bayat, Alka-Bölük, Qara-Bölük, Yazır, Döyər, Dodurğa, Yaparlı, Avşar, Kızık, Bəydili, Karkın, Bayandır, Peçeneq, Çavuldur, Çəpni, Salur, Ala-Yundlu, Yürəgir, İğdır, Bürdüz, Yıva, Kınık və s. Anadoluda yüzlərlə yer adına malikdir. Göründüyü kimi, oğuzlar türk toponimik xəritəsini məhz o soy adları ilə – etnonimlərlə yaratmışlar ki, onların əksəriyyətinin qaynağı ulu türk yurdu – Mərkəzi Avrasiyadır. Türklər gələcəyə yalnız siyasi-ideoloji sistemlərinin möhkəmliyi ilə deyil, həm də tarixi adlar yaddaşının bütövlüyü və silinməzliyi ilə gedirlər.

# TÜRKLƏR VƏ BÖYÜK İPƏK YOLU

Avrasiyanın ayrı-ayrı xalqları və mədəniyyətlərinin təmasını tarixdə ən uzun və davamlı şəkildə təmin etmiş Böyük İpək yolunun təqribən 12 800 km.-lik əsas marşrutu Çindən İspaniyayadək uzanmışdır (385). Böyük İpək yolu ən müxtəlif cəmiyyətlər, dövlətlər və mədəniyyətlər arasında tarixi əlaqələrin elə bir çoxistiqamətli spektrini yaratmışdır ki, bu təməl üzərində onu bərpa etmək, daha mükəmməl kommunikasiya funksiyasına çatdırmaq üçün həmişə böyük zərurət duyulmuşdur. Bu gün müasir türk dünyası üçün müstəsna əhəmiyyət kəsb edən cəhət də bundan ibarətdir ki, Böyük İpək yolunun gərəkliyinə münasibət və ondan istifadə etməyin mümkünlük şərtləri nə qədər dəyişsə də, onun funksionallığını bərpa edərək, daim işlək hala gətirənlərin önündə başlıca olaraq türklər, onların ayrı-ayrı nəsilləri, dövlətləri və imperiyaları dayanmışdır. Əgər belə demək mümkünsə, dünya tarixi və sivilizasiyası üçün Böyük İpək yolunun nə qədər əhəmiyyəti olmuşsa, türklərin də onun bu günə qədər gəlib çatmasında, yaşadılmasında bir o qədər rolu olmuşdur.

İlk dəfə elmə "İpək Yolu" anlayışını 1877-ci ildə alman coğrafiyaçısı Rixthofen gətirmişdir. Adından da göründüyü kimi, klassik mənasında eramızdan əvvəl ikinci əsrdən etibarən Şərqi Asiyadan, konkret olaraq, Çindən Aralıq dənizi ölkələrinə əsasən ipək ticarəti yolu funksiyasını yerinə yetirsə də, o, getdikcə inkişaf edərək, qədim dünyanın daha geniş ticarət və mədəniyyət əlaqələrini mümkün və təmin edən zəruri kommunikasiya vasitəsinə çevrilmişdir. Ancaq nəzərə almaq lazımdır ki, Böyük İpək Yolu həm də cürbəcür təhlükələrlə üzləşmiş, taleyi müxtəlif zamanlarda müxtəlif hərbi-siyasi qüvvələrin, iqtisadi-mə-

dəni mərkəzlərin necə konfiqurasiya tapmasından, geopolitik situasiyanın hansı əlverişli imkanları açmasından bilavasitə asılı olmuşdur. Böyük İpək Yolunun ən müxtəlif diapazonda dəyişərək, lakin əsas hədəf-istiqamətlərini saxlayaraq keçdiyi tarixi-coğrafi məkan türk dövlətləri və mədəniyyətlərinin yerləşdiyi regionları əhatə etdiyindən, təbii ki, türk dünyası transformativ siyasi-sivilizasion sistem kimi Avrasiyadakı geopolitik situasiyanın bütün dəyişmə vəziyyətlərində onun mövcudluğunu şərtləndirən başlıca amil rolunda çıxış etmişdir.

Bu günə qədər təkamül prosesi davam edən trans-Avrasiya kommunikasiya sisteminin ilk təməlləri Böyük İpək Yolu fəaliyyətə başlamazdan xeyli əvvəl – e.ə. IV-III minillikdə qoyulmuşdu. Hələ o zaman Mesopotamiya və Elamdan Hind vadisinə və Pamir dağlarının ətəklərinə qədər uzanan yollar məlum idi. Bu yollarla Yaxın Şərq ölkələrinin tacirləri Bədəxşan lazuriti daşıyırdılar. Bəşəriyyətin ən qədim sivilizasiya məskənləri sayılan Harappa və Mohenco-Daronu Çayarasına – Mesopotamiyaya birləşdirən cənubi karvan yolları var idi. Mesopotamiya ilə Hind vadisinin mədəni mərkəzləri arasındakı ticarəti öz əllərində cəmləmiş elamlılar b.e.ə. IV-III minilliklərdə Orta Şərqdə şəhərəqədərki və ilkşəhər mərkəzlərini bir-birinə bağlayan çoxşaxəli kommunikasiya şəbəkəsini yaratmışdılar.




*Böyük İpək Yolu. E.ə. 300 – b.e.100*

Ümumiyyətlə, Avrasiya boyunca köçəri xalqların mədəniyyətini, ilk sivilizasiya məskənlərini qarşılıqlı əlaqələr səviyyəsinə çatdıraraq, onların ticarət və təcrübə mübadiləsinə şərait yaradan qədim karvan yolları, bu imkanların getdikcə genişlənməsi nəticəsində daha çox şəbəkələnir, xalqlar, toplumlar bir-birini daha yaxından tanıyır, onlar ticari-mədəni əlaqələrində bir-birinə daha çox etibar edirdilər. Avrasiya kontinentinin müxtəlif istiqamətləri üzrə şaxələnən bu yollar bəzən lap təsadüfi, bələdçilik xarakteri daşıyırdı. Lakin həmin yolların daimi istifadə olunanları, uzun zamanlar ərzində coğrafi-mədəni məkanları bir-birinə bağlayanları "vərdiş edilmiş istiqamətlər üzrə" daha çox nüfuz və etibar qazanırdı. Beləliklə, bu yolların içərisindən onların magistral xətləri müəyyənləşirdi. Böyük İpək Yolu mahiyyətcə məhz belə bir tarixi zərurət nəticəsində meydana gəlmiş, yüzilliklər boyu genişlənə-genişlənə, yeni-yeni siyasi-coğrafi sərhədləri aşa-aşa, Avrasiyanın həm tarixi, həm də geopolitik baxımdan ən əhəmiyyətli yolu statusunu almışdır (272).

Böyük İpək Yolunun "Şimal İpək yolu" adlanan ilk hissəsinin ticarət məqsədilə yarandığı dövr e.ə. 138-126-cı illərə aid edilir. Çin imperatoru U-di o zamanlar Mərkəzi Asiyanın hegemon etnosiyasi qüvvəsi olan hun türklərinə qarşı onların düşmənlərindən – yu-eçjilərdən faydalanmaq, onlarla koalisiya yaratmaq fikrinə düşür. Bu məqsədlə özünün əyan-diplomatı Çjan Tsanı həmin regionun qərb hissəsində köçəri həyat tərzi keçirən yu-eçjilərin yanına göndərir. Çin elçisinin Fərqanə vadisində gördüyü atların Çində olduğundan daha gözəl və daha hündür olması onu heyrətə salmışdı. Qayıdarkən öz imperatoruna bu barədə məlumat verir və məsləhət görür ki, ipəkçilik sənətinin nə olduğunu bilməyən bu diyara ipək aparıb, əvəzində oradan o gözəl atları, eyni zamanda, dadlı meyvələri, şərabı və başqa məmulatları gətirmək olar. Beləcə, 5 ildən sonra – e.ə. 121-ci ildə Çin dövlətinin ipək və gümüş haşiyəli güzgülər yüklənmiş ilk ticarət karvanı Mərkəzi Asiyanın hələ təzə cığırı açılan çətin yollarından keçərək Fərqanə vadisinə çatır. Bu ölkələr arasında

sülh razılaşması əldə olunandan sonra ticarətin ilk dövriyyəsi həm buradan, həm də mövcud yola paralel marşrutla – Cənub İpək Yolu üzərindən başlayır. Daha sonrakı əsrlərdə Böyük İpək Yolunun alternativ istiqamətləri – Hind-Roma ticarət əlaqələrini təmin edən Dəniz İpək yolu (Hind okeanı vasitəslə) və s. yaranır.

Bizim eranın elə I əsrindən başlayaraq, əsasən, İpək yolu vasitəsilə Avrasiya sivilizasiyaları arasında sistematik ticarət münasibətləri qurulmuşdur. Bu münasibətlər inkişaf etmiş infrastruktur əlaqələrinə malik olan müəyyən çoxşaxəli ünsiyyət formalarını meydana gətirmişdir. Əsrlər boyu əkinçilik təsərrüfatında istifadə olunan mallara ehtiyac duyan Avrasiya çöllərinin köçəriləri ticarət-mübadilə əməliyyatlarının fəal iştirakçıları olmuşlar. Onlar Avrasiyanın əlverişli bölgələrində yerləşərək, Çindən Mərkəzi Avropaya qədər bütün sivilizasiya ocaqları ilə kontakta girmişlər. İpək yolunun Şimal və Cənub (quru və dəniz) marşrutları, müvafiq olaraq, Mərkəzi Asiya – Aralıq dənizi hövzəsi və Çin – Şərqi Türküstan – Aralıq dənizi hövzəsi istiqamətləri üzrə funksionallaşmışdır. Belə bir diferensiasiyanın səbəbi, əlbəttə, Avrasiya kontinentindəki siyasi situasiyanın daim ciddi və köklü şəkildə dəyişikliklərə uğraması ilə izah edilə bilər.




*Türklərin Avrasiya dominantlığı epoxasında mühüm ticarət yollarının əsas şəbəkəsi*

Hələ qədim dünya və onun mübadilə mədəniyyəti hərəkətdən qalmamaq, ticarəti davam etdirmək üçün həmişə özünə alternativ yollar axtarmışdır. Böyük İpək yolu məhz siyasi və iqtisadi manevr qabiliyyətləri sayəsində fəaliyyətini bəzi intervallarla da olsa, davam etdirə bilmişdir.

Böyük İpək yoluna tarixi kontekstdə baxsaq, görərik ki, bu yolun əsas marşrutları ilə bəşər sivilizasiyasının öz inkişafında əldə etdiyi bütün mütərəqqi yeniliklərin nümunələri, maddi və mənəvi nemətlərin çeşidləri (ipək, qiymətli daş-qaşlar, ədviyyat, dəri, yun və digər toxuculuq məmulatları, kağız, çini qablar, şüşə, çay, şərab, düyü, bitki və meyvə toxumları, geyimlər, parçalar və bəzəklər, kosmetika, silahlar və kitablar, əlyazmaları və dini rəmzlər, ornamentlər, insan fəaliyyətində istifadə olunan bütün alət, ləvazimat və avadanlıqlar, hətta ov itləri, ov şahinləri, tutuquşu, bəbir və şir, nəhayət, canlı insanlar – qullar) daşınmışdır. Bu yol üzərindəki karvansaralar, ticarət aparılan şəhərlər, alınıb-satılan mallar, tədavüldə olan pullar, ünsiyyət yaradan dillər, ticarət yollarına nəzarət edən dövlət və imperiyalar dəyişmiş, yeniləri ilə əvəz olunmuşdur. Ancaq ticarət-mübadilə mədəniyyətinin bir “qızıl qaydası” dəyişməz olaraq qalmışdır: insanlar və dövlətlər bütün tarixi zamanlarda qarşılıqlı münasibətlərin daha yüksək səviyyəsinə, geniş miqyasına qalxmağa, bir-birini daha dərindən tanımağa, malik olduqları ən yaxşı maddi və mənəvi nemətləri bir-biri ilə bölüşməyə, nəticədə, istehsal və istehlak mədəniyyətinin daha optimal texnologiyalarına yiyələnməyə çalışmışlar. Bütün bunlar ümumbəşəri dəyərləri formalaşdıran əsas stimullar olmuşdur. Beləliklə, bu gün müasir dünyada qlobal sivilizasiyanın qazandığı başlıca universal nailiyyətlərin kökündə həm də Böyük İpək Yolu mədəniyyəti dayanır.

Türk dünyasının Böyük İpək Yolu ilə orqanik bağlılığı, başlıca olaraq, təbii-coğrafi, siyasi-iqtisadi və mədəni-interaktiv amillərlə şərtlənmişdir: Böyük İpək Yolu üzərində aparılan ticarət və mədəniyyət əlaqələrinin əsas tərəfdaşı, iştirakçısı, həm də

təşkilatçısı və ortağı (türkcə "ortaq" sözü həmin dövrlərin bütün xalqları tərəfindən başa düşülür və işlədilirdi) uzun tarixi zamanlar ərzində türklər olmuşlar. Türk dövlətləri və imperiyaları Böyük İpək Yolunun trans-Avrasiya kommunikasiya sistemi kimi funksionallaşmasının tarixi missiyasını həyata keçirmiş, bu yolun iki min iki yüz illik tarixinin əhəmiyyətli kəsimində və müəyyən regional hüdudlarda ona nəzarəti öz əllərində saxlamışlar (407). İpək yolu siyasəti – türk sivilizasiyasının və siyasi mədəniyyətinin fundamental dəyərləri sırasında yer almışdır. İpək yolu – türk dünyagörüşünün universallaşmasına, türklərin hərbi-siyasi bacarığı isə İpək yolunun vüsətlənməsinə və tərəqqisinə yol açmışdır.

Minilliklərin sivilizasiya yaddaşını və dəyərlərini özündə yaşadan Böyük İpək yolu, həqiqətən də, bəşəriyyətin inkişafında əhəmiyyətli rol oynamışdır. Bu yol yaxın-uzaq ölkələr arasında zaman-zaman təkcə mal-əmtəə mübadiləsini deyil, həm də innovasiya və texnologiyaların, din, elm, incəsənət sahəsində əldə olunmuş nailiyyətlərin ötürülməsini təmin etmişdir. Dünyanın bu ən uzunömürlü transsivilizasiya xətti yalnız Şərqdən Qərbə deyil, həm də əks istiqamətə doğru ticarət məqsədlərini həyata keçirmiş, Avropanın bir çox yeniliklərini Şərq cəmiyyətlərinə gətirmişdir. Ümumiyyətlə, Böyük İpək Yolu yeni dövrə qədər dünya xalqları və dövlətlərinin iqtisadi və mədəni inteqrasiyasını həyata keçirərək, onların kifayət qədər zəngin qarşılıqlı əlaqələr təcrübəsi ilə bugünkü qloballaşma hərəkatında da iştirakını motivləşdirən davamlı tarixi-mədəni prosesləri öz taleyində yaşamışdır. Böyük İpək Yolu Şərqi Qərbə, Qərbi də Şərqə daxili mahiyyətinə və özünəməxsus struktur keyfiyyətlərinin kompleksinə görə dərindən tanıtmışdır.

Buna görə də qloballaşma proseslərinin zəruri aktı kimi ikinci və üçüncü minilliyi kəsişdirən bu günkü tarixi epoxada Böyük İpək Yolu ideyası müasir nəqliyyat texnologiyalarının yüksək səviyyəsi bazasında yenidən bərpa edilmək imkanları əl-

də etməkdədir: hazırda "Yeni İpək Yolu" – tarixi "Böyük İpək Yolunun" bərpası olaraq, TRASEKA (Avropa – Qafqaz – Asiya Nəqliyyat Dəhlizi) layihəsi çərçivəsində həyata keçirilir.




*XXI əsr.*
*TRASEKA layihəsi üzrə türk respublikalarından keçən Yeni İpək Yolu*

# TÜRK DİPLOMATİYASI

Beynəlxalq münasibətlər tarixində hunlardan sonra yalnız onların varisi olan türklər Avrasiyanın Çin imperiyasından Roma imperiyasına qədər narahat geopolitik məkanında hərbi, siyasi və diplomatik manevrlər edərək və bu məkanın xalqları və dövlətləri arasında avanqard rolunu oynayaraq, həmin münasibətlər üçün ən vacib şərt olan "birləşdirici bağ" funksiyasını dövrün reallıqları və imkanları çərçivəsində, ilkin qazanılan və artan təcrübələr əsasında yerinə yetirmişlər. Erkən orta əsrlərdə türk etnosiyasi sisteminin inkişafı nəticəsində meydana çıxmış bir türksoylu dövlətin sürətlə böyüyərək bütün Avrasiyanın mərkəzini əhatə edən böyük Göy Türk imperiyasına çevrilməsi tarixi faktdır. 14 milyon kv.km-lik bir ərazidə yerləşən Göy Türk imperiyası Avrasiya dövlətləri ilə hərbi, siyasi və diplomatik münasibətlərində məhz öz milli mənafelərini və geopolitik tarazlığı hədəfləyən dinamik və çoxistiqamətli siyasət yürütmüşdür.

Bu gün dünya tarixşünaslığının əlində Göy Türk imperiyasına dair, əsasən, iki qaynaq vardır: Orhon abidələri və Çin salnamələri. Dövrün hadisələrini təsvir etmək baxımından onların analogiyası bir-birindəki faktları, demək olar ki, təsdiq edir. Türklərin öz dillərində, öz əlifbaları ilə bütün türksoylular üçün bir manifest olaraq yaratdıqları Orhon abidələri erkən orta əsrlərin real tarixi mənzərəsini təsəvvür etmək baxımından da müstəsna əhəmiyyətə malikdir: İki Göytürk qardaşının – Bumın və İstemi kağanların 552-ci ildə əsasını qoyduğu Göy Türk imperiyası Pekinlə Konstantinopol (indiki İstanbul) arasındakı nəhəng coğrafi məkanda siyasi-diplomatik münasibətlər quran qüdrətli Avrasiya türk dövləti olmuşdur. Bu imperiya tarixdə

türk birliyinin əzəmətini təcəssüm etdirən ən parlaq nümunədir. Bu birliyin pozulması türkləri həmişə belə məqam üçün fürsət gözləyən Çin dövlətinin əsarəti altına atmışdı (630-680-ci illər). Lakin yarım əsrlik əsarət dövründən sonra yenidən türk birliyi özünü tapmışdı. Göytürklər buna yenə də həmin kağanların nəsil və ideya varisləri İlteriş kağan, Qapağan kağan, Bilgə kağan, Köl tiqin və Tonyukukun sayəsində müyəssər olmuşdular. Onlar Çin hökmranlığına qarşı üsyan və müharibələrlə yenidən öz azadlıqlarını əldə etmiş və sürətlə toparlanıb Göy Türk dövlətinin sütunlarını yenidən qurmuşlar.

Avrasiyanın Yapon dənizindən Xəzər dənizinə qədər uzanan bu ən qüdrətli imperiyası 552-745-ci illər arasında mövcud olmuş, sanki böyük Hun ənənəsini (Şərqi və Qərbi Hun imperiya dixotomiyası) davam etdirərək, türk qardaşlarının – Bumın Kağanın hökmdarlığı ilə Şərqi Göy Türk Kağanlığına (552-640-cı illər) və İstemi Kağanın hökmdarlığı ilə Qərbi Göy Türk Kağanlığına (552-660-cı illər) budaqlanmışdır. Xüsusilə İstemi Kağan hun-türk varisliyini özünəməxsus birləşdirici siyasi-ideoloji platformada davam etdirməyə səy göstərmiş, imkan verməmişdir ki, Avrasiyanın türk superetnosu içəridən çatlasın və onun "süxurlarına" yad-dağıdıcı elementlər dolsun. Şərqi Türk Kağanlığının siyasəti və ordusu – Çin imperiyasına qarşı, Qərbi Göy Türk Kağanlığının siyasəti və ordusu isə – Sasani imperiyasına, Xəzər və Qara dəniz bölgəsindən gözlənilən təhlükələrə qarşı daim ayıq dayanmışdır.

Türklərin hərbi fatehlik əzmi də onların geopolitik reallığı aydın şəkildə dərk etmələrindən və həmin reallığa adekvat hərəkət etmələrindən ibarət olmuşdur: əgər onların böyük torpaqları fəth etmək uğrunda apardıqları hərbi yürüşlər siyasi-diplomatik səylərlə başa çatdırılmasaydı, onlar bu ərazilərdə davamlı şəkildə duruş gətirə bilməz, istinad-torpaqlarını da əldən verərdilər. Türklərin hərbi fatehliyinin siyasi fatehliklə uzlaşması – onların mükəmməl imperiyaçılıq qabiliyyətinin əsas şərti olmuşdur. Belə bir qabiliyyətlə Göy Türk imperiyası qonşu ölkələrlə və hətta

uzaq məmləkətlərlə öz məqsədlərinə uyğun münasibətlər qurmuşdur. Xüsusilə cənub və qərb istiqamətlərində o dövrün ən böyük siyasi gücü olan Sasani və Bizans imperiyaları ilə diplomatik əlaqələr mövcud geosiyasi prosesləri idarə etmək üçün türklərə çox lazım idi.

Göy Türk imperiyası qonşu dövlətlərlə fəal müharibə və diplomatiya dilində danışa bilmiş, xalqının həm sülh, həm də savaş şəraitində yaşaması və amansız mübarizələrdən qalib çıxması üçün bütün vasitələrdən məharətlə istifadə etməyi, regionun siyasi dəstəklərini əlində saxlamağı bacarmışdır. Məsələn, 726-cı ildə Tibet dövləti Göy Türk dövlətini Çin əleyhinə ittifaqa çağırsa da, dövlətin müdrik başçısı Bilgə Kağan bundan imtina edir. Sonrakı proseslər də göstərir ki, hökmdar düzgün hərəkət etmişdir: əgər o təklifə razılıq versəymiş, bu uzun sürən müharibəyə, tibetlilərlə müttəfiqlikdə geriləməyə və təbii ki, dövlətin özünü lüzumsuz çətinliklər qarşısında qoymasına səbəb olacaqmış.

Avrasiyada türk superetnosunun böyük hərbi-siyasi gücü kimi təşəkkül tapan göytürklərin dominantlığı Böyük İpək Yolunun hüdudlarını Qara dəniz və Aralıq dənizi regionlarına qə-




*Yüzilliklər boyu türk diplomatiyası Avrasiya dövlətlərinin münasibətlərini tənzimləyən əsas siyasi vasitə və amil olmuşdur.*

dər genişləndirmişdir. Çin mallarını Mərkəzi Asiyada və Türküstanda məşhurlaşdıran soqdiyalı tacirbaşı Maniyaxın təklifi əsasında Göy Türk imperiyasının səfiri Sizabu 571-ci ildə ilk dəfə olaraq Qərblə siyasət, diplomatiya və ticarət sahəsində danışıqlar aparmaq üçün Bizansa göndərilmişdir. Bizans səfiri Zemarx da dövlətinin türklərlə siyasi və ticari münasibətlər yaratmaq missiyası ilə elə həmin marşrut üzrə türklərin yanına yollanmışdır. Bununla da, türklər Böyük İpək Yolu diplomatiyasının əsasını qoymuşlar. Böyük İpək Yolunun "qızıl əsri" bu zamandan başlamışdır. Çin ipəyi digər mallarla birgə məhz türklərin hərbi-siyasi zəmanəti altında Bizansa, buradan da Avropanın digər ölkələrinə aparılmışdır.

Bu elə bir dövr idi ki, müharibə, dövlətin öz hərbi üstünlüyünü nümayiş etdirməsi ilə yanaşı, həm də köçəri və oturaq sivilizasiyalar arasında sonrakı sülh proseslərini şərtləndirirdi: türklər isə praktikada bu prinsipi tam ölçüdə reallaşdırmışlar. VI-VIII əsrlərdə Göy Türk imperiyası Uzaq Şərqlə Aralıq dənizi regionunu birləşdirən ticarət yollarına nəzarəti öz əllərində saxlaya bilmişdir. O dövrün aparıcı dövlətləri – Bizans, Çin və Sasani imperiyaları Böyük İpək Yolu siyasətini Göy Türk imperiyası ilə uzlaşdıraraq həyata keçirməli idilər. Türk (və ya Göy Türk) imperiyasının Avrasiyada yaratdığı geolopitik durum Soqdi tacirləri vasitəsilə Çin mallarının Avropaya çatdırılmasını mümkün edirdi. Sonradan, qeyd etdiyimiz kimi, bu imperiya Şərqi Göy Türk Kağanlığına və Qərbi Göy Türk Kağanlığına bölünsə də, türklər (cənub istiqamətində oğuzlar, şimal istiqamətində bulqar, xəzər və uyğurlar) həmin tarixi dövrün aparıcı sivilizasiya mərkəzləri arasında ticari-mədəni əlaqələrin əsas determinantları olaraq qalırdılar.

Ümumiyyətlə, daha intensiv olaraq təqribən 600-1000-ci illər civarında Avrasiyanın şərqi ilə qərbi arasında – Yaponiyadan Britaniyaya qədər məsafədə orta əsrlər ticarətinin əsas nəqliyyat strukturu kimi təşəkkül tapmış Böyük İpək Yolunun üzərində yerləşən müxtəlif ölkələrin şəhərlərindəki "ticarət depoları"

özünəməxsus reqlament əsasında fəaliyyət göstərmişdir. Böyük İpək Yolu sferasına daxil olan ölkə, vilayət və şəhərlər inkişaf etmişdir. Avrasiya ipək ticarəti bazarının transformasiyası daha geniş və çoxtərəfli iqtisadi münasibətlərin formalaşmasına zəmin yaratmışdır. Orta əsr şəhərlərində o zamankı beynəlxalq ticarətin tələbatına uyğun olaraq, spesifik istehsal və təsərrüfat sahələri yaranmışdır. Beynəlxalq siyasətdə hərbi qüdrətlə yanaşı, iqtisadi potensial, ölkə əhalisinin yaşayış səviyyəsi və bu səviyyəyə, vergi ödəmə qabiliyyətinə uyğun olaraq, dövlətin maliyyə əsasları getdikcə daha ciddi amilə çevrilmişdir. Ölkələr, şəhərlər, ticarət mərkəzləri arasında rəqabət meydanı da genişlənmişdir. Bu səbəbdən də daha qüdrətli dövlətlər Böyük İpək Yolu uğrunda mübarizədə xüsusilə diplomatik planda önə çıxmağa çalışmışlar. Çünki ticarət öz təbii mahiyyətinə görə müharibə yox, sülh şəraiti tələb edir. Türklər isə hərb siyasəti kimi, sülh siyasətinin də diplomatik vasitələrini hərəkət etdirə bildiklərindən belə uzun dövrdə bütün imperiyalardan daha çox bu tarixi missiyaya sahib ola bilmişlər.

Türk diplomatiyasının bir mühüm tarixi faktı da bundan ibarətdir ki, türklər dövlətçiliklə yanaşı, həm də mükəmməl salnaməçilik və bürokratik dəftərxana təcrübəsinə malik olan çinlilərdən yararlanmışlar. Belə ki, klassik Orhon abidələrindən biri – "Köl tiqin" daş monumentinin qərb üzündəki Çincə hissəsini Tanq imperatoru Hiuan Tsonqun qardaşı oğlu, ordu başçısı Çanq Sengün yazmışdır. Mətn qonşu ölkənin yüksək diplomatik səviyyədə ifadə olunan dostluq münasibətlərinin ifadəsidir. Diqqət çəkən faktdır ki, türkcədə və Çin dilində mətnlər bəzi məqamlarına görə tamamilə ziddiyyət təşkil edir. Çin dilindəki mətn, qeyd etdiyimiz kimi, mehriban qonşuluq münasibətlərinə köklənibsə, türkcə yazılmış mətndə isə Çinin türk dövlətinə qarşı hiyləgər və dağıdıcı münasibəti açıq şəkildə bəyan edilib. Əlbəttə, Bilgə Kağan Çin dilində yazılan mətnin quruluşuna tam bələd idi. Çünki abidə onun ideyasının bəhrəsidir. Lakin, görünür, o, bilərəkdən, həm də görk olsun deyə, bu mətnlər arasındakı fərqi saxlayır. Yəni

türk həmişə ayıq olsun ki, Çin siyasəti və diplomatiyası hətta belə mehriban qonşuluq münasibətlərinin bərqərar olduğu bir zamanda da öz gizli niyyətlərini həyata keçirə bilər. Sonrakı tarixi proseslər də göstərir ki, Bilgə Kağan həqiqətən haqlı imiş. Bilgə Kağanın ölümündən sonra, onun oğlu və bu mətnlərin yazarı Yolluq tiqin Kağanlığın yekdil rəyi ilə hökmdarlığa yiyələnir. Onun da ölümü səbəbilə, oğlu – Tenqri xan titulu qazanmış Bilgə Kutluq xan hakimiyyətə gəlir və Çinə öz səfirini göndərir. Cəmi 6 il keçdikdən sonra – 745-ci ildə imperiyanın tərkibindəki türksoylu uyğurlar Çinlə ittifaqa girərək Şərqi Göy Türk imperiyasına son qoyur və öz Kağanlıqlarını yaradırlar. Sonrakı yüzilliklərdə getdikcə milli dövlətçilik ənənəsindən və ideologiyalarından uzaqlaşmış və "köhnə müttəfiqləri" Çinin amansız basqılarına məruz qalmış Uyğur imperiyası da çökür. Bu gün Çinin tərkibində yaşayan və Çin rejimi tərəfindən etnik-siyasi diskriminasiyaya məruz qalan uyğurlar bu tarixi səhvin qurbanlarıdır və onlar bunu etiraf edirlər. Geniş tarixi planda nəzər yetirsək görərik ki, Çinlə siyasi münasibətlərin bütün səviyyələrində türklər həmişə bunu nəzərə almışlar ki, Çinin "ipək sivilizasiyasının" var-dövlətinə, dəyişkən diplomatiyasına aldanmaq olmaz.

Beynəlxalq münasibətlərdə türk siyasəti və diplomatiyasının ən intensiv və universal mərhələsi ikinci minilliyin orta yüzilliklərinə təsadüf edir.

Avropa, Asiya və Afrika kontinentlərinin bütün qədim sivilizasiyalarının yarandığı regionları çevrələyən və xüsusilə XV-XVI əsrlərdə dünya əhalisinin çox böyük hissəsinin yaşadığı üç əzəmətli türk imperiyası – Osmanlı (1300-1922), Səfəvi (1501-1722) və Moğol imperiyaları (1526-1858) bir-birinə həmsərhəd ərazilərdə planetin siyasi qüdrətini təşkil etmişlər. Bu, türk imperiya dövlətçiliyinin beynəlxalq miqyasda zəfər qazandığı və müasir türk dünyasının qlobal siyasi məkanda hansı tarixi potensiala malik olduğunu göstərən ən yüksək məqamdır.




*Dünyanın universal türk imperiyaları:*
*Osmanlı (1300-1922); Səfəvi (1501-1722); Moğol (1526-1858)*




*Moğol imperiyasının səfiri Çində.*
*Holland səyyahının qrafikası. 1656-cı il*

Lakin nəzərə alınmalıdır ki, həmin tarixi dövrün real mənzərəsindən danışarkən mütləq toxunulan, hətta müəyyən məqsədlərlə qabardılan Osmanlı və Səfəvi imperiyaları arasındakı müharibələr və bundan yaxın-uzaq dövlətlərin sui-istifadə etməsi kimi bir tarixi fakt da var. Həmin dövrün tarixi-siyasi analizi bu həqiqəti meydana çıxarır ki, oğuz boyundan törənən və XVI əsrin əvvəllərində dil və mədəniyyətləri, siyasi özünütəşkil ənənələri arasında hələ heç bir fərq yaranmayan iki türk fövqəldövlətinin diplomatik əlaqələri, demək olar ki, kəsərək, döyüş meydanlarında üz-üzə gəlməsi ən azı onların özlərini regional gərginliyin episentrinə çevirmələri və yürütdükləri beynəlxalq siyasətin istiqamətini genişlənməyə deyil, daralmağa yönəltmələri baxımından reqressiv və uğursuz idi. Türk imperiyaları arasında nifaq yaranması və dünya miqyasında yetişməkdə olan yeni tendensiyanı öncədən görərək öz güclərini birləşdirmək əvəzinə onların bir-birini gücdən salması hadisələrin sonrakı inkişafında türklərin rolunun zəifləməsinə səbəb oldu. XVIII-XIX əsrlərdə beynəlxalq siyasətdə Avropa dominantlığının möhkəmlənməsi, Asiya və Afrika xalqlarının əksəriyyətinin dünya imperializminin müstəmləkəsinə çevrilməsi türk dünyasının dünya miqyaslı siyasətə təsirinin getdikcə azalması ilə müşaiyət olundu. Deməli, məhz bu dönüş məqamında türk imperiya dövlətçiliyinin yeni mərhələyə keçidi istiqamətində həlledici addım atılmalı idi. Lakin orta əsrlərin müharibə siyasətini diplomatiya siyasətindən daha üstün tutan siyasi-hərbi elitası optimal perspektivi görə bilməmiş və nəticədə, bu tənəzzül prosesi Osmanlı imperiyasından başqa bütün türk uluslarının getdikcə dövlətçiliyini itirməsinə, əsasən, Rusiya imperiyasının və digər dövlətlərin tərkibinə daxil edilərək parçalanmasına gətirib çıxarmışdır. Hətta bu çətin dövrdə də türkçülük və milli dövlətçiliklərin bərpası hərəkatı (məsələn, Azərbaycan Xalq Cümhuriyyəti, 1918-1920, qazaxların "Alaş Orda dövləti", 1917-1920) səngiməmişdir.

Ümumtürk siyasəti və diplomatiyasının yeni yüksəliş mərhələsi XX əsrin sonlarından – müstəqil türk respublikalarının

yaranması dövründən başlayır. Üçüncü minilliyin başlanğıcında isə yenidən beynəlxalq siyasətdə güc amilinin önə çıxması, eyni zamanda planetar sabitliyi qoruyub saxlamaq məqsədilə onun ən gərgin münasibətlərdə də özünü çevik diplomatiya ilə tarazlaşdırması açıq şəkildə göstərir ki, türk sivilizasiyasına mənsub olan bu günkü müstəqil türk dövlətləri yalnız vahid siyasi sistem və müttəfiqlik statusunda qloballaşma proseslərinə yön verən güc mərkəzi kimi özünü təsdiq edə bilər. Bu prosesdə çox zəngin dövlətçilik və siyasi diplomatiya ənənəsi olan Türkiyə Cümhuriyyətinin həmin gənc suveren dövlətlərlə çiyin-çiyinə və eyni strateji mövqedə dayanması xüsusi əhəmiyyət kəsb edir. Türkiyə dövlətlərarası münasibətlərdə soyuqluğu və durğunluğu aradan götürəcək, mühüm dəyişikliklərə yol açacaq təşəbbüsləri inandırıcı şəkildə həyata keçirməklə, həqiqətən, dünya və region üçün "gərəkli dövlət" olduğunu getdikcə daha çox təzahür etdirə bilər.

Siyasətin diplomatiya pərdəsi arxasında bu gün də *"Divide et empire!"* ("Parçala və hökmranlıq et!") kimi riyakar məqsədlərin gizləndiyi sirr deyildir. Dünya siyasətində "qlobal güc" amili hələ də dominant olaraq qalır (322, s.3-4). Müasir türk dövlətləri isə bu siyasətin həm həssas diplomatiya xəttini yeritməkdə, həm onun sərt "realpolitik" tendensiyası ilə davranmaqda, həm də bunların arasındakı müxtəlif siyasi manevrlərin palitrasına sahib olmaqda məharət göstərirlər. Onlar Avrasiyada hansı maraqların necə çarpazlaşdığını görür və adekvat addımlar ataraq, strateji məqsədlərində düzgün trayektoriyaları müəyyənləşdirməyə, ardıcıl siyasi xətlə hərəkət etməyə çalışırlar. Hazırda beynəlxalq türk diplomatiyasının fəaliyyət mexanizmləri və prinsiplərinin müəyyən edilməsi prosesi gedir.

İyirmi birinci əsrin ilk on beş ili türk dövlətlərinin münasibətlərini strateji müttəfiqlik müstəvisinə gətirilməsi yolunda müstəsna tarixi dövrdür. Bu mərhələdə türk regionu dövlətləri arasında əlaqələrin sistemliliyi yaranmış, hətta müəyyən "soyuq nöqtələrə" belə "diplomatik hərarət" gətirilmiş, türk siyasi liderləri müxtəlif formatlarda öz daxili problemlərini

birlikdə müzakirə etməyə başlamış, tarixi bir zərurətlə türk parlamentarizminə start verilmişdir. Türkdilli Dövlətlərin Parlament Assambleyasının (TÜRKPA) əsas məqsədləri – parlamentlərarası əməkdaşlığın keyfiyyətcə yeni mərhələsi olan parlament diplomatiyası vasitəsilə dövlətlər arasında siyasi dialoqun daha da inkişaf etdirilməsini təmin etməkdən ibarətdir.

Bu gün Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Şimali Kipr Türk Respublikası öz aralarındakı ikitərəfli və çoxtərəfli münasibətlərin, strateji müttəfiqliyin ən yüksək səviyyəsini bütün istiqamətlərdə əldə etməyə, həmin münasibətlərdə ortaya çıxan hər hansı problemi qeyri-türk dövlətlərinin müdaxiləsi olmadan ümumi konsensus əsasında həll etməyə, türk diplomatiyasının üstünlüyünü, çevikliyini və demokratizmini ilkin olaraq bu taktiki planda həyata keçirməyə, strateji planda isə həmin konsensus mövqeyini beynəlxalq siyasətin aparıcı tendensiyaları ilə uzlaşdırmağa çalışır.

# TÜRKLƏR VƏ İSLAM

Uzun əsrlər boyu türk xalqları və dövlətləri böyük Avrasiya məkanında hətta kiçik etnosları belə özlərinin müttəfiqlərinə çevirərək, çoxetnoslu və çoxmillətli sosial-siyasi sistemləri, tanrıçıqlıqdan islama qədər müxtəlif dünyagörüşü və etiqadların tolerant mühitini, çoxdilli və çoxdinli cəmiyyətlərin siyasi idarəetmə təsisatlarını formalaşdıra bilmişlər. Türklər özləri ən qədim zamanlardan arxaik dini inanc olan tanrıçılığa etiqad etmişlər (60; 93). “Tenqri” (Tanrı) mənşəli Göy Türk dövlətinin kağanı və onun ulusu (xalqı) etiqadlarına görə səma, göy, Tanrı ilə bağlı olmuşlar. Onlar yer üzündəki vəzifələrini ilahi iradənin onlara verdiyi missiya kimi yerinə yetirmişlər. “Tenqri” tərəfindən Bumın və İstemi atalara əmanət edilmiş bu Kağanlığın başlıca məqsədi – öz xalqını və onun “törəsini” qorumaqdır, bu əsasda milli birliyi daim möhkəmləndirərək sarsılmaz etməkdir. Deməli, tanrıçılığın siyasi və ulusal motivi kifayət qədər qabarıqdır. Türklər qədim arilər, misirlilər, antik yunanlar, romalılar və çağdaşları olan digər xalqlar kimi, çoxallahlılıq inancının nəticəsi olaraq “Tanrılar” yox, həmişə “Tanrı” demişlər. Heç şübhəsiz, dini dünyagörüşün bu təbii modeli türklərin sonradan tək allaha inam dini olan islamı qəbul etmələrində həlledici amil olmuşdur. İndiyədək də dünyada yaşayan bütün müsəlman-türklər “allah” və “tanrı” sözlərini sinonim kimi işlədir və onların arasında heç bir fərq görmürlər.

İslamı qəbul edən ilk türk ulusu xəzərlər olmuşdur. 723-cü ildə əsasən Şimali Qafqaz bölgəsində yaşayan xəzərlər ilk dəfə döyüş meydanında müsəlman ərəblərlə vuruşmuş və onlara qalib gəlmişlər. Lakin sonradan Əməvilər sülaləsinin xəlifəsi Hişam bin Əbdülməlik dönəmində (724-743) ərəb orduları xəzərləri bu

bölgədən sıxışdırıb çıxarmış, onların bir hissəsi isə islamı qəbul etmişdir. Göy Türk imperiyasının süqut etdiyiillədək (745-ci il) bu imperiyanın tərkibində olan türkeşlər Türküstan bölgəsində ərəblərə dirəniş göstərmişlər. Süqut edən imperiyanın böyük ərazisi şərqdən Çin, qərbdən ərəb xilafətinin işğalı ilə üz-üzə qalmışdır. Türkeşlərdən sonra ərəblərə belə bir müqaviməti karluk türkləri göstərmişlər. 750-ci ildə Əməvi xanədanı yıxılmış, yerinə Abbasilər gəlmişlər. Əməvilərdən fərqli olaraq Abbasilər qeyri-ərəblərə qarşı daha tolerant münasibət bəsləyirdilər. Ona görə də fars və türk hərbçiləri Abbasilər ordusuna cəlb oluna və burada hətta üstün vəzifələrə yüksələ bilirdilər. Ona görə də Çin işğalının təhdidi altında olan karluk türkləri Abbasilərlə müttəfiqliyi qəbul etdilər. 751-ci ildə baş vermiş Talas müharibəsində tarixdə ilk dəfə olaraq türk və müsəlman-ərəb ordusu vahid cəbhədə Çin ordusuna qarşı vuruşaraq ona qalib gəldi. Bu qələbə türk və islam dünyaları arasındakı münasibətlərin qurulmasında və türklərin islam dinini qəbul etməyə başlamasında bir dönüş nöqtəsi olmuşdur. Türk uluslarının əksəriyyətinin müsəlmanlaşması prosesi XI əsrin ortalarına qədər davam etmişdir.

Birinci və ikinci minillikləri qovuşduran bu tarixi mərhələdə türk superetnosunun qıpçaq, bulqar, karluk, uyğur, çuvaş və yakut qollarına mənsub xalqları əsasən Mərkəzi Asiya və ona yaxın regionlarda qalmışdılar. Bu dövrdə türklərin ən mübariz qolu olan oğuzların (onlar XI əsrdə 24 boydan ibarət idilər) Yaxın Şərqə ekspansiyası burada yeni türksoylu dövlətlərin yaranması ilə nəticələnmişdir. Böyük çoxluqla islamı qəbul etmiş türklərin geriyə – Mərkəzi Asiyaya dönüşü Türküstan ərazisində də türk-islam dövlətlərinin təşəkkülünə səbəb olmuşdur. Həmin regionda Qaraxanlılar dövlətinin türk tarixi baxımından önəmi – onun ilk dəfə 940-cı ildə islamı qəbul etməsi və sonradan həm Türküstanda, həm də ərəb ekspansiyasının bütün coğrafiyası boyunca – Xəzər hövzəsindən Anadoluyadək – türk-islam sintezində qurulan türk dövlətlərinə başlanğıc verməsidir.

Avrasiyada həmin tarixi dövrə təsadüf edən qərbə doğru yeni genişlənmə mərhələsində Türklərin islam sivilizasiyasının forpostuna çıxması Böyük İpək Yolunun ticarət strategiyasında da daha həssas manevr bacarıqlarını zəruri etmiş, eyni zamanda, yeni istiqamətlərə çıxış imkanlarını artırmışdır. Böyük İpək Yolunun ərəb dünyasının içərisindən keçən hissələri tədricən türklərin nəzarəti altına alınmışdır. Bu regionda qurulmuş türk-səlcuq dövlətləri ərəb xilafətinin çoxəsrlik hökmranlığına son qoyub, Böyük İpək Yoluna qovuşan ticarət və iqtisadiyyata yeni stimul vermişlər. Yaxın Şərqdə türklərin ərəb dominantlığına son qoyması – parçalanmış islam dünyasının yenidən birləşməsinə şərt olmuşdur. İslam Şərqinin geniş ticarət və mədəniyyət potensialına malik olan şəhərləri və bu şəhərlərin müxtəlif mallarını dünyanın hər yerinə daşıyan peşəkar tacirlər təbəqəsi yaranmışdır. Tarixi qaynaqlardan məlum olur ki, Böyük İpək Yolunun şərq istiqamətinə nəzarət edən səlcuq türkləri bütün millətlərdən olan tacirlərə xüsusi zəmanətlə təhlükəsizlik xidməti göstərərək, orta əsrlərin beynəlxalq ticarət praktikasını davamlı hala gətirmişlər.

Beləliklə, türk superetnosunun bütün Avrasiyaya yayılmış və nəticədə, fərqlilik keyfiyyətləri qazanmış, lakin kökünü saxlamış təməl qatı üzərində orta əsr türk-islam dövlətləri bu kontinentin yeni türk imperiyalarına keçid epoxasını başlatmışdır. Ərəb-islam dünyasının sonuncu imperiya-səltənəti – Abbasi xilafəti süquta uğrayandan sonra, Yaxın və Orta Şərqin fatehi – ərəblər, farslar, bizanslılar deyil, yalnız türklər olmuşlar. Xilafətin çökməsi ilə monqol istilası, demək olar ki, eyni vaxtda başlamışdır. Lakin bu dağıdıcı hərbi yürüşləri ram edən də yenə yalnız türklər olmuşdur. Ekspansiyanın yeni dalğasında monqol axınına qarışan Orta Asiya türk boylarının artıq onlardan əvvəl Yaxın Şərqdə dövlətlər qurmuş türklərin içərisində (monqollarla birlikdə) sürətlə assimilyasiyası burada yeni etnosistemi formalaşdırmışdır. "Dünya tarixində türklər" monoqrafiyasının müəllifi, professor K.V.Findli bu məqama toxunaraq göstərir ki, XI-XIII əsrlərdəki monqol ekspansiyasının istiqamətlənməsində və onun

islam dünyasında dövlət-cəmiyyət quruculuğu fəaliyyətlərinə modifikasiya olmasında həlledici rolu yenə türklər oynamışlar (280).

Türklər – islamı, islam Şərqi isə – türk hökmranlığını qəbul edirdi: türklər din və torpağı eyni vaxtda əldə edirdilər; torpaq üzərində hakimiyyət – dinə, din isə – torpaq üzərində hakimiyyətə dayaq olurdu. Fransız tarixçisi Rene Qrussenin "çöl imperiyaları" adlandırdığı səltənətlərin varisləri – türklər Avrasiyanın bu qaynar nöqtəsində – geopolitik maraqların daha sərt toqquşduğu məkanda bir-biri ilə etnik, siyasi və genealoji əsaslarda bağlı olan müxtəlif dövlətlər yaradır və bu dövlətləri imperiya səviyyəsinə qaldırmağı bacarırdılar (51).

Üç türk imperiyasının – Osmanlı, Səfəvi və Moğolların Asiya hökmranlığı dövrün tarazlı geopolitik strukturunun bərqərar olmasında böyük tarixi əhəmiyyət daşıyırdı. Böyük Moğollar Hindistan yarımadasından Uzaq Şərqi Asiyaya qədər uzanan regionun, xüsusilə Çinlə münasibətlərin, Səfəvilər islam Şərqinin, Osmanlılar isə Avropa və Afrika ilə münasibətlərin əsas yönlərini müəyyən edirdi. Azərbaycan türklərinin Qafqaz və İran regionunda dominant siyasi qüvvəyə çevrilməsində və Azərbaycan Atabəylərinin, Qaraqoyunlu və Ağqoyunluların tarixi-siyasi nailiyyətləri üzərində milli mənşəyə malik olan Azərbaycan dövlətçiliyinin təşəkkül tapmasında Səfəvi imperiyasının həlledici rolu danılmazdır. Səfəvi imperiyası ilə yaxşı əlaqələrə malik olan Moğol imperiyasının yaradıcısı Babur ata tərəfdən Əmir Teymurun, ana tərəfdən isə Çingiz xanın törəməsi idi. Moğol hökmdarı Əkbərin (1556 – 1605) elan etdiyi "Din-i-İlahi" siyasəti çoxmillətli Hindistanda və bu səltənətə daxil olan digər bölgələrdə zəruri konsolidasiyanı uğurla təmin edirdi. Azərbaycanda Şah İsmayıl Xətainin islam ideologiyasına əsaslanan mahiyyətcə milli siyasəti, Hindistanda Babur və Əkbərin dini universallıq siyasəti türk imperiya dövlətçiliyinin praqmatik uzaqgörənliyi idi.

Akademik Rustan Rəhmanəliyev türklərin bu fatehliyini belə mənalandırır: "Türklər üç kontinentdə – Pekin, Dehli, İsfa-




*Türk-islam dövlətləri. 1450-ci il*

han, Dəməşq Bağdad, Qahirə, Konstantinopol (İstanbul) və Əlcəzairdə hakimiyyət taclarını götürərək, əlbəttə, onları itirməmək üçün hərəkətə keçməli idilər. Qeyd etmək lazımdır ki, fəth edilmiş torpaqlarda, hər şeydən əvvəl, o çağadək görünməmiş çiçəklənmə müşahidə olunurdu – elə Tabğaç hakimiyyəti altında olan Çindəki kimi, Səlcuq hakimiyyəti altında olan İrandakı kimi, Məmluk hakimiyyəti altında olan Misirdəki kimi, Böyük Moğol hakimiyyəti altında olan Hindistandakı kimi. O ki qaldı Osmanlı imperiyasına, – o, əvvəl islamın qılıncı, sonra isə qalxanı olan dünyanın əzəmətli türk hökmranlığı idi" (138, s.10). Elə Səlcuq dövründən başlayaraq, bu imperiyanın qurucuları avropalıların Səlib (Xaç) yürüşlərinə qarşı əzmkarlıqla dayanırdılar. Geniş mənada davamlı xristian və islam müharibələrində islam ölkələrini xristian işğallarından qoruyan məhz türklər idi. Katolik Papasının vəd və tələbləri ilə (əslində, hərbi-siyasi məqsədlərlə) Avropa ölkələrindən toplanmış, xristianların "müqəddəs torpaqlarına" 1095-1270-ci illər arasında 9 dəfə hücum çəkən döyüşçü-xaçlılar dönə-dönə islamın "türk siparinə" dəyərək məğlub olur və geri qayıdırdılar. Ona görə də türklər Səlib müharibələrini




*Türk-islam sivilizasiyasına qarşı işğalçı Səlib (Xaç) yürüşləri*
*(1095-1270-ci illər)*

birbaşa təşviq və təşkil edən Bizans imperiyasını birdəfəlik çökdürmüşdülər.

Mövcud olduğu bütün zamanlarda islamın dayağı sayılan Osmanlı imperiyası Qanuni Sultan Süleyman dövründən həm də xilafətin mərkəzinə çevrilmişdi. Yer üzünün bütün müsəlmanları türk hökmdarı Qanuni Sultan Süleymanın xəlifəliyini qəbul etmişdilər. O dövrün sənədlərində türk fatehliyi bu şəkildə öz əksini tapmışdır: “Bu zamandan etibarən, Süleyman bin Səlim xan bin Bayazid xan dinimizi uca mərtəbəyə qaldıraraq, bütün müsəlman ölkələrinə hökmranlıq edir. Heç şübhə yoxdur ki, o, belə bir ali vəkalətlə öz dövrünün sultanıdır... Ərəblərlə birgə bütün Ərəbistan, bütün türklər, kürdlər, farslar, ərəb İraqı, Bağdad, Diyar-Bəkr, bütün Qərb, Əngərüs onun əlindədir. Bütün müsəlmanlar onun rəhbərliyini qəbul edir, çünki o, həqiqətən də, Peyğəmbərin fateh Xəlifəsidir”.

Türk dünyası islam dünyası ilə qovuşandan sonra da ənənəvi türkçülük ideyası zəruri olan dini çalarlar qazansa da, öz

mahiyyətindən uzaqlaşmamışdır: türk birliyi islam birliyi içərisində öz seqmentini yaratmışdır. Məhz bu səbəbdən sufilik kimi fövqəldünya fəlsəfəsi türk fatehliyinə zahirən zidd olsa da, əslində, elə həmin fatehliyin ideologiyası idi. Türklərin fateh-sultanları – Qazi Bürhanəddin, Cahanşah Həqiqi, Şah İsmayıl Xətai, Sultan Süleyman Qanuni sufilik ruhunda poetik əsərlər yazmış və bu əsərlər onların siyasi-dövləti fəaliyyətinin mənəvi-ruhi əsasını təşkil etmişdir. Ümumiyyətlə, türklərin siyasi birlik mədəniyyəti islamın sufilik, şiəlik, bəktaşilik kimi tamamilə fərqli təriqətlərinin üstündə özünü təşkil edə bilmişdi. Bu onu göstərir ki, türk etnosiyasi sistemi islam dünyasının əsas qatını – məfkurə, əxlaq və mənəviyyat qatını fəth etmək üçün məharətlə manevr etməyi bacarmışdır.

İslam Şərqində türk dövlətləri və imperiyalarının ərazisində türk dili başlıca danışıq vasitəsi olsa da, hərçənd bunu da unutmaq olmaz ki, təqribən XIV əsrə qədər türk hökmdarlarının əksəriyyəti öz saraylarında ərəb və fars dillərinə üstünlük vermişlər. Ancaq buna baxmayaraq, çox keçmədən türk dili ən yüksək siyasi-mədəni səviyyədə universal ünsiyyət vasitəsinə çevrilmiş və bu prosesdə təbii şəkildə Şərqin mühüm sivilizasiya dili funksionallığını əldə etmişdir.

Türk tarixi, dili, ədəbiyyatı, incəsənəti həm türklər, həm də qeyri-türklər tərəfindən necə həvəslə və həssaslıqla öyrənilmişsə, türklər özləri də islam dünyasının çoxlaylı ədəbiyyat, incəsənət və mədəniyyətinin inkişafında eləcə böyük maraq və məsuliyyətlə iştirak etmişlər. Türklər ərəb və farsdilli ədəbiyyatın, elmin və ilahiyyatın, fəlsəfə və incəsənətin, ümumən islam mədəniyyətinin tərəqqisində müstəsna rol oynamışlar.

Türk – islam kontaktının yaratdığı güc birliyi Şərq sivilizasiyasına yeni energetik balans gətirmiş, dövlət və din, siyasət və mənəviyyat münasibətlərində müvazilləşmənin effektlərini törətmişdir. Bu – xüsusilə islam Şərqində nəinki mənəvi həyatı, dini-ortodoksal baxışları, həm də sosial-siyasi həyatı əhəmiyyətli

dərəcədə dəyişikliklərə uğradan türk sufiliyinin və irfaniliyinin fəlsəfəsi və praktikasında gerçəkləşmişdir.

Vaxtilə türk imperiyalarının nəzarətində olan Böyük İpək yolu vasitəsilə yaradılmış trans-Avrasiya əlaqələri sonrakı dövrlərdə də Asiya və Avropa sivilizasiyalarının interaksiyasını təmin etmiş, inkişaf etdirmiş və yüksək həddə çatdırmışdır. Türklərin sayəsində Asiya və Avropa arasında təşəkkül tapmış sivilizasiyalararası münasibətlər Asiya və Avropanın müasir qloballaşma epoxasına başlanğıc ola biləcək interaktiv mədəni mühiti formalaşdırmış və genişləndirmişdir. Türk imperiyaları ortaq dəyəryaratma və dəyərpaylaşma üçün Asiya və Avropa sivilizasiyalarına geniş imkanlar açmışlar. Bu imperiyalarda nəinki iki monoteist din – islam və xristianlıq (onların bütün təriqət və məzhəbləri ilə birlikdə), həm də antik çağlardan qalma zərdüştlük, daosizm, nestorianlıq və çox geniş miqyasda buddizm bəşəriyyətin universal həyatının özünəməxsus dini-mədəni sferaları kimi yaşaya və inkişaf edə bilmişdir. Burada dinin ən ibtidai formaları – şamanizm də saxlanılmış, ən ali formaları – ilahiyyat da tərəqqi etmişdir. Əsas cəhət bundan ibarət olmuşdur ki, türklər islamın digər dinlər üzərində mütləq üstünlüyünə, islamı qəbul etmiş millətlərin digər xalqlar üzərində üstünlüyünə təminat yaradan heç bir doktrina yaratmamış və imperiya idarəçiliyində belə bir üstünlük konsepsiyanı heç zaman rəhbər tutmamışlar.

Bu gün də belə bir tolerantlıq türk dünyasında müasir sivilizasiya həyatının tərkib hissəsi, eyni zamanda, siyasi əxlaqın dəyəri kimi qorunub saxlanılır. Məhz türk tarixinin inkişaf məntiqinin nəticəsi olaraq, bu günkü müstəqil türk respublikaları çoxmillətli və çoxdinli dövlətlərdir. Eyni zamanda, əsas dini islam olan türk respublikalarının hamısı – Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan ümumən 57 islamdinli dövlətin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatının üzvüdürlər.

Müvafiq humanitar elmlər üzrə aparılan araşdırmalar da bir daha təsdiq edir ki, Avrasiyanın davamlı dövlətçilik tarixinin

yaradıcıları məhz türklərdir. Hələ islamaqədərki tarixində türklər böyük dövlətçilik mədəniyyətinin, maddi və mənəvi mədəniyyətin, xüsusilə mükəmməl yazı mədəniyyətinin, tranzit texnologiyasının sahibi olmuşlar. Avrasiyanın özünü bütöv qlobal məkan kimi hiss etməsinin tarixi özünüdərki prosesi məhz türk sivilizasiyasının quruluşyaradıcı təbiəti ilə bağlıdır. Buna görə də türk sivilizasiyası həm islamaqədərki tarixi, həm islam dövrü, həm də modern dövrünün ardıcıllığını və inteqral birliyini nəzərdə tutan gələcəkyönlü konseptual yanaşmada öz həqiqi dəyərini almış olur.

# TÜRKLƏR VƏ İMPERİALİZM

Dünya tarixində XVIII əsrin əvvəllərindən XX əsrin ortalarınadək imperializmin ekspansiya və müstəmləkə siyasəti hakim olduğu dövr kimi xarakterizə olunur. Bir fakta xüsusi diqqət yetirmək lazımdır ki, dünyanın siyasi tarixində imperializmin ekspansiya və müstəmləkəçilik siyasətinin genişlənməsi məhz türk dövlət və imperiyalarının zəifləməsi dövründən başlamışdır. Avropa dövlətlərinin planetin digər əraziləri üzərində siyasi quruluş, elmi innovasiya, iqtisadiyyat, sənaye, maliyyə, ordu və donanma gücü parametrlərinə görə tədricən sivilizasiya üstünlükləri qazanması onların öz imperialist siyasətini permanent və yüksələn xətt üzrə həyata keçirməsinə imkan vermişdir. Bu proses – geopolitik mənada Avropanın Asiya, Amerika, Afrika və Avstraliya kontinentləri üzərində, siyasi-sivilizasion mənada isə konkret və birbaşa istiqamət kimi Qərbin Şərq üzərində hökmranlıq əldə etməsi, burada müstəmləkə rejimləri quraraq onları özünə tabe etməsi, həmin ölkələri istismar obyektinə çevirməsi cəhdlərindən ibarət olmuşdur.

Türklərin Avrasiyada dominant olduğu tarixi epoxada (XV – XVIII əsrlər) aralarındakı rəqabət məqamları ilə birlikdə, türk imperiyalarının Avrasiya miqyasında formalaşdırdığı sosial-siyasi sistem beynəlxalq sistemin öncinahı (avanqardı) idi. XVI əsrin əvvəllərində – Qanuni Sultan Süleymanın hakimiyyəti illərində Osmanlı imperiyası öz ərazisini bir neçə milyon kvadrat kilometr artırmışdı. Y.Öztunanın araşdırmalarına görə, Osmanlı imperiyası “bütün türk tarixində o ana qədər rast gəlinməyən bir qüdrətə yüksəlmişdi. Osmanlı dövləti iqtisadi və hərbi gücü baxımından – dəniz qüvvələri də daxil olmaqla – dünyanın bütün qalan dövlətlərinin birgə gücü səviyyəsinə yüksəlmişdi” (77,

s.203). Belə bir yüksəlişi müasir dövrümüzdə yalnız ABŞ-ın dünyadakı mövqe üstünlüyü ilə müqayisə etmək olar.

Dünya tarixində yeniləşmə (modernləşmə) dövrünün başlaması ərəfəsində isə qüdrətli türk imperiyalarının zəifləməsi və çökməsi, milli dövlətlərə, hətta xanlıqlara parçalanması bir çox tarixi-siyasi səbəblərlə şərtlənir. Həmin tarixi dövrdə Avropanı qüvvətləndirən amillər Asiyanı zəiflədən amillərlə üst-üstə düşürdü. Avropa dövlətləri və cəmiyyətlərinin sosial, iqtisadi, siyasi və texnoloji həyatını inqilabi formada dəyişən mütərəqqi hərəkat və təşəbbüslər Asiyada lazımınca dəyərləndirilmədi. Feodal üsul-idarəsinin, monarxiyanın saxlanılması türk imperiyalarında dövlət dayaqlarının qorunması kimi başa düşülürdü. Hətta bu imperiyalar xırda dövlətlərə, xanlıqlara parçalananda da, monarxiya idarəçiliyi, sülalə hakimiyyəti toxunulmaz qalırdı. Bütün dövlət və cəmiyyətin qatı mühafizəkar bir sistemin qapalı nəzarətində qalması, təbii ki, onu labüd tənəzüllə doğru aparırdı. Beləliklə, həmin imperiyaların zamanın modernləşmə tələbləri ilə ayaqlaşa bilməmələri bu səbəblərin başında dayanırdı. Halbuki onlar hələ miladın ikinci minilliyinin başlanğıcından etibarən buna qadir olmuşdular.

Yeniləşən Avropa ilə köhnəliyindən əl çəkməyən Asiyanın – Qərblə Şərqin uzun əsrlər davam edən rəqabəti, təbii ki, ikincinin məğlubiyyəti ilə nəticələndi. Asiyada üç böyük türk imperiyasının çökməsi Avropa imperiya dövlətlərinin güclənməsi ilə eyni vaxta düşür. Səfəvi imperiyası daxili çəkişmələr səbəbindən 1760-cı ildə rəsmən öz mövcudluğuna son qoydu və xanlıqlara parçalandı. Bununla da, 68 il sonra -1828-ci ildə bu qədim Azərbaycan dövlətinin İran və Rusiya imperiyası arasında bölünməsinə şərait yarandı. Göründüyü kimi, bir imperiyanın parçalanması ilə onun ərazilərinin başqa imperiyalar tərəfindən zəbt edilməsi çox qısa tarixi zamanda baş verir.

Tədricən dəniz hökmranlığını ələ keçirən Böyük Britaniya imperiyasının qüvvələri 1764-cü ildə (Səfəvilərin yıxılmasından cəmi dörd il sonra) Hindistan yarımadasına soxularaq Baksar

müharibəsində qalib gəldilər. 1858-ci ildə isə Böyük Britaniya imperiyası bütün Hindistanı zəbt etdi. Moğol imperiyasına da son qoyuldu. Ondan az öncə Rusiya imperiyası Qafqazı və Orta Asiyanı istila etmişdi. Yer üzündə türk dünyasının sonuncu imperiyası olan Osmanlı dövləti də daxili müvazinətini itirmiş, əvvəlki cahanşümul iradəsini göstərə bilməyərək tənəzzül mərhələsinə qədəm qoymuşdu. Beləliklə, tarixin türk hegemon üçlüyünü (Osmanlı, Səfəvi, Moğol) imperializm epoxasının hegemon üçlüyü - Böyük Britaniya, Fransa və Rusiya əvəz etdi.

XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Avrasiyada türk imperiya dövlətlərinin zəifləməsi və Qərb imperializminin qüvvətlənməsi ilə müşayiət olunan proseslərdə Rusiya imperiyasının




*Dünya imperializminin "Böyük Oyun" ("The Great Game") siyasətinin əsas geopolitik məkanı. 1814-cü il*

da Şərqə doğru ekspansiya siyasətinə qoşulması və istilaçılıq səylərində Qərbin özünü də üstələməsi Qafqaz regionunda Azərbaycan dövlətçiliyi üçün ciddi təhlükə yaratmışdı. Bu zaman öz unitarlığını saxlaya bilən Osmanlı imperiyasından başqa Azərbaycan da daxil olmaqla bütün türk torpaqlarının işğalı üçün əlverişli şərait yaranmışdı: Avrasiyanın böyük türk dövlətləri xırda feodal "dövlətçiklərə" – xanlıqlara parçalanıb, özlərini dezinteqrasiya vəziyyətinə salmışdılar. O zaman dünya imperializminin "Böyük Oyun" *("The Great Game")* adlandırılan siyasətinin həyata keçirilməsi üçün real şərait yaranmışdı (327; 219).

Səfəvi imperiyasının (1501-1760) xanlıqlara parçalanmasından sonra İran və Azərbaycan ərazisi XIX əsrin əvvəllərində Rusiya-İran, İngiltərə-İran müharibələrinin meydanına çevrildi. Ümumtürk tarixinin saxtalaşdırılmasının yeni dövrü də elə bu zamandan başlayır: Rusiyaya qarşı vuruşan tərəf, əsasən, Azərbaycan xanlıqları idi, ancaq bu müharibələr rəsmi sənədlərdə "Rusiya-İran müharibələri" adlanırdı. Halbuki bu ərazilərdə Atabəylər dövründən (XI əsr) Səfəvilər dövrünə (XVIII əsr) qədər yalnız türk dövlətləri və imperiyaları mövcud olmuşlar. Qərb dünyası və Rusiya isə həmişə bu faktı ört-basdır etmək üçün, "İran" faktorunu qabartmışlar. Buna görə də Böyük Britaniya və Rusiya imperiyaları bu ərazilər uğrunda bir-biri ilə nə qədər amansız rəqabətdə olsalar da, türk dünyasının geopolitik ərazi bütövlüyünü dağıtmaq siyasətində ortaq məxrəcə gəlirdilər. Onlar yaxşı bilirdilər ki, Osmanlı torpaqları ilə Mərkəzi Asiya regionunu birləşdirən Xəzər dənizinin cənub qövsüdür. Burada – Qafqazdan Türküstana qədər çevrələnən ərazidə isə Azərbaycan yerləşir. Onlar İranı yox, məhz Azərbaycanı – türk dünyasının bu region üzrə bütünlüyünü yaradan Azərbaycanı ələ keçirmək istəyirdilər. Buna 1820-ci illərdə Hindistanın Böyük Britaniyanın müstəmləkəsinə çevrilməsi müqabilində Azərbaycanın şimalını – Cənubi Qafqazın türk torpaqlarını Araz çayına qədər işğal edən Rusiya nail oldu. Azərbaycan xanlıqları ayrı-ayrılıqda Rusiya imperiyasına nə qə-

dər müqavimət göstərsələr də, vahid dövlətçilik mənafelərini müdafiə edə bilmədiklərindən Rusiyanın əsarətinə düşdülər.

Osmanlı imperiyasının Avropada və Qara dəniz hövzəsində zəifləməsi prosesi də bu zamandan etibarən daha da gücləndi. Bundan sonra davam edən təqribən yüz illik dövr türk dövlətlərinin beynəlxalq siyasətə təsir imkanlarını itirərək ən acınacaqlı vəziyyətə düşdüyü, bir-birinə kömək edə bilmədikləri, tamamilə dağınıq vəziyyətə salındıqları, Avrasiya boyunca tarixi düşmənlərinin (çinli, fars, rus, yunan və ermənilərin) bu fürsətdən məharətlə istifadə etdikləri zaman kəsiyidir. Nəticədə, Avropadan tədricən sıxışdırılıb çıxarılan Osmanlı imperiyasından başqa bütün türk dövlətləri “qonşu” imperiyaların, əsasən də Rusiyanın




*1900-cü illər. Artıq Osmanlı imperiyasından başqa bütün türk dövlətləri müstəqilliyini itirmişlər.*

tərkibinə qatılaraq, xanlıqlar kimi dar feodal maraqları üzərində təşəkkül tapan siyasi quruluşlarını da itirdilər. Türk dünyasının Şərqi ilə Qərbini, Şimalı ilə Cənubunu birləşdirən Azərbaycanın bölünməsi – türk dünyasını birləşdirən geolopitik bağın qırılması, bütövlükdə Avrasiyanın dünya imperializminin təsir dairəsinə düşməsi proseslərinə yol açdı.

Müstəmləkə imperializminin dominantları arasındakı ziddiyyətlər XX əsrin əvvəllərində ən kəskin həddinə çatdı və dünyanın yenidən bölüşdürülməsi uğrunda Avropanın aparıcı dövlətləri iki hərbi-siyasi blokda – Antanta (İngiltərə, Fransa, Rusiya imperiyaları) və İttifaq dövlətlərində (Almaniya, Avstriya-Macarıstan, Osmanlı imperiyaları) qütbləşərək Birinci Dünya müharibəsində üz-üzə gəldi. Qlobal qarşıdurmanın əsas tərəfləri Almaniya və Böyük Britaniya idi. O zaman yer kürəsinin bir çox qitələrində, əsasən də, Asiyada geniş müstəmləkələri olan (34 milyon kv.km.) Böyük Britaniya və onun müttəfiqləri müharibə yolu ilə Almaniyanı zəiflətmək, onun da müstəmləkə ərazilərini ələ keçirmək, Avropa üçün ən davamlı təhlükə hesab edilən Osmanlı imperiyasını birdəfəlik çökdürərək, Şərqdə hələ böyük torpaqlara sahib olan bu qocalmış imperiyanın ərazilərini bölüşdürmək niyyətlərini güdürdü. "Antanta"nın üç qüdrətli dövlətindən biri – Rusiya imperiyası da birbaşa Osmanlı dövlətinin maraqlarına zidd olaraq, Qara dəniz bölgəsində daha da möhkəmlənməyə, Balkanlarda, Bosfor və Dardanel boğazlarında öz hökmranlığını yaratmağa, eyni zamanda, getdikcə daha çox Şərqi Avropaya nüfuz etməyə çalışan Almaniyanı iqtisadi və hərbi cəhətdən zəiflətməyə çalışırdı. Böyük güclərin toqquşma arenasında tarixinin ən zəif dövrünü yaşayan Osmanlı imperiyası dünyanın ən qüdrətli dövlətinin – Böyük Britaniyanın və onun müttəfiqlərinin hərbi donanması və orduları ilə məhz öz torpağında – Çanaqqalada üz-üzə qalmışdı. 1915-ci ildə yalnız türk ordusunun böyük rəşadəti sayəsində Çanaqqalada Antantanın birləşmiş qüvvələri məğlubiyyətə uğradıldı. Bununla da, Qərb imperializminin Osmanlını parçalamaq və bu dövlətin varlığına son qoyub Anadolu üzə-

rindən birbaşa Şərqə doğru irəliləmək niyyətləri alt-üst edildi. Eyni zamanda, Çanaqqala savaşındakı qələbə – dünya dövlətlərinin etiraf etdiyi, müstəmləkə imperializmi siyasətinə qarşı dünyanın, eləcə də türk xalqlarının mübarizəsinə başlanğıc və ruh verən həlledici hadisə kimi tarixə yazıldı.

Böyük türk dünyası ilə imperialist qüvvələr arasında qlobal tarixi ziddiyyətin əsas düyün nöqtələrindən biri də türk geopolitik məkanını Şərq və Qərb cinahları üzrə birləşdirən Xəzər hövzəsidir ki, onlar məhz bu birləşdirici bağı həmişə qırmağa çalışmışlar. Həmin bağın ən həssas nöqtəsi isə Xəzər dənizinin cənub qövsü – öncə toxunduğumuz kimi, Rusiya və İran arasında bölüşdürülmüş (1828) Azərbaycanın güzeyidir.

XX əsrin ortalarında Güney Azərbaycan türklərinin başladığı demokratik islahatlar nəinki İran irticasını, həm də İranın zəngin sərvətlərinə sahib olan Böyük Britaniya və Amerika Birləşmiş Ştatlarını ciddi şəkildə narahat edirdi. Onlar birləşərək Azərbaycan milli hökumətinin müstəqil yaşamasına imkan vermədilər. 15000 azərbaycanlı Sovet Azərbaycanına sığınmağa məcbur oldu. Güney Azərbaycan milli-demokratik hərəkatının üçüncü dəfə eyni məqsədlərlə və amansızlıqla yatırılıması ABŞ və Avropa dövlətlərinin islam Şərqində, xüsusilə İranda həyata keçirdiyi imperialist siyasətin nəticəsində baş verdi: onlar neftlə zəngin və Qərbyönlü İranın parçalanmasına heç vəchlə razılıq verməzdilər. Onlar belə bir labüd perspektivi görürdü ki, İranda Güney Azərbaycanın muxtar dövlətə çevrilməsi – onun, təbii olaraq, Sovet Azərbaycanına birləşməsi ilə nəticələnəcək. Bu isə regionun Qərb imperializminə sərf edən geopolitik quruluşunun həlledici dərəcədə dəyişməsi demək idi. 1945-46-cı illər Azərbaycan milli-demokratik hərəkatını Sovet İttifaqı və onun rəhbəri Stalin müdafiə etsə də, sonra bu siyasətdə də istiqamət dəyişdi. Sovet İttifaqı İkinci Dünya müharibəsindəki əsas müttəfiqləri – Amerika Birləşmiş Ştatları və Böyük Britaniya ilə razılaşmalı oldu (502). Tehran rejimi Sovet İttifaqının əleyhinə olsa da, Rusiya İranı və Azərbaycanı yox, Şərqi Avropanı seçdi:

Sovet İttifaqı, özünün "Qərb istehkamını" möhkəmləndirmək üçün Şərqi Avropa dövlətlərinin sosialistləşdirilməsi variantına üstünlük verdi.

Belə bir amili də nəzərdən qaçırmaq olmaz ki, Güney Azərbaycanın muxtar dövlətə çevrilməsi perspektivi şəxsən gürcü əsilli Stalini də narahat etməyə bilməzdi: iki Azərbaycanın birləşməsinə doğru aparan bu prosesin nəticəsində, o zamanın anlayışları ilə desək, Zaqafqaziyada üç müttəfiq respublikanın "geopolitik tarazlığı" pozulurdu: ərazisi və əhalisinə görə xeyli dərəcədə böyüyüb güclənən Azərbaycanın müqabilində Gürcüstan və Ermənistan olduqca kiçik görünəcəkdilər. "Türk komponentinin" Zaqafqaziyada yenidən bu qədər üstünləşməsi reallığı nə Sovet İttifaqına, nə də Qərb imperializminə sərf edirdi. Əgər o zaman hadisələrin cərəyanı Güney Azərbaycanın muxtariyyət qazanması və sonradan Quzey Azərbaycanla birləşməsi prosesinə aparıb çıxarsaydı, deməli, Sovet İttifaqının dağılması ərəfəsində bütöv Azərbaycan müstəqillik əldə etmiş olacaqdı. Beləliklə, məhz elə imperialist çəkişmələrinin nəticəsində Azərbaycan parçalanmış və indiyədək də onun birləşməsinə imkan verilməmişdir.

Dünyanın türk xalqlarının yaşadığı çox geniş coğrafi məkanda son onilliklərə – müstəqilləşmə epoxasına qədər imperializm siyasəti bu və ya digər formada, lakin ardıcıl olaraq yeridilmiş, bu xalqların nəinki ərazilərinə, həm də milli sərvətlərinə, fiziki və intellektual sərvətlərinə sahiblik edilmiş, bütün maddi və mənəvi ehtiyatlar həmin siyasətin nəzarəti altına alınmışdır.

Ümumiyyətlə, Qərb imperializmi müstəmləkəçi-ekspansionist tarixinin bütün mərhələlərində Asiya dövlətlərinin iqtisadiyyatını çökdürmüş, onu yalnız özünə sərf edən şəklə salmış, bu ölkələri özünün ucuz işçi qüvvəsi və xammal bazasına çevirmişdir: 1900-cü ildə beş böyük Avropa dövlətinin – Böyük Britaniya, Almaniya, Fransa, Rusiya və Avstriya-Macarıstanın dünya istehsalında xüsusi çəkisi ABŞ-ın 26,6 %-nə qarşı 51,9 % olmuşdur. Əgər 1492-ci ildə – Kolumb Yeni Dünyanı kəşf

edən dövrdə avropalılar yer kürəsinin cəmi 9%-nə sahib idilərsə, 1801-ci ildə onlar yer kürəsinin üçdə birinə, 1880-ci ildə üçdə ikisinə, 1935-ci ildə isə planetin 70% əhalisinin yaşadığı 85%-nə nəzarət etmişlər. Ancaq XX əsrin ortalarından bu prosesin eniş tempi başlamışdır: Belə ki, Qərb sivilizasiyaları bloku (Şimali Amerika, Qərbi Avropa, Avstraliya və Yeni Zelandiya) dünya iqtisadiyyatında malik olduğu dünya ümumdaxili məhsulunun həcminə görə (ÜDM) 1950-ci ildə 54,5 % payla öz üstünlüyünü təmin etdiyi halda, 2000-ci ildə onların payı 44,6% -dək azalmışdır və XXI əsrin ilk onilliklərində onun daha da azalması (2020-ci ilə qədər 38%) proqnozlaşdırılır.

Əlbətə, bu proses qaçılmaz idi: İkinci Dünya müharibəsinin sonlarından 1960-cı illərə doğru beynəlxalq miqyasda Qərb imperializminin böhranı başlamış və planetin bütün qitələrində milli müstəqillik hərəkatları beynəlxalq siyasi sistemi köklü transformasiyaya uğratmışdır. Birləşmiş Millətlər Təşkilatının (BMT) yaranması ilə dövlətlərarası münasibətlərin beynəlxalq hüquq qaydalarına uyğun qurulması və inkişaf etdirilməsi praktikası formalaşmışdır. Bununla da, dünya hegemonluğu uğrunda mübarizənin forma, metod və üsulları dəyişmişdir. Beynəlxalq siyasi sistemin avanqardını təşkil edən ölkələr istər-istəməz beynəlxalq huüquq normalarına uyğun daha çevik manevrləri işə salmışlar. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında, əsasən, İkinci Dünya müharibəsində qalib gəlmiş ölkələrin təmsil olunması və beynəlxalq siyasi sistemin daha çox onların iradəsindən asılılıq vəziyyətinə gətirilməsi beynəlxalq ədalətin pozulmasına şərait yaradan prosesləri qismən ləngitsə də, dayandırmamışdır.

Dünya imperializminin daxilindəki böyük və kəskin ziddiyyətlərin nəticəsi olan İkinci Dünya müharibəsi və Soyuq Müharibə planet üzərində əks-proseslərin sürətlənməsinə səbəb olmuşdur: dünyada "etnik renessans" güclənmiş, milli müqavimət və müstəqillik hərəkatı genişlənmiş və bu, yeni suveren dövlətlərin yaranması ilə nəticələnmişdir. Belə ki, əgər 1914-cü ildə




*Post-imperium: Sovet İttifaqının dağılmasından sonra*
*5 suveren türk dövləti yaranır. 1991-ci il*

təkcə Avropada 17 müstəqil dövlət var idisə, 1922-ci ildə onların sayı 24-ə, 1930-cu ildə 27-yə, 2000-ci ildə isə 44-ə çatmışdır. Avrasiyanın mərkəzi regionunda müstəqillik qazanan siyasi subyektlər isə – əsasən türk dövlətləri olmuşdur.

Bu gün müstəqil türk dövlətlərinin əməkdaşlıq siyasətinə təhlükə törədə bilən amillər arasında iki zidd tendensiyalı prosesə xüsusilə diqqət yetirmək lazımdır: bir tərəfdən, Avrasiyada hegemonluq iddiasında olan qüvvələrin təxribatı, digər tərəfdən, radikal dini-ideoloji ekstremizmin təxribatı. İkisi də eyni dərəcədə təhlükəlidir: biri hərbi bazalarla, digəri fanatizmi qızışdırmaqla regionu öz təsiri altına almağa çalışır. Onların toqquşması isə bir sıra Yaxın Şərq ölkələrində olduğu kimi dağıdıcı şəkildə təhlükəlidir. Türk dünyası bu toqquşmaların mümkün təsirlərindən özünü qorumağı bacarmalıdır. Türk tarixi ilə birlikdə həm də onun etnopsixologiyasını araşdıran amerikalı tədqiqatçı Hyuc Poupun qeyd etdiyi kimi, türk xarakterinin yaratdığı "Zəka İmperiyası" (452, s.244-259) türk geopolitik regionunda ekspansianizmin hər hansı bir formada təzahür tapmasına imkan

verməməlidir: "türk praqmatizmi" neo-imperializm və neo-teokratiyanın ekspansionist siyasətə xidmət edən təhlükəli çarpazlaşmasının qarşısını qətiyyətlə almağa qadir olduğunu göstərməlidir.

Hazırkı *post-imperium* proseslərində dünya dövlətlərinin *anti-imperium* tendensiyasında birləşmə meylləri beynəlxalq siyasətdə əsl inqilab yaratmaqdadır: planetimiz özünün mütərəqqi təkamül yolu ilə hegemonların dünyasından milli dövlətlərin Dünya Birliyinə çevrilməkdədir. Bu, beynəlxalq siyasətdə həqiqətən dönüşyaradıcı dəyişmədir. Beynəlxalq birliyin suveren siyasi subyektləri də imkan verməməlidir ki, onların birlikyaratma təşəbbüsləri hansısa fövqəlgücün iradəsi altında baş versin.

Avrasiya geopolitikasının tarixi və müasir inkişafı isə elə bir realist mənzərəni və praqmatik münasibəti göz önünə gətirir ki, burada "kənar oyunçuların" Avrasiyanın əsasən türklərin yaşadığı siyasi episentrinə girməsi və onun "mərkəzindən" dünya idarəçiliyinə – neo-imperializmə iddia etməsi süni və məntiqsiz görünür. Bütün tarixi təkamülü, bugünkü siyasi strukturlaşma vəziyyəti və gələcək inkişaf perspektivləri ilə Avrasiya geopolitikası belə bir özünütəsdiq zərurətini yaşayır ki, bu kontinent – avrasiyalıların yalnız öz milli-siyasi iradəsi ilə və qlobal inteqrasiyanın təbii dinamikası ilə quruluş alaraq idarə olunmalıdır. Avrasiya geopolitikasının "əsas yerli oyunçuları" – türklər "gəlmə oyunçuların" diktəsi altına düşməməli, müasir dövrümüzdə yeni əlamətləri ilə təzahür edən neo-imperializmə qarşı müqavimət gücündə səfərbər olmağı bacarmalıdır. Bu sadə həqiqət – Avrasiyanın siyasi mövcudluq və inkişafının əsl məntiqi reallığıdır.

# TÜRKLƏR VƏ MODERNLƏŞMƏ

Türklər qədim zamanlardan dünyanın üstün dəyərlərinə sahib olmağa – onları yaratmağa və mənimsəməyə çalışmışlar. Dünyanın modernləşməyə qədərki siyasi tarixində ümumtürk genealoji əsaslarına malik imperiyaların daim tərəqqiyə və təkmilləşməyə doğru təkamülü onları həmin tarixin yaradıcı qüvvəsinə çevirmişdir. Türk tarixi üzrə görkəmli Amerika alimi, professor K.V.Findlinin fikrincə, "təqribən 1400 – 1800-cü illər arasında Asiyanın yerli imperiyayaradıcı qüvvələri olan türklər" bu kontinentin inkişaf tarixində və dəyişən regionlarında bir neçə epoxal mərhələni adlamışlar: belə ki, onlar – həm ilkin Asiya dövlətlərinin sadə konfederativ quruluşunu, həm də islam dövlətlərinin dini-ideoloji və vergiyə əsaslanan mürəkkəb quruluşunu özlərində ehtiva etməyi bacarmışlar. Ən diqqətəlayiq cəhət isə odur ki, onlar "çöl imperiyalarından" "kəndli imperiyalarına", "kəndli imperiyalarından" "barıt imperiyalarına" çevrilə bilmişlər. Yəni onların hərbi qüvvələri odlu silahla - barıt və artilleriya ilə silahlanaraq, öz dövrünün daha müasir və mükəmməl arsenalına yiyələnə bilmişdir. K.V.Findlinin paradoksal qənaətinə görə, o zamanlar üçün hərbi texnologiya sahəsində inqilabi əhəmiyyət daşıyan bu dönüş – Amerika Birləşmiş Ştatlarının atomla silahlanaraq "güclü nüvə dövlətinə" çevrilməsi kimi bir proses olmuşdur (280, s.93).

Türklərin Avrasiya boyunca şərqdən qərbə doğru genişlənmə faktının özü də onların daim hərəkətdə olma, yeniliyə can atma xarakterindən doğmuşdur. 1453-cü ildə türklərin Konstantinopolu fəth edərək, Bizans imperiyasını çökdürməsi ilə Şərq və Qərb arasında siyasi və iqtisadi münasibətlərin yeni mərhələsi, özü də türk-islam Şərqinin dominantlığını, eyni zamanda,

mədəniyyətlər mübadiləsini həlledici fazaya çatdıran mərhələsi başlamışdır. Avrasiyanın üç nəhəng türk imperiyası – Osmanlı, Səfəvi və Moğol imperiyaları Böyük İpək Yolunun intibah dövrünü yaratmışdılar. Türklər artıq Avrasiyanın təkcə quru ərazisi üzərində deyil, həm də suları üzərində (Hind okeanından Aralıq dənizinə qədər) ticarət fəaliyyətinin təşkilini öz əllərinə keçirmişdilər (199, s.204-222). Avrasiyanın o zamankı "geopolitik üçbucağı" *("geopolitical triangle")* – Osmanlı, Səfəvi və Moğol imperiyaları, aralarında nə qədər ziddiyyətlər olsa da, Böyük İpək Yolunu Avropa imperializminin planetar ekspansiyaya başladığı vaxtadək – XIX əsrə qədər Avrasiyanı modernləşməyə hazırlayan proseslərin magistral xətti kimi irəlilətmişlər. Böyük İpək Yolunun XVI-XVIII əsrləri sözün əsl mənasında klassik Şərq şəhərlərinin mükəmməl ticarət mədəniyyətinə yetişdiyi və bu mədəniyyət arsenalı üzərində iqtisadi-mədəni əlaqələrin unikal səviyyəsinin əldə edildiyi dövr olmuşdur. İstanbul, Təbriz və Dehli dünyanın hər yerindən tacirlərin axın-axın gəlib mal daşıdığı paytaxt-şəhərlər kimi şöhrətlənmiş, Çindən Avropaya qədər yeniliklərin mübadiləsinə rəvac verilmişdir. Xüsusilə Qərbi avropalılar bu nailiyyətlərdən kifayət qədər bəhrələnmişlər. Məhz bundan sonra onlar əsaslı islahatlara, sekulyarlaşmaya, elmin iqtisadiyyata tətbiqinə, eyni zamanda, idarəetmə sistemlərini təkmilləşdirməyə başlamışlar.



*1876-cı ildə Dolmabağşa sarayında ilk Osmanlı Parlamentinin açılış mərasimi*

Avropada Renessans, Reformasiya və Maarifçilik hərəkatları ictimai, siyasi, iqtisadi və mədəni həyatı kökündən dəyişməyə hazırlayan prosesləri yetişdirmişdir: avropalılar hətta kralı devirib edam etmək, yüzilliklər boyu davam edən monarxiya quruluşlarını çökdürüb yeni siyasi rejimlər qurmaq (Fransa inqilabları), parlament mədəniyyətini siyasi praktikada möhkəmləndirmək (Britaniya reformaları), istehsal üsulunu modernləşdirməklə kapitalist iqtisadi sistemini yaratmaq və klassik modernləşməni dönmədən həyata keçirmək risklərindən çəkinməmişlər.

Belə bir tarixi dönüş zamanında isə Orta Asiyadakı, Yaxın və Orta Şərqdəki artıq xırda feodal dövlətlərinə, vassal və qeyri-vassal xanlıqlara parçalanmış despotik rejimlər türk xaqlarının inkişafını dayandıran əsas amillər olaraq onların ictimai-siyasi özünütəşkil fəaliyyətlərini ləngitmiş, türk cəmiyyətlərinin durğunlaşmasını, mühafizəkarlaşmasını qaçılmaz etmişdir. Bu tənəzzül, təbii olaraq, passionar türk imperiyalarının qurulmasında həlledici şərt olan mübariz türk ordularının qələbələrindən, geniş quruculuq imkanlarının səfərbər edilməsindən sonra monarxiya quruluşlarının getdikcə sərtləşməsi və nəticədə, mərkəzdənqaçma cəhdlərinin çoxalması və həmin imperiyaların dağılması proseslərində özünü göstərmişdir. Beləliklə, modernləşən Qərbin modernləşə bilməyən Şərq üzərində labüd dominantlığı epoxası başlamışdır.

Məhz bu qlobal tarixi transformasiyadan sonra türklər də daxil olmaqla Şərq dünyası dərk etmişdir ki, vaxtilə Avropaya verdiyi və avropalıların da zənginləşdirdiyi mütərəqqi örnəklər indi onun özünə lazımdır. İnkişaf etmək istəyən cəmiyyətlər bəşəriyyətin qabaqcıl nailiyyətlərindən bəhrələnmədən heç bir irəliləyiş imkanları əldə edə bilməzlər. On doqquz və iyirminci yüzillikləri birləşdirən tarixi zamanın inqilabi dəyişikliklərə yol açan əsas platformasını məhz belə bir yeniləşmə təfəkkürü təşkil edirdi.

Dünyada modernləşmə hərəkatının başladığı və Avropanın ictimai, siyasi, iqtisadi, mədəni həyatını yeni demokratik siste-

mə hazırlayan proseslərin vüsətləndiyi dövrdə – XIX əsrin ikinci yarısında Şərq və eləcə də türk dünyasında da islahat təşəbbüslərinə can atılmışdır. Bu proses tarixən Şərqlə Qərbin qovşağı sayılan Azərbaycan timsalında xüsusilə diqqətəlayiqdir: ilk dəfə Azərbaycanda Mirzə Fətəli Axundzadə həmin hərəkat və yeniləşmələrin "Qafqaz dalğasını" yaratmışdır. Daha sonra Həsən bəy Zərdabi Azərbaycan ziyalılarını öz ətrafında cəm edən "Əkinçi" qəzetini təsis etmişdir. Təkcə Azərbaycanda deyil, o zaman Rusiya imperiyasının tərkibində olan bütün Qafqazda maarifçilik hərəkatı artıq XX əsrin əvvəllərində tədricən milli hərəkata çevrilməyə başlamışdır. Cəlil Məmmədquluzadə "Molla Nəsrəddin"lə, Əli bəy Hüseynzadə isə "Füyuzat"la milli fikrin ideya mərkəzlərini yaratmışdılar. Milli mətbuatın ictimai fikir meydanı getdikcə genişlənmişdir. Çox keçmədən Azərbaycanın müstəqilliyi uğrunda və ermənilərlə münaqişədə ölkənin ərazi bütövlüyü uğrunda mübarizəni öz məqsədlərində birləşdirən ictimai-siyasi partiyalar formalaşmışdır. Eyni zamanda qeyd etmək lazımdır ki, o zaman Azərbaycanda meydana gələn milli hərəkat mahiyyətcə tamamilə yeni və özünəməxsus xarakter daşıyırdı. Belə ki, erməni və gürcü hərəkatları yalnız öz millətlərinin mənafeyinin güdülməsinə hesablanmışdısa (ermənilərdə, həmçinin, qonşu xalqlara aqressiv münasibətə), Azərbaycan milli hərəkatı isə daha universal, ümumbəşəri ideyalar üzərində qurulmuşdu. Ona görə də bu hərəkat bütün Şərqdə müsəlman və türk xalqlarının müstəqillik uğrunda siyasi mübarizəsinə ideoloji təməl yaradan böyük türkçülük hərəkatına çevrilə bilmiş, sonrakı tarixi dövrlərdə Azərbaycan və Türkiyənin qardaşlıq siyasətinin özülünü qoymuşdur.

Milli-demokratik dövlət, çoxpartiyalı parlament və qadınlara səsvermə hüququ örnəyi ilə Şərqdə ilk dəfə modern siyasi sistemin əsasını qoyan Azərbaycan Xalq Cümhuriyyəti özünün dövlət atributlarını – bayrağını, himnini və gerbini yaratmışdır. Dövlət Bankı, Azərbaycan Teleqraf Agentliyi təşkil edilmiş, pul-poçt markaları buraxılmışdır. Üç başlıca istiqamətdə – siyasət,

mədəniyyət və cəmiyyət quruculuğu sahəsində sonrakı bütün inkişafa stimul verən əhəmiyyətli nailiyyətlər qazanılmışdır. Çar Rusiyasının bir əsr ərzində yürütdüyü ruslaşdırma siyasətinin əksinə olaraq, ictimai, siyasi və mədəni həyatın, xüsusilə məktəblərin milliləşdirilməsi siyasəti aparılmağa başlamışdır, latın əlifbasının tətbiqi işlərinə hazırlıq görülmüşdür. Cümhuriyyət dövründə Azərbaycanda 2 milyon əhali var idi. Zaqafqaziyada ən çox əhalisi olan Azərbaycan özünün bu böyük insan potensialını tədricən milli quruculuğun ümumi məqsədləri ətrafında səfərbər etməyi bacarmışdır (3).

Cümhuriyyət hərəkatı sözün əsl mənasında milli fikir intibahına yol açmışdır. Çarizmin devrilməsindən sonra Azərbaycanda yaranmağa başlayan müxtəlif siyasi partiya və təşkilatların azad fəaliyyətinə meydan verilmişdir. Milli demokratiyanın müstəqil mətbuatı təşəkkül tapmışdır. Azərbaycan Xalq Cümhuriyyəti dövründə iki dəfə hökumət başçısı seçilmiş Nəsib bəy Yusifbəylinin rəhbərliyi və təşəbbüsü ilə 1919-cu il 15 oktyabrda mətbuat haqqında qanun qəbul edilmişdir. Həmin illərdə Azərbaycanda səksəndən çox qəzet və jurnal dərc edilmişdir. Azərbaycan kapitalı milli iqtisadiyyatın inkişafında, xüsusilə neft sənayesi sahəsində yeni texnologiyaların tətbiqində necə böyük rol oynayırdısa, eyni dərəcədə maddi və mənəvi sərvətlərimizin yaradılmasında diqqətəlayiq işlərə, böyük xeyriyyəçilik məqsədlərinə sərf olunurdu. Bakıda estetik mədəniyyətin ən yüksək tələblərinə cavab verən memarlıq layihələri həyata keçirilmişdir. İncə zövqün nümunəsi olan tikinti işləri aparılmışdır. Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Murtuza Muxtarov, Şəmsi Əsədullayev və başqa sərvət sahibləri öz varından millətin tərəqqisi naminə maarifçilik, quruculuq məqsədlərinə əhəmiyyətli yardımlar ayırmışlar.

Məlumdur ki, Azərbaycanın Rusiya imperiyasına birləşdirildiyi təqribən bir əsrlik dövrdə çarizm burada davamlı ruslaşdırma siyasəti aparmış, ölkəni akkulturasiyaya məruz qoymuş, yerli mədəniyyət gəlmə mədəniyyətin təsiri altına salınmışdı. Bu



*Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılışı.*
*Bakı, 1918, 7 dekabr*

prosesi dayandırmaq və milli mədəniyyət-dil quruculuğu sahəsində köklü islahatlar aparmaq, dövlət idarəçiliyini azərbaycanlaşdırmaq kimi mühüm tarixi vəzifə də istiqlalçıların çiyninə düşürdü. Azərbaycan Xalq Cümhuriyyəti rəhbərlərinin apardığı məqsədəyönlü siyasət nəticəsində dövlət idarələri tədricən milli dil praktikasına yiyələnməyə başlamışdır. Milli kadrların məsul vəzifələrə gətirilməsi ənənəsi yaranmışdır. Milli kadrların formalaşmasına, ümumən xalqın savadlanmasına böyük ehtiyacın olduğunu dərk edən Azərbaycan hökumətinin başlıca vəzifələrindən biri də xalq maarifinin inkişafı, xüsusilə ali təhsil müəssisələrinin yaradılması olmuşdur. Ona görə də 1919-cu ildə Bakıda Dövlət Universiteti, müəllim kadrları hazırlayan Darülmüəllim açılmışdır. Firudin bəy Köçərlinin rəhbərliyi ilə Zaqafqaziya müəllimlər seminariyasının Azərbaycan bölməsi Gürcüstanın Qori şəhərindən Qazaxa köçürülmüşdür. Yüz nəfər tələbə ali təhsil almaq məqsədilə Avropa ölkələrinə göndərilmişdir. 1919-cu ildə artıq Azərbaycanda modern milli məktəblərin sayı 700-ə çatdırılmışdır.

Azərbaycan yenə də elm, maarif və mədəniyyətin, siyasi, ictimai və ədəbi fikrin aparıcı istiqamətlərində Yaxın Şərq məkanında irəlidə gedirdi. Təsadüfi deyil ki, Məmməd Əmin Rəsulzadə bu öncüllükdən iftixar duyğusu ilə söz açırdı: "Şərq ölkələri arasında ilk türk dramaturqu azərbaycanlı, ilk türk bəstəkarı azərbaycanlı, məzhəb uzlaşmazlığını ilk ortadan qaldıran yenə azərbaycanlı, əlifba islahatını ilk düşünən azərbaycanlı, nəhayət, islam aləmində ilk dəfə cümhuriyyət elan edən də azərbaycanlıdır".

Cümhuriyyət düşüncəsi milli olduğu qədər də, özünütəsdiq iradəsinə sahib olduğu qədər də ümumbəşəri və dünyəvi səciyyə daşıyırdı. Azərbaycan ideologiyası hələ əsrin əvvəllərindən bu istiqamətə tuşlanmışdı. Azərbaycan Xalq Cümhuriyyəti Milli Şurasının sədri Məmməd Əmin Rəsulzadə dövlətimizin ilk Parlamentinin toplantısında (7 dekabr 1918-ci il ) bildirmişdi: "Bir millət müstəqil və hürr olmalı, hürr olduqdan sonra digər millətlərlə ürəyi istədiyi kimi əqd-ittifaq etməlidir. Bütün dünya millətlərinin bir "cəmiyyəti-əqvam" vücudə gətirməsi bizim ən əziz fikirlərimizdəndir. Bu "federasyon" cəbrlərlə deyil, təbii bir meyl və arzu ilə hasil olmalıdır". M.Ə.Rəsulzadə "Azərbaycan şüarını böyük güldəstənin zəngin bir gülü kimi təsəvvür etməklə", əslində, Azərbaycan – dünya münasibətlərinin cövhərini vermiş, beynəlxalq siyasətdə bu gün də aktual olan suveren dövlətlərin hüquq bərabərliyi ideyasından çıxış etmişdi (1).

Cümhuriyyət qurucularının bir çoxu, həqiqətən, universal şəxsiyyətlər idilər. Onlar ölkənin ictimai, siyasi, mədəni həyatında fəal iştirak edir, dövri mətbuatda fəal çıxış edir, cəmiyyətdə fikir mübadiləsinə geniş meydan açırdılar. Məmməd Əmin Rəsulzadə siyasətdən klassik ədəbiyyat problemlərinədək geniş bir mövzuda əsərlər yazırdı. Əlimərdan bəy Topçubaşov görkəmli jurnalist, publisist və siyasi xadim kimi tanınırdı. Üzeyir bəy Hacıbəyov milli mədəniyyət və musiqi tariximizdə bir çox yeni sahələrin əsasını qoymuş dahi sənətçi olmaqla yanaşı, sərrast məntiqə sahib mübariz publisist idi. Həmin dövrdə bir müddət dövlətin rəsmi


ОПЕРА НА МУСУЛЬМАНСКОМЪ ЯЗЫКѢ.

ТЕАТРЪ Г. З. А. ТАГІЕВА.

Въ субботу, 12-го января 1908 года

Оперными артистами театральной секціи О-ва „НИДЖАТЪ" подъ наблюденіемъ авторовъ и при участіи любителей представлено будетъ первый разъ на мусульманской сценѣ ОПЕРА

ЛЕЙЛИ И МЕДЖНУНЪ

въ 5 дѣйств. и 6 картинахъ, передѣланная изъ поэмы ФИЗУЛИ и переложенная на музыку братьями У. и Дж. Гаджибековыми.

Восточный оркестръ подъ управленіемъ Курбана. При полныхъ обстановкахъ и новыхъ костюмахъ, сшитыхъ спеціально для этой пьесы.

Для дамъ-мусульманокъ имѣются закрытыя ложи. | Цѣны мѣстамъ бенефисн.

Начало ровно въ 8½ часовъ вечера.

Билеты заблаговременно продаются въ читальнѣ О-ва »Ниджатъ», а въ день спектакля отъ 10 до 2 и отъ 5 час. до окончанія спектакля.

АНОНСЪ: Въ понедѣльникъ, 14 января пред. будетъ „ГЯВЭ".

Общій распл. А. Вели. Режиссеръ Араблинскій.

Въ субботу, 12 января 1908 г.,

въ залахъ Бакинскаго Общественнаго Собранія

состоится

*Bakı. Üzeyir bəy Hacıbəyovun Şərqdə ilk operası*
*"Leyli və Məcnun"un elanı. 1908-ci il, 12 yanvar*

orqanı olan "Azərbaycan" qəzetinin baş redaktoru kimi şərəfli bir vəzifəni icra edirdi. Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu kimi böyük türk dünyasının məfkurəsini yaradan mütəfəkkirlər milli ideologiya, humanitar elmlər və ədəbiyyat çevrəsində əzmlə çalışır, ictimai şüurun inkişafına təkan verirdilər.

Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu illərdə (1918-1920) qazanılmış təcrübə Sovet hakimiyyəti dövründə Azərbaycan SSR-nin yeni quruculuq işlərinə də, təbii ki, öz müsbət təsirini göstərmiş, müstəqillik illərində isə onun suveren dövlət kimi təsisatlanmasında təməl rolunu oynamışdır.

XX əsrin əvvəllərində dünyada gedən modernləşmə proseslərini bütün türk dünyasında inqilabi dəyişikliklər zəminində həyata keçirən ölkə – o dövrdə yeganə müstəqil türk dövləti

olan Türkiyə Cümhuriyyəti (1923) olmuşdur. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk türk dünyasının özünüdərk və özünütəsdiq zərurətini modernləşmə proseslərinə uyğun şəkildə yüksək siyasi uzaqgörənliklə ictimai fikir və fəaliyyət arenasına gətirmişdir (35). "Atatürk Devrimləri" adlanan köklü islahatlar Osmanlı imperiyasından Türkiyə Cümhuriyyətinə keçidi mümkün edən bütün siyasi, hüquqi-qanunverici, mədəni, iqtisadi və sosial dəyişmələr kompleksini əhatə etmişdir. Atatürk islahatları Osmanlı dövlətinin "Tənzimat" (1839-1876) islahatçılığından (54) daha dərin və sistemli xarakter daşımışdır. Mustafa Kamal Atatürkün rəhbərliyi ilə həyata keçirilən və 1937-ci ildə qəbul edilmiş Konstitusiya ilə möhkəmləndirilən islahatların 6 kardinal maddəsi vardı: xalqçılıq, respublikaçılıq, milliyyətçilik, dünyəvilik, etatizm (iqtisadiyyat üzərində dövlət nəzarəti), islahatçılıq.

"Atatürk Devrimləri" aşağıdakı sahələri əhatə edir: Səltənətin ləğvi, Ankaranın paytaxt elan edilməsi, Cümhuriyyətin elan edilməsi, Xilafətin ləğvi, Qadınlara siyasi hüquqların verilməsi, çoxpartiyalı sistemə keçilməsi, sekulyarlığın (laikliyin) konstitusiyaya daxil edilməsi, şapka (papaq) və geyim islahatı, "təkkə və zaviyələrin" (ziyarət yerləri) bağlanması, beynəlxalq təqvim və saatın, yeni rəqəmlərin qəbulu və ölçülərdə dəyişiklik edilməsi, soyadı qanunu, ləqəblərin ləğvi, xalq məktəblərinin açılması, təhsilin birləşdirilib sistemləşdirilməsi, mədrəsələrin bağlanması, maarif təşkilatı haqqında qanunun qəbul edilməsi, əlifba islahatı, dil islahatı, Türk Tarixi və Dili Qurumunun yaradılması, sənət islahatları, universitet islahatı, ticarət və sənaye şəbəkələrinin qurulması, torpaq islahatı, əkinçilik təsisatlarının qurulması, türk cəza qanununun qəbul edilməsi və s. Göründüyü kimi, "Atatürk Devrimləri" Türkiyə Cümhuriyyətini modernləşdirən sistemli bir hərəkat və bütün xalqın iştirakı ilə baş tutan mütərəqqi bir hadisə olmuşdur (31).

Ötən əsrin iyirminci illərində Sovet Sosialist Respublikaları İttifaqına daxil edilən türkdilli ölkələr – Azərbaycan, Qazaxıstan,



*"Atatürk Devrimləri" sırasından əlifba islahatı: Mustafa Kamal Atatürk yeni latın əlifbasını öyrədir.*

Özbəkistan, Türkmənistan, Qırğızıstan bu çoxmillətli dövlətin tərkibində onun ümumi siyasətinə müvafiq olaraq inkişaf etmişlər. Reallıqda Rusiya imperiyasının varisi kimi təşəkkül tapan Sovet İttifaqı öz siyasi statusuna və ideologiyasına uyğun olaraq, respublikaların birliyi şəklində qurulmuşdu. Lakin bu dövlətin hətta kommunizm kimi insanların, siniflərin və xalqların bərabərliyini şüar edən ideologiyası da digərləri ilə birgə türk xalqlarına da əsl müstəqilliyi verməmişdir. Ancaq bununla belə, inqilab nəticəsində Rusiya imperiyasının Sovet Sosialist Respublikaları İttifaqına "transformasiyası" həmin xalqların taleyində onları gələcək müstəqilliklərinə qovuşduracaq proseslərin başlanğıcını qoymaq baxımından irəliyə doğru bir addım olmuşdur. Yetmiş illik Sovet dönəmində türksoylu respublikalar – Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan yeni dövr üçün müəyyən milli dövlətçilik təcrübəsi toplamış, milli təhsil, iqtisadiyyat, sənaye və kənd təsərrüfatının əsaslarını yaratmış, öz dil və mədəniyyətlərini inkişaf etdirməkdən

ötrü zəruri bazanı formalaşdıra bilmişlər. Sovet dövlətinin siyasi idarəetmə sistemində Heydər Əliyev, Dinmühəmməd Kunayev, Şərəf Rəşidov, Nursultan Nazarbayev, Şıxəli Qurbanov və s. kimi türkəsilli rəhbərlər yetişmişdir.

Sovet türk respublikalarının iqtisadiyyatı, təbii ki, İttifaq dövlətinin vahid iqtisadiyyatının bir hissəsi olaraq, lakin özünəməxsus infrastrukturu olan sahələr kimi formalaşmışdır. Azərbaycan, qazax, özbək, qırğız, türkmən, tatar və sair türk dillərində dünya mədəniyyətinə töhfə ola biləcək müasir əsərlər, modern incəsənət nümunələri yaranmışdır. Sovet İttifaqının türk respublikaları arasındakı isti münasibətlər bu dövlətin şüarlandırılmış humanist milli siyasətinin vəd etdiyi bütün mümkün imkanlar daxilində özünə bünövrə yaratmışdır. Belə bir zəmin sonradan onların müstəqillik dövründəki doğma münasibətlərinin yaranmasında vacib şərtlərdən biri olmuşdur. Buna görə də SSRİ kimi nəhəng bir dövlət-imperiyanın dağılması prosesində türk əsilli müttəfiq respublikalar müstəqil dövlət olaraq ondan ayrıla bilmişlər. Əgər SSRİ dövlətinin siyasi-inzibati quruluşu formalaşdırılanda, digər türksoylu xalqlar da (tatar, çuvaş, başkır, yakut, kumık, uyğur, qaqauz, tuva, qaraçay, xakas, balkar, altay, noqay, şor və karaimlər) respublika statusunda bu ittifaq dövlətində yer alsaydılar, təbii ki, onlar da 8 dekabr 1991-ci il Belovejsk müqaviləsinə əsasən suverenlik hüququ qazanmış olacaqdılar. Belə bir prosesin mümkünlüyünü isə tarix heç zaman istisna etmir. Bunun üçün kifayət qədər potensial mövcuddur. Belə ki, bir sıra Avropa dövlətləri ilə müqayisədə Rusiya ərazisində müəyyən muxtariyyət statusunda yaşayan həmin xalqların bir çoxunun sayı daha artıq, ərazisi daha geniş, inkişaf üçün təbii ehtiyatları isə daha çoxdur. Ümumən, Rusiya Federasiyasında yaşayan türkəsilli xalqların ərazisi rusların yaşadığı tarixi ərazilərdən daha böyükdür və təxminən Avropa İttifaqının ərazisi ilə müqayisə edilə biləcək hüdudlara malikdir. Suveren türk respublikaları ilə müqayisədə digər dövlətlərin tərkibində müəyyən siyasi və hüquqi statusla yaşayan türk xalqları

və toplumları isə, təbii ki, milli inkişafın üstün imkanlarından yetərincə bəhrələnə, hazırkı modernləşmə tendensiyalarında özlərini tam ifadə edə bilmirlər.

Müstəqilliyini heç zaman əldən verməmiş Türkiyə Cümhuriyyəti ilə XX əsrin sonlarında suverenlik qazanan gənc türk respublikalarının münasibətlərində yenidən aktuallıq kəsb edən əsas məsələ bu dövlətlərin hamısının bir-birindən geri qalmadan, ümumi bir inkişaf ahəngində dövrümüzün müasirləşmə tələbləri ilə ayaqlaşmağı bacarmalarıdır. Hazırda Altaylardan Balkanlara qədər Avrasiyanı əhatələyən türk superetnosu konseptual modernləşmə ideyasında inteqrallasan özünütəsdiq potensialına malikdir. Onlar modernləşmənin ən optimal yolunu tarixdən gələn ibrətlərdən – türk dövlətçiliyinin möhkəm birlikyaratma ənənələrindən bəhrələnməkdə görməli və müttəfiqliyin daha müasir modelində strukturlaşmaq zərurəti ilə məqsədyönlü fəaliyyətlər həyata keçirməlidirlər.

Qafqaz və Mərkəzi Asiyada cərəyan edən geopolitik proseslərin təhlili ümumtürk potensialının üzə çıxarılmasının dünya birliyinə nə qədər gərəkli olduğunu göstərir. Aydınlaşır ki, artıq Qafqaz və Mərkəzi Asiyanın SSRİ-dən ayrılmış dövlətlərinə nəinki "postsovet", hətta "neosovet" dövlətləri kimi, yəni Sovet İttifaqının yeniləşmiş "variantları" kimi də baxmaq olmaz (487, s.136). Artıq burada "nasionalizm" də sivilizasiya identikliyinə əsaslanan, yüksək siyasi səviyyədə dərk olunan, milli dövlətçiliyin möhkəmləndirilməsinə xidmət edən ideoloji hadisədir. İyirminci əsrin əvvəllərində çox populyar olan "qərbləşmə" – iyirmi birinci əsrin əvvəllərində yeni müstəqil Avrasiya türk ölkələrinin müasirləşmə ehtiyaclarından xeyli aşağıda görünür. Onlar modernləşmənin özlərinə xas yolları ilə getməyi, başqalarını təqlid etməməyi üstün sayırlar. Artıq Qərb özü də başa düşür ki, onun siyasətdə, iqtisadiyyatda, mədəniyyətdə dünyanı özünə oxşatmaq və dolayısı ilə dünyanı "özünküləşdirmək" istəkləri baş tutmur. Bu gün türk dövlətlərinin avanqard rol oynadığı Avrasiya özünütəsdiq erasının başlanğıcındadır (487, s.91-119). Müasir döv-

rümüzdə "güclü dövlət" anlayışı da mahiyyətcə dəyişmişdir: indi bürokratik aparatın mühafizəkar qanunları ilə idarə olunan dövlətlər deyil, liberal iqtisadi siyasət yeritməklə milli dövlətin manevr imkanlarını artıran subyektlər daha çox inkişaf etməyə qadirliyini göstərir.

Müasir dünya birliyinin təşəkkülünə doğru inkişafın hazırkı mərhələsində ümumdünya demokratikləşmə və modernləşmə hərəkatının genişlənməsi və məhz demokratik suveren milli dövlətlərin sıx konsolidasiyası planetar siyasi-antropoloji sistemi onun inkişafının yeni fazasına hazırlayır, bəşəriyyəti təşkil edən millətləri isə daha geniş əməkdaşlıq münasibətlərinin qurulmasına təşviq edir. Bu baxımdan, qlobal idarəetmənin gələcək inkişaf ssenarilərində türk sivilizasiyasının təmsilçiliyinin təmin olunması gələcəyin qlobal siyasət meydanında müstəqil türk dövlətlərinin müqəddəratını həll edəcək bir məsələyə çevrilir.

# TÜRK ƏDƏBİYYATI

Türk universal etnomədəni sistemini bütöv saxlayan ən güclü amil – bütün milli türk dilləri və mədəniyyətlərinin linqvistik bazası olan *qədim türkcədir*. Əski türk dili o qədər zəngin təfəkkür enerjisinə və mədəniyyət arsenalına malikdir ki, ondan milli türk dilləri və mədəniyyətləri diferensiallaşandan sonra da, təkamül prosesinin yeni mərhələsində də bu dil – *türki* böyük türk dünyasının universal ədəbi dili kimi (yalnız cüzi fərqlilik xüsusiyyətləri ilə) uzun əsrlər canlı ünsiyyət vasitəsi olmuş və bu dildə türk və dünya ədəbiyyatının möhtəşəm abidələri yaranmışdır. Kulturoloji təfəkkür tipologiyasına görə bu varisliyin yazılı əsər kimi başlanğıcı Orhon-Yenisey abidələridir (433). "Orhon trilogiyası" təkcə siyasi-ideoloji məqsədəyönlülük baxımından deyil, həm də tarixi-etnoqrafik sənəd rolu oynamaq baxımından müstəsna dəyərə malikdir. Bu monumental abidələr əski türklər haqqında o dövrün hər hansı Çin mənbəyindən qat-qat artıq və dolğun bilgi verir, daha zəngin informasiya yükü daşıyır. Çin mənbələri yalnız xronologiyadırsa, bu türk qaynaqları isə canlı həyatın, yaşanmış tarixin icmalıdır. Ona görə də bir çox araşdırmaçılar onları həm də tarixi qəhrəmanlıq eposu hesab edir. Doğrudan da, sonrakı yüzilliklərdə yaranan epik dastanlar Orhon türk yazılı abidələrinin özünüdərk mədəniyyətinin ənənələri üzərində yaranmışdır.

Təqribən eramızdan əvvəl birinci minilliyin ortalarında formalaşmağa başlayan qədim türk eposu "bir neçə min illik mifoloji-epik düşüncə axtarışlarının nəticəsi" olaraq meydana çıxmışdır (8, c.3, s.230). Türk epos mədəniyyəti türkün bütün tarixini onun dil və təfəkkür arsenalı ilə birgə özünün poetik qatlarına hopdurmuşdur. Türk sivilizasiyasının özək xətti funk-





*Əski türk əlifbası ilə Orhon-Yenisey abidələrindən nümunələr. VIII əsr*

siyasında epik düşüncə mədəniyyəti dünyanın "Oğuz Kağan", "Kitabi-Dədə Qorqud", "Alpamış", "Manas", "Koroğlu" kimi ən möhtəşəm qəhrəmanlıq eposlarını ərsəyə gətirmişdir. Bu epik dastanlarda türklərin böyük cahangirlik xarakteri öz təcəssümünü tapmışdır. Əgər türklər Avrasiyanın marginal etnosu olsaydılar, onlar heç zaman bu cür monumental abidələr yarada bilməzdilər. Türk epos mədəniyyətinin özəlliyini şərtləndirən bir cəhət də bundan ibarətdir ki, həmin abidələrdə türklərin etnocoğrafiyası, etnoqrafiyası, konkret hadisələrin nəqli, süjet dramatizmi, qəhrəmanların şücaəti, dövlət əxlaqı, müxtəlif xalqlarla təmas dinamikliyi elə Avrasiyanın özü qədər geniş və miqyaslıdır. Struktur və funksional keyfiyyətlərinə görə, türk etnik-mədəni sistemi hər zaman vahid tamlıq nümayiş etdirir və bütöv bir dünya modelinin daşıyıcısı olur. Bu mənada ümumtürk mifoloji modeli birdir, vahiddir. Onun hansısa elementinə bu və ya digər türk xalqında, təbiidir ki, rast gəlinməməsi mümkün haldır. Bununla belə, ayrı-ayrı türk xalqlarında təsadüf edilən dünya modelləri başlıca modelin variantı sayıla bilər. Başlıca model isə həm bütöv

halında, həm də elementləri ilə ayrı-ayrı türk xalqlarında elə bir ciddi dəyişikliyə uğramadan bu dövrümüzədək yaşayan dayanıqlı ümumtürk mifoloji dünya modelidir (7, s.34).

Türk epik mədəniyyəti klassikasına daxil olan, lakin türk superetnosunun sonrakı diferensiasiya prosesində xeyli dərəcədə milliləşən (qazax, qırğız, özbək, türkmən, Azərbaycan, türk...) ən müxtəlif zamanların eposlarını sanki bir Türk Kitabəsi halına gətirən başlıca ideya isə – türk boylarının həmrəyliyi, türk dünyasının bütövlüyüdür. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanında İç və Dış Oğuz boylarının arasındakı ziddiyyətlərin aradan qaldırılması və onların birliyinin təmin edilməsi – bu eposun ideya panteonudur. Qanunauyğundur ki, monumental eposlardan sənətin janr müxtəlifliyinə keçid prosesində həmin ideya özü də diferensiallaşır. Lakin kiçik janrların təkamülündə belə türk mədəniyyətinin dil və təfəkkür özəlliyi qorunur. Tuyuqları bayatılar, ozanları aşıqlar, qopuzu saz, çadırı saray, eposu poema əvəz edir. Amma forma və məzmun yeniləşməsinin heç bir mərhələsində türk koloriti itirilmir. Məsələn, Azərbaycan folklorunda artıq bayatının önə çıxdığı, dövrün poeziyasınınsa (XIV əsr) ərəb və fars dilini hələ yadırğamadığı zamanda, bir-biri ilə daimi çəkişmələr aparan qaramanlı, osmanlı, türkmən tayfaları arasındakı düşmənçiliyi aradan qaldırmaq və ölkədə qanun-qaydanı möhkəmləndirmək üçün əlindən gələni etmiş hökmdar-şair Qazi Bürhanəddin türk ədəbiyyatının ən qədim janrlarının birində – *tuyuqlar* yazırdı. Çünki *tuyuqlar* – türk ruhunun birlik duyğusunu yaşadır, türkün əzəli köklərinə çağırış edirdi.

Ümumtürk ədəbiyyatının spesifik cəhətlərindən biri ondan ibarətdir ki, bu bədii təfəkkür sisteminə mifik və realistik başlanğıcın dialektikası xasdır (64). Mifik dünyagörüşü türk sivilizasiyasının təşəkkül prosesində onun "poetik arxitekturasını" yaradır: türk epos mədəniyyətinin arxetipləri bədii-estetik inkişafın sonrakı mərhələlərində də yeni ifadə formalarında təzahür edir. Mədəniyyət və mənəviyyat təməllərini şüurlu şəkildə qoruduğu üçün türk ədəbiyyatı öz mifologiyasına və folklor

ənənələrinə dərindən bağlıdır. Bu ədəbiyyat təbiətin (materiya) və mənəviyyatın (ruh) vəhdətinə əsaslanan enerji mənbəyidir. "Poetik" türk passionarlığı – onun təbiətindən, "kosmo-psixoloqosundan" qaynaqlanır. Təbiət (mövcud olduqları ilk təbii məkan) türklərin həyatının ayrılmaz hissəsi olduğundan, hara gedirlərsə, sanki onu da mənəvi dünyaları kimi yeni coğrafi məkanlara proyeksiya edirlər. Bu səbəbdən təbiət və folklor – türkün mənəvi dünyasının vəhdətdə olan qütbləridir. Ona görə də türkləri – dünyanın ən ekoloji xarakterli etnosu saymaq olar. Passionarlıq – türkün stixiyasıdır. Türk sivilizasiyası – Avrasiyanın zəngin təbiətini, etnosfer rəngarəngliyini, folklor arxetiplərini öz məğzində yüzillər boyu yaşada və onların sintezini mənəvi enerjiyə, hərbi-siyasi mütəşəkkillik qüdrətinə çevirə bildiyi üçün, sözün əsl mənasında passionar sivilizasiyadır.

Təkcə siyasi təfəkkürə deyil, həm də yüksək ədəbi intellektə malik olan türklər Şərq sivilizasiyaları ilə qarşılaşdıqda, sonra isə bu sivilizasiyalarla fəal münasibətlərdə olduqda, qətiyyən çəkinməmiş, marginallaşmamış, öz dil və mədəniyyətlərini, ədəbiyyat sahəsində yaradıcı qabiliyyətlərini cəsarətlə həmin sivilizasiyaların sınaq meydanına çıxarmışlar. Türk dili və ədəbiyyatı Şərqin böyük yazılı ədəbi dil ənənələrinə malik olan mədəni-sivilizasion sistemində tezliklə öz yerini tapmış, burada öz tarixi mövcudluğunun yeni mərhələsini başlamışdır. Əvvəlcə bütün türklərin istifadə etdikləri *türki* ədəbi dili, sonra isə bu dildən törəyən milli türk dilləri artıq orta əsrlərdə Mərkəzi Asiyada olduğu kimi, bütün Şərqdə də aparıcı dillər sırasında idi və bu dillərdə türk xalqları öz milli ədəbiyyatlarını yaradırdılar.

Türk etnomədəni sisteminin sonrakı diferensial dominantlığı erkən orta əsrlərdən elə bir vəziyyət yaradır ki, türk xalqları və dövlətlərinin tarixi Şərqin üç böyük dilində – ərəbcə, farsca və türkcə yazılır. Türklərin dünya mədəniyyətinin inkişafına göstərdikləri əvəzolunmaz xidmətlərdən biri də budur ki, onlar özlərinin siyasi üstünlüklərindən istifadə edib, digər dillərə və mədəniyyətlərə qarşı diskriminasiya siyasəti yeritməmişlər. On-

lar sadəcə öz doğma dillərini Şərqin ulu dillərinin poliqonuna çıxarmışlar. Və bununla da heç uduzmamış, əksinə, öz dillərinin ölməzliyini təmin etmişlər. Nəticədə, türk mədəniyyəti başqa mədəniyyətlər içərisində əriyib itməmiş (hətta bir çox böyük xalqlar bu aqibəti yaşamışlar), əksinə, digər mədəniyyətləri qoruyan "sivilizasiya sipəri" funksiyasını uğurla yerinə yetirmişdir. Türklər haqqında təkcə türk dilində olan tarixi mənbələr deyil, həm də başqa dillərdəki tarixi qaynaqlar bu superetnosun yaratdığı dövlətlərin və mədəniyyət irsinin möhtəşəmliyindən xəbər verir (91).

Türklərin tarixi həyatını coşqun bir dillə nəql edən, bəzən bu real tarixi mifləşdirən, əsatir formasında təqdim edən, bilgələrinin müdrik kəlamlarını bizə lakonik biçimdə çatdıran epos-oğuznamələr ("Oğuz Kağan", "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Manas", "Əmsali-Türki" – türk atalar sözləri toplusu və s.) sözün əsl mənasında yüksək bədii-estetik təfəkkürün məhsuludur. Professor F.Bayat bu fenomeni araşdıraraq göstərir ki, "Oğuznamələr həm dastan, həm salnamə ənənəsində türk tayfalarının bir dövlət tərkibində birləşib cahan dövləti qurmaq üçün apardıqları mübarizənin məhsuludur... Oğuzlar və onların ulu babaları haqqında, oğuz mədəniyyəti, oğuz dövlətçiliyi haqqında olan bu dastanlar türklərin fütuhatçılıq ideyalarını yaymaq üçün yaranmışdır. Bu baxımdan Oğuznamələrdə müxtəlif dövrlərdə yaranmış türk cahan dövlətlərinin ülgüləri görünür, türkçülük oğuzçuluq şəklində qorunur, təbliğ olunur. Təbii ki, oğuzlar türk tarixində böyük dövlətlərin qurulmasında yaxından iştirak etmiş, özlərinin dövlətlərini qurmuş, həmişə də cahan dövləti qurmaq ideyasının daşıyıcıları olmuşlar. Əslində, Oğuznamələr təkcə oğuz dövlətinin salnamələrdə epik ənənədə təqdimatı deyil, bütövlükdə türk etnosunun epikləşmiş tarixi-ideoloji dastanıdır. Oğuznamələr bu cəhətdən şüurlu surətdə türkçülük ideologiyasını təbliğ edən Orhon-Yenisey yazıları, Kaşğarlı "Divanı" ilə bir cərgədə durur... Türk qəhrəmanlıq dastanlarında qəhrəmanlıq ölçüsü – alplıq və bahadırlıqdır. Fütuhat dastanlarında alplıq artıq hökmranlıq ideyası ilə birləşir. Alp olmaq – həm də



*Qırğızıstanda ucaldılmış "Manas" abidəsi*

dünyaya hakim olmaq kimi başa düşülür. Alplıq və hökmranlıq – Oğuznamə dastanlarında Tanrı vergisi kimi təqdim olunur. Buna görə də orta əsr müəllifləri çox vaxt türk ordusunun simasında qayda-qanun yaradan, dünyanı nizama çəkən, yolunu azanları cəzalandıran bir qüvvə görürdülər" (5, s. 89, 101).

Oğuznamələrin türk xalqları arasında ən populyar və bədii-estetik baxımdan ən mükəmməl dastanları, heç şübhəsiz, "Kitabi-Dədə Qorqud" və "Koroğlu"dur. Dünya mədəniyyətinin möhtəşəm yazılı ədəbi abidələrindən olan "Kitabi-Dədə Qorqud" oğuz türklərinin dövlətçilik tarixinə başlama ərəfəsindəki durumunu, onların mənəvi-əxlaqi dəyərlərini, ulus və torpaq uğrunda fədakar mübarizlik ruhunu, oğuz tayfaları arasındakı birliyi nəyin bahasına olursa olsun qoruma əzmini bütün reallığı və dolğunluğu ilə əks etdirir.




*Koroğluya Bakıda ucaldılmış abidə*

"Koroğlu" isə qəhrəmanlığın başqa qatını açır: Xalq içindən çıxan qəhrəmanlar onun haqqını qorumaq, ədaləti yer üzündə bərpa etmək üçün hətta hakimiyyətlə vuruşmaq missiyasını öz üzərlərinə götürürlər. Əslində, türk eposunun bu məzmunda çıxış etməsi çox böyük müdrikliyin təsdiqidir: türk dövləti böyüyüb imperiyalaşdıqca, xalqla bağlılığını itirməməli, əsarət formasına

çevrilməməlidir. Əks halda, xalqın ədalətsizliklə barışmazlığı onu labüd olaraq məhvə məhkum edir. Bizim üçün xüsusilə önəmlidir ki, hər iki epos Azərbaycan mədəniyyətinin, mənəviyyatının, etnocoğrafiyasının bəhrəsi olmaqla bərabər bütün türk xalqlarına mənsub olan ədəbi-mədəni irsimizdir.

Türksoylu qırğızların yaratdığı "Manas" – həcminə görə (o, Ginnesin "Rekordlar" kitabına salınmışdır) dünyanın ən böyük eposudur. Şifahi xalq ədəbiyyatının nümunəsi olan bu dastan yüz illər ərzində ozanlar tərəfindən söylənə-söylənə dolğunlaşmış, mənəvi-estetik həyatının daim dəyişən mənzərələri ilə xalqın portret-güzgüsü olmuşdur.

"Əmsali-Türki" Oğuznaməsini isə müasir türk xalqlarının atalar sözləri və məsəllərinin başlanğıcı hesab etmək olar. Erkən orta əsrlər türkünün dil və mədəniyyətinin özünü yığcam formada əks etdirmək xüsusiyyətini, onun özünə və ətrafına müdrik münasibət bəslədiyini, hikmətli türk sözünün çoxmənalı qatlarını və əlvan semantikasını bu aforistik Oğuznamədən yetərincə öyrənmək olar: "Butraq diküb, buğday umma" (Yəni: "Pıtraq əkib, buğda gözləmə"); "Ulusun bəgənməyən evinə boş varır"; "Ulu şəhərlər dəmir ağızdır"; "Atı dostun kibi bəslə, düşmanın kibi min"; Gələcəki gəlmiş bil" (23, s.75, 50, 58, 32, 158).

Tarixi-xronoloji Oğuznamələrin türk və dünya mədəniyyəti üçün unikal nümunələrindən biri yəhudi mənşəli, fars dilli islam tarixçisi Fəzlüllah Rəşidəddinin "Cami' ət-Təvarix" (140) adlı fundamental əsəridir (XIV əsr). Bu əsərdə ilk dəfə olaraq oğuz türklərinin siyasi-mədəni tarixi ümumdünya tarixi kontekstində təsvir olunur. Dünya tarixşünaslığının bu klassik abidəsi türk xalqına, dövlətçiliyinə, dil və mədəniyyətinə, habelə, onun islam dünyasında tutduğu uca mövqeyə açıq rəğbət ifadə edir, bu əsərdə türk tarixi hətta müəyyən qədər əsatirləşdirilərək, idealizə edilərək yazılmışdır. Fəzlüllah Rəşidəddinin dünyanın bir çox dillərinə tərcümə edilən "Cami' ət-Təvarix"i bu gün də türk soylarının nəsil şəcərəsini, türk dövlətlərinin tarixi təkamülünü və



*"Cami' ət-Təvarix" əsərinin müəllifi Fəzlüllah Rəşidəddin (1247-1317)*

türk mədəniyyətinin ümumbəşəri xarakterini öyrənmək üçün ən mühüm mənbələrdən sayılır.

Türk milli ədəbiyyatlarının formalaşdığı dövrdən etibarən (XIV-XVI əsrlər) onların hər birinin öz dil potensialı üzərində ayrıca tarixi inkişaf dövrü başlamışdır. Türk ədəbiyyatının yaradıcıları Mövlanə Cəlaləddin Rumi, Yunus Əmrə, Pir Sultan Abdal, Qaracaoğlan, Dadaloğlu, Ziya Paşa, Namiq Kamal, Yəhya Kamal Bayatlı, Şəmsəddin Sami, Tofiq Fikrət, Xalidə Ədib Adıvar, Məhməd Əmin Yurdaqul, Yaşar Kamal, Orxan Kamal, Rəşad Nuri Güntəkin, Əziz Nesin, Turqut Özakman, Behcət Necatikgil, Orxan Vəli Kanık, Fazil Hüsnü Dağlarca, Nəcib Fazil Qısakürək, Orxan Pamuk (Türkiyə), Nizami Gəncəvi, Qazi Bürhanəddin, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Səməd Vurğun, Rəsul Rza, Məhəmməd Hüseyn Şəhriyar, Bəxtiyar Vahabzadə, Çingiz Abdullayev (Azərbaycan), Süleyman Bakırqani, Jambıl Jabayev, Şokan Vəlixanov, İbray Altınsarın, Mirjakib Dulatov, Ahmed Baytursınov, Maqjan Jumabayev,

Muxtar Ayezov, Oljas Süleymenov, Muxtar Şaxanov, Abdulla Cumaqaliyev (Qazaxıstan), Əhməd Yəsəvi, Xorazmi, Xocandi, Əhməd Yuqnaki, Said Ahmed, Lütfi, Ətayi, Səkqaqi, Əlişir Novai, Turdı, Əmin Xoca Mukimi, Həmzə Həkimzadə Niyazi, İrqaş Cuman Bülbül, Qafur Qulam, Xamid Alimjan, Qayrati, Aybek, Şeyxzadə, Əmin Umari, Həsən Pulad, Abdulla Kahhar, Yaşin Nuqmanov, Zinnəd Fatxullin, Umarjan İsmailov (Özbəkistan), Make Xuse, Toqolok Moldo, Kasım Tınıstanov, Kazat Akmatov, Çingiz Aytmatov, Suyunbay Yeraliyev, Tuqelbay Sıdıkbekov, Alıkul Osmonov, Ertebes Tunusaliyev (Qırğızıstan), Vəfai, Azadi, Mahtumquli Fəraqi, Məhəmməd Qərib, Şeydai, Qaibi, Məğrubi, Molla Nepes, Səidi, Kəminə, Yusup Xoca, Miskin Kılıç, Molla Durdı, Araxan Durdıyev, Altı Karlıyev, Tovşan Esenov, Çarı Kuliyev (Türmənistan) və başqaları milli bədii mədəniyyətin, onların sırasından bir çox böyük klassiklər isə dünya ədəbiyyatının inkişafında mühüm rol oynamışlar.

Türk milli ədəbiyyatlarında bədii təfəkkürün bütün model və tendensiyaları – həm aşıq, həm divan ədəbi məktəbləri, həm klassik (əruz), həm müasir (verlibr) poeziya formaları, satira, müxtəlif nəsr və dram janrları, monumental romançılıq, romantizm, realizm (maarifçi, tənqidi), modernizm və postmodernizm ədəbi cərəyanları, fantastika, yeni ədəbi eksperimentlər, klassik formalara qayıdış elementləri təzahürünü tapmışdır.

Müasir dövrümüzdə müstəqil türk dövlətlərinin milli mədəniyyətləri türk sivilizasiyasını ümumdünya səviyyəsində təmsil edəcək yaradıcı potensiala malikdir. XX əsrin əvvəllərindən bugünə qədər türk sivilizasiyasının dünyaya bəxş etdiyi ədəbiyyat xadimlərini göz önünə gətirdikdə görürük ki, onlar həqiqətən ümumbəşəri dəyərlərin, humanizm ideallarının ərsəyə gəlməsində, insanlığı tərəqqiyə yetirən fəaliyyətlərin aparılmasında həmişə öndədirlər.

# TÜRK İNCƏSƏNƏTİ

Türk mədəniyyətinin böyük tarixi inkişaf ənənələrinə malik olan ən mühüm sahələrindən biri türk incəsənətidir. Arxeoloji araşdırmaların nəticələrinə görə, özündə prototürk mədəniyyətinin izlərini saxlayan hun incəsənəti skiflərinki qədər qədimdir (309, s.24). Hun-türklərin maddi mədəniyyət nümunələrində öz təsvirini tapan bir sıra elementlər- xüsusilə, qəhrəmanlıq motivləri sonradan ən müxtəlif incəsənət sahələrində yaradılan əsərlərin daimi süjet xəttinə çevrilmişdir. Ortaq türk keçmişindən diferensial milli mədəniyyətlərə, buradan da "ortaq türk gələcəyinə doğru" (16, s.74) dialektik inkişaf türk sivilizasiyasının mahiyyətini həm də onun incəsənət faktlarında əks etdirən ən başlıca və məqsədyönlü proses olmuşdur.

Keçmiş zamanlarda əksəriyyəti köçəri həyat tərzi keçirən türklər özünəməxsus tətbiqi incəsənət nümunələri yaratmış, vəhşi və əhliləşdirilmiş heyvanların fiqurlarını düzəltmişlər. Realist təsvirçiliklə mifoloji yanaşmanın vəhdəti tətbiqi incəsənət növlərində üstün olmuşdur. Qədim türklər uzun əsrlər boyu məişət və təsərrüfatda istifadə etdikləri alət və əşyaları, dulusçuluq məmulatlarını kustar yolla, lakin həmişə öz həyat tərzlərinin estetik prinsiplərinə, dünyagörüşü motivlərinə uyğun olaraq düzəltmişlər. Türklər hansı incə zövqə malik olduğunu onları əhatə edən məişət dünyasının özəlliyini əks etdirən həmin alət və əşyaların "dili" ilə yetərincə dolğun ifadə edə bilmişlər. Türklərin gündəlik həyatda istifadə etdikləri dəri, pambıq, yun və ipəkdən hazırlanmış döşənəcəklər, parçalar, geyimlər, toxumalar, bəzəklər, suvenirlər və daş-qaşlar da ta qədimdən mövcud olmuş zəngin etnoqrafik və estetik mədəniyyətin təsdiqidir.

Türk incəsənəti bir sıra spesifik xüsusiyyətlərə malikdir:

1. Türk incəsənəti ümumən onun mədəniyyətinə xas arxetipik başlanğıcın daşıyıcısı olaraq ulus (xalq) – dövlət vəhdətindən çıxış edən estetik hadisədir. Türk incəsənətinin hər bir növündə xalq həyatı dövlət həyatı ilə bağlı siyasi-estetik məzmunu, simvolları, idealları alaraq öz təcəssümünü tapır. Məsələn, arxaik zamanlardan bəri türk ulus və dövlətlərinin damğaları *(tamğa),* bayraqları, gerbləri *(tuğ)* və digər rəmzləri tətbiqi incəsənət örnəklərinə həkk edilmişdir. Bu nümunələr o qədər ardıcıl və sistemlidir ki, onların əsasında türk dövlətlərinin siyasi varisliyinin və dünyagörüşü bağlılığının ümumi xəttini təsəvvür etmək mümkün olur.

2. Türk incəsənətinin praktikliyi və estetikliyi sintez funksionallığı daşıyır. Yəni türklərin maddi və mənəvi mədəniyyət nümunələrində sənətkarlığın o cəhətinə xüsusi önəm verilir ki, həm yararlı, həm də gözəl olsun. Praktik baxımından hər bir faydalı nəsnə müəyyən bir türk soyunun estetik dünyagörüşünün maddiləşmiş təcəssümü olaraq yaradılır. Məsələn, türklər çadırı yalnız yaşamaq üçün, yəhəri yalnız at minmək üçün deyil, onları mütləq bəlli gözəllik meyarları ilə, arxetipik mədəniyyətlərinin tarixən dəyişən və yeniləşən ornamentləri ilə bəzəyərək ərsəyə



*Əski türk rəmzləri*

gətirirlər. Yaxud, türk rəqslərinin böyük əksəriyyəti estetik funksionallıq daşımaqla yanaşı, həm də fizioloji plastika, sağlamlıq, döyüş səhnələrinin canlandırılması, savaşa hazırlıq motivasiyası və s. daşıyır.

3. Türk incəsənətinin sinkretikliyi onun, demək olar ki, bütün növlərində vardır: burada eyni incəsənət hadisəsi bir çox müvafiq sənət növlərinin üzvi sintezi şəklində meydana çıxır. Onun ən parlaq örnəyi ozan-aşıq sənətidir: burada epos, folklor, müəllifli poeziya, musiqi, rəqs canlı vəhdətini tapır. Ozan-aşıq məclisdə poetik dastan söyləyir, qopuz (saz) çalır, oxuyur, adətən, qəhrəmanlıq və şücaət motivlərini rəmzləşdirən hərəkətlər edir, oynayır ("meydan sulayır"), natiqlik, hazırcavablıq məharətini nümayiş etdirir, məclisi, mərasimləri idarə edir. İfaçılığı ilə yaradıcılığı ayrılmaz olan ozan-aşıq, əslində, səhnədə – insanların gözü qarşısında sənətkarlıq elementlərinin mükəmməl harmoniyasını sinkretik vəhdətdə yaradır.

4. Türk incəsənəti bütün təzahürləri ilə aksioloji əhəmiyyət kəsb edir: türk mədəniyyətinin inkişafı tarixində klassik sənətkarlıq keyfiyyətləri yüksəldikcə, incəsənətin dəyərlilik əmsalı



*Türk incəsənətinin klassik nümunəsi: Çapdığı atda geriyə ox atan süvari*

yüksəlir. Sənət biliciləri yaradıcılıq nümunələrini yalnız aksioloji dəyər meyarları ilə qiymətləndirirlər. Bu gün dünya muzeylərində saxlanılan, müxtəlif tarixi dövrlərin bədii yaddaşını özündə əks etdirən türk incəsənəti nümunələri bəşəriyyətin ən yüksək maddi mədəniyyət dəyərləri sırasına daxildir.

Avrasiyada antik dövrdən indiyədək maddi və mənəvi mədəniyyətin tarixi inkişafının mərhələləri haqqında ümumtürk incəsənəti və daha sonra onun ayrı-ayrı milli incəsənət formaları özlərinin bütün rəngarəngliyi ilə dolğun təsəvvür yaradır, bilgi verir. Türk incəsənətinin spesifik növləri və istiqamətləri – türk musiqisi, türk memarlığı, türk miniatürü, türk xalçaçılığı da ümumtürk incəsənətinin bütün mühüm tarixi məziyyətlərini özlərində əks etdirir.

# TÜRK MUSİQİSİ

Türk musiqisi uzun əsrlər boyu bir çox köklü janrlar üzrə təkamül edib zənginləşən böyük bir mədəniyyətdir (75, c.9). Genezisi etibarilə mifoloji dünyagörüşünə, folklora, şamançılığa bağlıdır. Türk arxaik cəmiyyətlərində varlıq və yoxluq (həyat və ölüm) dünyalarını bir-birinə bağlayan, diriliyi tərənnüm edən, gələcəkdən xəbər verən, ruhlar aləminə baş vuraraq onları çağıra bilən, xeyir işlərə yardıma sövq edə bilən, görücü – baxıcı – bilici funksiyasını daşıyan kahinlər – qamlar *("qamğanlar"),* şamanlar ayin və mərasimlərin icrası prosesində, əsasən, praktik-musiqiçi kimi fəaliyyət göstərmişlər. (antik misirlilərin transendental kahinlərindən fərqli olaraq). Bu günə qədər Sibir türklərində ənənəsi yaşadılan şamançılıq sufilikdəki musiqi janrlarına qədər uzun bir yol keçmişdir: şaman musiqi kultunu sinkretik planda icra edir, müxtəlif arxaik musiqi alətləri və səslərlə, mistik hərəkətlərlə, od və geyim atributları ilə sirli-sehrli, titrəyişli bir səhnə yaradır. Bütün iştirakçılar mərasimin sirli dünyasının qeyri-adi aurasına qoşulur, bu ehtizazlı əhval-ruhiyyənin getdikcə yüksələn, tarıma çəkilən ritminə qapılırlar. Bu bənzərsiz "türk vakxanaliyası" sanki təbiətin füsunkar stixiyası ilə birləşərək musiqinin tanrısal qatlarını açır. Qam və ya şaman ilkin mərhələdə mifoloji mərasim ifaçılığı ilə folklor sənətkarlığını, habelə ifaçılığını özündə qovuşdurur.

Musiqi-söz-rəqs kultunun əsas ifaçısı və təmsilçisi qam-şaman türk qəbiləsinin, tayfasının, ümumiyyətlə, arxaik türk icmasının həyatını bütün estetikası ilə canlandıran, eyni zamanda, ulusal ruh varisliyini öz simasında əks etdirən, şadlıq yığıncağını düzənləyən, hətta çətinliklərə, dolaşıqlıqlara, xəstəliklərə çarə tapan, pis ruhların yoluxduğu canlara sağlamlıq bəxş edən bilici,





*Müxtəlif bölgələrin şamanları*

idarəedici və şəfavericidir. Bu qeyri-adi qabiliyyətləri özündə cəmləşdirdiyindən qam-şaman türk soyunun yüksək təbəqəsinə daxil edilmiş, onun idarə olunmasında əsas yerlərdən birini tutmuşdur. Tarixi qaynaqlara görə, qədim türklərin tayfa quruluşunda kağanın vəziri və ya baş məsləhətçisi çox zaman qam-şaman olmuşdur. Hun-türklər başçı, hakim titulu daşıyan şamana "Ata Qam" demişlər. Türk mifologiyasına görə, türk ulusu və dövlətçiliyinin əsasını qoymuş Aşinanın da qam-şaman olduğu ehtimal edilir (137).

Oğuz türklərində də tayfanın başında şamanın durması faktı foklor yaddaşında müşahidə olunur. "Kitabi-Dədə Qorqud" boylarında da göstərilir ki, oğuz elinin başçısı Bayındır xan qam-şaman nəslindəndir: onun atası Qamğan – Qam-Kağandır. Qam-şamanın əski türk soy quruluşlarındakı tarixi funksiyası və Sibir-Altay bölgələrindəki çağdaş fəaliyyəti onu

mənəviyyat-qan yaddaşının daşıyıcısı, etnik-mədəni sistemin qurucusu və qoruyucusu kimi səciyyələndirir. İlkinliyə, soykökə məxsus mifoloji dünya duyumunun əsas axarları, tarixi-genetik özümlüyün aparıcı, hərəkətverici impulsları, türk etnopsixologiyasının milli-spesifik keyfiyyətləri məhz qam-şamanın vəcdli musiqi dünyasında, ayin və mərasimlərin musiqi ritmləri əsasında keçirilməsində, hərəkət, davranış ölçülərində, gerçəkliyə estetik münasibət biçimlərində təcəssümünü tapmışdır. Varlığın fəlsəfi qavramının gerçəkliyin ovsunlayıcı musiqi improvizasiyaları ilə müşayiətində baş verməsi ənənəsi türk musiqisinin sonrakı inkişafına özünün təməlyaradıcı təsirini göstərmişdir. Türk etnosunun ayrı-ayrı boylar üzrə təkamülündə şaman, qam, oyun, oin, oyna, olonxoçu, baxşı, baksı, faksı, ozan, akın, şayır, qayçı, falbin və s. kimi dəyişkən tutumda və geniş şəbəkədə fəaliyyət göstərməsindən asılı olmayaraq, qam-şaman hadisəsi türk mənəviyyatı və bu mənəviyyatın güzgüsü olan ulusal musiqi üçün təkrarsız özünüdərk, özünütəsdiq faktı olmuşdur (17).

Daha sonrakı inkişaf prosesində aşıq sənətinin genetik qaynaqları sırasında qam-şaman kompleksi bünövrənin əsas və ilk qatını təşkil edən başlıca mədəni-estetik lay olduğundan, o özündən sonra gələn mərhələlərin də formalaşmasında həlledici və istiqamətverici qüvvəyə çevrilmişdir. Buna ən parlaq örnək aşıq musiqisinin özünün də təşəkkülündə mühüm rol oynayan ozan sənəti – ozançılıqdır. Bütövlükdə, *qam-şaman – ozan – aşıq sənəti* arasındakı varislik xətti türk musiqisinin minillikləri əhatə edən təkmilləşmə tarixinin immanent hadisəsidir. Ozanın aşığa, qopuzun saza çevrildiyi bu tarixi prosesdə türk musiqisi forma və məzmun, çalğı alətlərinin təkmilləşdirilməsi nöqteyi-nəzərindən böyük zənginliklər qazanaraq təkamül etmişdir.

Bütün türklərin tanıdığı Dədə Qorqud özü – türk dünyasının ən ünlü və universal ozan prototipidir. "Boy boylayıb söz söyləyən" ("Kitabi-Dədə Qorqud"), ulusun müdriki sayılan ozanın çaldığı *qopuz* türk etnoqrafik mərasimlərinin icrasında – toy-düyün, şadlıq yığnaqlarında istifadə olunan musiqi alətidir.



*Qopuz*



*Azərbaycan sazı*

Qopuz havalarında rəqs ahəngi və oynaq ritmlər önəmli yer tutur. Ozan sənəti, əsasən, səyyar səciyyə daşımışdır. Ona görə də qopuz bir musiqi aləti kimi dinamikliyə – hərəkət və yürüşə uyğun forma almışdır. Qopuzun əsas iki növü vardır: 1. Kamança şəklində olan qopuz; 2. Hazırkı saz qəlibinin ibtidai formasını xatırladan qopuz.

Birinci növ qopuzlar, əsasən, hakaslar, şorlar, qırğızlar və qazaxlar arasında yayılmışdır. İkinci növ qopuzlar isə daha çox oğuz boylarının çalğı aləti kimi tanınmışdır. Ən qədim türk qopuzları iki və üç telli (yer *[yir]*, göy *[gök]* və ruh *[qut]* aləminin birlik simvolu) olmuşdur. Sibir-Altay, Uralboyu, Çin-Uyğur və Türküstan bölgələrindəki qopuzların sim düzülüşündə ikisimlilik və üçsimlilik ənənəsi indiyədək qorunub saxlanır.

Türk musiqi sənətinin tarixi mənzərəsi göstərir ki, türk qopuzu ayrı-ayrı bölgələrdə bir sıra digər adlar da qazanmışdır. Bunlardan ən çox yayılanı tanbur və onun çeşidli variantlarıdır: *tanbur, dombra, dombura, dombrak* və s. Qazaxlar və özbəklər arasında bu musiqi alətləri geniş yayılmışdır. Türkmənlər isə qopuzu *dütar* adlandırmışlar. Qədim türk mədəni mühitində qopuz çalan sənətkarlara istifadə etdikləri musiqi alətinə uyğun olaraq *"qopuzçu"* adı verilmişdir. Türklərin "Manas", "Kitabi-Dədə



*Qopuzçu. 1900-cü il*

Qorqud", "Səmətey" və "Seytək" kimi dərin etnik-mədəni yaddaş sisteminə, mükəmməl musiqi komponentinə malik epos-dastanlarında "qopuzçu" – peşəkar sənətçi statusunda təsvir edilir. Əslində, türk eposlarının (dastanlarının) yaradıcısı da elə sözün (poeziya) və səsin (musiqi) vəhdətini təqdim edən, teatrallaşdırılmış mərasimlərin ustadı olan ozandır, daha sonrakı dövrlərdə isə aşıqdır.

Türk və islam sivilizasiyalarının inteqrasiyası prosesində ozançılıqdan sonra aşıqlıq sənətini türk mənəvi dünyasında populyarlaşdıran Əhməd Yəsəvi olmuşdur. Onun yaratdığı yəsəvilik təriqətinin ideya-estetik davamı olan bəktaşi, ələvi və səfəvi fəlsəfi-ruhani hərəkatlarının güclü təsiri kifayət qədər uzun bir zaman kəsiyində – XII - XV yüzilliklər arasında yeni tipli bir sənətkar tipinin – aşığın ortaya çıxmasını şərtləndirməklə bərabər, tədricən ozanları da aşığa çevirmişdir. İslam epoxasında türk incəsənətinin, o cümlədən türk musiqisinin yeni forma və janrları meydana gəlmişdir. Bu dövrdən başlayaraq müasir dövrümüzədək türk xalq musiqisi zəngin bir inkişaf yolu keçmişdir.

Türk musiqi mədəniyyətinin özgürlüyünü göstərən bir cəhət də bundan ibarətdir ki, bu musiqi təkcə estetik fenomen, zövqü oxşayan, məclisləri, toy və mağarları şənləndirən hadisə deyil, eyni zamanda, dövlətçilik mədəniyyətinin də ayrılmaz bir hissəsi olmuşdur: böyük ərazilər fəth edən türk ordusunu hərbi musiqisiz təsəvvür etmək mümkün deyildir. Hun və Göy Türk imperiyalarından başlayaraq genealoji Səlcuq imperiyalarına qədər onların bütün orduları ozan və qopuzçuların müşayiəti

ilə hərəkət etmişdir. Əski türk kağanlarının saraylarında və ordugahlarında mehtərlərdən ibarət hərbi musiqi dəstələri (müasir mənada hərbi orkestr) "doqquz kök" *("dokuz kök")* adlanan əsərləri böyük şövqlə hər gün ifa edər, komandan və əsgərlərə mübariz döyüşkənlik ruhu aşılayarmışlar.

İslam Şərqinin musiqi mədəniyyətində mühüm yer tutan, tarixi genezisi ilə hind *raqalarına* bağlı olan muğam sənəti də türk arealında yeni özünəməxsus bir həyat qazanmışdır. Təsadüfi deyil ki, türk muğamı fars, ərəb muğamından fərqlənir. Ümumtürk mədəniyyətinə mənsub xalqların muğam sənətləri isə nə qədər bir-birindən seçilsələr də, daha çox bənzər xüsusiyyətlərə malikdirlər.

Tarixi inkişaf prosesində türk musiqisinin ümumən aşağıdakı növ, forma və janrları meydana gəlmişdir: *müxtəlif ozan və aşıq havaları, mehtər (hərb) musiqisi, türkülər, şərqilər, bozlaklar, yırlar, uzun havalar, mahnılar, oyun havaları, qoşmalar, igidləmələr, daşlamalar, gözəlləmələr, zeybəklər, kaarlar, bəstələr, səmailər, əzanlar, dualar, vəsflər, səlalar, təkbirlər, təmcidlər, minacatlar, nabatlar, ayinlər, duraklar, ilahilər, nəfəslər, niyazlar, ninnilər* və s.

Türk musiqi alətləri, əsasən, aşağıdakılardan ibarətdir:

- Əski zamanlarda yaranan və çağdaş dövrümüzə qədər gəlib çıxan alətlər: *qopuz, saz və onların növləri (məsələn, yatıq saz, cürə saz və s.), tar, kamança, tulum, tütək, saz, balaban, zurna, nağara, dəf və s.;*

- Keçmişdə yaranıb unudulmuş, sonradan bərpa edilmiş alətlər: *bərbət, rud, çəng, kos, qaşığek, çanaq və s.;*

- universal çalğı alətləri: *qoşqar rübabı, dütar, setar, tanbur, davul, dairə, kərənay, musiqar və s.*

Bu qrupa aid edilən çalğı alətləri vaxtilə türk musiqisində geniş istifadə edilsə də, sonralar müəyyən səbəblərdən sıradan çıxmışlar. Lakin müxtəlif ərazilərdə, nəinki türklər, hətta dünyanın digər müxtəlif xalqları tərəfindən belə alətlər inkişaf etdirilmiş, müasir dövrümüzə qədər gəlib çıxmışdır.

- Sonrakı dövrlərdə düzəldilən çalğı alətləri: *sinəud, zülfar, dilrüba, əsa nej, neyvari və s.*; quruluşuna görə hazırda Azərbaycanda və bir sıra türk respublikalarında orkestrlərin, müxtəlif ansamblların tərkibində və solo ifaçılığında istifadə olunmaqdadır.

- hal-hazırda geniş istifadə olunan xalq çalğı alətləri:

simlilər – *tar, saz, kamança, qanun, ud, tənbur*; nəfəslə çalınanlar – *balaban, tütək, zurna, ney, tulum*; dərililər (zərb alətləri) – *nağara, qaval, qoşanağara, dümbək;* özü səslənənlər – *şaxşax, kaman və laqqutu və s*. Göründüyü kimi, bu musiqi alətlərinin bir çoxu ümumşərq musiqi mədəniyyətində də geniş istifadə edilir.

Türk xalqları və dövlətlərinin köklü diferensiasiya prosesindən sonra onların hər birinin seçkin musiqi mədəniyyəti formalaşmış, xüsusilə XX əsrdə müasir dünya musiqisinin ənənələrini də mənimsəyən yeni bəstəkarlar nəsli yetişmişdir. Bu gün milli türk musiqi mədəniyyətləri həm əski folklor, həm klassik, həm də pop musiqisinin ən müxtəlif janrlarını özündə birləşdirərək inkişaf etdirməyin zəngin təcrübəsinə və potensialına sahibdirlər.



*Türk musiqi alətləri*

# TÜRK XALÇAÇILIĞI

Türk mədəniyyəti və incəsənətinin inkişafı tarixində türk xalçaçılığı mühüm yer tutur. Türklər əl toxumalarından dəzgah toxuculuğuna qədər təkmilləşən bir istehsal mədəniyyəti ilə klassik xalçaçılıq məktəbləri yaratmışlar. Bunu Altaylardan Anadoluyadək genişlənən türk arealında yüzilliklər ərzində toxunub müxtəlif çeşid və çalarlar əldə edən xalçalar, onların arxeoloji qazıntılar zamanı tapılmış nümunələri təsdiq edir.

Elmi araşdırmaların qənaətinə görə, dünyanın ən qədim *Pazırıq xalısı* buna örnəkdir. O, Sovet arxeoloqu S.İ.Rudenko tərəfindən Altay çevrəsində bəy zümrəsinə aid qırxa yaxın zəngin sənət əsərləri ilə birgə Pazırıq kurqanından tapılmışdır (143). 1,83 m x 2,0 m ölçülü qırmızı rəngli *keçə* üzərində incə yun ipindən toxunan, e.ə. V-IV əsrlərə aid edilən bu xalı hazırda Sankt-Peterburqun Ermitaj muzeyində saxlanılır. Avrasiyada tarixi mədəniyyətlərin inkişafı prosesini, bir qayda olaraq, "Hind-Avropa" nəzəriyyəsi ilə şərh etməyə çalışan alimlər bu xalının "Altaya necə gedib çıxmasına" yalnız ehtimal cavabı verirlər: guya bir saq hökmdarının sifarişi ilə yas törənində cəsədin üstünə örtük kimi nəzərdə tutulan bu xalı "Ermənistanda" toxunmuşdur. Hətta Ulrix Şürman bunu "erməni sənətinin şah əsəri" adlandırmış, Volkmar Gantzhorn da öz kitabında onun fikrini doğru saymışdır. Halbuki uzun illər boyu İç Türküstandan Anadolu bölgələrinə qədər yayılmış xalı-xalça sənəti nümunələrinin tipologiyası, təsnifi və çeşidləri üzərində aparılan elmi araşdırmalar sübut edir ki, Pazırıq xalısının toxunma üslubu (*türk-gördes* düyümü) digər saq, hun, türkmən, Azərbaycan, türk toxuma sənəti kimi tanınmış sənətkarlıq əsərləri ilə eyni mənşəlidir. Divardan asmaq üçün nəzərdə tutulmuş başqa bir Pazırıq xalısı 4,5 m x 6,5 m ölçüsündə

rəngli keçədən hazırlanmış sənət əsəridir. Burada taxtda oturub əlində həyat ağacı tutan qutsal qadın və qarşısında gözəl geyimli bir atlı təsvir edilmişdir. Buradakı qadın obrazı qarşısındakı bəyə uğur diləyən ulu qam-şaman xatın obrazıdır. Ehtimal olunur ki, bu qədim xalının kurqanın altında salamat qalmasının səbəbi vaxtilə məzarın yuxarı hissəsində açılmış bir oyuqdan məzarın dibinə sızan suyun buz bağlaması və xalının buzun içində qalması olmuşdur.



*Pazırıq xalısı. E.ə. 400-cü illər. Ermitaj muzeyi*

Pazırıq xalısı iç-içə bir neçə çərçivəyə bölünmüş, birincidə qrifonlar, ikincidə atlılar, üçüncüdə sığırlar (maral cinsindən), dördüncüdə hun çiçəyi şəklində simvollar verilmişdir. Beşinci çərçivə isə 24 çiçəkli xanaya ayrılmışdır. Türkmən alimi A.Bekmıradov sığırların və orta xana sayının 24 olmasının 24 oğuz boyunu rəmzləşdirdiyini qeyd etmişdir (41). Sonralar E.F.Tekçe və N.G. Qırzıoğlu da eyni fikrə gəlmişlər (81). Xalıdakı atların quyruğu əski hun şəkillərindəki kimi düyünlüdür, başlarında yüyən var və yəhərin üzəngisi yoxdur. Çünki həmin xalını toxuyan saqların törəmələri hunlar dünyada ilk dəfə üzəngini bu xalıdan

min il sonra icad etmişdilər. Deməli, Pazırıq xalısının ermənilərə məxsus olduğunu iddia etmək – Antarktidada tapılan bir ocağın yarıyanmış odununun Ermənistandan gətirildiyini iddia etmək qədər absurddur. Çünki Pazırıq xalısı, göründüyü kimi, bütün simvolik obrazlar toplusu, toxunuş sənətkarlığı ilə hun-türk etnomədəni sisteminin məhsuludur.

Adətən, köçəri həyat tərzi keçirən türklər xalçaçılığın arxaik forması olan *keçə* hazırlamağın praktikasına çox qədimdən yiyələnmişlər. *Keçə* – döyülüb basmaq və sıxmaqla hazırlanan sıx yun materialdır. Keçədən alaçıq və çadır qurmaq üçün, *at çulu, palan,* çobanlar üçün *yap*ıncı düzəldilməsində geniş istifadə edilmişdir. *Keçəçilik* sənəti hörmə, tikmə, toxumadan fərqli olaraq, basma üsulu ilə ixtisaslaşmış ustalar tərəfindən aparılmışdır. Keçə hazırlamaqla məşğul olan ustalar *"həllac"* və ya *"atıcı"* adlandırılmışdır. Türk dünyasında maldarlığın, xüsusən də qoyunçuluğun geniş yayılması keçəçiliyin təşəkkülünə zəmin yaratmışdır. Keçənin hazırlanmasında yun əsas material olduğu üçün burada qoyun bəslənməsi və qırxılması vacib elementdir. Bundan ötrü qoyunların xüsusi gölməçələrdə bir neçə gün yuyulması və qırxılması prosesi gedir. Qırxılmış yun daha sonra didilir. Didilmiş yun bir neçə nəfər tərəfindən döyülür. Yunun üzərinə ılıq su əlavə edib, üzərində addımlayırlar. Sonra yun tapdalanır, buna *yunun təpilməsi* deyilir. Qəliblər üzərində də davam edən təpmə, yun hazır olub, keçə əmələ gələnə qədər davam etdirilir. Keçə hazırlanarkən yerinin hamarlığı, genişliyi və rahatlığı da nəzərə alınmalıdır.

Keçənin müxtəlif növləri olmuşdur: ***qara keçə*** və ya ***qəlib*** – dəyə və alaçıqların üstünün örtülməsində, döşənməsində, divarların bəzədilməsində istifadə edilmişdir; ***yük keçəsi*** – elatlar arasında geniş yayılmışdır. Arandan-dağa, dağdan-arana köçən elatlar yağmur və toz-torpaqdan qorumaq məqsədilə məişət ləvazimatlarının üstünü yük keçəsi vasitəsilə örtürdülər; ***yəhər keçəsi*** – yəhərin altına keçirilərək atın sağrısını örtür; ***dolaq keçəsi*** – soyuq havada ayaqlara dolanır; ***at keçəsi*** – atın üstünə



*Keçə*

sərilərək yəhər vəzifəsini yerinə yetirir, həm də yəhərin altında yerləşdirilir, atı soyuqdan, yəhər sürtülməsindən qoruyur; ***qapı keçəsi*** – adından da göründüyü kimi, alaçıq və dəyələrin qapılarının örtülməsində istifadə edilir; ***namazlıq keçə*** – namaz zamanı səcdəyə durarkən istifadə olunur; ***qundaq keçəsi*** – körpə uşaqların bələnməsində istifadə olunur; ***təpmə keçə*** – yapıncı kişi geyimi hazırlanmasında istifadə edilir. Maldarlıqla məşğul olan əhali və çobanlar arasında bu yapıncılar əvəzolunmaz sayılmışdır.

Türklərin yaşadığı tarixi regionların etnomədəni "landşaft" xüsusiyyətlərinə uyğun olaraq, estetik və praktiki baxımdan daha da təkmilləşən türk xalçaçılığı, əsasən, Şərq (uyğur, qazax,

qırğız, özbək, türkmən) və Qərb (Azərbaycan, türk) xalçaçılıq məktəblərinə ayrılmışdır. İslamdansonrakı tarixi mərhələdə türk xalçaçılığı bu dini-sivilizasion dünyagörüşünün bədii-estetik təcəssümünü də özündə sistemləşdirmişdir. Türk xalçaçılığının son üçyüzillik tarixində isə milli xalçaçılıq məktəbləri daha da inkişaf edərək, öz daxilində yeni sənətkarlıq oriyentasiyaları tapmışlar. Məsələn, bu dövrdə Azərbaycanda indiyədək mövcud olan, artıq spesifikləşmiş xüsusiyyətlərə malik 8 xalçaçılıq məktəbi formalaşmışdır:

1. Quba xalçaçılıq məktəbi
2. Abşeron xalçaçılıq məktəbi
3. Şirvan xalçaçılıq məktəbi
4. Gəncə xalçaçılıq məktəbi
5. Şəki xalçaçılıq məktəbi
6. Qazax xalçaçılıq məktəbi
7. Qarabağ xalçaçılıq məktəbi
8. Təbriz xalçaçılıq məktəbi

Türk xalçaçılığının zəngin bir ənənəsi xüsusilə Qərb (Azərbaycan, türk) xalçaçılıq məktəblərində inkişaf etdirilmişdir. Bu haqda hələ antik dövrlərdə Herodot, Klavdi Elian, Ksenofont və başqa qədim dünya tarixçiləri məlumat vermişlər. Qızıl-gümüş saplarla toxunan və daş-qaşla bəzədilən xalça istehsalı III-VII və XVI-XVII əsrlərdə ənənəvi xarakter almışdır. Baha başa gəldiyindən, əsasən, zənginlər üçün toxunulan bu xalı və xalçalar "zərbaf" adlanmışdır. "Xalı" və "xalça" sözlərinin etimologiyası məmulatın özünün adekvat xarakterinə – rəng çalarlarının çoxluğuna görə, təbii ki, *"xal"* söz-arxetipi ilə (*"xallandırılmış", "çilləndirilmiş"* nəsnə) bağlıdır.

Türk xalçaları və onların bədii xüsusiyyətləri haqqında orta əsrlərin yazılı mənbələrində maraqlı məlumatlara rast gəlinir. X əsrə aid "Hüdud əl-aləm" ("Dünyanın sərhədləri") əsərində naməlum müəllif Muğanda toxunulan *palaz* və çullardan, Naxçıvanın *zili* toxunuşlu xalılarından məlumat vermişdir, "Kitabi



*Azərbaycan (Ərdəbil) xalçası. XVI əsr*

Dədə Qorqud" dastanında Azərbaycanın ipək xalçaları, Əbül Üla Gəncəvi, Nizami və Xaqaninin (XII əsr) əsərlərində xovlu və xovsuz xalçalar tərənnüm olunmuşdur.

XIII-XIV əsrlərdə indiki Azərbaycan və Türkiyə ərazisindən də geniş olan bir türk coğrafiyasından xarici ölkələrə xeyli sayda xalı və xalça məmulatı ixrac edilmişdir. İncə ornamentləri, zərif və nəfis naxışları ilə diqqəti cəlb edən bu xalçalar məşhur Avropa rəssamlarının əsərlərində, miniatürlərində öz əksini tapmışdır. XV əsr Niderland rəssamları Hans Memlinqin "Məryəm öz körpəsi ilə" tablosunda "Şirvan" xalçasının, Van Eykin "Müqəddəs Məryəm" əsərində "Zeyvə" xalçasının, Alman rəssamı Hans Holbeynin (XV əsr) "Səfirlər" əsərində "Qazax" xalçasının təsvirləri yer almışdır.

1872-ci ildə Vyanada (Avstriya), 1911-ci ildə Turində (İtaliya), 1913-cü ildə Londonda və Berlində təşkil edilmiş Beynəlxalq sərgilərdə nümayiş etdirilən eksponatların əsas hissəsi Azərbaycan, İran (Güney Azərbaycan) və Türkiyədən aparılmış xalı və xalça məmulatlarından ibarət olmuşdur.



*Gəncədə xalça bazarı. XIX əsrin sonları*

Türk milli xalçaçılıq məktəblərinin müasir texnologiya və yeni estetik prinsipləri mənimsədiyi dövr XX əsrin ortalarına təsadüf edir. Bu dövrdə türk xalça sənətinin inkişafı bir neçə istiqamətdə davam edərək çoxcəhətli xarakter almışdır. Xalçaçılıq sənətinin ənənələri ayrı-ayrı xalça ustaları tərəfindən davam etdirilmişdir. Onların ənənəvi çeşnilərdə toxuduqları xalçalarda klassik kompozisiyalara yaradıcı münasibət qabarıq şəkildə özünü göstərmişdir. Eyni zamanda, xalçaçılıqda yeni-yeni kompozisiyalar, naxış elementləri meydana gəlmişdir. Yeni yaranan çeşnilərdə nisbətən əyri xətlərlə işlənmiş nəbati naxışlara, insan, heyvan, quş təsvirlərinə, lirik və romantik üslubda yaradılmış süjetli kompozisiyalara meyl üstünlük təşkil etmişdir. Xalçaçılıq sənətinin digər bir qolu peşəkar rəssamlar tərəfindən davam və inkişaf etdirilmişdir. Onların yaratdıqları yeni ornament və çeşnilər əsasında toxunan xalçalar klassik kompozisiyaların zənginləşdirilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Bu xalçaların quruluş, rəsm həlli və koloritində bəzən klassik



*Özbək xalçası*

kanonların pozulmasına baxmayaraq, müxtəlif bədii və texniki vasitələr mövzunun açılmasına kömək etmişdir.

Türk xalçaları öz texniki xüsusiyyətlərinə görə, əsasən, xovlu, xovsuz və süjetli xalçalar qrupuna bölünür. Xovsuz xalçalar toxuculuq sənətinin ən erkən dövrünə təsadüf edir. Xovsuz xalçalar öz toxunma üsuluna, kompozisiya quruluşuna, ornament zənginliyinə və rəng koloritinə görə bir-birindən fərqlənən 8 növə ayrılır: *Palaz, Cecim, Ladı, Kilim, Şəddə, Vərni, Zili, Sumax.*

*Palaz* – xovsuz xalça texnikasının ən geniş yayılmış növüdür. O demək olar ki, bütün ənənəvi toxuculuq mərkəzlərində istehsal olunmuşdur. Palazın istehsalında həm yun, həm də pambıq iplərdən istifadə edilmişdir. Palazın toxunma texnikası saya və ya tünd rəngli əriş iplərin arasından müxtəlif çalarlı *arğac* iplərinin ensiz zolaqlar şəklində buraxılmasından ibarətdir. Palaz texnikasında toxunmuş məmulatdan ev döşəmələrinin, alaçıqların, çadırların üstünün örtülməsində, müxtəlif praktiki xarakterli məişət əşyalarının, hətta bəzən üst paltarların hazırlanmasında da istifadə olunmuşdur.



*Palaz*

*Cecim* – eni 30-35 sm., uzunluğu 15-20 metrədək olan ensiz üfüqi zolaqlarla iplik dəzgahın üzərində tikilir. Bu zaman divar xalçası, yataq örtükləri, pərdə qismində istifadə olunan parça alınır. Cecimlərin ornament dekoru müxtəlif və zəngindir. Cecimi bəzəyən müxtəlif şaquli zolaqlar qeyri-adi dərəcədə effektiv, parlaq və dekorativdir. Əksər hallarda toxucular zolaqları məişət əşyalarının (daraq, iplik, şamdan) və həndəsi elementlərin üslübləşdırılmış təsvirləri ilə bəzəyirlər. XX əsrin ortalarına qədər nazik cecimlərdən hətta qadın və kişi paltarları da tikilmişdir.

*Kilim* texnikasının əsasını da arğac ipinin ərişdən keçirilməsi təşkil edir. Lakin cecim, palaz və şəddədən fərqli olaraq, arğac toxunulan məhsulun bütün eni və ya uzunu boyu aparılmır. Kilimdə müxtəlif rəngli arğaclar bir cərgədə düzülə bilər. Beləliklə, hər cərgədə müxtəlif rəngli iplərin sayını artırıb azaltmaqla toxucu şaquli istiqamətdə yönəlmiş həndəsi ornament zənginliyinə nail ola bilər. Kilimlər iplərlə naxışlama yolu ilə daha mürəkkəb hörmə prosesində toxunur. Kilim həndəsi naxışların əhatə etdiyi çatvari işıq zolağı ilə səciyyələnir. Bu çatvari işıq zolağı şəbəkə effekti verir. Kilimin texnologiyasına əsasən naxışlar romb, üçbucaq və



*Qədim kilim*

trapesiya formasında olur. Kililmlərdə bitki mənşəyinə malik bütün elementlərin, eləcə də heyvan, quş və insan rəsmlərinin həndəsi təsviri verilir. Müxtəlif bölgələrdə hazırlanan kilimlər kompozisiyası, naxışları və rənginə görə bir-birindən fərqlənir.

Xovsuz xalçaların son əsrlər geniş yayılmış ən maraqlı növlərindən biri *"sumax"* xalçalarıdır. Sumax xalçaları, yəqin ki, çox isti havalarda sərin, xovsuz bir xalça kimi insanların rahatlığına xidmət etmişdir. *Sumax* xalçaları xovlu xalçalardan götürülmüş naxış və kompozisiyalarla bəzədilir. *Zili* və *vərni* ilə oxşardır. Lakin burada arğaclar ardıcıl olaraq bir cərgə soldan sağa, bir cərgə isə sağdan sola aparılır. Buna görə də sumax texnikası ilə toxunan naxışlara yaxından və diqqətlə baxdıqda onlar saç hörüklərinin formasına bənzəyir. Bundan başqa sumax xalçaları toxunarkən iplərin ucları astara çıxarılıb kəsilmir. Nəticədə, xalçanın astar hissəsi qalın tüklü olur.

Türk xalqları ilk öncə xovsuz xalçalar (palaz, kilim, cecim, sumax və s.) toxumuşlar ki, bu növ xalçalar olduqca yüngül, nazik və yumşaq idilər. Xovlu xalçalar isə xovsuzlara nisbətən iki-altı dəfə qalın və ağır, sıx toxunuşlu və daha dözümlü idilər. *Keçəçilik* sənəti üzərində *xovsuz xalçaçılıq,* xovsuz xalçaçılıq sənəti üzərində isə *xovlu xalçaçılıq* ənənələri yarandığından on-



*Təbriz xalçaçılıq məktəbinə məxsus "Azərbaycan" süjetli xalçası*

ların sonuncusunu keyfiyyətinə və mürəkkəbliyinə görə fərqləndirmək məqsədi ilə "qalın" *[kalın]* adlandırmışlar. *Süjetli xalçalar* – xalçaçılıq sənətinin ən inkişaf etmiş, daha mürəkkəb, "danışan" kompozisiyaya malik olan çeşididir. Süjetli xalçalarda müəyyən bir mövzu, hətta bir epos süjeti və yaxud bir didaktik səhnə dekorativ obrazlar vasitəsi ilə təsvir edilir.

Xalçalar türklərin həyat tərzi, adət-ənənələri və inanclarının ayrılmaz hissəsi olmuşdur. Xalça onları bütün həyatı boyu –



*“Həyat ağacı” xalçası*

həm kədərində, həm də sevincində müşayiət etmişdir. Türklər xalça üstündə doğulmuş, xalça örtülmüş tabuta qoyularaq dəfn edilmişlər. Türk həyatında hər bir əhəmiyyətli tarixi və yaxud hadisəni əbədiləşdirmək üçün həmin tarixə və ya hadisəyə həsr olunmuş xüsusi xalça toxumaq ənənəsi mövcud olmuşdur: uşağın doğulması münasibətilə toxunan xalçalar, gəlinlərə cehizlik üçün toxunan xalçalar, elçilərin qarşısına sərilən xalçalar, məscid və məbədlər üçün toxunan xalçalar, toy yaxud yas mərasimləri üçün toxunan xalçalar. Türk xalça məmulatlarına həm də *mərfəş, xur-*

*cun, heybə, taxtüstü, yəhərüstü, duz torbası, çul, örkən, çömçədan, yun corablar, pərdələr* və s. daxildir.

Xalça toxunmasının əsas alətləri – *həvə* və ya *toxmaq* (toxucuların sayına uyğun) *kirkid* və ya *daraq* (toxucuların sayına uyğun); *qayçı* (toxucuların sayına uyğun); *bıçaq* (toxucuların sayına uyğun); *qarmaqlı bıçaq* (toxucuların sayına uyğun); *divar hanası,* yaxud da *yer hanasıdır.*

Xalça toxuculuğunda istifadə edilən məmulatlar mənşəyi və kimyəvi tərkibinə görə iki qrupa bölünür: təbii məmulatlar və süni məmulatlar. Təbii məmulatlar, əsasən, təbii yolla insanın bilavasitə iştirakı olmadan təbiətin özündə formalaşmış materiallardan hazırlanır. Təbii materiallar üç qrupa bölünür: 1. Bitki mənşəli məmulatlar; 2. Heyvan mənşəli məmulatlar 3. Mineral mənşəli məmulatlar. Süni məmulatlar isə zavod şəraitində bir qayda olaraq kimyəvi yolla insanların bilavasitə iştirakı prosesində alınır. Süni məmulatlar təbii, yaxud süni materialların mürəkkəb kimyəvi və fiziki emalı nəticəsində əldə edilir.

Qədim türk xalçalarının toxunması zamanı ancaq təbii iplikdən, həmçinin, təbii məmulatlardan istifadə edilmişdir. Belə xalçaları toxumaq üçün aşağıdakı məmulatlar lazımdır: müxtəlif növ (əsasən, zərif növlü) və rəngdə (ağ, qara, boz, çal, qonur, qumral və s.) ***yun,*** müxtəlif rənglərdə rənglənmiş ***ipliklər*** (ipək, pambıq), əriş və ***arğaclar***. Xalça toxunuşunda yun, ipək, pambıq ipləri ilə yanaşı, ağac qabığı və budağı, at quyruğu, kənaf, qızıl və gümüş tellər, qiymətli daş-qaşlar, qadının baş tükü və s. tətbiq olunmuşdur.

Əllə toxunmuş qədim türk xalçalarının istehsalında ən çox rast gəlinən material qoyun yunudur. İpliyin düzgün seçilməsi və onun işlənməsi çox vacibdir, çünki xalçanın möhkəmliyi, yumşaqlığı və rəng çalarlarının parlaqlığı yun ipinin keyfiyyətindən asılıdır. Son dövrlərdə çox vaxt arğac bünövrəsi üçün pambıq iplikdən istifadə olunur. Xalçaların istehsalında ipəkqurdunun baramasından hazırlanmış ipəkdən də yararlanırlar. İpək daha davamlı olduğu üçün ondan alınan ipliklər

daha möhkəm olur və bu ipliklər mürəkkəb naxışlı xalçaların istehsalında işlənilir. Müasir dövrdə süni boyaların geniş yayılmasına baxmayaraq, türk xalçaçılıq sənayesində (xüsusilə Mərkəzi Asiya respublikalarında) bəzi fərdi toxucular və istehsalçılar bu günə qədər, keçmişdən qalma toxuculuq vərdişləri ilə hazırlanan təbii boyalardan istifadə etməyə üstünlük verirlər.

Bu gün də türk evinin əsas komponenti, yüz illər bundan öncə olduğu kimi, – təbiətin min bir rəngini, insan ovqatının min bir çalarını, dünya duyumunun ən dərin qatlarını özündə əks etdirən və yaşadan xalçalardır.



*Azərbaycan Xalça Muzeyi*

# TÜRK MİNİATÜRÜ

Türklər yaşadıqları bütün tarixi coğrafiyada maddi və mənəvi mədəniyyətin izlərini qoymuş, eyni zamanda, təsviri sənətin müxtəlif növlərinin arxetipik örnəklərini yaratmış, sonrakı tarixi epoxalarda bu növlər içərisindən sivilizasiya həyatının daha təsirli və parlaq təcəssümü olan janrları inkişaf etdirməkdə xüsusi bacarıq göstərmiş, ümumən Şərq mədəniyyətinin önündə gedən böyük sənətkarlıq məktəblərinin yaradıcıları kimi nəinki islam, eləcə də Qərb dünyasında tanınmışlar.

Türk miniatürü Şərq plastikasını bütün dolğunluğu ilə əks etdirən bir seçkin təsviri sənət növü olaraq hələ orta əsrlərdə şöhrətlənmişdir. Sənətkarlığı ən yüksək klassik səviyyəsinə çatdırmağın təkzibolunmaz bir səbəbi vardır: türklər bütün Avrasiyada ən çox hərəkət edən, buradakı tarixi sivilizasiyaların yaradıcılıq təfəkkürünü bir-birinə bağlayan və deməli, mədəniyyətlərin qovşağında onların ən yaxşı ənənələrini mənimsəyərək özündə ehtiva etmək imkanlarına malik olan bir superetnos olmuşlar. Buna görə də türklərin həm xarakterində, həm də əməli yaradıcılığında təzahür edən universallıq keyfiyyətləri onların həm də müxtəlif sənətlərə açar taparaq bu sahələrdə bacarıqlı ustad olmalarına yol açmışdır. Məsələn, antik kitabçılığın və miniatür sənətinin erkən gəlişdiyi Çinlə çoxəsrlik tarixi-mədəni münasibətlərdə olmuş uyğur türkləri XII-XIII əsrlərdən etibarən artıq Yaxın və Orta Şərq mədəni mühitində Çin, türk və islam sivilizasiyalarının təsviri sənətdəki birgəlik xüsusiyyətlərini taparaq, kitab miniatürçülüyünün dünyada tamamilə yeni formalarını ərsəyə gətirmişlər.

Ümumiyyətlə, türk xalqlarının sənət biliciləri Şərq-İslam mədəniyyəti və incəsənətinin ən incə növündə – miniatürçülükdə



*Antik uyğur miniatürü*

də özlərini yüksək səviyyədə təsdiq edə bilmişlər. Türk rəssam və miniatürçüləri, əsasən, türklərin hökmdar olduğu səltənətlərdə (Qaraxanlı, Qəznəli, Atabəylər, Səlcuqlar, Teymurilər, Moğol, Səfəvi, Osmanlı və s.) ünlü rəssamlıq məktəblərini yaratmaqla yanaşı, həm də bu məktəblərə öz zamanlarının ən qüdrətli sənətkarlarını toplamış, müxtəlif millətlərin bədii-estetik dünyagörüşü və bacarıqlarının birləşmiş enerjisinin əldə olunmasını təmin etmişlər (115). Buna görə də orta əsrlərdə türk imperiyalarının universal mədəniyyətçilik siyasətinə uyğun olaraq, ümumən islam Şərqində miniatür sənəti (kitab miniatürçülüyü) yüksək inkişaf etmiş və həmin imperiyaların böyük şəhərləri həm də əsas sənət mərkəzləri olmuşdur. Yaxın və Orta Şərqdə ilk miniatürlər Xoy, Marağa, və Təbriz şəhərlərində Azərbaycan Atabəyləri (Eldənizlər) dövründə yaradılmışdır. Bir qədər sonra Azərbaycan türk dövlətləri – Qaraqoyunlu, Ağqoyunlu və Səfəvilərin sənətkarlıq emalatxanalarında dünya bədii mədəniyyət xəzinəsini zənginləşdirmiş özünəməxsus və orijinal miniatür kitab məktəbləri yaranmışdır. Təsadüfi deyil ki, alman alimi F.Şults XIV-XV əsr Təbriz miniatür məktəbini Şərqin bir çox

sənət məktəblərinin təməli (*"Mutterschule"* – "ana məktəb") adlandırmışdır.

Miniatür sənəti müsəlman, eləcə də türk xalqlarının çoxəsrlik incəsənət tarixinin ən maraqlı səhifələrindən biridir (59). Əlbəttə, bütün orta əsrlər boyunca türk rəssamları və sənətkarları yaradıcılıq fantaziyasının zənginliyi ilə hər zaman insanları heyran edən və onu yaradan xalqın bədii mədəniyyətinin qədimliyini, çoxcəhətliyini, özünəməxsusluğunu sübut edən çoxsaylı memarlıq, təsviri və dekorativ sənət əsərləri yaratmışlar və onların çoxu dünya incəsənətinin qızıl fonduna daxil olmuşdur. Türk xalqlarının dünya bədii mədəniyyət xəzinəsinə bəxş etdiyi ən



*Təbriz miniatür məktəbi. "Sultan Səncər və qarı".*
*"Xəmsə"yə işlənmiş miniatür (1539-1543). Britaniya muzeyi, London*

sanballı və mühüm sənət inciləri isə daha çox türk sənətkarlarının miniatür rəssamlığı sahəsində yaratdığı əsərlər sayılmışdır.

Təsviri sənətin xüsusi bir növü olan miniatür öz təbiəti etibarilə kitab illüstrasiyası olub klassik Şərq poeziyasının bilavasitə təsiri altında inkişaf etmişdir (12). Şərq poeziyası klassiklərinin, xüsusilə Firdovsi və Nizami Gəncəvi kimi korifeylərin ölməz əsərləri rəssamlar üçün tükənməz ilham qaynağı olmuş və onların yaradıcılığını yüksək humanist ideyalarla zənginləşdirmişdir. Firdovsinin "Şahnamə" nəzm-epopeyası, Nizaminin fəlsəfi-didaktik, romantik və tarixi-qəhrəmanlıq poemaları miniatürçü-



*Təbriz miniatür məktəbi. Sultan Məhəmməd (1470-1555)*

rəssamların yaradıcılığına güclü təsir göstərmiş, ideya-estetik baxımdan təkrarolunmaz, dünyəvi məzmunu ilə fərqlənən, dini mücərrədlikdən, asketizmdən uzaq əsərlərin yaradılması üçün güclü stimul vermişdir.

Şərq poeziyası miniatür rəssamlığın təkcə humanist məzmununu və ideya istiqamətini müəyyənləşdirməmiş, eyni zamanda, onun bədii formasının inkişafında da müəyyən iz buraxmışdır. Zəngin obrazlar aləmi, Şərq poeziyasının incə, əlvan poetik dili, ahəngdarlığı və musiqililiyi rəssamlara poeziya ilə dərindən həmahəng olan şərti dekorativ üslub, yüksək romantik və poetikləşdirilmiş obrazlı ifadə vasitələri, şairanə bədii quruluş yaratmağa kömək etmişdir. Buna görədir ki, Yaxın və Orta Şərq xalqlarının miniatür rəssamlığı həm mövzu genişliyi, həm də bu sənət növünün özünə xas xüsusiyyətləri ilə şərtlənən bəzi ümumi yönlərə malikdir.

Həmçinin, ictimai-siyasi həyatın inkişaf xüsusiyyətləri və hər bir xalqın estetik baxışları onun incəsənətinin xarakterində də iz buraxmışdır. Bu səbəbdən, ərəb Şərqinin, Türkiyə və İran, Azərbaycan, Orta Asiya və Moğol Hindistanının miniatürləri təkrarolunmaz xüsusiyyətləri ilə fərqlənirlər. Türksoylu cahan dövlətlərinin mövcud olduğu bütün dönəmlərdə incəsənətin digər sahələri ilə birlikdə miniatür sənəti də zəngin inkişaf yolu keçmişdir. Bu sənətin tarixində Qaraxanlılar, Elxanilər, Səlcuqlar, Cəlayirlilər, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular, Moğollar və Osmanlılar dövrünün klassik rəssamları yüzilliklər ərzində onun unikal nümunələrini yaratmışlar.

Hazırda dünyanın böyük muzey və kitabxanalarında ən dəyərli sənət inciləri kimi saxlanan Firdovsinin "Şahnamə"si və Nizaminin "Xəmsə"si, Sədi Şirazi və Hafiz Şirazinin, Əbdürrəhman Cami və Əlişir Nəvainin, Xosrov Dəhləvi və Şərq poeziyasının başqa klassiklərinin, əsasən, türk (uyğur, özbək, Azərbaycan, qazax, türkmən), eyni zamanda, hind, fars, əfqan, tacik, ərəb rəssamları tərəfindən zəngin illüstrasiyalarla bəzədilmiş təmtəraqlı əlyazmaları, həmçinin, xüsusi albomlarda – *"Mü-*

*rəkkə"lərdə* toplanmış müstəqil miniatürlər sübut edir ki, türk dövlət və imperiyalarının mövcud olduğu tarixi-mədəni regionlarda miniatür sənəti XIII-XVI əsrlərdə özünün yüksəliş dövrünün yaşamışdır. XIII əsrin sonu XIV əsrin əvvəllərində türk sülaləsi Elxanilərin ilk iqamətgahı olan Marağa və Təbriz şəhərləri islam Şərqinin ən inkişaf etmiş mədəniyyət mərkəzləri olmuşdur. XIV əsrin əvvəlində Təbrizdə əlyazma kitabların hazırlandığı bədii emalatxanaları olan şah kitabxanası fəaliyyət göstərmişdir. Əlbəttə, yalnız iqtisadi və mədəni cəhətdən inkişaf etmiş şəhərlərdə, hökmdarların himayəsi altında kitabxana yaratmaq və saxlamaq mümkün olmuşdur. Çünki bir illüstrasiyalı əlyazmanın hazırlanmasına uzun illər sərf olunurdu. Kitabxanada birinci dərəcəli xəttatlardan, miniatürçü *rəssam-müsəvvilərdən,* ornamentalist *müzəhhiblərdən* və kitab sənətinin digər ustalarından ibarət bir qrup çalışırdı. Onlar bahalı materiallarla – cürbəcür *boya, dəri, duru, təbəqə qızıl, gümüş* və s. ilə təmin edilirdilər. Bu sənətkarlar dini məzmunlu əlyazmaların üzünü köçürür, zəngin tərtibat verir, elmi-tarixi və ədəbi-bədii əsərlərə illüstrasiyalar çəkirdilər. Türk miniatür məktəblərinin erkən nümunələri ilə yanaşı, "Vərqa və Gülşa", "Mənafi əl-heyvan" və Fəzlüllah Rəşidəddinin türk imperiyaları tarixinə həsr olunmuş məşhur "Cami' ət-Təvarix" adlı fundamental əsərindəki (XIV əsr) illüstrasiyalar Təbrizdə güclü rəssamlıq məktəbinin olduğunu sübut edir.

Təbriz miniatür məktəbinin (100) formalaşmasında yerli ənənələr digər məktəblərin, o cümlədən uyğur rəssamlarının vasitəsilə Şərqi Türküstan və Bağdad məktəbləri vasitəsilə isə Ərəb-Mesopotamiya ənənələri ilə çulğaşmışdır. XIII və XIV əsrin əvvəllərinə aid əlyazmalara çəkilən miniatürlərdə hələ üslub vəhdəti müşahidə olunmur. Məsələn, "Vərqa və Gülşa" miniatürlərində Bağdad məktəbinin boyakarlıq üslubunun təsiri üstünlük təşkil edir. "Mənafi əl-heyvan" əlyazmasındakı iri planlı heyvan və quş təsvirlərində isə boyakarlıq üslubu Çin-Uyğur incəsənətinin qrafik üsulları ilə növbələnir. Adları çəkilən

məktəb ənənələrinin müxtəlif biçimlərdə təsiri, eyni zamanda, hələ Fəzlüllah Rəşiddədinin sağlığında hazırlanmış, "Cami' ət-Təvarix" əsərinin 1314-cü ildə tərtib edilmiş nüsxələrinə çəkilən miniatürlərdə də müşahidə olunur. Tarixi hadisələri, mifoloji süjetləri, döyüş səhnələrini, həmçinin, məişət mövzularını təsvir edən çoxsaylı miniatürlərin bəziləri qrafik, digərləri isə boyakarlıq üslubunda işlənmişdir. Artıq XIV əsrin ortalarında Təbriz məktəbinin miniatür sənətində tamamilə yeni, müxtəlif bədii ənənələri uğurla və yaradıcı surətdə sintezləşdirən orijinal rəssamlıq üslubu formalaşmışdır.

XV əsrdə bir çox görkəmli kitab miniatürçüləri Teymurilərin hakimiyyətdə olduğu Herat şəhərinə cəlb edilmiş, orada rəhbər vəzifələr tutmuş və türk hökmdarının xüsusi sifarişlərini



*Bağdad miniatür məktəbi*



*Özbək miniatürü. Buxara. 1560*

yerinə yetirmişlər. Məşhur xəttat, alim, şair Cəfər Təbrizi uzun illər Bəy Süngürün saray kitabxanasına başçılıq etmiş, Pir Seyid Əhməd – Şərqin böyük rəssamı Kəmaləddin Behzadın müəllimi olmuşdur. Əmir Teymurun Avrasiyada böyük türk imperiyası qurduğu dövrdə islam Şərqinin ən yaxşı yaradıcı qüvvələrinin cəmləşdirildiyi Səmərqənd "yer kürəsinin fərəhverici mərkəzi" hesab olunurdu. XV əsrdə görkəmli özbək şairi və dövlət xadimi Əlişir Nəvainin himayəsi və məşhur Azərbaycan miniatürçü-rəssamı Kəmaləddin Behzadın rəhbərliyi altında ədəbiyyat və incəsənət sürətlə inkişaf etdiyi zamanda Teymurilər Heratı bütün

Orta Şərqdə bədii mərkəzə çevirmişdi. XVI əsrin əvvəllərindən etibarən isə türk Səfəvi imperiyasının paytaxtı Təbriz yenidən Orta Şərq xalqlarının bədii-estetik mədəniyyətinin əsas yaradıcı ocağı olmuşdur.

Məhz bu dövrdə kitabçılıqla bərabər, türk miniatür sənəti də öz inkişafının zirvəsinə çatmışdı. Səfəvilər sarayının zəngin kitabxanası – şəkilli əlyazmaları yaratmaq üzrə bədii emalatxanaları ilə birgə görkəmli xəttatların, nəqqaşların, miniatürçü rəssamların, tərtibatçıların, *ildiçilərin* və digər kitab sənəti ustalarının əsas fəaliyyət mərkəzinə çevrilmişdi. Şah İsmayıl Xətainin, sonralar isə onun oğlu Şah Təhmasibin hakimiyyəti dövründə dövlət kitabxanasında misilsiz fırça ustası Ustad Nizaməddin Sultan Məhəmmədin ümumi rəhbərliyi altında Ağa Mirək İsfahani, Mir Müsəvir, onun oğu Mir Seyid Əli, Soltan Məhəmmədin oğlu Mirzə Əli, Dost Məhəmməd, Müzəffər Əli və başqalarından ibarət istedadlı miniatürçü-rəssamlar, Şah Mahmud Nişapuri, Şeyx Məhəmməd kimi xəttatlar, Kəmaləddin Behzad, Qasım Əli, Şeyxzadə kimi klassik rəssamlar, dövrün tanınmış kitab ustaları fəaliyyət göstərmişlər (118; 119; 120).

Moğol və Osmanlı imperiyalarında (539; 69), demək olar ki, XIX əsrə qədər klassik miniatür məktəbinin yaradıcıları və davamçıları olmuşdur (Moğollarda – Mir Əli, Abd əs-Səməd, Seyid Bəy, Fərrux Bəy, Haşim, Əbül Həsən, Basavan, Kesu Das, Bişan Das, Manoxar və s.; Osmanlılarda – Baba Nəqqaş, Nəqqaş Nigari, Əhmədcan Barlas, Heydər Kay, Qazi Çapır, Şah Qulu, Mustafa Çələbi, Səlimiyyəli Rəşid, Süleyman Çələbi, Levni, Nəqqaş Həsən, Əhməd Nəqşi, Müsəvvir Hüseyn, Abdulla Buxari, Əndərunlu Fazil və s.). Maraqlıdır ki, hələ XVI əsrin sonlarından, bütün din və mədəniyyətlərə münasibətdə kifayət qədər tolerant davranış sərgiləyən Moğol hökmdarı Əkbərin dövründə klassik Şərq miniatür məktəblərinin üslublarına hind və Avropa incəsənətinin də təsiri görünməyə başlamışdır "Baburnamə" və "Əkbərnamə"nin miniatür tərtibatı məhz bu qəbildəndir. XIX əsrdə Orta Asiyada – Türküstanda özbək miniatür sənəti iki bö-



*Moğol imperatoru Babur şahın saray qəbulu.*
*Mirzə Fərrux bəyin miniatürü. 1589*

yük rəssamın – Əhməd Doniş və Abdulxaliq Mahmumun sayəsində özünəməxsus milli kolorit əldə etmişdir.

Yeni tarixi dövrdə türk miniatür sənəti tətbiqi incəsənətin digər müvafiq növləri ilə də sintez keyfiyyətləri qazanaraq praktiki əhəmiyyətini artırmışdır. Bu sənətin klassik ənənələrindən yaradıcı şəkildə istifadə edən müasir türk sənətkarları və dizaynerləri miniatür estetikasını və onun gərəkli texnologiyalarını monumental boyakarlıq, qrafika, kitab, divar, teatr, salon tərtibatı sahələrində də tətbiq edirlər. Məsələn, Azərbaycan xalq rəssamı Mikayıl Abdullayevin "Kitabi-Dədə Qorqud"un iki fərqli nəşrinə (1962, 1979) çəkdiyi illüstrasiyalar, Bakı metropoliteninin "Nizami" stansiyasında şairin əsərlərinin mo-

tivləri əsasında yaratdığı mozaika lövhələri müasir miniatür yaradıcılığının orijinal nümunələridir. Türk və ümumən, Şərq miniatürünün öyrənilməsinə xeyli tədqiqatlar həsr edilmişdir: F.Marrin, F.Şults, E.Bloşe, Q.Arnold, B.P.Denike və başqalarının ilk əsərlərindən başlayaraq, İ.Şuxin, B.Qrey, B.Robinson, K.S.Velç, B.V.Veymarn, K. Holter, O.Amina, G.A.Rogers, Q.Qazıyev, Q.A.Puqaçenkova, A.İvanov, Güner İnal, Banu Mahir, Mətin And, Filiz Çağman, Nurhan Atasoy, Günsəl Rənda, Zərən Tanındı, Məzhər İpşiroğlu və digər alimlər türk miniatür sənətinin araşdırılmasına öz töhfələrini vermişlər.



*Moğol imperatoru Şah Cahan yer kürəsi üzərində. XVII əsr*



*Rəssam portreti. Osmanlı miniatürü. XV əsr*

# TÜRK MEMARLIĞI



*Türk yurd çadırları*

Türklərin köçəri həyat tərzi, yaylaq və qışlaq həyatı, şəhər və kənd həyatı, arabaçılıq, şəhərsalma və qalaqurma mədəniyyəti, şəhərlərdə küçələrin döşənməsi, bazarlıq və dükan yerlərinin seçimi, yol və karvansarayların, poçt (məlumat ötürülmə) məntəqələrinin quruluşu, vaxt və tarixin hesablanması, coğrafi istiqamətlərin təyin edilməsi, çadır və evlərin tikilməsi, mənzildə ailə strukturuna və əxlaqi meyarlara uyğun olaraq otaqların yerləşdirilməsi, həyat şəraitinin bütün tələblərinə evin və həyət quruluşunun cavab verməsi, qapı, pəncərə, tavan, divar və s. ev hissələrinin milli ornamentlərlə bəzədilməsi, bütövlükdə memarlıq mədəniyyəti, hamam və təmizlik mədəniyyəti, quyu, bulaq, hovuz və süni gölməçələrin, suvarma şəbəkələrinin salınması, toxuculuq (xalı, xalça, kilim, cecim, keçə, həsir...), geyim, yataq və bəzək (bəzənmə) mədəniyyətinin bütün incəlikləri, ev avadanlıqlarının (sandal, masa, boğça, sandıq, dolab, çıraq, lampa, çanta...) hazırlanması, genişspektrli təsərrüfat (əkinçilik, maldarlıq, bağçılıq, arıçılıq...) mədəniyyəti, təbiətlə davranış, fəsillərə uyarlıq mədəniyyəti, qida hazırlama, mətbəx və yemək mədəniyyəti, tuğ (gerb) və bayraq mədəniyyəti, ordu və hərb mə-




*İpək yolu boyunca qədim türk memarlığının yarandığı geniş Avrasiya coğrafiyası. IX – XIII əsrlər*

dəniyyəti, dövlət, toplum və ailə əxlaqının təməlləri, xalq musiqisi alətləri və zərif sənət anlayışlarının təkamülü bir kompleks halında və spesifik olaraq öyrənildikcə, ümumtürk mədəniyyətinin arxitektonikası tam dolğunluğu ilə gözümüz qarşısında canlanır (75). Əlbəttə, bu sistem daxilində sivilizasiya həyatının əsas göstəricisi və üstün dəyəri olaraq şəhərsalma və memarlıq mühüm yer tutur.

Əski türk və Çin qaynaqlarında Göy Türk imperiyasının paytaxtı Ötükən şəhərinin adı çəkilir, o, türklərin "müqəddəs yurdu" *("kutsal yurt")* kimi sayğılanır. Lakin "çadırlardan saraylara" (75) doğru hərəkət edən türk superetnosunun passionar boyları Avrasiyanın mərkəzi zolaqları boyunca sabit şəkildə məskunlaşdıqca, daha sonra Qafqaz və Anadoluda, Yaxın və Orta Şərqdə siyasi hakimiyyətlərə yiyələndikcə, təbii ki, oturaq həyat və sivilizasiyalı inkişaf tərzinin mühüm atributu kimi şəhərsalma və memarlıq da türk mədəniyyətinin vacib komponentinə çevrilmişdir.



*Özbəkistan. Buxara. Ark qalası. V əsr*



*Özbəkistan. Səmərqənd şəhərində Registan. XV əsr*

Türklərin dövlət və imperiyaları yaranıb genişləndikcə, onların iqtisadi mədəniyyəti də öz formasını dəyişmiş, yəni köçəri maldarlıqdan şəhər ticarəti və memarlığa qədər inkişaf etmişdir. Türklər zəhmətkeş insanlar olmuş, tarixin heç bir zamanında, demək olar ki, aclıq çəkməmiş, özlərini dolandırmaq üçün zəruri təsərrüfatçılıq mədəniyyətinə sahib olmuşlar. Tarixi türk imperiyalarının çiçəkləndiyi dövrlərdə dövləti və ordunu saxlamaq üçün kifayət qədər iqtisadi potensial yaradılmış, türk şəhərləri – Buxara, Səmərqənd, Təbriz, Gəncə, İsfahan, İstanbul, bir vaxtlar Aqra, Bağdad və s. nəinki həmin ölkələrin, ümumən dünyanın ticarət, elm və mədəniyyət mərkəzləri olmuşlar.

Xüsusilə Böyük İpək Yolu üzərində və həmsərhəd coğrafiyada yaşayan türk xalqlarının urbanist mədəniyyəti həm universal, həm də diferensial keyfiyyətlərlə tərəqqi etmək imkanları qazanmışdır (92; 88). Bu yolun Çin – Mərkəzi Asiya – Qafqaz – Aralıq dənizi regionunu birləşdirən tarixi marşrutu, əsasən, türk dövlətləri və imperiyalarının ərazilərindən keçdiyindən, onların şəhərləri sürətlə inkişaf etmiş, böyümüş, klassik Şərq memarlığının incəliklərini özündə ehtiva edən karvansaray kompleksləri ilə zənginləşmiş, beynəlxalq ticarətin özünəməxsusluqlarını mənimsəmişdir. Yeri gəlmişkən, bu gün də türk dillərində işlədilən “çini qablar” ifadəsi məhz Çindən gələn qablar, “Çin qabları” anlamını daşıyır. Dünyanın əsas ticarət magistralı – Böyük İpək Yolu Şərq və Qərb sivilizasiyalarının qar-



*Otrar şəhərinin qədim qala qalıqları*

şılıqlı təmasını yaradaraq, onları yüksək estetik kamilliyə çatdıran təcrübəni bir-birindən həvəslə öyrənməyə və dünyanın da ondan bəhrələnməsinə geniş imkanlar açmışdır.

Türk-islam sivilizasiyasının tərəqqisi dövründə (XI-XVII əsrlər) ən müxtəlif mədəniyyət və sivilizasiyalara mənsub sənətkarlar türk dövlətlərinin paytaxt-şəhərlərinə dəvət olunmuş, burada klassik mədəniyyət və incəsənət mərkəzləri yaradılmışdır (98; 109; 112; 113). Min il bundan qabaq – X əsrdə Mərkəzi Asiyada (indiki Qazaxıstan Respublikasının da daxil olduğu tarixi ərazidə), Karakenqir çayının sahilində "sırf türk üslubunda" ucaldılmış Alaşa xanın məqbərəsinin qalıqları indiyədək qorunub saxlanmışdır.

XIV əsrdə Sır-Dərya çayının sahilində salınmış Otrar şəhərində Teymurilər imperiyasının hökmdarı Əmir Teymurun göstərişi ilə böyük türk mütəfəkkiri Əhməd Yəsəvinin müəllimi Arıstan Babanın məqbərəsi tikilmişdir. Əmir Teymurun digər göstərişi ilə 1397-ci ildə Türküstan şəhərində Əhməd Yəsəvinin dəfn olunduğu yerdə 35 mədrəsə otağından və kitabxanadan ibarət olan böyük mavzoley kompleksi tikilmişdir. 1485-ci ildə Əmir Teymurun alim və astronom nəvəsi Sultan Uluqbəyin (Məhəmməd Torağay) qızı Rabiqə Sultan Bəyimin adına nəfis tərtibatlı məqbərə ucaldılmışdır.

Özbəkistanda klassik şəhərsalmanın və memarlığın sayseçmə nümunələri yaradılmışdır. Hələ IX –X əsrlərdə Termezdəki Qırx-qız *("Kırk-Kız")* bağ-şəhəri məşhur olmuşdur. XI-XII

əsrlərdə monumental arxitektura abidələri ilə zəngin olan və bu günə qədər də möhtəşəmliyini qoruyub saxlayan Buxara, Səmərqənd və Xivə orta yüzilliklərin ən yüksək sivilizasiya şəhərləri kimi tanınmışdır. XVI-XVIII əsrlərdə isə həmin şəhərlər daha da inkişaf etdirilmiş, onlarla yanaşı Karman, Daşkənd şəhərləri də Şərq dünyasının inciləri sırasında yer almışdır.

Qırğızıstan ərazisində tarixi əhəmiyyətə malik və böyük əksəriyyəti türk memarlığının xüsusiyyətlərini daşıyan 5000-dən çox abidə vardır. Ak-Beşim şəhərinin qalıqları (VI-VII əsr), Səmərqənddən Kaşğara (Uyğurıstan) gedən karvan yolunun üstündəki Uzgen şəhəri (VIII-IX əsr), Koşoy-Qorqon şəhərciyinin qədim qala qalıqları (Qaraxanlılar dövləti, VII-X əsr), Buran qülləsi (X-XI əsr), Karoul-Çoku dağının ətəyində, Talas şəhərinin 20 kilometrliyindəki Manas günbəzi (XIV əsr), Taş-Rabat karvansarayı (XV əsr) və s. bu sıradandır.

Türkmənistan ərazisindəki tarixi müəyyənləşdirilməmiş "Ulı Qız Qalası", Nadir şah qalası, İkinci Arslan (XI əsr), Quliqerdan (XII əsr), türk şahzadəsi Torebeq xanım (XII-XIV əsr), Fəxrəddin Razi (XIII əsr), Təkəş- Xorezmşah (XIII əsr), Əzizan əl-Ramatani (XIII-XIV əsr), Seyid Əhməd (XII-XIV), Xorezmbaq (XIII-XVIII əsr), Daşqala ((XIV-XVI əsr), Sultan Əli (XVI əsr), Matkarim-İşan (XIX-XX əsr), Daşmecet (1903-1908) məqbərələri və s. spesifik milli və islami naxışları olan memarlıq abidələridir (94).

Dünyanın ən ünlü və möhtəşəm memarlıq incilərindən biri olan Tac Mahal kompleksi Moğol imperiyası dövründə yaradılmışdır. Böyük Moğol hökmdarı Birinci Cahan Şah (1628-1658) özünün türk sələflərinin (Babur və Əkbərin) paytaxt seçdiyi Hindistanın Aqra şəhərində (XVI əsr) Mərkəzi Asiya, Persiya, Ərəbistan və dünyanın başqa yerlərindən çağırdığı memar, nəqqaş və digər incə sənət ustalarının, həmçinin, iki yüz min daşyonan və fəhlənin birgə çalışması ilə 17 il müddətinə Tac Mahal kompleksini tikdirmişdir (542, s. 434). Ümumiyyətlə, Hindistanın türk səltənətləri dövrü hind, türk, fars və Çin me-



*Moğol imperiyası. Tac Mahal kompleksi. XVI əsr*





*Tac Mahalın interyeri*

marlığının konsentrik üslubunda ərsəyə gələn çoxsaylı abidələrin yaradılması ilə səciyyələnir ki, onların da bəziləri bir neçə yüz ilə tikilib başa çatdırılmışdır.

Belə bir cəhət Osmanlı dövrünün memarlığına da aiddir. Burada da min ilə yaxın bir dövrdə ən müxtəlif dini-sivilizasion dünyagörüşlərinin bir qaynaq halına gəlməsi şəraitində arxetipik türk-islam mədəniyyətinin qabarıqlığı ilə dünya memarlığını zənginləşdirən abidələr – sənət əsərləri yaradılmışdır (66; 158). Anadolu-türk memarlığında başda *camilər* olmaqla *məscid, zaviyə, türbə, kümbət, mədrəsə, təkkə, hamam, karvansaray, çarşı, bədəstan* (bahalı əşyaların, zinətlərin alınıb-satıldığı qapalı dükanlar-çarşılar şəbəkəsi), *körpü, qala və köşk-saraylar* sadəcə bir



*Osmanlı dövrü. Cumalıkızık kəndi. 1452*



*İstanbul. Dolmabağça sarayı. 1886*

tikili deyil, yüksək bədii-estetik zövqün maddi təcəssümü olaraq, həm dövlətin sərmayəsi, həm də imkanlı adamların xeyriyyəçiliyi ilə tikilmişdir. Osmanlı cəmiyyətində yaradıcı bir insan kimi memar-sənətkarlar çox böyük hörmətə layiq görülmüşlər. Belə bir parlaq taleyin gerçək uğurunu Memar Sinanın (1494-1588) şəxsiyyətində görürük: Osmanlı ordusuna Rumelindən yeniçəri kimi qoşulmuş və islamı qəbul etmiş Memar Sinan İstanbulda məşhur Süleymaniyyə kompleksini və bütün zamanlara örnək olan digər onlarla memarlıq abidəsini ucaltmışdır. Osmanlı imperiyasının sevimlisi, böyük sənətkar Memar Sinan sağlığında hər cür qayğı ilə əhatə edilmişdi. Onun var-dövlətinə özünün layihələşdirdiyi sənət nümunələri – 18 malikanə, 38 dükan, 9 ev, kiçik məscidlər və mədrəsələr, həmçinin, torpaq sahələri, dəyirmanlar daxil idi (310, s.22). Həmin dövrün estetik mədəniyyəti elə bir universal istiqamət götürmüşdü ki, bu zəmində "türk üslubu" və "islam simvolikası" dominant olmaqla, Moğol Hindistanında olduğu kimi, fərqli mədəniyyət və sivilizasiyaların mütərəqqi ənənələri və sənətkarlıq dəyərləri konsentrasiya nöqtəsini tapmış, orijinal-sinkretik yaradıcılıq örnəkləri ərsəyə gəlmişdir (542, s.392-401).

Türk memarlığı və şəhərsalma mədəniyyətinin bir özəlliyi də bundan ibarətdir ki, burada həm hərbi-müdafiə funksiyası daşıyan qalalar, bürclər, istehkamlar, həm mənəvi mədəniyyətin dəyərlərini özündə hifz edən məqbərə, məscid, mədrəsə, həm



*Dağıstan. Dərbənd qalası. VI əsr*

də şəhər həyatının ayrılmaz parçası olan ticarət yerləri, bazarlar, karvansaraylar, eyni zamanda, şəhərin giriş-çıxış qapıları, yol qovşaqları yüksək estetik zövqlə inşa edilmişdir. İnkişaf etmiş orta əsr türk şəhərlərində nəinki sarayların, şəhər əyanlarına məxsus evlərin, habelə adi insanların məskənləri də şəhərin ümumi arxitektura ansamblına uyğun olaraq planlaşdırılmışdır.

Antik dövrlərdən bəri tarixi ərazisində çoxsaylı memarlıq abidələri mövcud olan Azərbaycanda da bu sənət getdikcə yüksələn mərhələlərlə inkişaf etmişdir. Hələ Qafqaz Albaniyası dövründə (e.ə. IV əsr – eramızın VII əsri) şəhərsalma sahəsində mühüm addımlar atılmışdır. Qəbələ şəhərinin möhkəm qala divarları, saxsı borulardan çəkilmiş su kəməri, Dəmirqapı (Dərbənd) keçidində daşdan tikilmiş müdafiə sistemi ("uzun divarlar"), Çıraqqala (VI əsr, indiki Şabran ərazisində), Ləkit kəndindəki dairəvi xristian məbədi (V-VI əsrlər), Qum kəndindəki bazilika (VI əsr, indiki Qax ərazisində), Mingəçevirdəki məbədlər kompleksi (VII əsr) və s. şəhərsalma mədəniyyətinin yüksək səviyyəsini göstərir. Sasanilər dövrü memarlıq abidələrindən müdafiə tikililəri özəlliklə diqqəti cəlb edir. Xəzər dənizinin sahilindən başlayaraq, Babadağın ətəyində qurtaran Gilgilçay səddi və Şab-



*Azərbaycan. Çıraqqala. VI əsr*

ran rayonu ərazisində yerləşən Beşbarmaq dağından başlayıb, Xəzərin sahillərinə qədər uzanan Beşbarmaq səddi Azərbaycanda istehkam tikililərinin əhəmiyyəti haqqında aydın təsəvvür yaradır.

Ərəb xilafəti dövründə Azərbaycan memarlığının əsas mərkəzi Bərdə şəhəri olmuşdur. Mənbələrdə "bu yerlərin Bağdadı" adlandırılan Bərdədə geniş tikinti işləri aparılmış, çoxlu məscid və başqa dini binalar, karvansara, bazar, hamam və s. tikilmişdir. X-XII əsrlərdə ərəb xilafətinin hökmranlığına son qoyaraq burada öz siyasi hakimiyyətlərini möhkəmləndirən türksoylu dövlətlər ənənəvi klassik prinsipləri saxlamaqla Azərbaycanda müxtəlif memarlıq məktəblərinin yeni üslubda inkişafına böyük təkan vermişlər. Aran, Təbriz, Naxçıvan, Şirvan, Abşeron memarlıq məktəbləri məhz həmin yeni üslublu memarlığın nümayəndələri kimi tanınır.

Naxçıvan memarlıq məktəbinin abidələri binalarda çoxboyalı kaşıdan ornamentli baştağ kompozisiyalarının tətbiqi, Şirvan-Abşeron məktəbinə mənsub tikililər isə sadə memarlıq bölgüləri və dekorativ oyma bəzəkləri ilə seçilir. Təbriz məktəbinin ən yaxşı abidələri üçün memarlıq quruluşunun dəbdəbəliliyi, dekorların




*Təbriz memarlığının incilərindən*

müxtəlifliyi səciyyəvidir. Dövrümüzədək çatmış mütənasib quruluşlu, zəngin dekorlu qülləvari türbələr və digər tikililərdə Naxçıvan məktəbinin üslub özəllikləri öz əksini tapmışdır. Bu məktəbin ən yüksək zirvəsini Naxçıvandakı Yusif İbn Küseyr (1162) və Mömünə xatun (1186) türbələrinin, eləcə də hazırda mövcud olmayan digər dini tikililər kompleksinin müəllifi memar Əcəmi Əbubəkr oğlu Naxçıvaninin yaradıcılığı təşkil edir.

Əcəminin yaradıcılığı üçün obrazın monumentallığı, kompozisiyanın mütənasibliyi və dekorların zərifliyi, öz dövrünə görə rasional konstruksiyaların tətbiqi, ornament bəzəklərinin oynaqlığı səciyyəvidir. Onun ornament kompozisiyaları bədiiliklə riyazi təfəkkürün üzvi birləşməsinə əsaslanır. Əcəminin yaratdığı kompozisiya və dekorativ bəzək üsulları Azərbaycanın, eləcə də müəyyən ölkələrin türbə tikililərinə də böyük təsir göstərmişdir. Marağadakı Göy günbəz türbəsi (1196, memar Əhməd Məhəmməd oğlu) Əcəmi üslubuna xeyli yaxındır. Marağa abidələri Azərbaycan memarlığının inkişafında önəmli yer tutmuşdur. Bunlardan dövrümüzədək çatmış ən qədimi Qırmızı günbəz türbəsidir (1148, memar Bəkir Məhəmməd). Bu dövrdə Urmiyada tikilmiş Üç günbəz türbəsi (1185, memar Əbu Mənsur Musa oğlu) memarlıq quruluşuna görə Marağa abidələrinə yaxındır.



*Azərbaycan memarı Əcəmi Naxçıvaninin Yusif Küseyir oğlu türbəsi. 1162*

X-XII yüzillərdə yaşayıb yaratmış bir çox Azərbaycan memarları, bənnaları və memarlıq bəzəyi ustalarının adları (Məhəmməd İbn Cəfər, İbrahim İbn Osman, Əbu Mənsur Musa oğlu, Əhməd Məhəmməd oğlu, Hacı Məhəmməd, Şahbənzər və s.) müxtəlif tikililərin kitabələrində, daş üzlüklərində, dekorativ bəzək məmulatlarında və digər qaynaqlarda dövrümüzədək gəlib çatmışdır.

Böyük inkişaf yolu keçmiş Şirvan-Abşeron memarlıq məktəbinin abidələri üçün daş konstruksiyalar, tikililərin həcm-məkan həllinin lakonikliyi, daş üzərində oyma, bitki ornamentləri səciyyəvidir. Bakıdakı Sınıqqala minarəsi (1078, Məhəmməd Əbubəkr oğlu), məşhur Qız qalası (XII əsr, memar Məsud Da-



*Qız qalası. XII əsr*

vud oğlu), Mərdəkan qalaları (Dairəvi qala, 1232, memar Əbdülməcid Məsud oğlu); Dördkünc qala (XIV əsr), Nardaran qalası (1301, memar Mahmud Səd oğlu), Ramana qalası (XIV əsr) və s. bu məktəbin ən yaxşı abidələri sırasına daxildir. XIII əsrdə Bakı limanında tikilmiş və hazırda suyun altında qalmış Şirvanşahların "Bayıl qəsri" adlı iqamətgahı da bu dövrün maraqlı tikililərindəndir. Bürclü divarlarla əhatə olunmuş bu binalar kompleksi (1235, usta Zeynəddin Əburəşid oğlu Şirvani və memar Əbdülməcid Məsud oğlu) üzərindəki daş oymalar, yazı və təsvirlər qurşağı ilə birlikdə nadir memarlıq ansamblıdır. Şirvan-Abşeron memarlıq məktəbinə mənsub olan tikililərdən biri də XIII-XIV əsrlərdə inşası davam etmiş Pirsaatçay xanəgahıdır. Pir Hüseyn



*Səfəvilər imperiyası. Qəzvin körpüsü*



*İsfahan məscidi. 1618*



*II Şah Abbasın saray divarının freskası*

türbəsinin ətrafında salınmış bu dini kompleksdəki minarənin üzərində onun tikilmə tarixi (1256) və memarın adı (Mahmud İbn Maqsud) qalmışdır. Mərəzədəki Diribaba türbəsi (1402), indiki Qusar rayonunun Həzrə kəndindəki Şeyx Cüneyd türbəsi (1544) və Bakıdakı Şirvanşahlar sarayı kompleksində (1420-60) Şirvan-Abşeron memarlıq məktəbinin yetkin dövrü öz əksini tapmışdır.

XV əsrin sonu – XVI əsrin əvvəllərində Səfəvilər dövlətinin yaranması və Təbrizin paytaxt elan edilməsi, eləcə də Şirvanın inzibati mərkəz kimi əhəmiyyətini itirməsi ilə bağlı Azərbaycanın siyasi və iqtisadi həyatı ölkənin güneyində mərkəzləşmişdir. Bu dövrdə şəhərlərin böyüməsi ilə bağlı bədii-estetik ənənələr yeni inkişaf mərhələsinə çatmışdır. Azərbaycan memarlığında Təbriz və İsfahanın mövqeyi xüsusilə güclənmişdir.

XV-XVI əsrlərdə artıq peşəkarlıq keyfiyyətlərinə görə bütün Şərqdə tanınan Azərbaycan memar və nəqqaşları başqa ölkələrdə də fəaliyyət göstərmiş, müxtəlif şəhərlərdə maraqlı sənətkarlıq örnəkləri yaratmışlar. Bursa, Qahirə, Bağdad, Dəmirqapı (Dərbənd), Herat, Səmərqənd və s. şəhərlərdəki bir sıra



*İsfahan şəhəri. 1703.*
*Avropalı səyyah Hofsted van Essenin eskizi*

memarlıq abidələrində Azərbaycan memarların "imzaları" qalmışdır. Bursa şəhərindəki ünlü Yaşıl türbənin (1420-1421) nəfis naxışlarla bəzədilmiş qapılarını azərbaycanlı usta Əhməd Təbrizli hazırlamışdır. Türbənin yaxınlığındakı Yaşıl Camenin (1424) mehrabını Təbriz ustaları özlərinin hazırladıqları müxtəlif boyalı çinilərlə bəzəmişlər. Çaldıran döyüşlərindən (1514) sonra Birinci Sultan Səlim tərəfindən İstanbula aparılmış Azərbaycan memarı Əli Təbrizli (Əsir Əli, Əcəm Əli təxəllüsləri il də tanınmışdır) İstanbuldakı Topqapı sarayının baştağını və Sultan Səlim məscidini (1522) tikmişdir.

XVIII əsrdə Azərbaycanın ayrı-ayrı xanlıqlara parçalanması, ölkənin iqtisadi cəhətdən dağınıqlığı memarlıq və inşaatın

inkişafında da durğunluğa səbəb olmuşdur. Ayrı-ayrı hallarda keçmiş ənənələr əsasında tikilmiş binaların memarlıq həllində inşaat sənətinin geriləməsi özünü göstərmişdir. Bununla yanaşı, şəhərsalma sənəti sahəsində müəyyən dönüş yaranmışdır. İri şəhərlər və yaşayış məskənləri xanlıqların inzibati və sənətkarlıq mərkəzinə çevrilmişdir. XVIII əsrdə Qarabağ xanı Pənahəli xanın tikdirdiyi Əsgəran qalası bu dövrün ən iri müdafiə tikilisidir. Daha sonra bu qala İbrahim xan tərəfindən genişləndirilmişdir. Qarqar çayının sağ və sol sahillərində salınan Əsgəran qalası iki istehkamdan ibarətdir. XVIII-XIX əsrlərə məxsus xalq yaşayış evlərinin maraqlı örnəkləri Şəki, Zakatala, Ordubad, Şuşa, Quba, Qonaqkənd, Gəncə, Lənkəran və Abşeronda qalmaqdadır (97).

XIX-XX əsrlərdə Azərbaycan memarlığı iki yöndə – yaşayış məskənlərinin memarlıq-plan quruluşunda mühüm yer tutan bina kompozisiyası prinsipləri və Avropa memarlığı ənənələri əsasında inkişaf etmişdir. XIX əsrdə yaşayış binaları istisna olmaqla, ən xarakterik bina tipi məhz ticarət binaları idi. Belə binalardan çox vaxt həm ticarət müəssisələri, həm də sənətkarlıq



*Təbriz İslam İncəsənəti Universitetinin binası*

emalatxanası kimi istifadə edilirdi. Bakı, Gəncə, Şəki, Şuşa və Qubadakı ticarət dükanları sırası bu tipli tikililərin ən mükəmməl örnəklərindəndir.

XIX əsrin ikinci yarısından etibarən tikilməyə başlanmış teatr binaları Azərbaycan memarlığında tamamilə yeni qurğu tipləri olmuşdur. İlk teatr binası 1858-ci ildə Şamaxıda, memar Q.Hacıbababəyov tərəfindən tikilmiş, sonralar isə 1883-cü ildə memar P.İ. Konqnovitski tərəfindən Bakıda Tağıyev Teatrı (indiki Azərbaycan Dövlət Musiqili Komediya Teatrı) və 1911-ci ildə memar N.G. Bayev tərəfindən Mayılov Teatrı (indiki Azərbaycan Dövlət Opera və Balet Teatrı) tikilmişdir.

XX əsrdə tipologiyasına görə memarlığa daha yaxın monumental incəsənət, xüsusilə heykəltəraşlıq da gəlişmiş, Sovet İttifaqına daxil olan türk respublikalarında bu sənət növləri birlikdə klassik və milli keyfiyyətləri müəyyən qədər saxlamaqla yanaşı, həm də dövrün ideoloji tendensiyalarına müvafiq dəyişmə (sayalaşma, kütləviləşmə) xüsusiyyətləri də əldə etmişdir.

Müstəqil türk respublikalarının yarandığı qısa müddətdə isə türk milli mədəniyyətlərinin inkişaf prinsiplərinə uyğun olaraq, şəhərsalma, memarlıq və heykəltəraşlıq sahələri də müasir dünyanın qabaqcıl meyillərini mənimsəməklə yeni inkişaf yoluna çıxmışlar. Suveren türk respublikalarının paytaxtları – Ankara, Bakı, Astana, Daşkənd, Bişkek, Aşqabad və bu ölkələrin digər şəhərləri, yaşayış məskənləri, hətta kəndləri türk mədəniyyəti və incəsənətinin milli-ideoloji konsepti, estetik prinsipləri əsasında yeni görkəm almaq, modernləşmək, tərəqqi etmək imkanları qazanmış və bu imkanları həyata keçirməyə başlamışdır (153).



*Bakı. Hökumət evi. 1936-1952*



*Qazaxıstan. Paytaxt Astananın ümumi görünüşü*

# TÜRK ELMİ VƏ FƏLSƏFƏSİ

Türklər ata yurdu Mərkəzi Asiyada hələ eramızdan əvvəlki minilliklərdə – neolit dövründə sivilizasiya həyatının ilk elementlərinə yiyələnməyə başlamış, heyvanları əhliləşdirmiş, maldarlıq, toxuculuq, əkinçilik və dulusçuluqla məşğul olmuş, daha sonrakı tarixi zamanlarda mis və qurğuşundan müxtəlif əşyalar düzəltmiş, tarixdə ilk dəfə bürünc xəlitəsini əldə etmiş, e.ə. 2500-cü illərdə dörd təkərli arabanı icad etmişlər. Mərkəzi Asiyada, konkret olaraq "Qarasu *("Karasuk")* mədəniyyəti" adlandırılan bölgədə aparılan arxeoloji qazıntılar e.ə. 1200-700-cü illər arasında proto-türklərin icad etdikləri bir çox nəsnələrin – *keçə çadır, kilim, xalı, dəri, xış, toxuma qumaş, düymə, kəmər, kəmər toqqası, iynə, kürk, gömlək (yarımqol paltar), günlük, çizmə (dizədək geyilən çəkmə), pambıq, kətan, hörülmüş kəndir* və s.-in, eyni zamanda, *12-lik* təqvim*in (12 heyvan adı ilə bağlı türk təqvimi)* tarixdə ilk olduğu elmdə qəbul edilməkdədir.

Əski türklərin qədim şumer təqvimi ilə üst-üstə düşən cəhətləri maraq doğurur: şumerlər kimi, dəqiq astronomik inanca sahib olan türklərin 1 günü 12 qoşa saata ayrılmış (cəmi 24), 1 ili 365 gün, 50 dəqiqə, 47 saniyədən ibarət olmuşdur. İl 6 həftəyə bölünmüş və hər həftə 1,5 aya uyğuluqda alt bölümlərə ayrılmışdır. Əski türklər öz dövrünün ən üstün döyüş silahlarını hazırlamaq, ipək və pambıq toxuculuğu, ağac oymaçılığı, boya əldə edilməsi, arpa, buğda əkini işlərini bilməklə yanaşı, həm də müxtəlif xəstəliklərə (qızdırma və çiçək), zədələnmələrə (sümük sınıqları və çıxıqları) qarşı müalicə vasitələrini də tapa bilmişlər. Əlbəttə, bütün bunlar olmasaydı, türklər sağlam bir soy kimi formalaşa, Avrasiyada passionar bir sivilizasiya yarada bilməzdilər.



*“Qarasu mədəniyyəti” nümunəsi. E.ə. XII – X əsrlər*

Göy Türk epoxasında türk ulusal sistemi özünün iyerarxik sosial-siyasi təsisatlarını getdikcə təkmilləşən bir düzəndə yaratmış, siyasi dünyagörüşlərini öz əlifbaları ilə yazıya almışlar. Türklər bu yazılarda (“Orhon-Yenisey yazılı trilogiyası) qonşu dövlətlərlə münasibətlərinin geniş və aydın mənzərəsini vermişlər. Həmin dövrdə türk dövləti və xalqı onları təmin edəcək təsərrüfat həyatını formalaşdırmışdır. Əsasən, maldarlıqla məşğul olan köçəri türklər ayrı-ayrı bölgələrdə oturaqlaşmış və şəhər həyatına başlamışlar. Göytürklərdə mədənçilik, xüsusilə dəmirçilik çox inkişaf etmişdir. Altay və Sayan dağları dəmir mədənlərinin olduğu bölgələr idi. Burada çıxarılan dəmirin yüksək xəlitədə olması və türklər tərəfindən çox yaxşı işlənilməsi – türk hərb sənayesinin ən böyük özəlliyi olmuşdur (76, s.58).

Şərqi Türküstandakı Turfan şəhəri və onun ətrafında aparılan arxeoloji qazıntılar nəticəsində eramızın 8 əsrinə aid rəsmlərlə bəzədilmiş uyğur dilində tərtib edilmiş minlərlə kitab (il-



*Turfan şəhərinin qalıqları. VIII əsr*

lik təqvim-salnamələr, əsasən buddizmə aid dini kitablar) əldə edilmişdir. Taxtadan yonulmuş hərflər və klişelərlə basılan mətnlər yüksək bir intellektual mədəniyyətin varlığını təsdiq etməkdədir.

Getdikcə vüsətlənən Mərkəzi Avrasiya dominantlığı epoxasında (VI-IX əsrlər) artıq türklər yeni bir türk-islam qaynaqlı sivilizasiya həyatına zəngin təcrübə ilə - təsərrüfat, mədəniyyət, siyasət, hərb, diplomatiya, praktiki elm (xüsusilə coğrafi biliklər), dini və fəlsəfi dünyagörüşü arsenalı ilə başlamışlar.

Məlumdur ki, VII əsrdən başlayaraq, müsəlmanların Qərb və Şərq istiqaməti üzrə ekspansiyası dövründə və bundan sonrakı proseslərdə müxtəlif və ziddiyyətli sivilizasiya münasibətlərinin yeni konfiqurasiyası meydana gəlmişdir: dünya sivilizasiyalarının inkişafı birxətli istiqamətdən çoxxətli çarpazlaşma mərhələsinə daxil olmuşdur. İslam sivilizasiyası arenasında antik yunan və Roma, hind və Çin sivilizasiyasının ənənələri görüşmək imkanı qazanmışlar. 642-ci ildə müsəlmanlar İskəndəriyyəni fəth etmiş və onun antik mətnlərlə zəngin olan kitabxanasını ələ keçirmişlər. VIII-IX əsrlərdə yunan elm və fəlsəfəsinin Platon, Aristotel, Evklid və Ptolomey də daxil olmaqla əsas klassik abidələri birbaşa



*Qaraxanlılar dövrünün mədrəsəsi. XI – XII əsrlər.*
*Müasir Qırğızıstan, Üzgen.*

qədim yunancadan, daha sonra isə Roma müəlliflərinin əsərləri latıncadan ərəb dilinə tərcümə edilmişdir.

Türk-islam sivilizasiyalarının sintezləşməsi və türk imperiyalarının ərəb xilafətini məğlub edərək, Mərkəzi Asiyadan Avropaya qədər ayrı-ayrı xalqları və mədəniyyətləri əhatə edən ərazilərdə qurulmasından sonra, təbii ki, türklər bir superetnos olaraq bu yeni universal tipli sivilizasiyanın və onun dəyərlərinin yaradılması prosesində həmin dövrün bütün millətləri ilə birlikdə, lakin daha üstün məsuliyyətlə fəal iştirak etmişlər. Bu iştirakı xüsusilə türksoylu hökmdarlar stimullaşdırmış və təşviq etmişlər. Bütün türk imperiyalarının şəhər-mərkəzlərində elm, fəlsəfə və incəsənətlə geniş miqyasda məşğul olan kitabxana və mədrəsələr (indiki anlamda akademiya, kollec və universitetlər) açılmışdır.

İslamı ilk qəbul edən Qaraxanlılar və daha sonra Qəznəlilər, Səlcuqlar, Atabəylər, Osmanlılar dönəmində elm və fəlsəfə dərinləşən və genişlənən xətt üzrə inkişaf etmişdir.

Hələ Qaraxanlılar dönəmində dövrün elmi, bədii və fəlsəfi mədəniyyətini anlamağa kömək edən əsərlər türkcə yazılmağa başlamışdır. Mahmud Kaşğarlının *"Divanü Lüğat-it-Türk"* (XI əsr), Yusif Balasağunlunun (Yusif Has Hacib) *"Qutadğu Bilig"*

(XI əsr), Ədib Əhməd Yüknəkinin *"Atəbət –ül-Həqayiq"* və İmam Əbülfütuh Əbdülqafirin türkcənin kaşğar dialektində yazdığı *"Tarixi-Kaşğar"* (XI əsr) əsərləri bu qəbildəndir.

Lakin türk-islam dövlətlərində alim və filosoflar uzun əsrlər əsərlərini, əsasən, dövrün elmi dili olan ərəb dilində (Avropada latın dili universal olduğu kimi) yazmışlar. Orta əsrlərin dahi ensiklopedist filosofları (peripatetiklər) islam fəlsəfəsini başlıca olaraq, Platon və Aristotelin fəlsəfi təlimləri əsasında işləmiş, həmin təlimlər üzrə yeni fəlsəfi məktəblər, cərəyanlar yaratmışlar. Ərəbcə yazan ilk türk filosof Məhəmməd bin Tarxan Uzluğ Əbu Nəsr əl-Fərabi, Əbu Əli İbn Sina (orta əsr latın dünyasında müvafiq olaraq *Al-Farabius* və *Avisenna* kimi tanınmışlar), Əbu Bəkr ər-Razi, Əbu Reyhan Məhəmməd bin Əhməd əl-Biruni, Məhəmməd Bakuvi, Baba Kuhi, Eynəlqüzat Miyanəçi, Yusif Tahir oğlu Xoylu, Bəhmənyar, Nəsirəddin Tusi, Şihabəddin Yəhya Sührəvərdi, Mövlanə Cəlaləddin Rumi və başqaları ensiklopedik zəka qabiliyyəti nümayiş etdirərək, fəlsəfə (metafizika, məntiq, etika), siyasət, tarix, coğrafiya, ilahiyyat,




*Əl-Biruninin (973-1048) astronomiyaya dair əsərindən fraqment*



*Gözün quruluşunun öyrənilməsi*

hüquq, dilçilik, astronomiya, triqonometriya, həndəsə, kosmologiya, fizika, riyaziyyat, təbabət, musiqi və musiqişünaslıq, ədəbiyyat və ədəbiyyatşünaslıq və s. sahələrdə dünyaca məşhur əsərlər yazmışlar. Onların bir çoxunun əsərləri hələ orta əsrlərdən başlayaraq, latın və digər Avropa dillərinə tərcümə edilmiş, universitetlərdə tədris olunmuşdur.

Cabir bin Həyyan əl-kimya sahəsində yazdığı elmi əsərlərdə maddələrin ilk dəfə elmi təsnifatını vermiş və XVIII əsrdə rus alimi Lomonosov və fransız təbiətşünası, müasir kimyanın banisi Lavuazye tərəfindən irəli sürülən maddə kütləsinin saxlanması qanununun ilk prinsiplərini müəyyən etmişdir. Türk alimi Əl-Xarəzmi Bağdadda Alimlər Evində riyaziyyat və astronomiya ilə məşğul olmuş, “Cəbr” kitabını yazmışdır. Həmin sahəyə həsr olunmuş bu ilk fundamental əsər XII əsrdə latın dilinə tərcümə edilmiş, beləliklə, *“əl-cəbr”* termini Avropa mühitində



*Özbəkistan. Əl-Xarəzminin (780-650) abidəsi*

"algebra" kimi elmi leksikona daxil edilmişdir. Xarəzmi Hind hesabına dair kitabında isə hind rəqəmləri ilə hesablama metodunu elmə gətirmişdir. Bu hesablama metodu da alimin öz adının (Əl-Xarəzmi) dəyişmiş forması kimi, yəni *"alqoritmus"* ("alqoritm") kimi elm tarixinə düşmüşdür. Əl-Xarəzminin çağdaşı olan Əbdülhəmin İbn Türk ("türk" soyadlı ilk riyaziyyatçı) öz əsərlərində cəbr elmini daha da inkişaf etdirmişdir.

Səlcuq dönəmində mədrəsə tipində ali akademik təhsil sistemi elmlərin həmin dövrdəki bütün sahələri üzrə mütəxəssislər hazırlamışdır. Bu önəmli işə rəvac verən Səlcuq sultanı Alp Arslanın baş vəziri Nizam-ül-Mülk olmuşdur. Onun adı ilə bu məktəblər "Nizamiyyə mədrəsələri" adlandırılmışdır. Həmin mədrəsələr 1063-cü ildən başlayaraq, Şərqin əsas elm və mədəniyyət mərkəzlərində – Bağdad, Nişapur, Bəsrə, Herat, Mərv, Bəlx və Mosul kimi şəhərlərdə yaradılmışdır. Təbii ki, elm ocaqlarında varlığın fəlsəfi cəhətdən öyrənilməsi kainatın quruluşunun da nəzəri və praktiki cəhətdən öyrənilməsini zəruri etmişdir. Bu məqsədlə, türk hökmdarlarının göstərişi və himayəsi altında İsfahan, Marağa və Səmərqənddə əsrin ən böyük rəsədxanaları



*Marağa rəsədxanası. 1259*

fəaliyyət göstərmişdir. Həmin rəsədxanalarda Nəsirəddin Tusi, Uluğ bəy, Qiyasəddin Cəmşid, Kadızade Rumi, Əli Quşçu, Çağmi, Cəmaləddin əl-Mardini (İbn Türkman) kimi görkəmli alimlər çalışmışlar. Türk imperiya dövlətlərindəki rəsədxanalarda davam etdirilən tədqiqatların nəticələri daha sonrakı əsrlərdə astronomiya və kosmologiya sahəsində aparılan fundamental axtarışlara, yeni elmi nəzəriyyələrin meydana gəlməsinə start vermişdir. Dünya elminə belə pozitiv təsiri təkcə astronom və kosmoloqlar deyil, filosoflar, estetiklər, məntiqşünaslar, hüquqşünaslar, coğrafiyaşünaslar, ilahiyyatçılar, tarixçilər, linqvistlər, nəzəriyyəçi-siyasətçilər, fiziklər, riyaziyyatçılar, təbabət, musiqi, ədəbiyyat və incəsənət sahəsinin biliciləri və yaradıcıları da göstərmişlər.



*İstanbul rəsədxanasında çalışan alimlər. Miniatür təsviri. XVI əsr*

Beləliklə, türk alimləri və mütəfəkkirləri nəzəri, praktiki və humanitar elmlərin bütün istiqamətlərində böyük nailiyyətlərə imza atmış, Qərb dünyasında modernləşmə epoxasının başlamasına Avropa alimləri ilə birlikdə ideya təməli yaratmışlar. Onlar Şərq klassik elmi dünyadərkinin daha optimal və humanist modellərini müasir dünya sivilizasiyasına təqdim etmişdir (82).

# TÜRKLƏRİN ETNOPSİXOLOGİYASI

Tarix – türklər üçün təkcə onların mövcud olduğu konkret vaxt deyil, həm də mənsub olduqları etnosun nəsil davamlılığını şərtləndirən zamanların rabitəsi, mənəvi bütövlük və genetik yaddaşdır. Türklərin yazıya alınmayan tarixi yazıya alınan tarixlərindən ayrılmaz deyildir. Ona görə də “türklər tarix yazmamış, tarix yaratmışlar” – məşhur deyimi həm də onların etnik xarakterindəki bu keyfiyyəti bildirir ki, salnamələrini yaratmayanda da onlar özlərini həmişə tarixi-mənəvi bütövlüyün daxilində, həm də müəyyən tarixi məsuliyyət yükünün altında görmüşlər. Əgər onlar mükəmməl və sistemli etnogenetik yaddaşa və təcrübəyə malik olmasaydılar, tarix yarada bilməz, keçmişi, indini və gələcəyi bir orqanik zaman tamlığında dərk etməzdilər. Bu baxımdan türklərin etnopsixologiyasının ən mühüm əlaməti - onların tarixi zamanla münasibətlərinin tarix boyu cilalanaraq formalaşması və özünəməxsus keyfiyyətlər əldə etməsidir.

Türklərin etnopsixologiyasında siyasi rasionalizm seqmenti, başlıca olaraq, onların dövlətçilik təcrübəsinin artması ilə möhkəmlənmişdir. Ulus (millət) və dövlətin ayrılmazlığı – türk etnopsixologiyasının kanonudur. Türklər özlərini həmişə mütəşəkkil siyasi birlik – dövlət sferasında hər cəhətdən qüdrətli və sağlam, yaradıcı və qurucu bilmişlər. Məhz bu sfera daxilində onlar həm də özlərinin yaşam tərzinə, milli özgürlük xüsusiyyətlərinə, ictimai şüur və mentalitetlərinə, etnopsixoloji keyfiyyətlərinə qiymət vermişlər. Məlumdur ki, türklərin tarixi qonşuları, böyük salnaməçilik mədəniyyətinə malik olan çinlilər də onları uzun əsrlər boyu ən müxtəlif cəhətlərdən səciyyələndirməyə çalışmış, xüsusilə türk boylarının bir-birinə münasibətini

diqqətlə izləmiş və bu münasibətlərin haçansa qırılmasından dərhal istifadə etməyə çalışmışlar. Əlbəttə, bunlar da türk dünyasının dərinliklərini və tarixi gəlişməsini öyrənmək üçün vacibdir. Lakin türklərə bir superetnos olaraq ən rasional dəyəri elə türklərin özləri vermiş, üstün və çatışmayan cəhətlərini yanılmadan bəlirləməyə səy etmişlər.

Buna örnək "Köl tiqin", "Bilgə Kağan" və "Tonyukuk" yazılı abidələrindən ibarət olan Orhon trilogiyasıdır (72; 433). Türk mifik dünyagörüşünün dərin psixoloji laylarını özündə yaşadan "Köl tiqin" abidəsində xalqın soybaşlanğıcı və onun dövlətinin mənşəyi insanlığın yaranışına qədər qədimləşdirilir. Göy Türk imperiyasında ulusal birliyi təmin edən Bilgə Kağan elə düşünür ki, sanki dünya yaranandan elə ilk doğulan insan türkmüş və onun da üzərində Bilgə Kağanın "əcdadı Bumın kağan, İstemi



*Orhon-Yenisey yazılı abidələrindən "Köl tiqin". VII əsrin sonu – VIII əsrin əvvəlləri*

kağan hakim olmuşlar." Ancaq bu mifoloji kontekst məntdəki real hadisələrin məntiqini pozmur. Göytürk dövlətinin addım-addım irəliləyib böyüməsinin təlatümlü hadisələrini əks etdirən etnopsixoloji yaddaş dəqiqliklə Orhon-Yenisey yazılı abidələrinə həkk olunur.

Bilgə Kağan hakimiyyətə təkcə siyasi bacarığı, özünün və qardaşı Köl tiqin kimi alp-ərənlərin qəhrəmanlığı ilə deyil, həm də var-dövləti ilə gəlir, "yoxsul milləti varlı etdim" – deyir. Ac millətin deyil, varlı millətin hakimiyyəti saxlaya biləcəyi həqiqətini bəyan edir və məhz bu əsaslarda "türk millətinin birləşib bir ittifaqda dövlət yaratması" mümkünlüyünü siyasi reallıq sayır. Həm də siyasi reallıq budur ki, "qayda-qanunu, nizamı yaradılan ulusal dövlət" "dörd yanın düşmənlərindən" qorunmalıdır. Bilgə Kağan siyasi hakimiyyətin monolitliyi üçün vacib olan bir əxlaqi-psixoloji şərti də önə çəkir: dövlətin "bəyləri də, milləti də doğru" olmalıdır. Qurulan dövlət – "qanunlar üzərində" təşkil edilməlidir. Örnək budur: Göytürk dövlətinin patriarxları "dövlət qura bilmiş, qanun yapa bilmişlər".

Mətndəki bir cümlə həm dil, həm də ideoloji və psixoloji baxımdan kifayət qədər ibrətli və informativdir: ulu göytürklər "başlını baş əydirmiş, dizlini diz çökdürmüşlər" (Bu ifadə digər Orhon abidələrində də ayrı-ayrı kontekstlərdə, lakin eyni mənada işlədilir). Bu frazeoloji deyimin iç semantikası belədir: Ağıl – başda, güc – dizdə olur. Yəni hakimiyyəti Ağıl və Gücün ittifaqında yaradıb möhkəmləndirmək, başdakı ağıl, dizdəki güclə düşmənə üstün gəlmək – "başlını baş əydirmək, dizlini diz çökdürmək" olar.

Bilgə Kağan timsalında türklər yaratdıqları hakimiyyətin sarsılmazlığına kifayət qədər əmindirlər. Onların dərin inamına görə "üstdə göy basmasa, altda yer dəlinməsə, türk millətinin elini, dövlətini, törəsini kim pozar?!" Bilgə Kağan öz türk millətinə bu ideyanı, belə bir əqidəni təlqin edir ki, üstdə göyün basılması, altda yerin dəlinməsi mümkün olmadığı kimi, birləşmiş türk xalqlarının ittifaqı üzərində qərar tutan dövlətin möh-

kəm sütunlarını da heç kim çökdürə bilməz. Abidə belə bir ibrətamiz sonluqla bitir: "İlteriş Kağan qazanmasaydı, mən özüm qazanmasaydım (Yəni: biz eyni məqsədlə vuruşub, qələbə əldə etməsəydik), el də (dövlət də), millət də yox olacaqdı. İlteriş Kağan qazandığı üçün, mən özüm qazandığım üçün, el də el oldu, millət də millət oldu... İlteriş Kağan və mən Bilgə Tonyukuk qazandığımız üçün Qapağan Kağan türk millətinin yürütdüyü bu ... (Mətnin bu hissəsi pozulmuşdur) Türk Bilgə Kağanı türk millətini – oğuz millətini bəsləyib oturur (Yəni: öz hakimiyyətini sürür)". Mətnin son hissəsinin başlıca ideyası isə bundan ibarətdir ki, əgər türk öndərlərinin mübariz iradəsi həyata keçməsəydi, türk soylarının birliyi, ittifaqı da olmayacaqdı, bu ittifaq dövlətə çevrilməyəcəkdi. Amma bu iradə özünü doğrultduğundan, türk millətinin birliyi yaşamış, irəliləmiş, öz əzəli haqqına – hakimiyyətə yüksəlmişdir.



*Göy Türk sərkərdəsi Köl tiqin (684-731)*

Orhon abidələrinin bütün mənalarda vəhdəti, əsasən də, ideya məqsədyönlülüyünə görə bir-birini izləməsi, getdikcə daha bariz psixoloji qətiyyətlə öz məramını diktə etməsi göz qabağındadır. Əlbəttə, bu təsadüfi deyil. Çünki türklər müxtəlif qonşu dövlət və millətlərlə yalnız davamlı müharibə və sülh şəraitində deyil, həm də onlarla gərgin sivilizasiya münasibətlərində yaşamışlar. Onlar hətta instinktiv olaraq hiss etmişlər ki, başqa mədəniyyət və sivilizasiyaların təsirinə qapılmaq – özünü yox etmək deməkdir. Ona görə də türk bilgələri (müdrikləri) öz qədim

xalqının sosial-mənəvi təməlləri üzərində sivilizasiya dəyərlərini yaratmağa kifayət qədər ciddi əhəmiyyət vermişlər. Türklərin "qüdrətli üçlüyünün" – Bilgə Kağan, Köl tiqin və Tonyukukun əsas vəzifəsi təkcə Türk Kağanlığını Çin (Tan) imperiyasının təcavüzündən qorumaq yox, həm də Çin sivilizasiyasının güclü psixoloji təsiri altına düşməyə qoymamaqdan ibarət olmuşdur (104, s.352, 376). Bilgə Tonyukuk özü də etiraf edir ki, Tabğaç (Çin) mədəniyyətinin təsiri altında tərbiyə almışdır. Ancaq dərhal anlamışdır ki, bu, təhlükəlidir. Onu Türk Kağanı yanına dəvət edir. O da çoxdan üzərində düşündüyü dəvəti qəbul edib, Kağanın yanına gəlir ("çölü şəhərdən üstün tutur"), müstəqillik hərəkatına qoşulur, bu hərəkatın əvvəlcə öndərlərindən birinə, sonra baş ideoloquna çevrilir (127, s.64-65).

Türklərin etnopsixologiyası çöl sivilizasiyasının sərt qanunları üzərində formalaşmışdı. Ona görə də türklərə Çin sivilizasiyasının daha mülayim dini-fəlsəfi təlimləri – buddizm və daosizm yaramırdı. Onlara güclü olmaq, dözümlü olmaq lazım idi. Ona görə də türklərin ulusal heysiyyəti Çin sivilizasiyasının bütün basqılarına sinə gərmişdir. Tarix də göstərir ki, onlar özlərinə yad olan təlim və təriqətləri heç zaman qəbul etməmişlər. Bu reallıqları nəzərə alan Lev Qumilyov belə bir postulatdan çıxış edir: "Türk Kağanlığının rəsmi ideologiyası iki prinsipə əsaslanırdı: Çin mədəniyyətinin inkarı və qonşular üzərində öz üstünlüyünün dərki" (104, s.375). Əslində, "Çin mədəniyyətinin inkarı" – əski türklərin öz mədəniyyətinin təsdiqi, "qonşular üzərində üstünlük" isə – imperiya qanunlarının təsbiti demək idi. Lev Qumilyovun fikrincə, başqa mədəniyyətin qəlibləri çərçivəsində yaşamağın türklər tərəfindən qətiyyətlə rədd edilməsi həmin həlledici tarixi dövr üçün olduqca mühüm bir həqiqəti açır: "Bu, təkcə iki dövlətin mübarizəsi deyildi, iki dünyagörüşünün, iki dünyaduyumunun mübarizəsi idi. Böyük Çöl öz manifesti ilə (Orhon türk yazılı abidələri nəzərdə tutulur) Çin olmamaq, özü olaraq qalmaq hüququnu bəyan edirdi... Daxilən monolit olan Türk eli (dövləti) öz banilərinin ideyasına

görə digər qəbilələr üzərində hökmranlıq etməyi bacarmalıydı. Tonyukuk da öz xidməti olaraq bildirir ki, ö, bütün həyatını bu məqsədə həsr etmiş və türk xalqını yüksəltmişdir" (104, s.376).

Orhon trilogiyasını ayrıca tədqiqat əsərində müfəssəl şəkildə araşdırmış türkiyəli alim Əli Öztürk bu qənaətində haqlıdır: "Tariximizdə ilk dəfə "türk" ismi ilə dövlət quraraq, bunu iftixarla bildirən göytürklər milli bütünlüklərini davam etdirmək üçün mücadiləni özlərinə məfkurə seçmiş, bizə bu məfkurənin yazılı sənədlərini, Göytürk tarixini xülasə biçimində anladan kitabələrin içyapısında vermişlər. Bu kitabələr dərin qatları ilə o zamankı türk cəmiyyətini çeşidli yönlərdən bugünkü nəslə tanıtmaqdadır. O zamankı cəmiyyətdə yaşayanların və xüsusilə Kağanlıq məqamında oturanların təqib etdikləri milli siyasət – bugünkü nəsillərə işıq tutacaq gücdə işlənmişdir. Ölkənin və millətin bir çox məsələlərini, uzaq-yaxın təhlükələri, milli bütünlüyü sarsıdacaq xətalı davranışları içdən gələn bir səmimiyyətlə, çox zaman üzüntü ilə dilə gətirən Bilgə Kagan və Bilgə Tonyukuk hazırladıqları kitabələrdə millət olmanın fəlsəfəsini yaratmışlar".



*Uyğur əsilzadələri. Miniatürdən fraqment. IX əsr*

Etnosiyasi seqmentini oğuz boyları (tayfaları) təşkil edən Göy Türk dövləti xüsusilə İlteriş, Kapğan və Bilgə kağanların hökmdarlıqları dövründə xeyli inkişaf etmişdir. Ayrı-ayrı türk tayfaları vahid dövlətçilik, "törəçilik" ideyası ətrafında birləşmiş, *"türk bodunun"* (xalqının) özünütəşkil prosesi – artıq bütün türk-doqquz oğuz tayfa ittifaqlarının vahid milləti təşəkkül etdirməsi ilə başa çatmışdır.

Türk etnopsixologiyası ilə bağlı bir mühüm cəhətə də diqqət yetirmək lazımdır: türklərdə əsl-nəcabətə (seçkin soya) üstünlük verilsə də, bu, Avropada və digər Asiya dövlətlərində olduğu kimi kəskin sinfi fərqlilik, təbəqələşmə xarakteri daşımırdı. Qadınlar kişilərlə eyni cəmiyyətdə, eyni hüquqlarla, aralarında ayrı-seçkilik qoyulmadan, sonradan islamın məcbur edəcəyi xüsusi örtük-geyimlərə ehtiyac bilmədən yaşayırdılar. Göytürk cəmiyyətində qadına və uşağa təcavüz edamla cəzalandırılırdı. Əgər Göy Türk dövlətində, təbii ki, erkən təşəkkül formalarında insanlararası və tayfalararası "demokratik nizam" olmasaydı, onlar "əzən və əzilənlərə", "istismarçılara və istismar olunanlara" bölünsəydi, bu cəmiyyəti dövlət quruculuğuna, təsərrüfat həyatına və on minlərlə ordu şəklində düşmənlə döyüşlərə səfərbər etmək mümkün olmazdı. Göytürk cəmiyyəti bu sosial-siyasi mütəhərrikliyi və çevikliyi mütərəqqi bir keyfiyyət kimi sonrakı nəsillərə də ötürməyi bacarmışdır.

Türk sivilizasiyasının epik düşüncə mədəniyyəti dünyanın "Oğuz Kağan", "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Manas" kimi ən böyük qəhrəmanlıq eposlarını ərsəyə gətirmişdir. Bu möhtəşəm abidələrdə, türk xalqlarının mifologiyasında və folklorunda, atalar sözlərində, bədii, fəlsəfi klassikasında, ümumən türk ədəbiyyatı və incəsənətinin dəyərli əsərlərində fərd olaraq insana, toplum olaraq xalqa məxsus – vətənpərvərlik, mübarizlik, yenilməzlik, qəhrəmanlıq, sədaqət, məsuliyyət, xeyirxahlıq, alicənablıq, işgüzarlıq, uzaqgörənlik, təmkinlilik, gözütoxluq, etibar, dövlətçilik əxlaqı, ailə namusu, insansevərlik, düzlük, mərhəmət, ehtiram, bərabərlik, əqidə və məfkurə sağlamlığı, biliklilik və



*Qıpçaq döyüşçüsü. Rekonstruksiya*



*Osmanlı ordusunun yeniçərisi. Miniatürdən fraqment. 1657*



*Qədin türk hərbçiləri. Rekonstruksiya*

zəkalılıq, öncüllük və liderlik, ədalət və haqqsevərlik və s. kimi bütün nəcib keyfiyyətlər türk etnopsixologiyasının tarixən formalaşmış və həmişə də zənginləşməkdə davam edən əxlaqi dəyərləri kimi yer almışdır.

Lakin türkləri həmişə böyük qələbələrə yetirən belə üstün xarakterik keyfiyyətlərə malik olmasını onların siyasi və əxlaqi qüdrəti qarşısında aciz qalanlar qəbul edə bilməmiş və düşmənləri türkləri gözdən salmaq üçün məqbul və ya qeyri-məqbul hesab



*Mustafa Kamal Atatürk Osmanlı əsgəri geyimində*

olunan bütün üsullardan istifadə etmişlər. Belə ki, onların yaxın və uzaq düşmənləri hətta erkən orta əsrlərdən başlayaraq müasir dövrümüzə qədər Avrasiyanın fatehləri olan türklər haqqında məqsədli şəkildə iftiralar quraşdırmış, türkləri gözdən salmaq üçün ağlasığmaz böhtan və şayiələr uydurmuşlar. Onlar türkləri insanlara, xalqlara qarşı amansız hərəkətlərdə, hətta məlum olduğu kimi, "erməni genosidində" günahlandırmaqdan ötrü ən riyakar vasitələrə belə əl atmaqdan çəkinməmişlər. Məsələn, inanılmaz olsa da, faktdır ki, Avropa ziyalılığının nümunəsi sayılan klassik fransız maarifçilərindən biri Monteskyö "Şərq despotizminin yuvasında türkləri dünyanın ən çirkin insanları" adlandırmışdır (71, II c., c.2, s.192). Müqayisə üçün deyək ki, Nizami, Höte, Puşkin və Lermontov kimi Şərq, eləcə də, türk mədəniyyətinə bələd olan və böyük dəyər verən sənətkarlar türklərin mənəvi və cismani gözəlliklərini özünəməxsus poetik obrazlarla vəsf etmişlər. Volter isə "ağcamaya slavyan qadınla-

rının dadını alandan sonra tamarzı türklərin onlara rəhm edib öldürməyərək", yalnız iştahlarını yatırtmaq üçün yanlarını kəsib yedikləri haqqında "ağlasığmaz səhnələr" uydurmuşdur (99, s.174-176). 1876-cı ildə Lord Qladsonun Böyük Britaniya Parlamentində dedikləri isə mürtəce rasizmin özü-özünü ifşa edən aşkar nümunəsidir: "Türklər insanlığın insan olmayan nümunələridir. Mədəniyyətimizin əbədiliyi üçün onları Asiya çöllərinə doğru qovmalı və ya Anadoluda yox etməliyik... "Qurani-Kərim" yer üzündə qaldıqca, bu qan-qadalı vəhşiliklər də yer üzündən əksik olmaz" (83, s.59). Halbuki belə mövqe ilə xalqları müharibəyə təhrik edən Lord Qladsonun ölkəsi – Böyük Britaniya imperiyası Qərb imperializminin insanlığa sığmayan ən dəhşətli mexanizmlərini hazırlayıb tətbiq edən, planetar müstəmləkəçiliyin dayaqlarını quran bir dövlət olmuşdur. Bu dövlət, eyni zamanda, dünya tarixində ən böyük irqi genosidin əsasını qoymuşdur: Avstraliyanın yaxınlığındakı Tasmaniya adasında öz müstəmləkəsini yaradan Britaniya 1833-cü ildə burada aborigenləri qıraraq, onların sayını 300 nəfərə qədər azaltmışdır (464, c.1, s.141-173). Nəhayət, türklərə böhtan atan sonuncu avantüralardan biri hətta dərsliklərdə də öz əksini tapır: çoxlu türk xalqlarının yaşadığı Rusiya Federasiyasının orta ümumtəhsil məktəblərində "Vətən tarixi" tədris edilir (114, şəkil 3). Altıncı sinif üçün tərtib olunmuş bu dərslikdə "Monqol-tatar işğalçılarının vəhşiliyi" adlı bir "rəsm" təqdim edilir. XIII əsr naməlum ingilis rəssamının bəsit formada çəkdiyi bu şəkil Volter yanaşmasının başqa versiyasıdır: vəhşi monqol-tatarlar insanları oxlara sancır, şaqqalayıb doğrayır, şişə çəkib qızardır, köz üstünə yağı dama-dama yeyirlər. Heç bir bədii-tarixi dəyəri olmayan, açıq-aşkar bədxahlıq və qarayaxma niyyəti ilə çəkilmiş bu "nifrət tablosunu" təqdim etməkdə Rusiya Təhsil Nazirliyi ölkəsinin şagirdlərinə humanizm aşıladığını güman edirsə, şübhəsiz ki, yanılır. Deməli, türk dünyasına, onun tarixinə, mədəniyyətinə, mentalitetinə, millətlərinə və dövlətlərinə qarşı yönəlmiş bu tipli bütün fitnəkar əməllərin və cəhdlərin üstü vaxtında açılmalıdır ki, müasir döv-

rümüzdə türk dünyası ətrafında təhrif və böhtan şəbəkəsi yaradıla bilməsin, cürbəcür falsifikasiya və dezinformasiya planları sayıq türk ideologiyası və onun təbliğatının əks-arqumentləri ilə vaxtında təkzib edilə bilsin.

Türk xalqlarının yüksək əxlaqi dəyərlərə söykənən yaşam tərzinin öyrənilməsi ilə yanaşı, tarixin və müasirliyin real və ibrətli faktları üzərində dayanılması türk etnopsixologiyasının dərin mahiyyətini açır. Bu faktlar bir daha təsdiq edir ki, türklər həm müharibə, həm də sülh dövrlərində özlərinin humanitar missiyalarını aydın şəkildə dərk edən insanlar olmuşlar. Bunun ən parlaq örnəyi – Mustafa Kamal Atatürkdür. Türk dünyasının böyük sərkərdəsi və ideoloqu öz dövlətini və millətini tarixin ən amansız savaşlarından qurtarmaq üçün döyüşmüş və zəfər çalmışdı. Amma qalib ordunun önündə İzmirə daxil olan



*İkinci Dünya müharibəsi.*
*Çanaqqala döyüşü.*
*Mustafa Kamal Atatürk ordu komandanlığı ilə*



*Çanaqqala.*
*Mustafa Kamal Atatürk hərbçilərlə birlikdə*



*Çanaqqala.*
*Nizamlı türk ordusu*



*Çanaqqala. Yaralı silahdaşını çiynində daşıyan türk əsgəri*



*Çanaqqala savaşına qatılan bu yoxsul kəndlilər də böyük türk ruhunun yenilməzlik təcəsümüdür*



*Çanaqqala. 200-300 kiloqramlıq mərmiləri topa qaldıran türk əsgəri*

Baş Komandan Mustafa Kamal Atatürk ayaq altındakı düşmən bayrağını yerdən qaldırtmış, "Bayraq – bir millətin istiqlaliyyət rəmzidir. Düşmənin də olsa, ona hörmət göstərmək gərək!" – söyləmişdi (65, s.72). Bu gün aralarında ixtilaf olan dövlətlərin qəzəblənmiş kütlələrinin bir-birinin bayrağını ayaq altına atıb tapdalaması, yandırması müqabilində böyük sərkərdənin bu hərəkəti siyasi əxlaqın və alicənablığın ən bariz nümunəsidir.

Millətlər bəzən yalnız öz keçmişinə münasibəti ilə xarakterini açır, kimliyini ortaya qoyur, hətta bununla başqa xalqlara necə yanaşdıqlarını da göstərə bilirlər. Türkləri öz tarixləri ilə birləşdirən yenilməz bir zəfər duyğusudur: Birinci Dünya müharibəsində ayrı-ayrılıqda bir neçə cəbhədə vuruşmaq məcburiyyətində qalan Osmanlı ordusu türk vətəninin bütünlüyünü məhz Çanaqqala cəbhəsində zəfər çalaraq qoruya bilmiş, ölkəni parçalamağa çalışan düşmən ordusuna sarsıdıcı zərbə endirərək, ona İstanbula daxil olmağa imkan verməmişdir. Müharibə bitəndən sonra, bütün bu baş verənləri soyuq ağılla mühakimə edən əks

cəbhənin hərbçiləri, Çanaqqala savaşını araşdıran tarixçilər və siyasətçilər başlıca olaraq bu qənaətə gəlirlər ki, əslində, bütün variantlarda Osmanlı ordusu həmin müharibədə məğlub olmağa məhkum idi. Ona zəfər qazandıran – yalnız türk əsgərinin Vətən qarşısında məsuliyyəti, Vətənin özü kimi yenilməz və fədakar Ruh, malik olduğu Haqqı heç kimə təslim etməmək mübarizliyi, dərin kökləri ilə ulu torpağa bağlı Vətəndaşlıq Əxlaqı olmuşdur.

Əlbəttə, bu qanlı müharibə belə böyük miqyasda aparıldığı üçün onun itkiləri də bütün tərəflər üçün ağır olmuşdur: belə ki, türklərin 315 500 əsgərlə Böyük Britaniyanın 489 000 və Fransanın 79 000 nəfərlik birləşmiş ordusuna qarşı vuruşduğu Çanaqqala müharibələrində Osmanlı Türkiyəsinin ümumi tələfatı 250 000, düşmən tərəfin ümumi tələfatı isə 252 000 olmuşdur. Türkiyənin bu qədər vətənpərvər insanını (əsasən gəncləri) itirməsi onun xüsusilə Türk İstiqlal Hərbindəki və Cümhuriyyət quruculuğundakı mübarizələrinə də ağır təsir göstərmişdir. Ona görə də milli qüvvələrin həmin müharibələrdə belə əvəzsiz itkiyə məruz qalmasını Mustafa Kamal Atatürk yanğı ilə dilə gətirirdi: "Biz Çanaqqalada bir Dar-ül-fünun (Universitet) gömdük..."

Yeddi ildən sonra (1923) Türkiyə Respublikasını quracaq və onun ilk prezidenti olacaq Mustafa Kamal Atatürk məhz Çanaqqala səngərlərində döyüşmüş, Çanaqqala savaşında hərbi dühasını və liderlik keyfiyyətlərini göstərə bilmiş, müharibədən sonra türk millətinin içindən yetişən komandan olaraq böyük nüfuz qazanmışdır. Müharibə alovlarından keçmiş, hərb sənətinin mükəmməl praktikasına yiyələnmiş və dövlətin varlığı üçün milli ordunun hansı əhəmiyyət daşıdığına əmin olmuş Mustafa Kamal Atatürk 1921-ci ildə türk əsgərinə müraciətlə söyləmişdi: "Dünyanın heç bir ordusunda ürəyi səninkindən daha təmiz, daha sağlam bir əsgərə rast gəlinməyib. Hər zəfərin mayası səndədir. Qənaətin, inamın, intizamın, qorxu bilməyən qəlbin, nəhayət, düşməni məğlub edən böyük qeyrətin üçün borclu olduğumu və ehtiramımı bildirməyi özümə ən yüksək şərəf bilirəm".

Düşmənlə üz-üzə gələndə belə Mustafa Kamal Atatürk türk nəcabətinin üstünlüyünü, həm də incə diplomatiya məharətini nümayiş etdirmişdir: Birinci Dünya müharibəsi dövründə – Çanaqqala savaşında ona qarşı vuruşarkən bir qolunu itirmiş fransız generalı Quroya, illər keçəndən sonra Ankarada qarşılaşdıqları zaman generalın kəsik qoluna işarə edərək, Mustafa Kamal Atatürk ehtiramla demişdi: "Türk torpaqlarında yatan şərəfli qolunuz ölkələrimizi bir-birinə bağlayan son dərəcə qiymətli bir teldir" (65, s.324). Eyni zamanda, Mustafa Kamal Atatürk müharibədə həlak olmuş türk şəhidlərinin dəfn mərasimindən sonra, həmin müharibədə həyatını itirmiş digər millətlərin əsgərlərini də dəfn etməyi tapşırmış, həmin mərasimdə iştirak edəcək nazirinə bu sözləri deməyi də vacib bilmişdi: "Bu ölkənin torpaqları üzərində qanlarını tökən qəhrəmanlar! Burada bir dost vətənin torpağındasınız. Hüzr içində uyuyun" (58, s.6) – Birinci Dünya müharibəsində 250 000 şəhid vermiş bir ordunun Baş Komandanı dövlətlərarası, insanlararası münasibətlərin belə bir dramatik zamanında da insanlığa ehtiram əxlaqı və məsuliyyəti ilə hərəkət etmişdir. Mustafa Kamal Atatürk 1937-ci ildə – ölümündən bir il öncə bəyan etmişdi: "Ordu, Türk Ordusu! Bax, bütün millətin köksünü etimad və qürur hissi ilə dolduran şanlı ad budur! Ordumuz Türk birliyinin, Türkün qüdrət və qalibiyyətinin, Türk vətənsevərliyinin poladlaşmış bir ifadəsidir. Ordumuz – Türk torpaqlarının qorunması və Türkiyə idealının həyata keçirilməsi üçün göstərdiyimiz sistemli səylərin məğlubedilməz təminatıdır". Sərkərdəlik, müdriklik və humanizm kimi müstəsna və nəcib keyfiyyətlərin vəhdətini əməlləri ilə sübut edən Mustafa Kamal Atatürkün bünövrəsini qoyduğu Türkiyə Ordusu hazırda dünyanın ən güclü hərbi qüvvələrindəndir.

Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin siyasi fəaliyyətində də türk dünyasını yeni qlobal reallıqlar və şərtlər əsasında vəhdətə gətirən bir böyük siyasətçinin dünyada harmoniya yaratmağa çalışan ulu türk kağanlarına məxsus quruculuq, birləşdiricilik xarakterini qabarıq keyfiyyətləri ilə gö-

rürük. Bu örnəklər bir daha onu sübut edir ki, türklər - xalq qarşısında müəyyən məsuliyyət daşıyan şəxsiyyət, çətin tarixi dönəmlərdə dövlətçiliyi məhv olmadan xilas edən siyasi liderlər və ümummilli təşəbbüslə quruculuq missiyasını həyata keçirən millət olaraq özlərini səfərbər etməyi, xarakterlərinin bütün pozitiv cəhətləri ilə böyük məqsədlər uğrunda mübarizə aparmağı bacarırlar.

# TÜRKLƏRİN ADƏT-ƏNƏNƏLƏRİ VƏ MİLLİ BAYRAMLARI

Türk sivilizasiyasının mühüm komponentləri sırasında onun adət-ənənələri və milli bayramları xüsusi əhəmiyyət daşıyır. Bu adət-ənənələr türk xalqlarının mənəvi dəyərlər sistemini uzun əsrlər boyu inkişaf etdirməklə tarixin bütün dövrlərində ictimai, mədəni tərəqqinin əsas göstəricisi kimi yaranmış və təşəkkül tapmışdır. Türk cəmiyyətləri inkişafının yeni mərhələlərinə adladıqca, onların adət və ənənələri də ayrı-ayrı quruluşların ictimai-siyasi xüsusiyyətlərinə uyğun şəkildə yeni məzmun və forma keyfiyyətləri almışdır.

Əski türklərin ən qədim adət və ənənələri, başlıca arxetipik əlamətlərinə görə onları əhatə edən və həyatının vacib şərti olan təbiət ünsürlərinin müqəddəsləşdirilməsi (qutsallaşdırılması), şamançılıq, totemçilik, tanrıçılıq *(tenqriçilik)* üzərində təşəkkül



*Türklərin qutsal yurdu – Orhon çayının vadisi*

tapmışdır. *Su (bulaq, çay, göl), ağac, torpaq, yel (hava), işıq, dağ* və s.-lə bağlı mifoloji təsəvvürlər türk etnoqrafiyasında və inanclarında geniş əks olunmuşdur. Məsələn, türk uyğurlar Orhon və Selenqa çaylarının birləşdiyi yeri müqəddəsləşdirmişdilər. Çünki onların inancına görə, ululları bu iki çayın qovşağında, göydən enən bir *nurdan* doğulmuşdur.

Türk xalqlarının böyük əksəriyyəti indiyədək Novruz bayramında su ilə bağlı mərasimlər keçirirlər (*su çərşənbəsi* və s.). Yakutlarda isə *qayın ağacı* yer ruhunun *(Aan doydu-iççite)* sığınacağı sayılır və bu ağaca at tükündən hörülmüş *sicim (salama)* bağlanırdı. Altay türkləri ağaca canlı məxluq kimi yanaşır, ağac ruhuna *(aqaştın yesi)* tapınaraq ona qurban verirdilər. Təbiətə ruhsal münasibət nəticəsində ağacların da öz icması və şaman ağacların *(qam aqaş),* başçı ağacların *(paştıq aqaş),* ana, ata, əcdad ağacların mövcudluğuna inam vardı (22).

Əski türklərin ən önəmli qəbilə totemlərindən biri Qurddur *(Gök və ya Boz Qurd –* "Börü"*).* "Gök" (Göy) – səma mənasında, "Qurd" isə – "qurtuluş" mənasında anlaşılmışdır. Türk inancına görə, Qurd sədaqət, güc, qorxmazlıq, azadlıq rəmzidir: çünki Qurd yaşayışını özünün dişi yoldaşına və balalarının yaxşı bəslənməsinə həsr edir, heç vaxt zinaya yol vermir; pəncələşmə zamanı axıracan döyüşür, ya qalib gəlir, ya da ölür; heç vaxt rəqibinin qabağından qorxub qaçmır; özünə güvənən boz qurdlar (yalquzaqlar) çox zaman sürü halında yox, tək gəzir, vəhşi təbiətdə qarşısına çıxan təhlükə ilə təkbətək döyüşür; ac qalsa da, cəmdək yemir, ona görə həm də təmizlik rəmzinə çevrilmişdir. Səma (göy) və ya boz rəngli qurd müqəddəsləşdirilərək türk-oğuz boyunun soy başlanğıcı *("Kurt oğul")* sayılmışdır. Passionar türk soylarının döyüş



*Boz Qurd (Börü) totemi*




*Türk lirəsi üzərində Boz Qurd təsviri (1927-ci il)*



*Müasir qaqauz türklərinin qurd simvolu*









*Atlar müxtəlif təsvirlərdə*

bayraqlarında da qurd başının şəkli həkk olunmuşdur. Yalnız cəsur qəbilə başçıları "Qurd" ("Börü") adlandırılmışdır. Altay dağlarında "Qurd zirvəsi" kimi sayğılanan çox sayda yüksəklik vardır. Həmin yüksəkliklərdə dişlərini qıcayan və quyruğunu belinə qaldırmış zolaqlı Qurd təsvirlərinə çox təsadüf edilir.

At – köçəri türk qəbilələrinin əsas totemlərindəndir. Qədim yaşayış yerlərində tikilən evlərin özülündə at kəllələrinin tapılması da buna sübutdur. Hakasiyada, Tuvada, hətta oğuz türklərinin məskunlaşmış olduqları Koreyada atın çox sayda mərasim fiqurları tapılmaqdadır. Sibirdən Balkanlara qədər hər yerdə türk xalqlarının atı müqəddəsləşdirməsi faktları məlumdur.

Qartal (Tərlan) – Günəş, işıq mənbəyi totemidir. O, şüa ilə eyniləşdirilmişdir. Sibirin, Altay və Sayan bölgələrinin, Orta və Kiçik Asiyanın türk xalqlarında qartalın çox sayda müxtəlif təsvirləri vardır. Qədim Tuva kurqanlarında üstündə qartal şəkli olan qızıl lövhəciklər tapılmışdır. Tunc dövründən başlamış bizim günlərə qədər bu cür qartal təsvirləri Baykal gölü ətrafında yaşayan yerli əhali arasında çox geniş yayılmışdır. Sibir xalqlarında məhz qartal – günəş, od, ildırım və şimşək qüdrətinə malik bir varlıqdır. Artıq simvollaşdırılmış ikibaşlı qartal lap qədim zamanlardan bir çox türk xalqlarının toteminə çevrilmiş, daha sonra digər Avrasiya xalqları tərəfindən də mənimsənilmişdir. Əjdaha totemi də Çində, Yaponiyada, İndoneziyada, Vyetnamda, o cümlədən Türkiyədə, Azərbaycanda və Türkmənistanda, habelə Sibir ərazilərində xalqların məişətində və incəsənətində geniş yayılan mifik obrazdır.

Türklərin Buğa, Şir, Pələng, Maral totemləri də onların mifik dünyagörüşünün elementlərini özündə cəmləşdirmiş və mərasimlərinin vacib komponentinə çevrilmişdir. At fiquru kimi, Pələng fiquru da qədim Altay astronomik təqvimində yer almışdır. Tatarların və bütün Altay türk qəbilələrinin şaman qavallarının bir qisminə “*mənim kanım”,* yaxud *“ala bars”* deyilmişdir. Sibirin türk xalqlarının təsəvvüründə Pələng qadınların dünyaya övlad gətirə bilməsinə yardım göstərən hi-



*Qartal totemi*



*Totem-Maral. Ermitaj muzeyi*



*Bilgə Kağanın xəzinəsindən qızıl Maral fiquru (VIII əsr)*

mayədar totem olmuşdur. Qızıl buynuzlu Maral yüksəliş rəmzi və böyük güc, işıq, xeyirxahlıq nişanəsi sayılmışdır. Onun dövri olaraq təzələnən ağacaoxşar buynuzları cavanlaşma, daim təzələnmə və zamanın gedişini yeniləşdirmə rəmzi kimi qəbul edilmişdir. Bu xüsusiyyətləri özlərində cəmləşdirdiyi üçün qədim türklər bürüncdən tökülmüş Maral totemini özləri ilə gəzdirmişlər. Totem-Maralın belində sıralanan yeddi buruq buynuzu olmuşdur. O, adətən, qabaq və dal ayaqlarını qarnı altına yığmış vəziyyətdə təsvir edilmişdir. Qədim türk sənətkarı tərəfindən qızıldan hazırlanmış çox dəyərli Totem-Maral fiquru Rusiyanın Ermitaj muzeyində saxlanılır.

Ay ilahəsi Humay quşu türklərin məhəbbət, bərəkət, sağlamlıq, xeyirxahlıq rəmzidir. Humay totemi bəd ruhları, qaranlıqları qovur, uşaqlara şəfa verir və insanlara xoşbəxtlik bəxş edir, qadınların himayəçisi kimi tanınırdı. Sibirin şaman qadınları təzə doğulmuş körpəni beşiyə qoymazdan qabaq ilahə Humaya “Od nənə” kimi müraciət edir, ondan körpənin sağlam böyüməsini diləyirdilər. Humayın simvolik obraz-forması kiçik fincan idi. “Müqəddəs südlə” dolu belə fincanda körpə ruhlarının yerləşdiyi




*Səlcuq türklərində Humay quşu fiqurları. XI əsr*



*Humay daş-heykəlinə tapınan çuvaş qadını*

güman edilirdi. Uşaq xəstələndikdə onu həmin fincandakı süd ilə yedirmə mərasimi keçirilirdi. Bu fincan səma mənşəli sayılırdı. Uşaqları bəd nəzərdən qorumaq üçün qulaqlarına ilahə Humayın təsviri olan sırğa taxırdılar. Türk yazılı abidələrində Humay həm də ayın, günəşin və göy qurşağının yaradıcısı kimi təqdim edilmişdir. Türk dünyasının klassiki Nizami Gəncəvinin əsərlərində də Humay adı dəfələrlə himayədarlıq və gözəllik təcəssümü kimi çəkilmişdir. Əsas totemlər türk soylarının bayraq və tuğlarında (gerblərində) və digər rəmzi ənənələrində də yer almışdır.

Dini inancları tanrıcıqlıqdan təkallahlılığa (islama) doğru təkamül edən və bu transformasiyada heç bir teoloji ziddiyyətlə qarşılaşmayan türklərin adət və ənənələri onların həyat tərzini praktiki şəkildə qaydalandırmağa, sistemləşdirməyə kömək edən akt olmuşdur. Həyat təcrübəsi və rəmzləşdirmə bu aktın iki vacib



*Türk Qurultayının miniatür əsərində təsviri*

motivini təşkil etmişdir. Türk ulusları artıq normativləşmiş adət-ənənələr əsasında sosial özünütəşkilin qaçılmaz proseslərini həyata keçirmişlər. Belə ki, ölkənin idarə olunmasında ulus və onu təmsil edən *"Tuy", "Toy"* (qurultay, yığıncaq, şənlik mərasimi) erkən xalq toplantısı statusunda mühüm rol oynamışdır. [bu söz sonralar türk dillərində "tuy", "tuyun", "düyün", "şölən", "yəğma" və s. anlayışlarla yeni semantik mənalar qazanmışdır]

Türk cəmiyyətində kağandan tutmuş adi bir insana qədər hər kəsin adət, ənənə və davranışlar toplusu kimi *törəyə* riayət etməsi tələb olunmuşdur. *Törə düzəninə* (müasir anlamda konstitusion qanunlara) hörmət, ədalət, xeyirxahlıq, faydalılıq və düzlük – *törənin* sabit əsaslarını təşkil etmişdir. *Törəyə* qarşı çıxanlar ciddi cəzalandırılmışlar. İnsan həyatına qəsd edənlər, adam öldürənlər *Törəyə* görə edam olunurmuşlar. Oğru və soyğunçular cinayət vaxtı yaxalandıqda edam cəzası almış və onların əmlakı müsadirə edilmişdir. Kiçik cinayətlər üçün on günlük həbs cəzası tətbiq edilmişdir. Qan intiqamı almaq yasaq sayılmışdır.

Türklərdə qadına böyük ehtiram göstərilmişdir. Ailədə anaya xüsusi münasibət bəslənilmişdir. *Yurta* ("yurd") [alaçığa, çadıra, evə] daxil olan övlad əvvəlcə anasına, yalnız bundan sonra atasına təzim edərdi. Türk qadınları at minər və hərbi səfərlərdə, döyüşlərdə iştirak edərdilər. Orhon kitabələrində türk qadınlarının doğma yurdu necə müdafiə etmələrindən bəhs edilir. Döyüş zamanı qadının əsir düşməsi böyük həqarət və yolverilməz sayılırdı. Dövlət və ictimai işlərlə bərabər, türk qadınları təsərrüfatda da çalışırdılar. Lakin qadınların əsas işi uşaqlara tərbiyə vermək, onları çöl şəraitinə uyğun möhkəm, döyüşkən və iradəli gənclər kimi yetişdirmək idi.

Türklərdə uşaqlara ad qoyma mərasimi çox önəmli bir hadisə olaraq qəbul edilirdi. Uşağın adı ilə gələcək həyatı və taleyi arasında bağlılığa inam vardı. Türk yeniyetmə və gənclərinin hər hansı bir hünər göstərib ad qazanması kimi xüsusi ənənə də türklərin etnogenetik yaddaşında hifz edilmişdir. Biz buna "Kitabi-Dədə Qorqud" eposunun bir çox epizodlarında rast gəlirik. Oğuz

 

*Müasir türkmən qızları klassik milli geyimdə*

boylarının oğlan uşaqlarına adı hər hansı bir igidlik göstərdikdən sonra Dədə Qorqud verirmiş: Dirsə xanın oğlu buğa ilə döyüşüb onu ram etdikdən sonra *"Buğac"* adını alır; Bamsı bəzirganların (tacirlərin) malını soyğunçulardan qurtarmasına görə *"Beyrək"* (bəy şücaətli) adını alır – Bamsı Beyrək olur. Türklər islamı qəbul etdikdən sonra isə getdikcə adların ərəbləşməsi baş verir. Lakin XIII-XIV əsrlərdə belə Hindistanda hökmran olan Moğol türkləri əski adlar ənənəsini saxlayırdılar: Babur, Qutlu, Aybek, Alp xan, Tuğluq, Güçlü, Arslanatar, Buğra xan, Toğrul, İltutmuş və s.

Türklərin özünəməxsus geyim adətləri də olmuşdur. Erkən orta əsrlərdə türklər qoyun, sığır, tülkü, ayı dərisindən, keçi və dəvə yunundan geyim hazırlayırdılar. Onlar bez toxuyur və paltar üçün kənaf yetişdirirdilər. Paltara düymə tikir, ayaqlarına çəkmə geyir, başlarına isə börk qoyurdular. Qış və yay libası ayrı olurdu. Hun və türk kurqanlarında mərhumun yanına silah və atla yanaşı qızıl qazan, gümüş kəmər, qaşıq, tac və başqa əşyalar da qoyulurdu. Bu, hun-türklərin qızıl və gümüş nəsnələr düzəltməkdə mahir olduqlarını göstərir.

Türk xalqlarının əlamətdar günlərlə bağlı mərasimləri arasında bayramlar *("bəyrəm")* xüsusi yer tutur. Əskidən də keçirilən bir sıra bayram mərasimlərində *("törən")* dekorasiyalardan istifadə olunmuşdur. Törən keçirilən yer bəzədilir və təntənəli vəziyyətə gətirilirdi. Bayram adında zənginləşmək anlamı da vardır. Hələ min il bundan öncə Mahmud Kaşğarlı "Divanü Lüğat-it-Türk" əsərində türk bayram mərasimlərindən bəhs edir: bayram yeri çiçəklərlə bəzədilir, çıraq və məşəllərlə işıqlandırılırdı ki, bura ürəkaçan, fərəhli bir yer olsun. Buradakı işıqlandırma – bayramın axşam vaxtı da davam etməsini, çiçəklərlə bəzədilməsi isə – bayramın baharda keçirilməsini bildirir. Tarixi qaynaqlara görə, türklərin hunlar zamanından bayram və şənliklər keçirdikləri məlumdur.

Türklər üçün yaz mərasimləri çox önəmli olmuş və ciddi həyati əhəmiyyət daşımışdır. İstər ovçuluq, istər maldarlıq, istərsə də əkinçiliklə məşğul olan türklər hər zaman yazı arzulamış, təbiəti diri görmək, günəş, istilik, yağış və yaşıllıq istəmişdir. Ona görə də türklər ən əski çağlardan yazın gəlişini fövqəladə hadisə saymış, təbiətin bu möcüzəsini bayramla, şənliklə və müxtəlif mərasimlərlə qarşılamışdır. Türklər yaza çətin və uzun qışdan, soyuqdan və məhrumiyyətdən qurtuluş, xilas, rifah və azadlıq kimi baxmışlar. Yaz bayramına erkən çağlarda *"Yılbaşı"* deyilmişdir. *Yılbaşında* Günəşi çıxartmaq, yağış yağdırmaq, qışı yola salmaq, yazı qarşılamaqla bağlı olan bir sıra rituallar keçirilmişdir. Bunların içərisində "Çilə", "Xıdır", "Qodu", "İlaxır çərşənbə", "Novruz" vardır. Novruz *Yılbaşının* yerinə keçdiyinə görə xalq inancları ilə bağlı rituallar da onun mərasim hissəsində cəmlənmiş, şənlik hissəsi isə xalq oyun və tamaşaları ilə bəzədilmişdir.

Bu gün türk və ümumən bir çox Şərq xalqlarının əsas törəni olan Novruz bayramının əski Altay türklərinin *Ergenekon* əsatir-bayramı, Volqaboyu və Şimali Qafqaz türklərinin *Sabantuy* və ya *Səpin* toy-mərasimləri ilə bağlılığı vardır. Mövsüm mərasimlərindən biri olan *"Yilqayak"* bayramı Altaylarda martın 21-də



*Volqaboyu və Şimali Qafqaz türklərinin Sabantuy bayramı*

qeyd edilir. Bu bayram da Novruz kimi baharın gəlişi, təbiətin canlanması, yeni ilə qədəm qoyulması münasibətilə keçirilir. Süfrəyə bal qatılmış qatıq, dondurulmuş və qurudulmuş ət, qoyun və mal dırnağından yeməklər təqdim edilir.

Altaylarda yaz mövsümü ilə bağlı keçirilən "Yılqayak" mərasimində alqışlar edilir, şeirlər söylənilir, mahnılar oxunur. Altay türklərində xalq bayramı Çaqa-bayram (Ağ bayram) – Yeni ildir. Bu bayramda *"San saları"* mərasimi keçirilir. Mərasimdə oda səcdə edilir və ondan rəhm dilənir. "Çaqa"nın bayram edilməsi kosmik inanclarla bağlıdır: *Meçin* ulduzu *(Pleada bürcü)* Ayın yanından keçəndə Çaqa bayramı başlanır. Bayramda icrası vacib olan ritual - uşaqların və böyüklərin qarda yuvarlanmasıdır. Bununla ruhun və bədənin şərdən və qaranlıqdan təmizlənməsi gerçəkləşdirilmiş olur. "San saları" mərasimi yeni ay görünəndə başlanır və ona əvvəlcədən hazırlaşırlar. Evin şərq tərəfində yüksək bir yerdə daş qoyulur. Günəş şüaları görünəndə daşın üstündə od yandırırlar. Odun ətrafına süd məhsulları qoyurlar və dua edir-



*Altay türklərinin Çaqa-bayramı*

lər. Odun üstünə süd çilənir və Yeni il üçün diləklər dilənir. Bu bayramda adamlar bir-birilərinə hədiyyələr verirlər. Eyni zamanda, bu bayramda adamlar bir-birilərindən soruşurlar: *"Yıldı kandın çıkkan?"* ("İldən necə çıxdın?") – sualına *"ie"* ("yaxşı") cavabı verilməlidir. Bundan sonra xalq gəzintisi və milli idman oyunları başlanır.

Qırğızıstanda Novruz bayramında tonqal qalamırlar, amma evin, həyətin odla arınması adəti vardır. Qırğızlar bunu qədim türk şamanlarından qalma adət hesab edirlər. Onlar "Alas-alas, bəladan xilas" – deməklə, öz həyətlərini atəşlə pis ruhlardan təmizləyirlər. Darı yarmasından *"Novruz köcö"* adlı bayram yeməyi hazırlanır. Qırğız süfrəsində məxsusi olaraq Novruzda quzu ətindən, əriştəyə oxşar un məmulatından hazırlanmış *beşbarmaq* da bişirilir. Bu şirniyyat əllə yeyildiyi üçün belə adlanır.

Türkmənistanda bayramdan beş-altı gün öncə, evlərin təmizlənməsi başlanır. Türkmən çörəyi, plovu və müxtəlif şirniyyatlar hazırlanır. Səməni – Novruzun xüsusi yeməyi sayılır. Bir



*Özbəkistanda Novruz bayramı*

neçə ailə bir araya gəlib, böyük bir qazanda buğda, un və şəkərdən səməni bişirirlər. Bayrama bir gün qalmış bişirilən bu yemək 21 martda süfrələri bəzəyir. Türkmənlər Novruz tonqalına *"saman otı"* ("Şaman odu") deyirlər.

Qazaxıstanda, adətə görə, evlərin divarlarına və ya müxtəlif əşyalar üzərinə gil qablar atıb sındırırlar. Bu adət köhnə ilin pisliklərindən, xəstəliklərindən yeni ildə qurtulmaq məqsədi daşıyır. Qazaxlar da tonqal üzərindən atlanırlar. "*Novruz köcü", Novruz şorbası və ya "Lapa"* adlı yeməklər bişirilib qonşulara paylanır.

Özbəkistanın Səmərqənd, Buxara, Əndican şəhərlərində Novruza həsr edilmiş şənliklər bir neçə həftəyə qədər davam edir. Özbəklərin bayram münasibəti ilə bişirdikləri xüsusi yeməklər *məşhur özbək plovu, samsa və süməlәkdir. "S"* hərfi ilə başlayan *sünbül, səbzi, sirkə, sancid* (iydə) kimi 7 nemət süfrəyə düzülür. Güləş və at yarışları bayrama xüsusi bir hərarət, gözəllik qatır. Novruz günü bir-birini qucaqlamaq və danışmağa başlamazdan əvvəl üç qaşıq bal yemək ən əski adətlərdəndir. Bölgələrdə tə-

sərrüfatda çalışan yaşlı insanlar əlini yağa batırıb öküzlərin buynuzunu yağlayır ki, yeni il bərəkətli olsun (6).

Azərbaycan, İran və Türkiyə türklərinin Novruz bayramı adətlərində oxşar cəhətlər çoxdur. Türkiyədə yaz bayramı həm Novruzda, həm də Hıdırellezdə (Azərbaycan variantında *Xıdır İlyaz* və ya *Xıdır Nəbi*) qeyd olunur. Novruz daha çox Anadolu bölgəsində yayılmışdır. Hıdırellez isə Türkiyədə ən geniş yayılmış yaz mövsüm mərasimidir. Novruz martın 21-də, Hıdırellez isə may ayının 6-da bayram edilir. Azərbaycanda fevral ayında keçirilən Xıdır Nəbi mərasiminin Hıdırelleze müəyyən bənzərliyi olsa da, fərqli xüsusiyyətləri də vardır. Xıdır Nəbi qışın ortasında, Xıdırellez isə yazın ortasında keçirilir. Mərasimin mövsümlə əlaqəsindən belə anlaşılır ki, bunlardan biri qışın yola salınmasının sakral ritual əlaməti, digəri isə yazın gəlişinin təntənəsidir. Birincidə misteriya, ikincidə isə karnavallıq aparıcı mövqedədir (13).

Tatarlarda yaz bayramı *"Karqa butkası"dır*. Bu bayram da yazın gəlişi münasibətilə keçirilir. Bayramda gənclər idman yarışları təşkil edir, oxuyur, oynayırlar. Tatarıstanda yaz işləri ilə



*Azərbaycanda Novruz bayramı silsiləsindən Od Çərşənbəsi*

bağlı bayramların ən böyüyü *"Sabantuy"* və ya *"Səpin toyu"dur.* Bu bayram yazdakı səpin mövsümü ilə bağlıdır. Müasir dövrdə yaz şumu vurulduqdan və torpaq əkin üçün hazırlandıqdan sonra keçirilir. *Sabantuy* xalqın könüllü şəkildə bir yerə toplanaraq qeyd etdikləri musiqili-dramatik tamaşadır. Kənd yerlərində yaranan bu bayram sonralar şəhərlərə də yayılmış və təntənəli şəkildə qeyd olunmağa başlanmışdır.

Tuvalılarda yeni il bayramı *"Şaqaa"* adlanır. Bu buryatların *"Şaqaalqan"* bayramına bənzərdir. Şaqaa yeni ayın göründüyü ilk gün başlanır. Şaqaa Çin yeni ili ilə uyğun gəlir. Tibet və monqol təqvimlərində olduğu kimi, Tuvada da yeni il fevral-mart aylarında girir. Tuvalılar Şaqaa bayramlarında *"San saları"* ritualı keçirirlər. Bu qədim ritual od kultu ilə bağlıdır. Mərasim milli parkda Kaa-Xem çayının sahilində keçirilir. Burada mərasim tonqalı qalanır və Günəşin ilk şəfəqləri görünəndə yandırılır. Şamanlar yeni ildə Günəşi salamlayırlar. *Qamlama* (öygüləmə, vəsfetmə) davul sədaları və alqış səsləri altında icra edilir. Ritualın vacib elementi Günəşin "kiçik qardaşı olan Od"a qurban verilməsidir. Ənənəyə görə tonqala ətin ən yaxşı tikələri və öncədən hazırlanmış şirniyyat qoyulur. *"San"* qurban tonqalını yandırmağa yalnız kişilər və 9 yaşından yuxarı oğlanlar gedə bilərlər.

Xakaslarda *"Çıl pazı"* 22 martda keçirilir. "Çıl pazı"nın mənası "ilin başı" deməkdir. Bu – xakasların yeni ilidir, yaradılışın, Günəşin, təbiətin bayramıdır, təmizlənmə kultudur. 22 iyunda keçirilən *"Uluq kün-kün pazı"* Günəşə pərəstiş bayramıdır. İyun-iyul aylarında keçirilən *"Ot tayıq"* mərasimi Oda pərəstiş bayramıdır.

Çuvaşların yaz bayramı "*Akatuy"dur* (böyük toy, bayram). Bu mərasim əkinçiliyə həsr olunur. *Akatuy* bayramı özündə bir sıra mərasim və təntənəli ritualları birləşdirir. Aprel ayının son günlərində keçirilir. Çöldə əkin işlərinə başlanması ilə *Akatuy* başlanır. *Akatuyun* ritual hissəsinin keçirilməsi üçün pivə hazırlanır, yeməklər bişirilir, yumurta boyanır. Bayram müxtəlif evlərdə



*Çuvaşların "Akatuy" bayramından fraqmentlər*

müxtəlif günlərdə başlanır və bir həftə davam edir. Bayram edilən evdə təntənəli masa açılır, qohumlar və qonşular dəvət edilir. Hər kəsə pivə paylanır. Sonra isə qədim *"Alpan kaymi aki-suxi"* ("Şumlamaq və səpmək bizim işimiz") nəğməsi oxunur. Dua zamanı çuvaşlar uca tanrı Turadan və ona tabe olan xeyirxah ruhlardan bol məhsul, zənginlik, sağlamlıq diləyirlər (151).

Şərqi Türküstanda uyğurlar Novruz bayramının başlanması ilə yeni ilin şərəfinə sevinc duyğusunu ifadə edən şeirlər, nəğmələr *(novruznamələr)* yazıb hazırlayırlar. Novruz günü bayram paltarları geyərək müqəddəs ibadətgahlara, çöllərə, çay kənarına, işlək alış-veriş mərkəzlərinə toplanırlar. Milli oyunlar oynanılır, ozanlar türkü və şeir deyişmələri göstərirlər. Novruz mərasimlərinə məktəb uşaqları da çiçəklərlə bəzənmiş taxtalara yazdıqları "novruznamələri" nəğmə ilə oxuyaraq qatılırlar. Mərasimin sonunda böyük qazanlarda hazırlanmış *Novruz aşı* birlikdə yeyilir.

Qədim türk adət-ənələrinin sistemli bir şəkli olan, üç min ildən artıq tarixi zamanda keçirilən Novruz bayramı mərasimlərinin həm də əksər Şərq xalqlarının universal bayramı sayıldığından ona beynəlxalq bayram statusu verilmişdir: Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 64-cü sesiyasının 2010-

cu il fevralın 23-də qəbul etdiyi qərara uyğun olaraq, hər ilin martın 21-i – *"Novruz beynəlxalq günü"* kimi təsdiq edilmişdir. Azərbaycanın Respublikasının təşəbbüsü ilə hazırlanmış qətnamə layihəsinə Əfqanıstan, İran, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Türkiyə, Albaniya, Hindistan və Makedoniya da qoşulmuşdur. Novruz bayramı YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına da daxil edilmişdir.



*Bakı. İçərişəhərdə "Novruz beynəlxalq günü" qeyd olunur*




*Türk xalqlarının birgə Ergenekon bayramını əks etdirən simvolik kollaj*

# MULTİKULTURALİZM ARXETİPLƏRİ

Türklərin tarixi həyatının erkən mərhələlərindən başlayarq, onların həm eynisoylu, həm də müxtəlif soylu etnoslarla təması və bu prosesdə həmişə birləşdirici mövqe əldə etməsi Avrasiyada türkmərkəzli siyasi birliklərin – tayfa ittifaqlarının, dövlətlərin və imperiyaların təşəkkülündə həlledici şərt olmuşdur. Məhz həmin konsentrasiya prosesində türk dünyasının multikulturalizm arxetipləri formalaşmağa başlamışdır.

Sonrakı tarixi dövrlərdə da Avrasiyanın ən əzəmətli imperiyalarını quran türklər hələ keçmiş zamanlarda təməlini qoyduqları multikulturalist reallıqdan çıxış etmiş, dövlət siyasətini monoetnik deyil, polietnik ideologiya üzərində həyata keçirmişlər. Bunu onlar ən optimal variant kimi qəbul etmişlər: onlar yaratdıqları dövlət və imperiyalarda ən müxtəlif sivilizasiyalara, siyasi-mədəni dəyərlərə malik olan etnosların vahid cəmiyyətini yaratmağı bacarmış, xüsusilə dövlət, ordu və mədəniyyət quruculuğunda heç bir etnik müstəsnalığa yol verməmiş, bütün millətlərin yaradıcı potensialından, ayrı-ayrı xalq, dil, din, əqidə və məzhəblərə mənsub insanların qabiliyyətlərindən maksimum faydalanmış, bu gün qloballaşan dünyada aktuallaşmış multikulturalizm arxitekturasının ilk kərpiclərini qoyub yüzilliklər boyu inkişaf etdirə-etdirə paralel sivilizasiyaların və milli mədəniyyətlərin bir yerdə yaşamasına tarixi imkanlar açmışlar. Belə bir optimal şəraitdə həmin sivilizasiya və mədəniyyətlərin orqanik inteqrasiyası mümkün olmuş, mədəni dəyərlər mübadiləsini intensiv formada həyata keçirə bilən universal mühit təşəkkül tapmışdır.

Avrasiya davamlı müharibə və konfliktlərin böyük tarixi-geopolitik arenasıdır. Buradakı amansız toqquşmalardan sağ çıxmaq, səpələnməmək, mütəşəkkil olmaq, eyni zamanda, çevrəsindəki xalqların birliyini yaratmaqla kontinental dominantlığa nail olmaq türklərə asan başa gəlməmişdir. Onlar həqiqətən bu ölüm-dirim mübarizəsində böyük hərbi güc, siyasi zəka, diplomatik səy nümayiş etdirmiş, beynəlxalq münasibətlərin bütün istiqamətləri üzrə hərəkət etməyi, dost və düşmən tərəflərlə sülh və müharibə dilində danışmağı bacarmışlar. Məhz onların birgə mübarizəsi nəticəsində Koreya yarımadasından Aralıq dənizinə qədər, Uraldan Hind çayına qədər Avrasiyanın onlarla dövlətini, yüzlərlə xalqını tarixi türk imperiyalarında birləşdirmək mümkün olmuşdur (309, s. 156, 278-279).



*İstanbul. Ayasofya (IV – VI əsrlər) xristian məbədi, müsəlman məscidi və muzey kimi*

Təbii ki, VII əsrdən Yaxın Şərqdə hökmranlığı ələ keçirmiş ərəb-islam xilafəti türklərin Avrasiya dominantlığı ilə barışmayacaqdı. Ancaq o, bu böyük qüvvəyə qarşı nə qədər müqavimət göstərsə də, önündə duruş gətirə bilməmişdir. Ərəb tarixçiləri, salnaməçiləri xüsusilə türk-monqol hərbi yürüşlərini “o zamana qədər baş vermiş fəlakətlərin ən dəhşətlisi” kimi qələmə almışlar. Qəribədir ki, bu mənbələrə istinad edən Avropa müəllifləri də (əsasən, K.Brokelman), demək olar ki, eyni qənaətlərə gəlir,

"türklərin pis iqtisadiyyatının əvvəllər çox inkişaf etmiş olan İran və Mesopotamiya mədəniyyətlərini qüvvətli bir şəkildə zərərə uğratdığını", bu "kültür məmləkətlərinin türk hökmdarlarının əlində bir oyuncaq halına gəldiyini" yazırlar (42, s.198-199). Lakin K.Brokelman sonrakı qənaətlərində bununla ziddiyyət təşkil edən mövqeyini ortaya qoyur, türk siyasi dominantlığının bu epoxada artıq tənəzzülə meyillənməyə başlayan islamı xilas etdiyini, onun "sağ əlinə çevrildiyini" bildirir (42, s.212-281) .

Türklərin hərbi-siyasi istedadı Asiya dövlətlərinin əksəriyyətini, həqiqətən, bir imperiya halına gətirsə də, reallıqda onların bir konfederasiyası şəklində mövcud olmuşdur. Türklər iranlı və mesopotamiyalıların mədəniyyəti ilə ayaqlaşan maddi-mənəvi mədəniyyətlərini və onlarınkından da üstün olan siyasi idarəetmə mədəniyyətlərini ortaya qoymuşlar. Türklərin multikulturalist siyasəti, tolerantlığı onlara imkan vermişdir ki, "türk və monqol dilləri genetik cəhətdən bağlılığa malik olmasa da", onlar mədəniyyətlərinin qarşılıqlı təması müstəvisində – konfederativ konsensusda – uzun bir dövr ərzində imperiya hökmranlığını apara bilsinlər (280, s.77-89). Tarixçi və siyasətçilər indiyə qədər bu tarixi fakt qar-



*Moğol hökmdarı I Böyük Əkbərin əsasını qoyduğu "Din-i İlahi". Burada bütün dinlərin nümayəndələri bir araya gəlirdilər. XVI əsrin miniatür təsviri*

şısında heyrətə gəlirlər: necə olub ki, hər birinin sayı təqribən 700 000 olan türklər və monqollar sayı onlarınkından qat-qat artıq olan, möhkəm dövlət əsaslarını yaratmış xalqlara qalib gələrək, onlar üzərində fövqəlhakimiyyətə yüksələ bilmişlər? Bu sualın, yəqin ki, bir məntiqli cavabı var: yalnız türklərin doğma və əcnəbi uluslar arasında fövqəladə dərəcədə güclü olan konsolidasiya yaratmaq qabiliyyəti nəticəsində belə uğur qazanılmışdır.

Ümumiyyətlə, türklər islam dünyasında siyasi dominantlıq əldə etdikdən sonra, artıq islam deyil, xilafət ideologiyası üzrə müəyyənlik tapan ərəb millətçiliyini də tədricən aradan qaldırmış, Yaxın və Orta Şərq xalqları arasında diskriminasiyaya son qoymuşlar. Əgər belə olmasaydı, nəhəng ərəb xilafətinə daxil olan çoxlu xalqlar və siyasi vassallar həmin xilafətin idarəçiliyini bütünlüklə ələ alan türklərin hökmranlığı altına belə asanlıqla keçməzdilər. Türklər artıq mühafizəkarlaşmış, teokratlaşmış ərəblərdən daha çevik siyasət yürüdə bildiklərindən, başqa millətlərin həyati maraqlarına uyğun idarəetmə sistemi, təsisatlar yaratdığından, milli mədəniyyətləri tolerant bərabərlik və rəqabət meydanına çıxardığından belə köklü transformasiya hadisəsi baş vermişdir. Maraqlıdır ki, türklər özü də siyasi-bürokratik üstünlüklərinə baxmayaraq, bundan sui-istifadə etməmiş, siyasət, dil və mədəniyyətlərin çulğaşması meydanında paritet əsaslarla iştirak etmişlər. Tarixi-mədəni proseslərin getdikcə mürəkkəbləşməsi və universallaşması stixiyasında türklər heç zaman özünü itirməmiş, həmişə özlərini səfərbər edərək, mədəniyyətlərini seçkinlik örnəyi kimi aparıcı mövqeyə qaldıra bilmişlər. Türk imperiyalarının dominantlığı dövründə, xüsusilə XI-XVII əsrlərdə ümumşərq intibahının və eyni zamanda, milli mədəniyyətlərin yüksəlişinin, onların qarşılıqlı münasibətlərindəki inkişafın ideya təminatı və başlıca səbəbi də budur.

Bir çox Avropa müəlliflərindən fərqli olaraq, türk tarixinə, onun yaratdığı universal tipli sivilizasiyanın möhtəşəmliyinə, türk öndərlərinin, xüsusilə Mustafa Kamal Atatürkün ümumdünya tarixindəki dönüşyaradıcı roluna həssaslıqla yanaşaraq böyük

önəm verən görkəmli ingilis tarixçisi və mütəfəkkiri Arnold Toynbi "klassik türk epoxasının" mahiyyətini dövrün ümumi mənzərəsi fonunda, həm də metaforik-müqayisəli tərzdə açaraq yazır: "İnsan üçün çöl praktiki olaraq dənizdir, fəqət quru torpağın dənizi. O torpağın ki, elə lap xristianlıq erasının XV əsrinədək sahilsiz şor dənizdən daha çox ünsiyyət üçün yararlı idi. Bu susuz dənizin – çölün quruda "üzən" öz gəmiləri, öz limanları vardı. Çölün avarlı qayıqları – dəvələr, yelkənli gəmiləri – atlar, limanları – karvansaraylar, aralıq limanları – vadilər, son məntəqələri – qum "dalğaları" çırpılan sahil-səhralardı... Okean dalğalarını şırımlayıb keçən yelkənli gəmilərin əvəzinə, burada düzənləri şırımlayıb süzən atlar ən müxtəlif məsafələrə hərəkətin əsas vasitəsi idi. Dünyada 1500-cü ilə qədər mövcud olan sivilizasiyalar onun – Türkün vasitəsilə bir-birinə əlaqə tapırdı, həm də bu əlaqələr elə kövrək idi ki, onları həqiqətən qırmaq istəmirdilər. Bax, belə bir dünyada Baburun Fərqanəsi (Babur ata yurdu Fərqanədən hərbi yürüşlərə başladığı 22 il müddətinə Hindistanı fəth edir və Böyük Moğol imperiyasının əsasını qoyur) – dünyanın mərkəzi idi, türklər isə Babur zamanında millətlər ailəsini birləşdirən soy idi. Dünyanın türkmərkəzli tarixi isə – artıq bizim zamanlarda qərbyönümlü böyük Osmanlı türkü, Türkiyə prezidenti Mustafa Kamal Atatürk tərəfindən yazıldı. Bu, öz həmvətənlərinin mənəvi ruhunu qaldırmağın parlaq nümunəsi idi, ondan daha çox əsl tarixi intuisiyanın parlaq örnəyi idi. Çünki xristianlıq erasının IV əsrindən – sonuncu hind-avropalıların bu çöllərdən qovulduğu çağlardan başlayaraq, ta Kiçik Asiya, İran və Hindistanda Osmanlı, Səfəvi və Moğol imperiyalarının – türk səltənətlərinin tənəzzülünə şahidlik edən XVII əsrə qədər türkdilli xalqlar, həqiqətən də, Asiya qövsünün məhək daşı idilər. Bu Asiya qövsü isə Vasko-de-Qama çağınadək özündə sivilizasiyalar qurşağını saxlayırdı. Quru ərazilərin müxtəlif sivilizasiyaları birləşdirən bu on iki əsrlik əlaqəsi türklərin çöl qüdrətinin nəzarəti altında idi. Və türklər özlərinin bu mərkəzi mövqeyindən... şərqə

və qərbə, şimala və cənuba, Mancuriya və Əlcəzairə, Ukrayna və Dekana yürüşlər edirdilər...” (150, s.72-73).

Arnold Toynbinin diqqət yönəltdiyi tarixi proseslərin əhəmiyyəti həm də bundadır ki, məhz həmin tarixi yaddaşa və ənənəyə əsaslanaraq, milli-mənəvi ruhu dirçəltməyə özlərində qüvvə taparaq, türklər XIX əsrin sonu – XX əsrin əvvəllərində bütün asiyalılarla birlikdə keçirdikləri böhranı aradan qaldırmağın yollarını onların hamısından öncə dərk etdilər və onların öncinahında gedərək Asiyanın özünütəsdiq hərəkatına başladılar. Asiyanın özünütəsdiq hərəkatının içində ən güclü istiqamət, həm də Asiya və Avropa sivilizasiyalarının ən müasir dəyərlərinə söykənən istiqamət məhz türklərin hərəkatı – türkçülük idi. Türklər bu tendensiya ilə bir daha sübut etdilər ki, onlar dar millətçilik çevrəsində qalan insanlar olmamış, müstəqil Asiya, eləcə də türk dövlətlərinin yaranması ilə Asiya – Avropa münasibətlərində ədalətli balansı yaratmağa və davam etdirməyə çalışmış, Avropa dəyərlərinin Asiya – türk cəmiyyətlərinə orqanik sintezindən qətiyyən çəkinməmiş, Avropanın da zəngin Asiya mədəniyyətlərindən üstün dəyərləri mənimsəməsinə heç bir əngəl görməmişlər.

Tarixən və bu gün multikulturalizm arenasında türk varlığının öz bütövlüyünü, dinamikliyini və çeşidli mədəniyyətlərlə orqanik təmasyaratma qabiliyyətini qoruması – onun bu qədər geniş ərazilərə yayılaraq milli dövlətlər qurmasına və türk milli mədəniyyətlərinin dixotomiyası istiqamətində zənginləşməsinə səbəb olmuşdur.

XX əsrin sonlarında dünyada baş verən və bilavasitə müstəqil türk dövlətlərinin yaranması ilə nəticələnən transformativ hadisələrin inkişaf məntiqi də göstərdi ki, Asiya – Avropa sivilizasiyalararası münasibətlərin “türk layihəsi” həm siyasi, həm ideoloji, həm də mədəni cəhətdən müasirliyin bütün keyfiyyətlərini, universallaşmanın bütün müsbət cəhətlərini, qloballaşmanın həm Asiya, həm də Avropa dövlətlərinə, xalqlarına



*Bakıda Şərq və Qərb memarlığının vəhdətini özündə əks etdirən tarixi binalar:*
*Opera və Balet Teatrı (1910) və AMEA-nın binası (1908-1913)*



fayda gətirəcək istiqamətlərini özündə ehtiva edən praqmatik multikulturalist tendensiyadır.

Təsadüfi deyil ki, suveren türk respublikalarından biri – Azərbaycan müasir dövrümüzdə qlobal multikulturalizm hərəkatını irəlilətmək təşəbbüsü ilə çıxış edir. Prezident İlham Əliyev Azərbaycanda multikulturalizm ənənələrinin qorunub saxlanması, daha da inkişaf etdirilməsi və geniş təbliğ olunması məqsədilə 2016-cı ilin Respublikada “Multikulturalizm ili” elan edilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda qeyd edilir ki, tarixi İpək yolu coğrafiyasında yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması müasir dövrdə res-




*BMT-nin VII Qlobal Forumunda*
*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı*



*Heydər Əliyev sarayında keçirilən VII Qlobal Forumdan fraqment*




*VII Qlobal Forumun açılışında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın çıxışı*

publikamızda gerçəkləşdirilən siyasətin tolerantlıq prinsiplərinə bu gün də sadiq qalmasının bariz nümunəsidir. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının Yeddinci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində keçirilməsi barədə qərar qəbul edilməsi dünya ölkələrinin Azərbaycandakı multikultural mühitə etimadlı münasibətinin real ifadəsidir.

Yüzilliklər öncə olduğu kimi və əlbəttə, daha konseptual və məqsədəyönlü oriyentasiyada bu gün də müstəqil türk respublikaları – çoxmillətli, çoxdilli, çoxmədəniyyətli, çoxkonfessiyalı ölkələr olaraq, qlobal sivilizasiyanın, ümumbəşəri dəyərlərin inkişafında mühüm rol oynayırlar.

# TÜRK PARLAMENTARİZM ƏNƏNƏLƏRİ

Qədim zamanlardan bu günümüzədək cəmiyyət və dövlət həyatında baş verən ictimai-siyasi transformasiya hadisələri dövlət idarəçilik institutlarının fəaliyyətində dərin məzmun dəyişikliyinə, o cümlədən, siyasi idarəetmədə iştirakçılıq dairəsinin davamlı olaraq genişlənməsinə səbəb olmuşdur. Bu proseslərin gedişində parlamentarizm ənənələrinin yaranması dövlətin idarə olunmasında bütün maraqlı tərəflərin iştirakını stimullaşdırmışdır. Eyni zamanda, bu ənənə dialoq və əməkdaşlıq mühitində mövcud fikir ayrılıqlarının fəal müzakirəsinə imkan yaratmış, siyasi idarəetmədə güclər arasında balans formalaşdırmışdır. Beləliklə, ilkin parlamentarizm prinsipləri sonrakı yüzilliklər boyu özünün təkamül prosesində müxtəlif istiqamətli siyasi-ideoloji baxışların formalaşması üçün təməl rolu oynamışdır.

Proto-parlamentar quruluşlara hələ eramızdan əvvəl qədim Yunanıstanda, Romada, Mesopotamiyada rast gəlmək mümkündür. Həmin quruluşlar birbaşa xalq tərəfindən seçilməsə də, siyasi hakimiyyətdə məsuliyyətli idarəetmə təcrübəsinin formalaşmasına yol açmışdır. Daha sonrakı dövrlərdə bu təsisatlar təkmilləşmiş idarəetmə institutları kimi hakimiyyət bölgüsündə siyasi mövqelərini gücləndirmişlər. 930-cu ildə İslandiyada yaradılmış Altinq (Ümumi Yığıncaq), 1215-ci ildə İngiltərədə Böyük Azadlıq Xartiyasının (Magna Carta) qəbul edilməsindən sonra yaranan Parlament, 1278-ci ildə Fransada təsis olunmuş Paris Parlamenti kral hakimiyyətinin məhdudlaşdırılmasında önəmli rol oynayaraq dar miqyasda da olsa, demokratiya ideyalarının yayılmasına və təşəkkül tapmasına səbəb olmuşdur.

Həmin dövrlərdə dövlət idarəetməsi ilə əlaqədar baş verən transformativ dəyişikliklər təkcə Avropa məkanı ilə məhdudlaşmamışdır. İctimai-siyasi yaşamında passionarlığı ilə seçilən türklər də təkcə zəngin mədəni irsi ilə deyil, eyni zamanda, qədim dövlətçilik tarixləri ilə Avrasiya məkanının böyük bir hissəsində dərin tarixi iz qoymağı bacarmışlar. Yuxarıda qeyd olunan təsisatlara oxşar, bəzi hallarda onların fəaliyyət və təsir dairəsindən daha geniş olan strukturlara qədim və orta əsr türk dövlətlərində də rast gəlmək mümkündür. Qədim türk dövlətçilik tarixində mühüm ictimai-siyasi təsir imkanlarına malik olan "Gənəşək" həmin təsisatların bizə məlum olan ən ilkin nümunəsidir. "Gənəşək" – müasir Azərbaycan türkcəsində və bir sıra türk dillərində işlədilən söz olmaqla, "gənəşmək" felindən yaranmışdır. Bu günümüzdə də "məsləhətləşmək, müzakirə açmaq, çözümü daha geniş arenaya çıxararaq ümumi, yekdil rəyə gəlmək" mənasında işlədilir. Klassik türk dövlətçiliyinin formalaşdırdığı bir dəyər kimi bu təsisat siyasi idarəetmədə kollektivçiliyi, toplumsal iştirakı təşviq edirdi. Kağanlar bir çox qərarları ali hakimiyyət səviyyəsində Gənəşək (məşvərət) keçirdikdən sonra qəbul edirdilər. Göründüyü kimi, böyük imperiyalar yaratmış və idarə etmiş türk hökmdarları da öz iradələrini mütləqiyyətçilik əsasında həyata keçirən tiranlar kimi çıxış etmir, əksinə, idarəetmə işlərində bir qayda olaraq gənəşəyə üstünlük verirdilər. Bu isə qəbul olunmuş qərarların praqmatikliyini təmin edir, məsuliyyətli idarəetmə ənənəsini formalaşdırır və türk dövlətçiliyini inkişaf etdirirdi.

Tarixi mənbələrdə türk dövlət məclisləri barədə ilkin məlumatlar Böyük Hun imperiyası dönəminə təsadüf edir. Həmin dövr üçün kifayət qədər mükəmməl idarəetmə sisteminə malik olan Böyük Hun imperiyasında dövlət əhəmiyyətli bütün məsələlər Qurultaylarda ("Kurultay") müzakirə olunurdu. Qurultaylar kağan tərəfindən hər il üç dəfə çağırılırdı. Yeni hökmdarın seçilməsi də həmin Qurultaylarda həyata keçirilirdi. Bu yığıncaqlara şahzadələrlə yanaşı, imperiyanın nüfuzlu şəxsləri, hərbi

və mülki vəzifə sahibləri, ağsaqqallar da qatılırdı. Gənəşəyin sosial modeli kimi çıxış edən Qurultaylar eyni zamanda mülki problemləri araşdıran təsisat funksiyasını yerinə yetirirdi. Türklərin ictimai, siyasi, mənəvi həyatının universal nizamını yaradan, adət, ənənə və davranışlar toplusu olan "Törə" üç əsas mənbədən – xalqdan, qurultaydan və kağandan qaynaqlanırdı. Törəyə əsasən Qurultay çağırmaq kağanın əsas vəzifələrindən biri hesab olunurdu. Hunlar və Göytürklər dönəmində Qurultayın qanunvericilik səlahiyyətləri o qədər güclü idi ki, kağan tərəfindən qəbul olunan qərarlar yalnız Qurultayın razılığı ilə qüvvəyə minirdi. Şübhəsiz ki, mühüm siyasi qərarların hökmdar tərəfindən təkbaşına deyil, tədbirli dövlət adamlarının iştirakı ilə ortaq bir strategiya müəyyənləşdirilməsindən sonra qəbul olunması əski türklərin geniş bir regionda geopolitik nüfuz qazanmasına və qüdrətli dövlətlər qura bilməsinə zəmin yaratmışdır.

Cəsarətli qərarları ilə Avrasiya tarixinin sonrakı gedişinə yön vermiş, əcdadı Çingiz xandan sonra Avrasiyada ən böyük əraziləri fəth etmiş Əmir Teymurun (Teymur-Ləngin) müasir anlamda parlamenti və hərbi şuranı əvəz edən Gənəşəyi var idi. Tarixdən məlumdur ki, dövlət və ordu rəhbərləri "Gənəşək"də toplaşıb müzakirələr aparır, məsləhətləşir, son qərarı qəbul etmək üçün hökmdara müvafiq tövsiyyələrini verirdilər. Qədim türk dövlət məclislərindən biri də "Toy" adlanırdı. "Kitabi-Dədə Qorqud" dastanında da bəhs olunan "Toy" oğuz türklərinin önəmli siyasi, hərbi, inzibati məsələləri müzakirə etdiyi bir toplantı idi. Oxşar funksiyaları həyata keçirən təsisatlar sonrakı dövrlərdə "Seçilənlər Məclisi", "İxtiyarlar Məclisi", "Məşvərətçi Şura", "Divani-Humayun" adı altında türk dövlətlərində siyasi hakimiyyətin aparıcı elementləri olmuşlar. Məsələn, orta əsr türk dövlətlərindən olan Ağqoyunlu dövlətində mühüm ictimai-siyasi məsələlər sarayda fəaliyyət göstərən Böyük Divanda müzakirə edilir və yekun qərar qəbul edilirdi. Osmanlı imperiyasında parlament tipli ilk məclis kimi tanınan "Məclisi-Ümumi" 1877-ci ildə fəaliyyətə başlamışdı.

İctimai-siyasi müzakirələrin aparıldığı platforma kimi çıxış edən bu təsisatlar türk insanının sosiallaşmasında, dövlət idarəetmə təcrübəsinin zənginləşməsində əvəzsiz rol oynamışdır. Bir sözlə, həmin toplumsal qurumlar sosial-siyasi düşüncə sisteminə həlledici təsir göstərərək, türklərin ictimai yaşam tərzinin tərkib hissəsinə çevrilmişdir. Həmin quruluşlar müasir anlamda bütün demokratik xüsusiyyətləri özündə cəmləşdirməsə də, hələ o zamanlarda türklərin şüurunda, dövlət idarəçilik təcrübəsində demokratik dəyərlərin üstün yer tutduğunu göstərir.

Yüzilliklər boyu davam edən bu ənənələr türklərin XX əsrin əvvəllərində demokratik, hüquqi dövlət quruculuğu istiqamətində səylərinə mənəvi güc vermişdir. Milli cümhuriyyətimiz qurulmazdan öncə, hələ 1906-cı ildə Əlimərdan bəy Topçubaşov, İsmayıl xan Ziyadxanov, Əbdürrəhim bəy Haqverdiyev kimi tanınmış Azərbaycan ziyalıları Çar Rusiyasının ilk parlamentinə – Birinci Dövlət Dumasına seçilmiş və bu qurumda Azərbaycan xalqının milli-mədəni hüquq və azadlıqları uğrunda mübarizə aparmışlar. Bu görkəmli şəxsiyyətlərin əldə etdikləri parlamentizm təcrübəsi, universal dəyərlər, müasir parlament mədəniyyəti barədə müfəssəl bilikləri az sonra yaranacaq milli parlamentimizin həmin təcrübə və dəyərlər əsasında fəaliyyətinə imkan yaratmışdı.

Şərqdə ilk parlamentli respublika kimi tanınan Azərbaycan Xalq Cümhuriyyətinin qurulması türk dövlətçilik tarixinin önəmli siyasi hadisəsi olmaqla, türk parlamentizmi ənənələrini daha da zənginləşdirmişdir. Zaqafqaziya Seyminin Müsəlman Fraksiyasında təmsil olunan azərbaycanlı üzvlər 1918-ci ilin 28 may tarixində keçirilmiş iclasda Azərbaycanın müstəqilliyini elan etdilər. Zaqafqaziya Müsəlman Şurası özünü Azərbaycan Milli Şurası adlandırdı və növbəti gün Məhəmməd Əmin Rəsulzadənin rəhbərliyi ilə keçirilən Milli Şuranın tarixi iclasında Azərbaycanın İstiqlal Bəyannaməsi qəbul edildi. Beləliklə, dünyanın türk coğrafiyasında ilk parlamentli respublikanın bünövrəsi qoyuldu. Mürəkkəb daxili və beynəlxalq şəraitdə yaranan və fəaliyyət

göstərən milli parlamentimiz qısa müddət ərzində demokratik Cümhuriyyətin zəngin qanunvericilik bazasını formalaşdırdı. Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq səviyyədə tanınması istiqamətində milli parlamentımız tərəfindən ciddi səylər göstərildi. Azərbaycan Xalq Cümhuriyyəti bolşevik Rusiyasının hərbi müdaxiləsi nəticəsində süquta uğrasa da, bu müddət ərzində dövlətçilik və parlamentarizm ənənələrimizi daha da zənginləşdirdi, müsəlman Şərqində müasir parlament mədəniyyətinin özülünü yaratdı, xalqımızın azadlıq hərəkatı tarixində silinməz izlər qoydu.

Orta Asiya və Çar Rusiyası ərazisində yaşayan türk xalqları da milli-mədəni müstəqillik hüquqları uğrunda davamlı mübarizələrini məhz parlamentarizm prinsipləri əsasında qururdular. 1905-ci ildə Daşkənddə təsis olunmuş özbək, tatar, qazax, qırğız, türkmən və başqırd fəallarının təmsil olunduğu Türküstan Müsəlmanları Konqresi türk xalqlarının hüquq və azadlıqlarının təmin edilməsi, onların mədəniyyətinin qorunması istiqamətində mühüm işlər görmüşdür. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün səyi ilə 1920-ci ildən fəaliyyətə başlayan Türkiyə Böyük Millət Məclisi (TBMM) Osmanlı imperiyasının süqutundan sonra regionda yaranmış mürəkkəb geostrateji vəziyyətdə türk millətinin və dövlətinin bütövlüyünün, suverenliyinin təmin edilməsində önəmli addımlar atmışdır.

Sovet İttifaqı dönəmində qanunvericilik səlahiyyətlərini Ali Sovet adlı qurum həyata keçirirdi. Azərbaycan SSR-lə yanaşı, Mərkəzi Asiyanın türk dövlətlərində də fəaliyyət göstərən həmin qurumlar dövrün ideoloji məqsədlərinə xidmət etsə də, parlamentarizm tariximizin bir hissəsidir.

Suverenliyimizin böyük təhlükələrlə üzləşdiyi dönəmdə siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanın Ali Sovetinə sədr seçilməsi Azərbaycan parlamentarizmi tarixində keyfiyyətcə yeni dönəmi başlatdı. Məhz bu dövrdən sonra ölkə parlamenti xaotik siyasi məkan görüntüsündən uzaqlaşaraq sağlam müzakirələrin aparıldığı, ölkə-

nin ictimai-siyasi, sosial-iqtisadi həyatına dair önəmli qanun layihələrinin qəbul olunduğu ali qanunverici orqana çevrildi.

Bu gün dövlət hakimiyyətinin aparıcı qollarından biri kimi, Azərbaycan Respublikasının Milli Məclisi hüquqi dövlət quruculuğu və milli dövlətçiliyimizin möhkəmləndirilməsi üzrə fəaliyyətini uğurla davam etdirir. Müasir parlamentarizm prinsipləri əsasında fəaliyyət göstərən Milli Məclis dövlətimizin beynəlxalq miqyasda mövqelərinin güclənməsi və parlamentlərarası əlaqələrin dərinləşdirilməsi istiqamətində önəmli nailiyyətlərə imza atmaqdadır. Hazırda, Azərbaycan Respublikasının Milli Məclisi Parlamentlərarası İttifaqın, Avropa Şurası Parlament Assambleyasının, ATƏT Parlament Assambleyasının, MDB Parlament Assambleyasının, Qara Dəniz İqtisadi Əməkdaşlığı Təşkilatı Parlament Assambleyasının, GUAM Parlament Assambleyasının, Avronest Parlament Assambleyasının, İslam Konfransı Təşkilatı Parlament Məclisinin tamhüquqlu üzvüdür. Bu kimi beynəlxalq parlamentar qurumlar dünya parlamentizmi təcrübəsinin öyrənilməsi və paylaşılması, eyni zamanda, milli maraqlarımızın beynəlxalq səviyyədə müdafiə olunması baxımından əhəmiyyətli siyasi platformaya çevrilmişlər.

Hazırda, türk respublikalarında və muxtar qurumlarında fəaliyyət göstərən parlamentlər müasir türk parlamentarizminin dəyərli siyasi nümunələridir. 125 nəfərlik Azərbaycan Respublikasının Milli Məclisi, 550 nəfərlik Türkiyə Böyük Millət Məclisi (TBMM), 2 palatadan və 154 üzvdən ibarət olan Qazaxıstan Parlamenti, 120 üzvdən ibarət Qırğızıstan Ali Şurası (Joqorku Keneş), 250 nəfər üzvü olan iki palatalı Özbəkistan Ali Məclisi, 125 üzvdən ibarət Türkmənistan Məclisi müstəqil türk dövlətlərinin qanunvericilik səlahiyyətlərini qabaqcıl beynəlxalq təcrübə əsasında həyata keçirir, hökumətlərin formalaşmasını və onların fəaliyyətinə nəzarəti təmin edirlər. Həmin orqanların fəaliyyətində türk dövlətləri arasında qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və ortaq maraqların beynəlxalq müstəvidə müdafiə olunması xüsusi yer tutur.

Çoxşaxəli əməkdaşlığın dayanıqlı platforması kimi çıxış edən ümumtürk qurumları suveren türk respublikaları arasında münasibətlərin strateji müttəfiqlik səviyyəsinə yüksəldilməsində önəmli rol oynayırlar. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, TÜRKSOY, Türk İşbirliyi və Koordinasiyası Agentliyi kimi təşkilatlar ictimai-siyasi sferadan mədəni, ortaq tarixi dəyərlərin tanıtımına qədər geniş diapazonlu fəaliyyəti ilə dərin əməkdaşlığın əsasını formalaşdırırlar.

Bu qurumlardan biri də getdikcə öz fəaliyyətini gücləndirməkdə olan Türkdilli Dövlətlərin Parlament Assambleyasıdır (TÜRKPA). Türk parlamentarizminin dəyərli siyasi nümunəsi olan TÜRKPA 21 noyabr 2008-ci ildə İstanbul şəhərində "Dolmabaxça Sarayı" nda Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə Respublikalarının parlament rəhbərlərinin imzaladığı Sazişlə təsis olunmuşdur. TÜRKPA-nın təsis sənədlərində qeyd olunduğu kimi, qurumun əsas məqsədi parlamentlərarası əməkdaşlığın keyfiyyətcə yeni mərhələsi hesab olunan parlament diplomatiyası vasitəsilə türk respublikaları arasında siyasi dialoqun daha da inkişaf etdirilməsini və türk dövlətlərinin yaxınlaşmasını təmin etməkdən ibarətdir. Tarix, mədəniyyət və dil ümumiliyinə əsaslanaraq, türkdilli ölkələr və digər regional siyasi subyektlər arasında faydalı və bərabərhüquqlu əməkdaşlığı təşviq etmək, tərəfdaş ölkələrin qanunvericiliklərinin təkmilləşdirilməsi istiqamətində məsləhətləşmələr aparmaq TÜRKPA-nın əsas fəaliyyət istiqamətləridir. O cümlədən, mədəni irsin, tarix, incəsənət, ədəbiyyat və digər sahələrdə ümumtürk dəyərlərinin qorunmasına və gələcək nəsillərə ötürülməsinə yönəlmiş fəaliyyətləri dəstəkləmək, TÜRKPA üzvü olan ölkələrin qanunvericiliklərinin uyğunlaşdırılması üzrə tövsiyələr vermək və tərəflər arasında siyasi, sosial-iqtisadi, mədəni, humanitar, hüquqi və digər sahələrdə əlaqələri dərinləşdirmək də TÜRKPA-nın fəaliyyət çərçivəsinə daxildir. Digər tərəfdaş ölkələrin parlamentləri və beynəlxalq təşkilatlarla yeni əlaqələrin qurulması və mövcud münasibətlərin inkişaf etdirilməsi TÜRKPA-nın fəaliyyətində

mühüm yer tutur. Bu gün artıq TÜRKPA Parlamentlərarası İttifaqın, İslam Konfransı Təşkilatının Parlament İttifaqının müşahidəçilik statusuna malik tam hüquqlu üzvü kimi önəmli beynəlxalq struktura çevrilməkdədir. 2008-ci ildə bağlanmış TÜRKPA haqqında İstanbul Sazişi, 2009 və 2011-ci illərdə qəbul olunmuş TÜRKPA-nın Bakı və Astana Bəyannamələri, 2011-ci ildə İstanbul Sazişinə əlavə və dəyişikliklər edilməsi ilə bağlı imzalanmış Protokol, hər il keçirilən plenar sessiyalar TÜRKPA-nın son 8 ildə zəngin hüquqi bazasının və qarşılıqlı əməkdaşlıq mexanizminin formalaşdığını göstərir.

Bu günkü siyasi gerçəkliklər şəraitində qlobal müstəvidə təsirli siyasi mövqe formalaşdırmağın əsas yolu etibarlı müttəfiqlik yaratmaqdan, dəyişkən geopolitik situasiyalarda ortaq maraqların zədələnməsinə imkan verməməkdən keçir. Xüsusilə regionumuzda baş verən mürəkkəb geosiyasi proseslər türk respublikalarını daha çevik diplomatik gedişlərlə siyasi, iqtisadi, mədəni maraqların və dəyərlərin qorunmasına yönələn ortaq strategiya qurmağa sövq edir. Bu çərçivədə türk dövlətləri ikitərəfli və çoxtərəfli əməkdaşlığı beynəlxalq müstəviyə yüksəltmək istiqamətində önəmli addımlar atmışlar.

22 dekabr 2016-cı ildə Türkiyə, Qazaxıstan və Qırğızıstan parlamentlərinin sədrləri ilə Bakıda görüşən Prezident İlham Əliyev TÜRKPA-nın fəaliyyətinə daim yüksək qiymət vermiş, bu qurumun türk respublikaları arasında diplomatik, mədəni, parlamentar əməkdaşlığa verdiyi töhfəni vurğulamışdır: "Türkdilli ölkələr həm ikitərəfli, həm çoxtərəfli formatda, həm də BMT, İƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edir, qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi üçün səylər göstərir, hansısa türkdilli ölkənin təmsil olunmadığı beynəlxalq təşkilatda digər türkdilli dövlət onun mövqeyini dəstəkləyir və həmrəylik nümayiş etdirir". Türk dövlətləri tərəfindən belə bir universal strateji platformanın müəyyənləşməsi müasir dövrümüzdə olduqca əhəmiyyətlidir. Ümumtürk coğrafiyasına getdikcə artan geopolitik maraq, türk respublikalarının üzləşdiyi regional və qlobal

təhdidlər, türk dövlətlərinin sərhədləri ətrafında mövcud münaqişə ocaqları bu əməkdaşlığın daha praqmatik məzmun və keyfiyyət almasına zərurət yaratmışdır. Bu baxımdan, digər ümumtürk strukturları kimi, parlamentlərarası platforma funksiyasında çıxış edən TÜRKPA-nın da malik olduğu vasitələrdən daha səmərəli şəkildə istifadəyə ehtiyac vardır.

2016-cı ilin 22 dekabrında Bakıda TÜRKPA Katibliyinin mənzil qərargahının açılışı bu qurumun və eləcə də ölkəmizin tarixində əlamətdar hadisədir. Açılış tədbirində Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov, Türkiyə Böyük Millət Məclisinin spikeri İsmayıl Kahraman, Qazaxıstan Parlamenti Məclisinin və TÜRKPA-nın fəaliyyətdə olan sədri Nurlan Niqmatulin və Qırğızıstan Joqorku Keneşinin (Ali Şurasının) sədri Çınıbay Tursunbekovun iştirakı türk respublikaları arasında parlamentar əməkdaşlığın yüksək səviyyədə olduğunun göstəricisidir. Bu fakt həm də Azərbaycanın və onun paytaxtının ümumtürk coğrafiyasında vacib siyasi mərkəzə çevrildiyini göstərir.

Türk respublikalarının parlamentləri arasında əməkdaşlığın unikal platforması olan TÜRKPA – parlamentar qurumlarla əlaqələrin genişləndirilməsinə yönəlmiş sistemli fəaliyyəti ilə yanaşı, türk coğrafiyasında vətəndaş cəmiyyəti institutları arasında səmərəli dialoqun aparılmasına da öz töhfəsini verir. TÜRKPA tərəfindən müntəzəm olaraq ictimai, siyasi, mədəni mövzulara dair təşkil olunan tədbirlər, konfranslar, müxtəlif formatlı ictimai müzakirələr bu təşkilatın fəaliyyət çərçivəsinin yalnız parlamentlərarası əməkdaşlıqla məhdudlaşmadığını göstərir. Eyni zamanda, TÜRKPA regionda və dünyada sülhün, sabitliyin, universal dəyərlərin qorunmasını daim diqqət mərkəzində saxlayaraq, qlobal müstəvidə mədəniyyətlərarası və dinlərarası dialoqun intensivləşməsinə də davamlı dəstəyini göstərir.

Türk parlamentarizmi tarixində yeni səhifə açan TÜRKPA gənc regional təşkilat olmasına baxmayaraq, türk dövlətlərinin milli maraqlarının və türk xalqlarının ortaq dəyərlərinin beynəl-

xalq müstəvidə qorunması və təbliği missiyasını uğurla həyata keçirməkdədir. Türk respublikaları tərəfindən fəaliyyətinə verilən hərtərəfli dəstək nəticəsində TÜRKPA – parlamentlərarası əməkdaşlığın daha da dərinləşdirilməsinə və türk parlamentarizmi təcrübəsinin daha da zənginləşməsinə yol açacaq, Türk Dövlətləri Birliyi siyasətinin əsas dayaqlarından biri olacaqdır.

# TÜRKLƏR VƏ MÜASİR DÜNYA

Müasir dünyanın siyasi xəritəsinə diqqətlə baxdıqda, Mərkəzi Asiya, Cənubi Qafqaz və Kiçik Asiyada yerləşən bütün türk respublikalarının, əslində, üç geopolitik traktı birləşdirdiyini görürük: Avrasiya boyunca türk dövlətlərindən birinin ərazisi qurtardığı yerdə o birinin ərazisi başlayır. Məhz belə bir üçtərkibli geopolitik sistemə malik olan türk respublikaları digər dövlətlərin tərkibində yaşayan türk toplumları, qeyri-dövlət quruluşları ilə birlikdə Avrasiyanın ən böyük ərazisini tutur. Yəni yer kürəsinin elə bir eynisoylu superetnosu yoxdur ki, tarixdə olduğu kimi, bu gün də türklər qədər vahid kontinentin ən geniş və həmsərhəd ərazilərində kompakt halda məskunlaşsın.




*Türklərin suveren respublikaları,*
*muxtar qurumları və toplumlarının ümumi yerləşimi*

Deməli, türk xalqları həqiqətən Avrasiyanın etnocoğrafiyasının mühüm subyekti olaraq, mövcud ərazi, əhali və iqtisadi potensialı, sosial və siyasi perspektivi ilə özünün kompakt məskunlaşma vəziyyətini kontinental bütövləşmə durumuna gətirmək üçün bütün gerçək imkanlara malikdirlər. Əgər müasir tarixin hüdudları daxilində XX əsrin son onilliyinə qədər yer üzündə yalnız bircə müstəqil türk dövləti (Türkiyə) var idisə, indi 7 suveren türk dövləti dünyanın siyasi xəritəsində yer alır. Başqa ölkələrin ərazisində kompakt yaşayan, xüsusilə müəyyən muxtariyyət statusuna malik olan türk kökənli xalqlar da həmin müstəqil türk dövlətlərinə baxıb, özlərini böyük türk dünyasının yeniləşən orbitində, vahid bir hərəkət mehvərində görürlər.

Lakin bu təbii-tarixi təkamül prosesinin asanlıqla getməyəcəyi məlumdur. Çünki dünyanın hegemonluq iddiasından əl çəkməyən qüvvələri Avrasiyanın mərkəzində möhkəmlənməkdə qərarlıdırlar. Bura isə ucsuz-bucaqsız türk dünyasının yurdudur. Deməli, onun siyasi taleyi də türk dövlətləri və xalqlarının əlindədir. Avrasiyanı yenidən öz tabeliyinə salmaq istəyən, buradakı geopolitik ziddiyyətləri aradan qaldırmağa yox, daha da kəskinləşdirməyə xidmət edən Avrasiya İttifaqı layihəsinin perspektivi isə Rusiyanın yeni



*Türk dövlətlərinin bayraqları*

imperiyaçılıq məqsədlərinə fokuslaşdığı üçün kifayət qədər şübhəli, riskli və təhlükəlidir. Avropa İttifaqının da indiki inersiya ilə, təbii ki, Çinədək "genişlənməsi" və əks ssenaridə Çinin Avropayadək "genişlənməsi" də mümkünsüz görünür. Deməli, Avrasiyadakı "geopolitik boşluğa" determinant olan proseslər müxtəlif tendensiyaların təsiri altında regiondakı qüvvələrin birləşməsinə deyil, parçalanmasına doğru aparır. Bu mürəkkəb vəziyyətdən daha çox yararlanan, böyük ehtimalla, Avrasiya kontinentindən çox uzaqda – planetin şərq yox, qərb yarımkürəsində yerləşən Amerika Birləşmiş Ştatları ola bilər. Lakin ABŞ-ın Avrasiya dominantlığının (eyni zamanda, Rusiya amilinin mövcud olduğu təqdirdə) Çindən Avropa İttifaqınadək region dövlətləri üçün yararlı olduğunu, onun burada hərbi bazalar yaratmasının, prosesləri öz idarəsi altına salmasının, ölkə iqtisadiyyatları və təbii ehtiyatları üzərində nəzarəti ələ keçirməsinin Rusiya hökmranlığından daha pozitiv olduğunu fərz etmək belə mümkün deyil. Əksinə, Yaxın Şərqin neft-qaz ehtiyatları Qərb tərəfindən tükəndiriləndən sonra, oradakı "konfliktlərlə idarəetmə" metodu əsasında həyata keçirilən siyasət yeni savaş meydanı Yaxın Şərqdən sonra dünyanın ikinci ən böyük təbii ehtiyatlar regionu olan Avrasiyanın mərkəz zolağına keçirilə bilər. Bu regionda isə, əsasən, türk dövlətləri yerləşir. Müstəqil türk dövlətlərinin buna imkan yaratması – nəinki onların inkişafına, hətta mövcudluğuna təhlükədir. Deməli, beynəlxalq siyasətin Avrasiyada cərəyan edən prosesləri – bu regionda (1) kənar qüvvələrin müdaxiləsini, (2) hər hansı bir dövlətin mütləq üstünlüyünü, (3) bölgə dövlətlərinin konflikt zolağına salınmasını istisna etməlidir. ***Deməli, region dövlətləri arasında həmrəyliyin güclənməsi və onların geopolitik katastrofa aparan üç təhlükəli və zərərgətirici tendensiyanın heç birinə imkan verməməsi şərtləri daxilində bu gün türk dünyasının birlik mövqeyini beynəlxalq siyasətdə möhkəmləndirən müttəfiqlik proseslərinin dərinləşdirilməsi – onun yeganə perspektividir.***

Böyük dövlətçilik və sosial quruculuq təcrübəsi olan, lakin təqribən son 200 ildə müəyyən siyasi oriyentasiyaların itirilməsi səbəbindən tarixin həm də neqativ təcrübələrini görmüş yeddi müstəqil türk respublikası – Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Şimali Kipr Türk Respublikası ikinci minilliyin sonu – üçüncü minilliyin əvvəlində yenidən böyük siyasət meydanına birgə daxil olmağın yeganə yolunu aydınca dərk edərək və ən yüksək siyasi səviyyədə münasibətlərini qurmağa başlayaraq, iqtisadi-mədəni əməkdaşlığın bütün sahələrini genişləndirirlər. Vaxtilə müstəqil dövlətləri olmuş, hətta uyğurlar kimi imperiya yaratmış, hazırda isə digər dövlətlərin tərkibində yaşayan və milli birliklərini, muxtar qurumlarını təşkil edən türksoylu toplumlar da həmin münasibət və əməkdaşlığın bütün mümkün səviyyələrində bu prosesə qoşulmaq imkanları əldə edirlər. Artıq aydındır ki, türk dövlətlərinin müttəfiqləşməsi prosesi labüddür və nə qədər cəhd edilsə də, onu geriyə döndərmək, əngəlləmək, pozmaq tarixin məntiqini dəyişmək dərəcəsində qeyri-mümkündür.

Müasir dövrdə Avrasiyanın siyasi inkişafı onun kökündən yeniləşməsinə doğru – bu məkanda müstəqil və güclü siyasət yeridən türk dövlətlərinin sarsılmaz birlik yaratmasına, ən yaxın tarixə qədər bu məkanda birbaşa və dolayı müstəmləkəçiliklə hökmranlıq etmiş qüvvələrin onların daxili işlərinə qarışmasına yol verilməməsinə, Avrasiyanın sülh, təhlükəsizlik, sabitlik və davamlı inkişaf regionuna çevrilməsinə doğru gedir. Bu proses – qarşısıalınmaz tendensiyaya, yeni və mütərəqqi geopolitik strukturlaşmaya yol açdığına görə beynəlxalq siyasətin də əsaslı transformasiyası deməkdir.

Bu gün türklər dünyanın bütün xalqları və dövlətləri ilə sıx əməkdaşlıq yolunu tutur, beynəlxalq münasibətlər sisteminin inkişafında həm müstəqil siyasi subyekt olaraq, həm də birlikdə vahid platformadan çıxış etməklə mühüm rol oynayırlar və bu tendensiya getdikcə gücləndirilə bilər. Müasir dünyada iqtisadiyyatın, ticarətin, sənayenin, yeni texnologiyaların, elm, təhsil və

mədəniyyətin tərəqqisində, pozitiv liberallaşma və qloballaşma tendensiyalarının güclənməsində, regional və lokal konfliktlərin aradan qaldırılmasında, xüsusilə Yaxın və Orta Şərqdə təhlükəli münaqişələrə son qoyulması təşəbbüslərində türklərin əhəmiyyətli mövqeyi artmaqda davam edir.

Əlbəttə, milli və beynəlxalq maraqların uzlaşması şərtləri çərçivəsində regional və qlobal problemlərin həllinə səy göstərməklə beynəlxalq həyatın qaynar mühitində fəal iştirak etmək, konsensusyaradıcı mövqe sərgiləmək çox vacibdir. Yalnız belə məqsədəyönlü addımların getdikcə qətiləşməsi ilə yenicə müstəqillik əldə etmiş türk respublikalarının qardaşlıq münasibətlərinin yaradılmasında böyük səy göstərən Türkiyənin sabiq prezidenti Turqut Özalın 1992-ci ildə söylədiyi "İyirmi birinci əsr – Türk Əsri olacaqdır" uzaqgörənliyi öz təsdiqini tapa bilər. Hələ o vaxtlar Turqut Özalın bu nikbin və cəsarətli siyasi




*Müasir Avrasiyanın siyasi xəritəsində türk respublikalarının geopolitik məkanı*

paradiqmasına münasibət bildirən şərhçilər burada təkcə Türkiyənin deyil, türksoylu dövlətlərin nəzərdə tutulduğunu və bu fikrin obyektiv qənaətlərə söykəndiyini anlatmışdılar.

Müasir dünyada baş verən hazırkı proseslərin ümumi tendensiyası da göstərir ki, beynəlxalq sistemi təşkil edən dövlətlərin qlobal siyasi, iqtisadi, mədəni məkanda, geniş əməkdaşlıq şərtləri daxilində strukturlaşması onların sivilizasiya identikliyini, milli-tarixi inkişaf ənənələrini ciddi şəkildə özündə ehtiva edən praqmatik ideya layihələrinin gerçəkləşməsi ilə mümkündür. Ona görə türk milli dövlətləri və xalqları da artıq əsası qoyulmuş vahid siyasət və mədəniyyət platforması ilə hərəkət edərək, bu strateji istiqamətdə öz maraq və mənafelərini uzlaşdırmağı bacarmalı və özlərinin koordinasiya olunmuş birlik strategiyasını müasir dünya inkişafının aparıcı tendensiyalarından birinə çevirməlidirlər.

Müasir dünyanın geopolitik miqyasına görə ən böyük parçasının – türk dünyasının bu gün çatmalı olduğu real bir məqsəd var: Avrasiyadakı tarixi Vətəninin heç kimə yox, məhz türklərə məxsus olduğunu sübut etmək – qlobal inteqrasiyanın türkmərkəzli Avrasiya modelini yaratmaq.

# QAYNAQLAR

## Azərbaycan dilində


1. "Azərbaycan" qəzeti, 25 may, 1990
2. Azərbaycan ədəbiyyatı tarixi, VI cilddə. Bakı: Elm, 2004-2007
3. Azərbaycan Xalq Cümhuriyyəti. Bakı: Elm, 1998
4. Azərbaycan tarixi, VIII cilddə. Bakı: Elm, 1998-2003
5. Bayat F. Oğuz epik ənənəsi və "Oğuz Kağan" dastanı. Bakı: Sabah, 1993
6. Bayramqızı Ə. Türk xalqlarının ortaq Yeni Gün bayramı // Xalq qəzeti, 21 mart, 2009
7. Bəydili C. Türk mifoloji obrazlar sistemi: struktur və funksiya. Bakı: Mütərcim, 2007
8. Cəfərov N. Seçilmiş əsərləri. V cilddə, III c. Bakı: Elm 2007
9. Ələkbərli F. Nəsirəddin Tusinin təkamül görüşləri. Bakı: Örnək, 2000
10. Əlisa S. Təklə eli – tərəkəmə dünyası. Bakı: Ziya, 2013
11. Əliyev İ. İnkişaf – məqsədimizdir. Üç kitab, Bakı, Azərnəşr, 2009
12. Hacıyev İ. A. Şərq miniatür sənətində kompozisiya quruluşunda forma və üslub xüsusiyyətləri. Bakı: Təknur, 2012
13. Xəlil A. Türk xalqlarinin yaz bayramları və Novruz. Bakı: Elm və təhsil, 2013
14. İbrahimov C . Qaraqoyunlu dövləti. Bakı: 1948
15. Kaşğari M. Divanu luğat-it-türk, 4 cilddə. (Tərcümə və nəşrə hazırlayan Ramiz Əsgər), Bakı: "Ozan", 2006
16. Qarayev Y. Tarix: yaxından və uzaqdan. Bakı: Sabah, 1996
17. Qasımlı M. Ozan Aşıq sənəti. Bakı: Uğur, 2003
18. Qumilyov L. Etnogenez və yerin biosferi. Bakı: Nurlan, 2005

19. Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər. Bakı: 1983
20. Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, 1994
21. Nizamülmülk. Siyasətnamə. Bakı: Elm, 1989
22. Novruz bayramı ensiklopediyası. Bakı, Şərq-Qərb, 2008
23. Oğuznamə. Bakı: Yazıçı, 1987
24. Özdək R. Türkün qızıl kitabı. II cild. (Azərbaycan dilinə çevirənlər: Nəsiman Yaqublu, Lətif Şüküroğlu). Bakı: “Yazıçı”, 1997
25. Rəcəbli Ə. Ulu türklər. Bakı: Nurlan, 2003
26. Sümər F. Oğuzlar. Bakı: Yazıçı, 1992
27. Svyataçovski T. Rusiya və Azərbaycan. Sərhədyanı bölgə keçid dövründə. Bakı: Xəzər Universiteti Nəşriyyatı, 2000
28. Şah İsmayıl Xətai. Əsərləri. Bakı, Şərq-Qərb, 2005
29. Ulusel R. Qloballaşma və Türk Sivilizasiyası. Bakı: Çaşıoğlu, 2005
30. Zeynalov F. Türkologiyanın əsasları. Bakı: Maarif, 1981

**Türk dillərində**

31. Akgül M. Türk Modernleşmesi ve Din. İstanbul: Çizgi Kitabevi, 1999
32. Arnold T.W. İntişâri İslâm Tarihi, Ankara: Akçağ Yayınları, 1982
33. Atalay B. Divanü Lügati’t-Türk. Ankara: Türk Tarih Kurumu Basımevi, 2006
34. Atatürk M.K. Nutuk, III ciltde. İstanbul: Türk Devrim Tarihi Enstitüsü, 1919-1967
35. Atatürk ve Türkiye’nin Modernleşmesi. İstanbul: Sarmal, 1999
36. Aydın M. Bayat Boyu ve Oğuzların Tarihi. Hatiboğlu Yayınevi, 1984
37. Aydoğan M. Türk Uygarlığı. İzmir: Umay Yayınları, 2006
38. Bang.W,. G.R. Rahmeti. Oğuz Kağan Destanı. İstanbul: İÜEF. Türk Dili semineri, 1936

39. Barthold W. Moğol İstilasına Kadar Türkistan. İstanbul: Kervan, 1981
40. Bayat F. Oğuz Destan Dünyası. İstanbul: Ötüken Yayınları, 2006
41. Bekmıradov A. Andalıp xem Oquznamaçılık dəbi. Aşqabat, 1987
42. Brockelmann C. İslam Ulusları və Devletleri Tarihi. Türkceye çevirən N.Çağatay. Ankara: Türk Tarihi Kurumu Basımevi, 2002
43. Bulduk Ü. Dede Korkut, Oguz Elleri ve Kafkaslar // DTCF. Tarih Araştırmaları Dergisi, 1996, №18/29, s. 247-251
44. Danişmend İ.H. Osmanlı Devlet Erkâni, İstanbul: Türkiye Yayınevi, 1971
45. Devlet N. Ismail Bey Gaspirali. Ankara, 1988
46. Dündar O., Dündar E. I Dünya Savaşı. Milli Eğitim Bakanlığı Yayınları, 1999
47. Ebu Ferec. Ebu'l Ferec Tarihi. Türk Tarih Kurumu, 1945
48. Ekinci E.B, Şimşirgil A. Ahmed Cevdet Paşa ve Mecelle. Istanbul, 2008
49. Ercilasun A.B. Başlangıçtan Günümüze Türk Dili Tarihi. Ankara: Akçağ Yayınları, 2010
50. Ercilasun A.B. Oğuz Kağan Destanı Üzerine Bazı Düşünceler // İslamiyet Öncesi Türk Destanları, Yay. Haz: Saim Sakaoğlu, Ali Duymaz. İstanbul: Ötüken Yayınları, 2006
51. Erdoğan M. Müslüman Türk Devletleri Tarihi. Ankara: Türk Tarih Kurumu Yayınevi, 2000
52. Ergin M. Dede Korkut Kitabı. İstanbul: Boğaziçi Yayınları, 2004
53. Esin E. İslamiyet'ten Önceki Türk Kültür Tarihi Ve İslam'a Giriş. İstanbul, 1978
54. Gencer M. Osmanlı –Türk Modernleşme Sürecinde Kültür, Din ve Siyaset İlişkileri // Turkish Studies. International Periodical for the Languages, Literature, 2009, №36, s.57-73

55. Gomeç S. Divanü Lûgat-İt-Türk'de Geçen Yer Adları // http://dergiler.ankara.edu.tr/dergiler/18/1573/17057.pdf
56. Gömeç S. Oguz Kagan'ın Kimliği, Oguzlar ve Oguz Kagan Destanları Üzerine Bir-İki Söz, DTCF // Tarih Araştırmaları Dergisi, 2004, № 22/ 35, s.113-121
57. Habibbeyli E. Uygarlıkların Kavşağında Türk Dünyası. İstanbul: Yedirenk, 2013
58. İgdemir U. Atatürk ve Anzaklar. İstanbul: TTK Yayını, 1978
59. İnal G. Türk Minyatür Sanatı. Ankara: Atatürk Kültür Merkezi, 1995
60. Kafesoğlu İ. Eski Türk Dini. Ankara, 1980
61. Kafesoğlu İ. Türk Milli Kültürü. Türk Kültürünü Araştırma Enstitüsü, 1977
62. Kaşğarlı M. Divanü Lüğat-it-Türk, 3 ciltde. Ankara, 1998-1999
63. Kıldıoğlu M. IX-XVI. Asırlarda Yenisey-İrtiş Bölgesinde Kırgız-Kıpçak İlişkileri. Erzurum, 2006
64. Kırzıoğlu N.G. Altaylardan Tunaboyuna. Türk dünyasında ortak motifler. Ankara, 1995
65. Kocatürk U. Atatürkün fikir ve düşünceleri. Ankara, 1984
66. Kuban D. Osmanlı Mimarisi. İstanbul: Yapı-Endüstri Merkezi Yayınları, 2007
67. Kurat A.N . IV-XVIII. Yüzyıllarda Karadeniz Kuzeyindeki Türk Kavimleri ve Devletleri. Ankara: Murat Kitabevi, 1992
68. Ligeti L. Bilinmeyen İç Asya. Ankara: Türk Dil Kurumu Yayınları, 1986
69. Mahir B. Osmanlı Minyatür Sanatı. İstanbul: Kabalçı, 2005
70. Mehmet N. Ö. Yazılmamış Destanlar. İstanbul:Ötüken Yayınları, 1990
71. Meriç C. Bütün Eserleri, II c., Bu Ülke. İstanbul: İletişim Yayınları, 1996
72. Mogolistan'dakı Türk Anıtları Projesi Albümü. Album of Turkish Monuments in Mongolia. Ankara: T.C. Başbakanlık, TİKA, 2001

73. Mutallibov S. XI Asrning Buyuk Filologları ve Ularning Nayab Asarlari / Kaşğariy M. Devanu Luğatit Turk, T.1, Taşkent, 1960
74. Oğuz destanı – Reşideddin Oğuznamesi. İstanbul, 1972
75. Ögel B. Türk Kültür Tarihine giriş, 9 ciltde. Ankara: Kültür Bakanlığı, 1991
76. Özkan M. Türk Devletleri. İstanbul: Kalipso Yayınları, 2008
77. Öztuna Y. Yavuz Sultan Selim. İstanbul: Babıali Kültür Yayıncılığı, 2006
78. Öztürk A. Ötüken Türk Kitabeleri. İstanbul: Milli Egitim Basımevi,1996
79. Roux J.P. Türklerin Tarihi Büyük Okyanus›tan Akdeniz›e İki Bin Yıl. Ankara: Milliyet Yayınları, 1997
80. Sümer F. Oğuzlar, Türkmenler : Tarihleri, Boy Teşkilâtı, Destanları. Ankara: Ankara Üniversitesi Basımevi, 1972.
81. Tekçe E.F. Pazırık. Altaylardan Bir Halının Öyküsü. Ankara, 1993
82. Türk Düşünce Tarihi. Hazırlayan: Topdemir H.G. Ankara: AKM Yayınları, 2001
83. Türkiye – İngiltere İlişkileri və Muhtemel Gelişmeler. İstanbul: Harp Akademileri Basımevi, 1993
84. Türkler: 20 ciltde, Ankara: Yeni Türkiye Yayınları, 2002
85. Yılmaz Ö. Başlangıcından Zamanımıza Kadar Büyük Türkiye Tarihi: Türkiye’nin Siyasî, Medenî, Kültür, Teşkilât ve San’at Tarihi. Ötüken Yayınevi, 1983
86. Yılmaz Ö. Kanûnî Sultan Süleyman. İstanbul: Kültür Bakanlığı, 1989

**Rus dilində**

87. Ал-Кашгари М. Диван Лугат ат-Турк. Алматы: Дайк-Пресс, 2005
88. Азимов И.М. Архитектурные памятники Ферганской долины. Ташкент: Издательство «Узбекистан», 1982
89. Алексеев В. П. Становление человечества. М., 1984

90. Арутюнов С. А. Народы и культуры. Развитие и взаимодействие М., 1989
91. Асадов Ф.М. Арабские источники о тюрках в раннее средневековье. Баку: Элм, 1993
92. Байпаков К.М. Средневековые города на Великом шелковом пути. Алма-аты: Гылым, 1998
93. Безертинов Р. Н. Древнетюркское мировоззрение Тэнгрианство. Казань, 2006
94. Беленицкий А.М., Бентович И.Б., Большаков О.Г. Средневековый город Средней Азии. Л.: Издательство «Наука» ленинградское отделение, 1973
95. Бичурин-Иакинф Н.Я. Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена. М.-Л.: 1950
96. Босворт К.Э. Нашествие варваров: проявление турок в мусульманском мире / Мусульманский мир. 950-1150. М.: Наука, 1981
97. Бретеницкий Л.С., Веймарн Б. В. Искусство Азербайджана IV-XVIII веков, 1976
98. Веймарн Б.В. Искусство Средней Азии. М.-Л.: Издательство «Искусство», 1940
99. Вольтер. Философские повести. М. : Худож. лит., 1985
100. Гасанзаде Д., Эфендиев А. Большое Тебризское “Шах-наме” и тебризская живопись 1330-40 гг. // Журнал “IRS”, № 3(51), 2011
101. Гачев Г.Д. Национальные образы мира. Еллада, Германия, Франция: опыт экзистенциальной культурологии. М.: Логос, 2011
102. Гер-оглы. Туркменский героический эпос. М.: Наука, 1983
103. Гумилев Л. Тысячелетие вокруг Каспия. Баку: Азернешр, 1990
104. Гумилев Л. Древние турки. История великого народа – от возникновения до гибели. М.: Астрель, 2010
105. Гумилев Л. История Евразии. М.: Алгоритм, Эксмо, 2009

106. Гумилев Л. История народа хунну. Хунны в Китае. Хунны в Азии и Европе. М.: Эксмо, 2008
107. Гумилев Л. Этносфера: история людей и история природы. М.: Астрель, 2010
108. Д'Оссон К. От Чингисхана до Тамерлана. Париж, 1935
109. Денине Б.П. Архитектурный орнамент Средней Азии. М.-Л.: Издательство всесоюзной академии архитектуры, 1939
110. Деннике Б. Живопись Ирана. М., 1938
111. Дыбо А.В. Хронология тюркских языков и лингвистические контакты ранних тюрков. Москва: Академия, 2004
112. Засыпкин Б.Н. Архитектура Средней Азии. М.: Издательство Академии архитектуры СССР, 1948
113. Иманов М. Исламская архитектура. Алматы: АСД, 2000
114. История отечества. Учебник. / Под ред. А.Преображенский. М.: Просвещение, 2007
115. Кази А. Трактат о каллиграфах и художниках. М.-Л., 1947
116. Кайдаров А.Т. К историко-лингвистической характеристике этнонима канглы-Тюркская ономастика. Алма-Ата, 1984
117. Каховский В.Ф. Происхождение чувашского народа. Чебоксары. Чувашское книжное издательство, 2003
118. Керимов К. Азербайджанская миниатюра. Баку: Ишыг, 1980
119. Керимов К. Значение восточной миниатюры как источник к изучению архитектурного наследия // Материалы конференции на тему «Проблемы использования архитектурного наследия в зодчестве Узбекистана и Азербайджана», Баку: Элм.,1981
120. Керимов К. Миниатюрная живопись тебризской школы XVI в. как источник к изучению коврового искусства // Искусство восточных ковров. Баку, Элм,1988
121. Кляшторный С.Г. Проблемы ранней истории племени тӱрк (ашина). М: 1965
122. Кор-Оглы Х. Г. Узбекская литература. М., 1968
123. Кочнев Б. Д. Нумизматическая история Караханидского каганата (991-1209 гг.). Москва: София, 2006

124. Крымский А. Е. Тюркские литературы // Энциклопедический словарь, т. 41. М., 1927
125. Кун К.С. Расы Европы. М.: Астрель, 2011
126. Мажитов Н. А., Султанова А. Н. История Башкортостана с древнейших времен до XVI в. Уфа: 1994
127. Малов С.Е. Памятники древнетюркской письменности. М.-Л.: Наука, 1951
128. Малявин В.В. Китайская цивилизация. М.: Астрель, АСТ, 2001
129. Мамедбейли Г. Д. Мухаммед Насирэддин Туси о теории параллельных и теории отношений. Баку, 1959
130. Мамлеева Л.А. Становление Великого шёлкового пути в системе трансцивилизационного взаимодействия народов Евразии // Vita Antiqua, 1999, № 2, с. 53-61
131. Манас. Киргизский героический эпос. М.: Наука, 1984
